


# AZƏRBAYCANDA SAĞLAMLIQ TURİZMİ – CARİ VƏZİYYƏT VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

2022




## ABSTRAKT

Hesabat Azərbaycanın sağlamlıq turizmi mərkəzlərinin cari vəziyyəti, gələcək inkişaf perspektivlərinin araşdırılması, eləcə də regional və qlobal səviyyədə rəqiblərin müqayisəli təhlili əsasında hazırlanıb. Hesabatın nəticələrinə əsasən müxtəlif istiqamətlər üzrə təkliflər də təqdim olunur.

---

Bu sənəd Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin sifarişi və dəstəyi ilə hazırlanmışdır.

## MÜNDƏRİCAT


ABBREVİATURA və AKRONİMLƏR ..... 5

**GİRİŞ ..... 6**

**1. SAĞLAMLIQ TURİZMİNİN TARİXİ, İNKİŞAFI VƏ CARİ VƏZİYYƏTİ ..... 8**

1.1. Sağlamlıq turizminin mahiyyəti və xüsusiyyətləri ..... 8

1.2. Sağlamlıq turizminin inkişaf tarixi ..... 10

1.3. Sağlamlıq turizminin qlobal iqtisadiyyatda yeri ..... 12

1.4. Sağlamlıq turizmi bazarı ..... 15

1.5. Sağlamlıq turizmində tələb və təklif analizi ..... 19

1.5.1. Tələb analizi ..... 20

1.5.2. Təklif analizi ..... 25

1.6. Sağlamlıq turizmi müəssisələrində marketinq fəaliyyəti ..... 30

1.6.1. Sağlamlıq turizmində brendin əhəmiyyəti ..... 30

1.6.2. Destinasiyanın brendləşməsi ..... 33

**2. AZƏRBAYCANDA SAĞLAMLIQ TURİZMİ ..... 37**

2.1. Azərbaycanda sağlamlıq turizminin inkişafı tarixi ..... 37

2.2. Azərbaycanda sağlamlıq turizmi potensialının qiymətləndirilməsi ..... 38

2.2.1. Azərbaycanda balneoloji ehtiyat potensialı ..... 38

2.2.2. Palçıq vulkanlarının öyrənilməsi ..... 52

2.2.3. İqlim və talassoterapiya imkanlarının tədqiqi ..... 57

2.3. Azərbaycanda kurort-sağlamlıq müəssisələrinin cari vəziyyətinin müqayisəli təhlili ..... 69

2.4. Sağlamlıq turizmində “putyovka” sistemi, üstünlükləri və parametrləri ..... 73

2.5. Müalicə-sağlamlıq turizminin tənzimlənməsi ..... 78

2.6. Maraqlı tərəflərin analizi ..... 82

2.6.1. Turizm sənayesi müəssisələri ..... 84

2.6.2. Dövlət qurumları ..... 85

2.6.3. Yerli idarə orqanları ..... 86

2.6.4. Tərəfdaşlar ..... 86

2.6.5. Müştəri seqmenti ..... 86

2.6.6. Yerli icmalar ..... 87

2.6.7. Digər maraqlı tərəflər ..... 87

2.7. Tələb analizi ..... 87

2.8. Təklif analizi ..... 91

2.9. Azərbaycanda sağlamlıq turizmi xidmətləri ... 93
2.9.1. Yerli sağlamlıq turizmi müəssisələrinin xidmətlərinin müqayisəli təhlili ... 93
2.9.2. Sağlamlıq turizmi müəssisələrinin xidmətlərinin çeşidinin artırılması ... 98
2.9.3. Müalicə-sağlamlıq xidmətlərinin qiymətlərinin müqayisəli təhlili ... 109
2.9.4. Qidalanma xidmətləri ... 110
2.9.5. Azərbaycanda sağlamlıq turizmi xidmətlərinin inkişafı perspektivləri ... 111
2.10. Sağlamlıq turizmi müəssisələrinin əlavə rekreasiya imkanları ... 113
2.10.1. Sağlamlıq turizmində rekreasiya fəaliyyətinin təşkili ... 113
2.10.2. Rekreasiya fəaliyyətinin təşkilinin müqayisəli təhlili ... 123
2.11. Azərbaycanda sağlamlıq turizmi üzrə marketinq fəaliyyəti ... 124
2.11.1. Azərbaycanda sağlamlıq turizmində brendin formalaşdırılması ... 124
2.11.2. Sağlamlıq turizmində marketinq və pr işinin təşkili ... 126
**3. AZƏRBAYCANIN SAĞLAMLIQ TURİZMİNDƏ REGİONAL RƏQABƏT İMKANLARININ QİYMƏTLƏNDİRİLMƏSİ ... 136**
3.1. Sağlamlıq turizmi üzrə rəqib bazarların təyin olunması ... 136
3.2. Rusiya Federasiyasında (Mineralnıye Vodı) sağlamlıq turizminin təhlili ... 138
3.3. Gürcüstan Respublikasında sağlamlıq turizminin təhlili ... 144
3.4. Türkiyədə sağlamlıq turizminin təhlili ... 147
**NƏTİCƏ VƏ TƏKLİFLƏR ... 160**
**ƏLAVƏLƏR ... 164**
**QRAFİK, CƏDVƏL VƏ ŞƏKİLLƏRİN SİYAHISI ... 175**
**ƏDƏBİYYAT ... 178**

## ABBREVİATURA və AKRONİMLƏR

| | |
|---|---|
| ABŞ | Amerika Birləşmiş Ştatları |
| AHİK | Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası |
| Aİ | Avropa İttifaqı |
| AMEA | Azərbaycan Milli Elmlər Akademiyası |
| ARDNŞ (SOCAR) | Azərbaycan Respublikası Dövlət Neft Şirkəti |
| ASC | Açıq Səhmdar Cəmiyyəti |
| AZAL | Azərbaycan Hava Yolları |
| DSK | Dövlət Statistika Komitəsi |
| DSMF | Dövlət Sosial Müdafiə Fondu |
| DTA | Dövlət Turizm Agentliyi |
| EET | Ekvivalent Effektiv Temperatur |
| ETSN | Ekologiya və Təbii Sərvətlər Nazirliyi |
| İƏİT | İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı |
| JCI | Joint Commission International (Beynəlxalq Müştərək Komissiya) |
| KSC | Kurort Səhmdar Cəmiyyəti |
| QHT | Qeyri-hökumət təşkilatı |
| QSC | Qapalı Səhmdar Cəmiyyəti |
| MDB | Müstəqil Dövlətlər Birliyi |
| MST | Müalicə-sağlamlıq turizmi |
| RF | Rusiya Federasiyası |
| SMM | Sosial media marketinqi |
| SPA | Salus Per Aquam |
| SYX | Strateji Yol Xəritəsi |
| ÜDM | Ümumi daxili məhsul |
| ÜST | Ümumdünya Səhiyyə Təşkilatı |
| ÜTT | Ümumdünya Turizm Təşkilatı |
| YUNESKO | BMT-nin Maarif, Elm və Mədəniyyət Komissiyası |

# GİRİŞ

Dünya miqyasında sağlamlıq turizminə tələbat artmaqdadır. Bunun əsas səbəbləri insanların keyfiyyətli tibbi xidmətlərə əlçatanlığının təmin olunması, sağlamlıq turizminin müalicə ilə yanaşı, fiziki və əqli yorğunluğun bərpası, xüsusi qulluq və gözəllik yönümlü digər xidmətlər də təklif etməsidir. Qlobal miqyasda sağlamlıq xidmətlərinin turizm sənayesində birbaşa payı 10%-dən çox, multiplikator effekti hesabına yaratdığı dəyər isə 20%-ə yaxındır.

Azərbaycanda ÜDM-də turizm sənayesinin birbaşa payı 4,5% və bilavasitə payı isə 3,3% təşkil edir. Ölkədə beynəlxalq turizmin inkişafı son on ildə iki dəfədən çox artaraq 2,8 mln nəfəri keçmişdir ki, bu da Bakı şəhəri ilə yanaşı bölgələrdə yeni turizm destinasiyalarının formalaşmasına təkan vermişdir. Azərbaycanda turizm növləri arasında sağlamlıq sahəsinin payı az olsa da, beynəlxalq miqyasda sağlamlıq xidmətləri daha çox təklif edilir.

“Təbii müalicə ehtiyatları, müalicə sağlamlaşdırma yerləri və kurortlar haqqında” Azərbaycan Respublikası Qanunu və “Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramı”nın qəbul olunması, bu sahənin inkişaf etdirilməsi məqsədilə 2016-cı ildə qəbul olunmuş “Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi”, müalicə-sağlamlıq turizminə xüsusi önəm verilməsi bu sahənin prioritet olduğunu göstərir.

Ölkədə sağlamlıq turizminin inkişafı üçün zəngin təbii resurs bazası (Naftalan nefti, müalicəvi palçıqlar, mineral-termal bulaqlar, əlverişli mikroiqlim resursları), alt (sosial-iqtisadi baza) və turizm (müalicə-sağlamlıq mərkəzləri, sanatoriyalar və s.) infrastrukturun mövcudluğu, qanunvericilik bazası bu sahənin cəlbediciliyini təmin edir.

Tədqiqat işinin əsas məqsədi ölkədə sağlamlıq turizmində mövcud vəziyyətin təhlili, potensialın qiymətləndirilməsi, bu sahənin rəqabət imkanlarının müəyyənləşdirilməsidir. Eyni zamanda, sağlamlıq turizmində təqdim olunan məhsulların kəmiyyət və keyfiyyətinin yüksəldilməsi, əsas rəqib ölkələrlə müqayisəsini aparmaqla üstünlük və çatışmazlıqlarının göstərilməsi, sağlamlıq müəssisələrində asudə vaxtın təşkili istiqamətlərinin öyrənilməsindən ibarətdir.

Azərbaycanda mövcud olan faydalı, zəngin mineroloji və digər müxtəlif müalicəvi keyfiyyətlərə malik olan təbii resurslar kifayət qədər çoxdur. Müalicə-sağlamlıq müəssisələri bu təbii ehtiyatların əsasında mövcud bazar konyunkturasını nəzərə almaqla geniş mənada xidmətlərin səviyyəsini, çeşidini artırmaq, məhsulların məzmununu genişləndirmək yolu ilə həmin məqsədə çatmaq iqtidarındadır. Eyni zamanda, ölkədə müalicə-sağlamlıq sahəsində turist axınlarının xaricə deyil, daxilə istiqamətlənməsi üçün sağlamlaşdırıcı xidmətlərin əlçatanlığını təmin etmək və onu təkmilləşdirmək tədqiqatın məqsədlərindəndir. Bu məqsədlə regionlar üzrə sağlamlıq turizmində biznes lahiyələrin həyata keçirilməsi üçün iqtisadi, hüquqi və təbii resurs bazasından istifadə müəyyən edilmişdir.

Ölkənin bütün ərazisi tədqiqatın əhatə dairəsinə daxildir. Belə ki, ölkədə sağlamlıq turizmi sahəsinə təsir edən təbii, iqtisadi və sosial amillər birlikdə araşdırılmışdır. Bununla yanaşı, Naftalan, Bakı şəhərində olan sağlamlıq müəssisələri, Lənkəran, Qalaaltında kurort mərkəzləri araşdırmanın əsasını təşkil etmişdir. Bunun da əsas səbəbi qeyd olunan müəssisələrin sağlamlıq turizm bazarında fəal iştirakı ilə bağlıdır.

Tədqiqatın metodologiyasını mövcud qanunvericilik, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, bu sahə üzrə qəbul edilmiş Dövlət Proqramları, Strateji Yol Xəritəsi, DSK məlumatları, DTA sağlamlıq turizm sahəsində qəbul etdiyi qərarlar təşkil edir. Həmçinin ÜTT, DTA, ATB, Turizm Destinasiya Menecment Təşkilatları, Kurort Qapalı Səhmdar Cəmiyyətinin müalicə-sağlamlıq müəssisələrinin məlumatlarından və internet resurslarından istifadə olunmuşdur. Ədəbiyyat məlumatları, AMEA müvafiq institutlarının hesabatları geniş təhlil edilmişdir. Eyni zamanda, sağlamlıq-turizm xidmətləri göstərən müəssisələrin məlumat və hesabatları analiz edilmiş, nəticələrinin tətbiq sahələri göstərilmişdir.

Sağlamlıq turizmində maraqlı tərəflərin (“stakeholders”) analizi aparılmış, beynəlxalq aqreqatorlarda müştəri rəylərinin təhlili, həmçinin müalicə-sağlamlıq müəssisələrində onlayn sorğu əsasında müasir vəziyyəti, perspektivləri və problemləri müəyyən edilmişdir. Beynəlxalq aqreqatorlardan alınan müştəri rəyləri əsasında sağlamlıq turizmindəki müasir vəziyyət qiymətləndirilmiş və nöqsanlar göstərilmişdir. Bununla yanaşı, Quba rayonunda Xaltan, Qax rayonunda İlisu termal bulaqlarından gətirilən su nümunələrinin analizi aparılmış, müalicəvi xüsusiyyətləri Elmi Tədqiqat Tibbi Bərpa İnstitutu tərəfindən göstərilmiş və rəy verilmişdir.

# 1. SAĞLAMLIQ TURİZMİNİN TARİXİ, İNKİŞAFI VƏ CARİ VƏZİYYƏTİ

## 1.1. Sağlamlıq turizminin mahiyyəti və xüsusiyyətləri

Hər il milyonlarla insan sağlamlığının bərpası məqsədi ilə müxtəlif ölkələrə səyahət edir. Sağlamlıq turizmi ölkələr və şəhərlər arasında tibbi xidmət almaq üçün edilən səyahətə verilən addır. Bu tibbi xidmət geniş tibbi və terapevtik məsələlərdən, zehnin, bədənin rifahının bərpası xidmətlərindən ibarətdir. Sağlamlıq turizmi sənaye, reklam, səyahət maraqları və tibbi xidmətlərin rolunu bir yerdə birləşdirmişdir. Sağlamlıq, sağlamlaşdırma və tibbi-müalicə turizmi anlayışları bir çox hallarda eyni mənada istifadə edilir.

Elmi ədəbiyyatda tibbi və sağlamlaşdırma turizmi sağlamlıq turizminin alt kateqoriyaları kimi nəzərdən keçirilir. Bu mənada tibbi turizm məqsədilə gələn turistlər ölkəyə hər hansı bir xəstəliyin müalicəsi (diş müalicəsi) və ya cərrahi (kosmetik) əməliyyat üçün gəlirlər. Başqa sözlə, tibbi turizmin əsas hədəf qrupu müalicəyə ehtiyacı olan xəstələrdir. Onların ölkəyə gəlişinin əsas motivi müalicə və ya cərrahi əməliyyat olunmaqdır. Sağlamlaşdırma turizmində isə turistin sağlamlığına münasibətdə proaktiv yanaşması müşahidə edilir. Belə ki, turistlər səhhətlərində olan problemləri aşkarlamaq və sağlamlığını möhkəmləndirmək, yaxşılaşdırmaq üçün səfər edirlər. Beləliklə, sağlamlaşdırma turizminin əsas hədəf qrupu bir növ "xəstə" olmayan turistlərdir. Bəzən isə gələn turistlər işgüzar səfərə gəlirlər, eyni zamanda da sağlamlaşdırma xidmətindən faydalanmağa etiraz etmirlər. Bu tipli turistlər adətən tibbi müəssisələrdə deyil, hotellərdə qalırlar, fitnes, gözəllik, sağlam qidalanma, meditasiya, mental fəaliyyətlərin daxil olduğu xidmətlər paketindən faydalanırlar. Sağlamlıq turizminin aşağıdakı növləri var:

**QRAFİK 1. Sağlamlıq turizminin növləri**




**1. Tibbi turizm** – yaşayış bölgəsindən kənarda planlaşdırılan tibbi xidmətlərin göstərilməsini, xaricdə tətilin yüksək ixtisaslı tibbi yardımla birləşdirilməsini ifadə edən bir termindir. Bu turizm növü bütün tibbi xidmətləri əhatə edir. Ən çox istifadə edilən xidmətlər arasında diş, dəri, gözəllik, cərrahiyyə və sonsuzluq müalicəsi daxildir. Tibbi turizmdə iştirak edən turistlərə o cümlədən, ölkə sərhədlərini keçərək başqa bir mühitə sağlamlıq xidməti almaq üçün səyahət edən şəxslərə tibbi turistlər və ya medikal turistlər deyilir.

**2. Termal sağlamlıq turizminə** "sudan şəfa" mənasını verməklə turistlərin və ya pasiyentlərin müalicə məqsədilə istifadə etdiyi

təbii sağlamlıq mənbələri aiddir. Termal sağlamlıq turizmi müasir anlayışda səhiyyə və xəstəlikdən qurtulmaqdan çox, sağlamlığın davamlılığını təmin etməyə yönəldilmişdir. Bu dəyişiklik xəstəliklər və müalicəyə yönəlmiş sağlamlıq siyasətlərini "rifahın davamı" istiqamətində dəyişdirdi. Termal turizmi bəzi ölkələrdə uzun illərdən bəri spa və digər terapevtik xidmətlər təklif edən sağlamlıq turizmi anlayışı ilə əlaqədardır. Alternativ turizm növlərindən biri olan termal turizm insanların dəniz, qum və günəş üçlüyünə əlavə olaraq üstünlük verdikləri "sağlam həyat üçün su" mövzusuna əsaslanaraq xidmət sektorunun aparıcı seçimlərindən biri olmağı bacardı. Termal turizmin yaşları 25-75 yaş arasında olduğundan fərqli müalicə üsulları da ortaya çıxmışdı. Məsələn: idman terapiyası, masaj, balneoterapiya, hidroterapiya, termal müalicə və s.

**3. Yaşlı turizmi** (3-cü yaş turizmi), ən ümumi şəkildə, qayğıya ehtiyacı olan yaşlı insanların müalicəsini əhatə edən və bu müalicələr üçün xaricə səyahət etdikləri turizm olaraq təyin edilə bilən sağlamlıq turizmi növüdür. Yaşlı turizmi sağlam qocaların baxımı üçün, xüsusilə də ağıl və zehni sağlamlığı yerində olan, özünə baxa bilən və yoluxucu xəstəlikləri olmayan yaşlılara yönəlmişdir. Üçüncü yaş turizmi 50 yaşdan yuxarı şəxsləri əhatə edir.

**4. Qüsurlu insanlar üçün turizm** (əlil insanlar) bir insanın edə biləcəyi şeyi etmək qabiliyyətindəki hər hansı bir məhdudiyyət və ya çatışmazlıq olaraq təyin edilir. ÜST-ün məlumatlarına görə, dünya əhalisinin 15%-i (təxminən 1 milyard nəfər) müxtəlif dərəcəli əlilliyi olan insanlardır. Cəmiyyətdəki əlillərin əhaliyə nisbəti sağlamlıq turizmində bu sahənin ayrı bir tərifinin yaranmasına tələbat yaratdı.

Ümumiyyətlə, sağlamlıq və tibbi turizm anlayışları bilavasitə sağlamlığın bərpa olunması istiqamətində olduğundan bəzi mənbələrin məlumatlarında bu anlayışlar arasındakı fərqi müəyyənləşdirmək çətinlik yaradır. Bəzi tədqiqatçılar sağlamlıq və tibbi turizmi birləşdirilmiş bir fenomen kimi qəbul edirlər. Məsələn, "Carrera and Bridges" (2006) sağlamlıq turizmini "bir insanın zehnində və bədənində rifahının qorunması, inkişafı və ya bərpası üçün yerli mühitdə və xaricdə mütəşəkkil səyahət" olaraq təyin edir. Bu tərif tibbi müdaxilə yolu ilə şəxsin sağlamlığının yaxşılaşdırılması və ya bərpası üçün yerli imkanlar və xaricdə mütəşəkkil səyahətlə ayrılmış tibbi turizmi əhatə edir. Ancaq heç də bütün növ tibbi xidmətlər bu turizm növünə daxil edilə bilməz. Bunun başlıca səbəblərindən biri sağlamlıq turizminin daxilində təklif olunan spa və digər terapevtik xidmətlər xəstəxana mühitində deyil, hotel mühitində qəbul olunmuş standartlar çərçivəsində də təklif oluna bilər. Buna görə də göstərilən tibbi xidmətləri qruplaşdırmaq məcburiyyəti yaranır. Digər tərəfdən rekonstruktiv səbəblər göz önündə saxlanılaraq bəzi cərrahiyyə əməliyyatlarını tam tibbi turizm xidməti kimi qəbul etmək doğru deyil. Məsələn, İƏİT 2010-cu ildə rekonstruktiv səbəblərdən estetik cərrahiyyə əməliyyatlarını tibbi turizm hüdudlarından kənarda saxlamış və onu sağlamlıq turizminin istiqaməti kimi qələmə vermişdir.

Qeyd etmək lazımdır ki, aşağıdakı turistlər tibbi turistlər hesab olunmur:

- **Qısamüddətli səyahətlərdə sağlamlıq xidməti alan turistlər:** istirahət məqsədli səfər edən, müxtəlif səbəblər və ya kəskin xəstəliklər üçün sağlamlıq xidməti almaq istəyən turistləri əhatə edir.
- **Uzunmüddətli yerləşmə edən və bu zaman tibbi müalicəyə ehtiyac duyan turistlər:** bir çox insanlar iş və ya təhsil üçün başqa ölkələrə səyahət edirlər və qaldıqları müddətdə tibbi müalicəyə ehtiyac duyurlar.
- **Ümumi sərhədləri keçərək müalicə alan turistlər:** bəzi ölkələr öz ölkələrinin dövlət fondlarını maliyyələşdirmək üçün ümumi sərhədlərə malikdirlər və bir ölkədən olan insanlar bu ümumi sərhədlər vasitəsilə müalicə üçün digər ölkəyə gələ bilərlər.

- **Lazımi mütəxəssis və avadanlığın olmaması səbəbindən yaşayış yerini tərk edən turistlər:** belə xəstələrə səhiyyə işçiləri tərəfindən tibbi xidmət almaq üçün öz şəhər və ya ölkələrindən ayrı bir yerə köçmələri tövsiyə olunur. Bu səfərlər müvafiq mütəxəssisin olmaması və ya şəhər və yaşayış bölgələrində avadanlıqların olmaması ilə bağlıdır.

## 1.2. Sağlamlıq turizminin inkişaf tarixi

Sağlamlıq turizmi dedikdə, turistlərin daimi yaşayış yerindən başqa bir məkana müxtəlif turist (əyləncə) xidmətləri ilə birgə müalicə xidmətləri, habelə insanın fiziki və mental vəziyyətini yaxşılaşdırılması üçün təklif edilən sağlamlaşdırma xidmətlərinin istehlakı məqsədilə edilən səfərlər nəzərdə tutulur. Sağlamlıq turizmi dünya ölkələrinin sağlamlığın bərpasına olan ehtiyac potensialını beynəlxalq səhiyyə məqsədləri üçün istifadə edərək müalicə müəssisələrinin böyüməsinə təkan verən bir sektordur. Qloballaşma şəraitində ölkələr arasında əməkdaşlıq səyahət azadlığı və fürsətlər, giriş asanlığı, dünyanın müxtəlif nöqtələrində səhiyyə xidmətlərinin inkişafı, maliyyələşdirilməsi ilə səhiyyə xidmətlərinin fərdi və büdcə qaynaqlarını artırır. Bu gün sənayeləşmə və şəhərləşmə nəticəsində ortaya çıxan problemlər insan sağlamlığına mənfi təsir göstərir. Təbii turizm mənbələri (təmiz hava, günəş, müalicəvi termal sular, iqlim) insan sağlamlığını qorumaq və əmək məhsuldarlığını artırmaq üçün istifadə olunur. Bir sözlə, sağlamlıq turizmi həm profilaktik, terapevtik, reabilitasiya, həm də sağlamlığı inkişaf etdirən xidmətləri almaq üçün fərdlərin yaşadıqları ölkədən başqa bir ölkəyə səfəri kimi göstərilir.

Sağlamlıq turizminin tarixi mərhələlərinin təhlili göstərir ki, tibb elmi antik dövrdən yaransa da, müalicəvi bulaqlardan elmi əsaslarla istifadə olunması orta əsrlər və intibah dövrünə təsadüf edir. XIX əsrin əvvəllərindən (Kommersiya mərhələsi) başlayaraq Avropa ölkələrində müalicəvi sulardan geniş istifadə olunurdu. XX əsrin əvvəllərindən Qərbi Avropada sağlamlıq turizmi kommersiya, Şərqi Avropa və post-sovet ölkələrində isə sosial istiqamətli inkişaf etmişdir. XX əsrin 70-ci illərindən başlayaraq, sağlamlıq, sağlamlaşdırma və tibbi-müalicə turizmində şəbəkələr və brendlər formalaşmağa başlamışdır.

Qlobal iqtisadi və maliyyə böhranı təxminən 10 il əvvəl başlasa da, sağlamlıq turizminə birbaşa və dolayı yolla təsir edən bir sıra daimi dəyişikliklərə səbəb oldu. Belə ki, Asiya iqtisadi böhranı və valyutalarının ucuzlaşması nəticəsində bu ölkələrin dövlət rəsmiləri turizmdə əhəmiyyətli bir gəlir potensialı gördükləri sağlamlıq turizmini inkişaf etdirmək üçün ciddi reklam kampaniyalarına başladılar. Bu səylər Taylandın qısa müddətdə plastik cərrahiyyə üçün seçilən bir mərkəz halına gəlməsinə səbəb oldu. Tayland, Sinqapur və Hindistan kimi tibbi turizm mərkəzləri JCI akkreditasiyasına malik cəlbedici mərkəzlərə çevrilmişdir. Bu baxımdan sağlamlıq turizminin inkişafına təkan verən amilləri aşağıdakı kimi qruplaşdırmaq olar:

- xəstələrin öz ölkələrində tibbi sığorta ilə bağlı yaşadığı problemlər səbəbi ilə alternativ imkanlara tələbatın artması;
- xəstələrdən onların müalicələri üçün uzunmüddətli gözləmələrin olması, daha yaxşı tibbi xidmətlər olan və gözləmənin az olduğu ölkələrə gedənlərin sayının artması;
- tibbi xidmətlərin turizm fəaliyyətləri ilə əlaqələndirilməsi, xəstələr və yaxınlarına komfortlu şəraitin yaradılması;
- səyahət edən insanlar arasında sağlamlıq xidmətlərinə tələbatın artması.

**CƏDVƏL 1. Sağlamlıq turizminin inkişaf mərhələləri**

| | Mərhələlər | Mərhələnin xüsusiyyətləri | Forma və metodları |
|---|---|---|---|
| I | **Antik dövr** | - tibbin din ilə əlaqəsinin üstünlüyü<br>- ibtidai tibbin inkişafı;<br>- termal sulardan istifadə. | - fərdi təcrübələr;<br>- ümumi hamamlar<br>- psixoterapiya |
| II | **Orta əsrlər** | - ərəb və ya islam təbabətinin inkişafı;<br>- Avropa ölkələrində vanna müalicəsinin tətbiqi;<br>- ilk müalicə-sağlamlıq və spa mərkəzlərinin yaranması. | - elmi-kurortoloji tədqiqatların artması;<br>- fizioterapiyanın tətbiqi;<br>- yeni tibbi prosedurların tətbiqi;<br>- su prosedurlarının artması |
| III | **İntibah dövründən sonrakı mərhələ** | - Avropada zadəganlar arasında sağlamlıq xidmətlərinə tələbatın artması;<br>- İngiltərə, İtaliya, Fransa, Çexiyada termal müalicə-sağlamlıq mərkəzlərinin təşkili;<br>- Çin və Hindistanda təbabətin sürətli inkişafı;<br>- Şərq ölkələrində mineral sulardan istifadənin artması. | - Spa və fizioterapiyanın tətbiqi;<br>- Çin-Tibet təbabətinin yayılması;<br>- mürəkkəb tibbi prosedurların tətbiqi;<br>- su müalicəsinin artması. |
| IV | **Kommersiya dövrü** | - ABŞ və Avropanın dünyanın səhiyyə mərkəzinə çevrilməsi;<br>- Qərb ölkələrində sağlamlıq xidmətlərinin kommersiyalaşması;<br>- Kompleks kurort xidmətlərinin təqdim olunması;<br>- Şərqi Avropa və SSRİ-də sanatoriya xidmətlərinin artması;<br>- Hindistan, Çin, Tayland, Sinqapurda tibbi turizmin inkişafı. | - müasir və mürəkkəb tibbi prosedurların tətbiqi;<br>- şərq təbabətinin tətbiqi;<br>- yoqa və ayurveda terapiyası;<br>- tibbdə müasir texnologiyanın tətbiqi. |
| V | **Müasir dövr** | - sağlamlıq turizmində kommersiya və sosial yanaşma;<br>- sağlamlıq turizminin brendləşməsi;<br>- tibbi və sağlamlıq turizmində beynəlxalq akreditasiyanın artması;<br>- sağlamlaşdırma xidmətlərinin genişlənməsi;<br>- müalicə-sağlamlıq xidmətlərində şəbəkələşmənin artması. | - alternativ səhiyyə xidmətlərinin artması;<br>- səhiyyə xidmətlərində müasir texnologiyaların tətbiqi;<br>- implant, estetik əməliyyatlar, orqan dəyişmə, mürəkkəb cərrahi əməliyyatların artması;<br>- hotellərdə sağlamlıq xidmətlərinin artması<br>- sağlamlaşdırmada yeni metodların tətbiqi |

**MƏNBƏ:** *Ветитнев А. М., Кусков А. С. Лечебный туризм, Москва: «Форум», 2010. 356 с.*

## 1.3. Sağlamlıq turizminin qlobal iqtisadiyyatda yeri

Sağlamlıq turizmi dünya turizminə hər il milyonlarla dollar vəsait gətirir. Bütün dünyada sağlamlıq turizmi sahəsində sürətli bir irəliləyiş var. Bu irəliləyiş böyük bir bazar yaratdı və bir çox ölkələr bu bazardan pay almaq üçün bir-biri ilə rəqabətə başladılar.

**QRAFİK 2. 2015-ci ildə sağlamlıq ilə əlaqəli beynəlxalq səyahətlərdən əldə edilən gəlirlər (milyon ABŞ dolları)**




**MƏNBƏ:** *Beynəlxalq Valyuta Fondu*

Qeyd edək ki, QRAFİK 2 2015-ci il üçün sağlamlıq ilə əlaqəli səyahətlər haqqında məlumat verən ölkələrə görə tərtib olunmuşdur. Göstərilən ölkələrin siyahısı ən çox qazananların sıralaması deyil, məlumat verən ölkələrin nümunəsidir. Qrafikin təhlili göstərir ki, sağlamlıq turizmində inkişaf etmiş ölkələrlə yanaşı, inkişafda olan ölkələrin, xüsusilə Türkiyə, Hindistan, İordaniya, Tayland, Meksikanın payı artmışdır.

**QRAFİK 3. 2015-ci il sağlamlıq ilə əlaqəli beynəlxalq səyahət xərcləri (milyon ABŞ dolları)**




**MƏNBƏ:** *Beynəlxalq Valyuta Fondu*

2015-ci il üçün sağlamlıq ilə əlaqəli səyahət xərclərinin təhlili göstərir ki, bu sahədə inkişaf etmiş ölkələrin vətəndaşları üstünlük təşkil edir. Beynəlxalq sağlamlıq turizmində ABŞ, Kanada, Qərbi Avropa ölkələri və Körfəz ölkələrinin vətəndaşları üstünlük təşkil edib. Bu da həmin ölkələrin vətəndaşlarının maliyyə imkanlarının daha yaxşı olması, tibbi və sağlamlıq xidməti almağa meyl etməsi ilə bağlıdır.

Dünyada 2007-ci ildən sonra sağlamlıq turizmi sənayesində sürətli inkişaf başlayıb. ÜTT-nin verdiyi məlumata görə, 2018-ci ildə ABŞ-da sağlamlıq turizmi gəlirləri 22,5 milyard dollar, Avropada 54,2 milyard avro olduğu müəyyən edilib. Macarıstan və Çexiya kimi ölkələr bu sektordan 1 milyard dollardan çox gəlir əldə edib. Avropa Birliyi ölkələrində turizm gəlirlərinin 5,8%-i, Amerikada 9,2%-i, Asiyanın bütün subregionları üzrə 5,6%-i sağlamlıq turizminin payına düşür. Sağlamlıq turizmi digər sektorlarla qarşılıqlı şəkildə inkişaf edir və bu sahədə yatırımlar edilməsi ilə ölkə iqtisadiyyatında irəliləyişlər əldə olunur.

**QRAFİK 4. Sağlamlıq turizmi sənayesinin multiplikator effekti**




Turizm gəlirləri inkişaf etməkdə olan ölkələr üçün lazım olan xarici valyuta axınını təmin etdikləri və digər ixrac məhsullarına qarşı üstün olduqları üçün bir çox ölkələr xaricdən turizm gəlirlərini artırmaq üçün əhəmiyyətli səylər göstərirlər. Tarixi və mədəni irsi ilə yanaşı, təbii dəyərləri ilə zənginlik və müxtəlifliyə sahib olan ölkələrin sağlamlıq turizmi miqyasını qiymətləndirmək üçün bu sektora edilən investisiyalarına və təşəbbüslərinə göstərilən dəstəyi, tanıtım fəaliyyətlərini qiymətləndirmək lazımdır. Sağlamlıq turizmi üçün edilən investisiyalar uzunmüddətli gəlirləri təmin etdiyinə görə ölkələrin bu sahəyə maraqlarını artırmış olur. Sağlamlıq turizminin internet, media və digər kütləvi informasiya vasitələri ilə geniş yayılması insanları digər ölkələrdə alternativ tibbi imkanlardan, keyfiyyətli və sağlamlıq xidmətlərindən yararlanmağa sövq edir.

## 1.4. Sağlamlıq turizmi bazarı

Sağlamlıq turizmi son 13 ildə sürətlə inkişaf etmişdir. Sağlamlıq turizmi üzrə inkişaf edən Hindistan, Kosta Rika, Macarıstan, Türkiyə, Litva, İsrail, İordaniya, Tayland, Malayziya, Cənubi Koreya və Kuba kimi ölkələr siyahıda liderdir. Tədqiqatçılar insanların tibbi xidmətlər üçün hər nəfərə 3000-10000 dollar arasında pul xərclədiklərini qeyd edirlər. Buna görə də bu turizm bazarının 2021-ci ildə 125 milyard dəyərində olacağı təxmin edilir. Sağlamlıq bazarının gəlirləri 2018-ci ildə 4,2 trilyon dollar olmuşdur və gələcək ildə 6,4%-dən çox bir böyümə yaşanacağı gözlənilir. Eyni zamanda, ABŞ-da 3,5 milyard, Avropada 2,5 milyard dollar sağlamlıq turizmi xərcləri müəyyən edilmişdir.

**QRAFİK 5. 2018-ci ildə sağlamlıq turizmində turist qəbul edən ölkələrin gəlirlərinin dinamikası**




**MƏNBƏ:** *https://www.statista.com/statistics/1013813/leading-medical-tourism-countries-value/*

Sağlamlıq turizmində inkişaf səviyyəsi və göstərilən tibbi xidmətlərin sayına görə, Amerikada ABŞ, Braziliya, Kolumbiya, Kosta Rika, Kuba, Meksika, Panama, Avropada Xorvatiya, Macarıstan, İspaniya, Türkiyə, Fransa, Almaniya, Asiyada BƏƏ, İordaniya, Hindistan, Cənubi Koreya, Malayziya, Filippin, Sinqapur və Tayland, Afrikada CAR lider ölkələrdəndir, xarici pasiyentləri daha çox qəbul edir, tədiyə balansında bu sahənin payına görə fərqlənir. Son beş ildə ABŞ, Cənubi Koreya, Türkiyə, Tayland, Malaziya, Hindistanın sağlamlıq turizmindən əldə olunan gəlirləri dinamik olaraq artmaqdadır. Bu da sağlamlıq turizmi sənayesinə yönəldilən investisiyaların artması, yeni infrastruktur sahələrin təşkili, xidmətlərin sayının artırılması və sağlamlıq turizm paketlərinin aktiv olaraq marketinqi ilə bağlıdır.

Sağlamlıq turizmi üzrə turist göndərən ölkələr iki qrupa bölünür: **1. tibbi xidmətlər üçün gözləmələrin çox olduğu ölkələr** – ABŞ və Aİ ölkələri. Bu ölkələrdə cərrahi əməliyyatlar üçün gözləmələrin olması, bəzi xəstəliklərin müalicəsinin nisbətən baha olması, estetik əməliyyatların tibbi sığorta xidmətinə aid olmaması və qiymətlərinin yüksəkliyi qeyd olunan ölkələrin vətəndaşlarının xarici ölkələrdə daha yaxşı və münasib xidmətləri axtarmasına səbəb olur. **2. tibbi xidmətlərin yetərli olmaması və ya müəyyən xəstəliklərin, orqan köçürülməsinin başqa ölkələrdə daha yaxşı və peşəkar təşkili** – belə ölkələrin vətəndaşları xarici dövlətləri seçərkən qiymət (ölkələri ilə müqayisədə ucuz olması), müalicənin keyfiyyəti və ixtisaslaşma, klinikaların həkim personalı, nüfuzu və s. nəzərə alırlar. Bu qrup insanlar sağlamlığın bərpası və reabilitasiyası məqsədilə termal sanatoriya-kurort xidmətlərini də seçirlər.

**CƏDVƏL 2. Müalicə-sağlamlıq turizmində turist göndərən əsas ölkələr**

| Amerika | Avropa | Asiya | Orta Asiya | Afrika |
|---|---|---|---|---|
| ABŞ | Almaniya | Azərbaycan | Qətər | Anqola |
| Kanada | İngiltərə | Özbəkistan | İraq | Sudan |
| | Niderland | Türkmənistan | Küveyt | Konqo Resp-sı |
| | Danimarka | Qazaxıstan | Səud. Ərəbistanı | CAR |
| | Norveç | Tacikistan | Yəmən | Qana |
| | İsveç | Monqolustan | Bəhreyn | Nigeriya |
| | Finlandiya | Əfqanıstan | BƏƏ | Kenya |
| | Fransa | Pakistan | | Tanzaniya |
| | Monteneqro | Qırğızıstan | | Madaqaskar |
| | Ş. Makedoniya | | | Mali |
| | Albaniya | | | Uqanda |
| | Rusiya | | | Seneqal |
| | Ukrayna | | | Zambiya |
| | Rumınıya | | | Efiopiya |
| | İsveçrə | | | Əlcəzair |
| | Lüksemburq | | | Kamerun |
| | Belçika | | | |
| | Kosovo | | | |
| | Bosniya və Hers. | | | |

**MƏNBƏ:** *https://www.oecd.org/els/health-systems/48723982.pdf*

Müalicə üçün uzun gözləmə vaxtının olmaması, daha keyfiyyətli müalicə almaq, sağlamlıq sahəsində müxtəlif texnologiyalara müraciət, müalicədən əlavə gəzmək və yeni mədəniyyətlərlə tanış olma arzusu və s. turistlərin bu və ya digər ölkəni sağlamlıq turizmi məqsədilə seçməsinə təsir göstərən amillərdir.

Sağlamlıq turizmindəki xərcələmələrin əsasını aşağıdakılar təşkil edir:

- Müalicə və ya əməliyyat üçün xərclər;
- Xəstəxana və həkim xərcləri;
- Nəqliyyat xərcləri;
- Müvəqqəti yerləşmə xərcləri;
- Qidalanma xərcləri;
- Viza xərcləri;
- Sığorta, qeydiyyat və s.

Bu xərcləmələr əsasında ölkələrin gəlirləri formalaşır və hər ölkə üzrə qiymət strategiyası müəyyənləşir. Sağlamlıq turizmində turistlərin kliniki müalicə xərcləri müxtəlif prosedurları əhatə edir ki, daha mürəkkəb cərrahi əməliyyatlar, onkoloji, ürək-damar xəstəlikləri və s. üstünlük təşkil edir.

**CƏDVƏL 3. Sağlamlıq turizmində turistlərin kliniki müalicə xərcləri (ABŞ dolları ilə)**

| Prosedur: | ABŞ | Hindistan | Tayland | Sinqapur | Meksika | İsrail | Cənubi Koreya | Türkiyə |
|---|---|---|---|---|---|---|---|---|
| Ürəyin bərpası | 123000 | 9500 | 15000 | 17200 | 27000 | 28000 | 26000 | 13900 |
| Ürək qapağının dəyişdirilməsi | 170000 | 9500 | 17200 | 16900 | 28200 | 28500 | 39900 | 17200 |
| Angioplastika | 28200 | 5700 | 4200 | 13400 | 10400 | 7500 | 17700 | 4800 |
| Bud sümüyü protezinin dəyişdirilməsi | 40364 | 7200 | 17000 | 13900 | 13500 | 36000 | 21000 | 13900 |
| Diz qapağı əməliyyatı | 35000 | 6600 | 14000 | 16000 | 12900 | 25000 | 17500 | 10400 |
| Mədə kiçiltmə | 14000 | 7300 | 11500 | 9200 | 6500 | 17300 | 10200 | 8600 |
| İmplant | 2500 | 1200 | 1720 | 2700 | 900 | 1200 | 1350 | 1100 |
| Burnun estetik əməliyyatı | 6500 | 2400 | 3300 | 2200 | 3800 | 3500 | 3980 | 3100 |
| Üz dərisinin dartılması (botoks) | 11000 | 3500 | 3950 | 440 | 4900 | 6800 | 6000 | 6700 |
| Liposaksiya | 5500 | 2800 | 2500 | 2500 | 3000 | 2500 | 2900 | 3000 |
| Bel incəltmə | 8000 | 3500 | 5300 | 4650 | 4500 | 10900 | 5000 | 4000 |
| Göz əməliyyatı (lazer) | 4000 | 1000 | 2310 | 3800 | 1900 | 3800 | 17000 | 1700 |
| Süni mayalanma | 12400 | 2500 | 4100 | 14900 | 5000 | 5500 | 7900 | 5200 |

**MƏNBƏ:** *http://medicaltourism.com/Forms/price-comparison.aspx*

Hər bir ölkədə kliniki müalicə xərcləri müəyyən edilərkən xəstəxananın özəl və ya dövlət xəstəxanası olması, ixtisaslı kadrların əməyindən istifadə, istifadə olunan ən son texnologiyalar, təklif olunan xidmətlər və prosedurun digər ölkələrlə müqayisədə bazar qiyməti əsas götürülür. Yuxarıda sadalanan amillərlə müəyyən edilmiş və 2019-ci ildə qüvvədə olan prosedur qiymətlər CƏDVƏL 3-də müxtəlif ölkələr üzrə əks olunmuşdur.

Qeyd etmək lazımdır ki, turistlərin bir səfər üçün xərclədikləri ümumi məbləğ onun seçdiyi ölkədən və müalicə almaq istədiyi prosedurdan asılı olaraq dəyişir. Tədqiqatçılar bu məbləğin təxminən 3000 – 10000 dollar arasında dəyişdiyini deyirlər. Məsələn, 2019-cu ildə Aİ vətəndaşının mədə kiçiltmə əməliyyatı məqsədi ilə Hindistana səyahət etməsi üzrə xərclərin təhlil etsək, hotel və nəqliyyata ödənilən məbləğin digər ölkələrə nisbətən aşağı olmasını qeyd etmək olar.

**CƏDVƏL 4. Mədə kiçiltmə əməliyyatı məqsədi ilə Hindistana səfər edən bir turistin ortalama xərci**

| | Məbləğ: |
|---|---|
| Mədə kiçiltmə əməliyyatı | 7300 USD |
| Ortalama aviabilet xərcləri | 1000 USD |
| Ortalama hotel xərcləri | 500 USD |
| Viza, sığorta və digər xərclər | 1000 USD |

**MƏNBƏ:** *https://www.oecd.org/els/health-systems/48723982.pdf*

Bu qiymətlər ABŞ klinikalarında 25 min dollardan çoxdur. Eyni ölkəyə səfər edən bir turistin göz əməliyyatı üçün xərcləyəcəyi məbləğ isə 3500 ABŞ dollarına bərabərdir.

Sağlamlıq turizmində turistlər tərəfindən ölkələr üzrə seçim edilərkən prosedur qiymətləri ilə yanaşı nəqliyyat və hotel xərcləri də nəzərə alınır. Bunun əsas səbəbi xəstələrin tək başına deyil, əməliyyatdan sonra ona baxması üçün ən azı bir nəfərlə səyahət etməsidir.

Son illər sağlamlıq turizmi imkanlarından geniş istifadə etmək və daha çox turistin diqqətini cəlb etmək məqsədi ilə bir sıra yeni trendlər meydana çıxmışdır. Hər il səhiyyə sahəsində bu cür yeni trendlər ortaya çıxır. Müəssisələr son məlumatları izləməklə və bu cür yenilikləri tətbiq etməklə daha çox xarici pasiyent cəlb edir və eyni zamanda, qazanc əldə edirlər. Ümumiyyətlə, sağlamlıq turizmində iştirak edən turistlər istər fərdi, istərsə də qrup şəklində səyahətləri zamanı daim yeni trendləri izləyir və seçim edərkən onların tətbiq olunmasına diqqət edirlər. Müalicə-sağlamlıq turizmində yeni tendensiyaları aşağıdakı kimi qruplaşdırmaq olar:

- **Aromaterapiya (ətirlər)** – Yaxşı qoxuları hiss etdikdə beynimizin əhvali-ruhiyyəmizi yaxşılaşdırması və müsbət hormonlar istehsal etməsini qabardaraq sağlamlıq sənayesində aromaterapi adlanan yeni metoddan istifadə olunmağa başlanmışdır. Təxminən 6000 illik tarixi olan aromaterapiyadan ilk dəfə qədim Misirdə mumiyaların hazırlanmasında istifadə edildiyi bilinir. Hal-hazırda İtaliya, İspaniya, Yunanıstan, Hindistan və Çində sağlamlıq müəssisələri aromaterapiya xidmətləri təklif etməklə yeni trendlərin izlənməsində iştirak edirlər.

 **Sağlam qidalanma** – Ekoloji təmiz qida həmişə sağlamlıq sənayesinin vacib bir hissəsi olmuşdur. Müasir dövrdə insanlar geniş auditoriya üçün hazırlanmış ümumi pəhrizlərdən istifadə etməkdən daha çox hər bir fərd üçün ayrılıqda hazırlanmış pəhrizlərdən istifadə etməyə üstünlük verirlər. Hər bir fərd üçün yemək planları hazırlanarkən xüsusi yeməklər, onların ölçüsü, dadı və metabolizmə təsiri göz önündə saxlanılır. Bu cür qidalanma proqramlarından istifadə edən fərdlər effektiv nəticə əldə etdikləri üçün insanların fərdiləşdirilmiş qidalanma planları təqdim edən müəssisələrə səyahət etmək istəyi yaranır. Xüsusilə SPA və bərpa mərkəzlərində sağlam qidalanma proqramlarının təklif olması trendi formalaşmışdır. Ancaq bir çox inkişaf etmiş ölkələrdə (xüsusilə ABŞ və Avropa ölkələrində) sağlam qidalanma kriteriyaları müəyyən olunaraq bütün ölkə səviyyəsində fəaliyyət göstərən müəssisələrdə tətbiq olunmağa başlamışdır.

 **Meditasiya** – Meditasiya yaxşı pəhriz və müntəzəm idmanla birlikdə sağlamlıq hərəkatının əsas elementlərindən biri sayılır. Eyni zamanda, yoqa bir vaxtlar ümumi bir termin olsa da, son illər sürətli inkişafı nəticəsində yeni düşüncə forması və tərzi meydana çıxardı. Meditasiya müasir sağlamlıq həvəskarları üçün termindir. Dinc mühitlərdən və sakit düşüncə sənətindən zövq almaq xidmətləri təklif edən meditasiya studiyaları və sağlamlıq mərkəzlərinin sayı artmaqdadır. Hal-hazırda Hindistan, Tayland, İndoneziya, Nepal, Kosta Rika və İspaniya meditasiya və yoqa xidmətləri təklif edən və turistlərin bu baxımdan ən çox səyahət etdikləri ölkələrdəndir.

 **Üçüncü yaş turizmi –** ÜST-ün məlumatlarına görə, yaşlıların turizm potensialı sağlamlıq turizmi investorları üçün əla bir fürsətdir. Məlum olduğu kimi, bu gün dünya əhalisi getdikcə yaşlanır və tibbin inkişafı ilə onların orta ömür müddəti artır. Xüsusən inkişaf etmiş ölkələrdə yaşayan şəxslər üçün "üçüncü yaş qrupu" gözləntisi yüksək potensiala sahibdir. Onların isti ölkələrə və sağlamlıq turizmi xidmətlərinə tələbatını ödəyəcək yeni tendensiyada bir sıra xidmətlər təklif olunaraq yaşlıların sağlamlıq turizmində iştirakını artırmaq olar. Bu turist seqmenti üçün aşağıdakı xidmətlər təklif olunur:

- Qabaqcıl yaşlı turizmi (gəzinti turları, məşğuliyyət tapma);
- Yaşlılara qulluq xidmətləri (qocalar evləri və ya reabilitasiya xidmətləri);
- Klinikalarda reabilitasiya xidmətləri;
- Əlillər üçün xüsusi qayğı və gəzinti turları.

Artmaqda olan yaşlılıq sağlamlıq turizmi ilə məşğul olan ölkələrin üçüncü yaş turizminə önəm vermələri və bu sektora yatırım etmələri ilə nəticələnir. Çili, İspaniya və Türkiyə üçüncü yaş turizmi inkişaf planları hazırlayaraq öz ölkələri səviyyəsində tətbiq etməyə başlamışdır.

## 1.5. Sağlamlıq turizmində tələb və təklif analizi

Qeyd etmək lazımdır ki, sağlamlıq turizmində iştirak edən turistlər həm müalicə, həm də tətil məqsədli səyahətdə olduqları üçün onların gözləntiləri də, yaratdığı dəyər də yüksəkdir. Sağlamlıq turizmi digər alternativ turizm növləri ilə ölkənin turizm potensialının cəlbediciliyini artıran başlıca vasitələrdən biridir.

Sağlamlıq turizmi sahəsində ən çox seçilən ölkələrə ABŞ, Hindistan, Kuba, Kosta Rika, Tayland, Sinqapur, Kolumbiya, Malayziya, Türkiyə, Meksika, Almaniya və Cənubi Koreya aiddir. Cənubi və Orta Amerika ölkələri çox yüksək müalicə xərcləri səbəbi ilə ABŞ xaricində müalicə olunmaq istəyən ABŞ vətəndaşlarına xidmət göstərirlər. Malayziyada xəstələrin təxminən 75%-i daha yaxşı tibbi xidmət üçün

İndoneziya və Filippin kimi ətraf ərazilərə səyahət edirlər. Avropa ölkələrində isə xəstələr ən çox Avropa birliyi daxilində olan ölkələrə səyahət edirlər. Bəzən bu səyahətə "sərhədyanı ölkələrə xəstə hərəkatı" deyilir. Məsələn, Belçikaya gələn xəstələrin 60%-i Niderlanddan, 30%-i qonşu Avropa ölkələrindəndir.

Əvvəllər turistlər seçim edərkən qabaqcıl texnologiyaya sahib müasir infrastruktura, səhiyyə xidmətlərinin yüksək keyfiyyət standartlarına, nəqliyyat rahatlığına fikir verirdilər və bunların əsasında lider ölkələrin ortaq xüsusiyyətləri müəyyən olunurdu. İndi isə ölkədən daha çox sağlamlıq mərkəzlərinin xüsusiyyətlərinin ön plana çıxdığı görülür.

### 1.5.1. Tələb analizi

Turistlər müxtəlif səbəblərdən sağlamlıq turizmində iştirak edirlər və bu səbəblər ölkələr üzrə tələbatı da formalaşdırır. Bunları aşağıdakı kimi qruplaşdırmaq olar:

| | |
|---|---|
| Əsas gəlirlərini sağlamlıq turizmindən əldə edən və tibbi xidmətlərin inkişafına görə fərqlənən ölkələr | Sinqapur, Tayland, Kipr, Kosta Rika |
| Ölkənin coğrafi və siyasi üstünlüklərinə görə turistlərin daha çox seçdiyi ölkələr | İordaniya, İran, Malayziya, Braziliya |
| Səhiyyə xidmətlərinin keyfiyyəti və texnoloji təchizatının yüksək səviyyəsinə görə turistlərin seçimində üstünlük verdikləri ölkələr | Almaniya, ABŞ, Koreya Respublikası |
| Ölkədəki sağlamlıq turizmi sahəsində çeşidli xidmətlər təqdim etdiyinə görə turistlər tərəfindən seçilən ölkələr | Macarıstanda termal turizmi, İspaniyada yaşlı turizmi, Hindistanda tibb turizmi |
| Xaricdə təhsil alan ixtisaslı həkimlərin xidmətinin təqdim edildiyi ölkələr | İordaniya, Hindistan, Malayziya, Braziliya, Malta |
| Coğrafi yerləşmə, turizm təcrübəsi, tibdə qabaqcıl texnologiya, keyfiyyətli səhiyyə xidməti, iqtisadi xərclər və s. üstünlüklərinə görə turistlər tərəfindən seçilən ölkələr | Türkiyə, Malayziya, İsrail |

Sağlamlıq turizmində dişlər, gözlər, estetik, ürək-damar və oynaq protezləri, sonsuzluq müalicəsi, ekstrakorporal mayalanma və cərrahi müdaxilələr kimi mövzular ön plana çıxır. Bununla birlikdə, demək olar ki, hər cür sağlamlıq xidməti təminatına tələbatın olduğu da görülür. Sadə müayinələr və ya müxtəlif xəstəliklərə nəzarət və müayinə üçün sərhədyanı səhiyyə xidmətləri alan xeyli sayda pasiyentlər var.

Xəstələrin müalicə üçün səyahət etməsinin müxtəlif səbəbləri var. Bu səbəblər öz növbəsində sağlamlıq turizminə olan tələbi müəyyənləşdirir. Bunlar aşağıdakı kimi ümumiləşdirilə bilər:

- Dünyadakı qloballaşma prosesi;
- Uzun gözləmə müddəti;
- Qabaqcıl texnika və texnologiyaya sahib olan və beynəlxalq miqyasda daha çox tibbi tədqiqatların aparıldığı ölkələrdə müalicə almaq arzusu;

- İnformasiya və kommunikasiya texnologiyasında sürətli inkişaf;
- Milli səhiyyə sistemlərində yaşanan problemlər və qeyri-kafi sağlamlıq sistemləri
- Məhsul dəyişikliyi;
- İstehlakçı məlumatlılığı, sektorların yeni bazar axtarışları;
- İnkişaf etmiş ölkələrdə tibbi xidmətlərin bahalı olması və eyni xidməti digər ölkələrdə daha ucuz əldə edilə bilmək imkanları və psixoloji təsiri;
- Xəstələrin öz ölkəsindən fərqli olaraq başqa bir ölkədə daha keyfiyyətli xidmət ala bilmək psixologiyası;
- Sahib olduqları sağlamlıq sığortası ilə əlaqədar problemlər;
- Xroniki xəstələrin, yaşlılar və ya əlillərin başqa yerlərə getmək və müalicə almaq istəməsi;
- Narkotik və müxtəlif asılılıqları olan insanların fərqli və ya daha uyğun mühitlərdə olma arzuları;
- Öz ölkələrində yüksək sağlamlıq xərcləri;
- Əhalinin sayının xüsusi çəkisində yaşlı insanların sayının artması;
- Tətil vərdişi olan və səyahət edərkən xroniki xəstəliklərinin müalicəsini tapmaq istəyi.

İnkişaf etmiş ölkələrdə səhiyyə xidməti baha başa gəlir. Bu səbəbdən inkişaf etmiş ölkələrdə yaşlı insanlar üçün səhiyyə xərclərinin payı gündən-günə artmaqdadır. Artan səhiyyə xərcləri yerli sosial təminat qurumlarına, sığorta şirkətlərinə və digər ödəniş qurumlarına problemlər yaradır. Bu səbəbdən inkişaf etmiş ölkələrin sosial təminat və özəl sığorta qurumları keyfiyyətli səhiyyə xidmətləri göstərən digər ölkələrlə müqavilə bağlayaraq səhiyyə xidmətlərinin qiymətini azaltmağa çalışırlar.

Bu gün sağlamlıq baxımından məhdudiyyətlər çox həlledici deyil. Viza müraciətlərində belə müəyyən xidmətlər yerinə yetirildikdə səhiyyə xidmətləri almaq üçün müraciətlər sürətlənir və asanlaşır. Avropa Birliyində xəstələr yalnız öz ölkələrində deyil, digər ölkələrdə də həkim seçmək azadlığına sahibdirlər. Sağlamlıq problemlərinin həlli üçün insanlar yalnız öz ölkələrindəki sağlamlıq imkanlarını və xərclərini nəzərə almırlar. Digər ölkələrdəki ən yaxşı müalicə və maliyyə imkanlarını da müqayisə edərək qərar verirlər.

Coğrafi bölgə və ya sosial-mədəni mühit fərqli tələblər və gözləntilər yaratsa da, hansı ölkədən, sosial təbəqədən, etnik mənsubiyyətdən, dini inancdan asılı olmayaraq, bütün insanların əsas tələbi və gözləntisi etibarlı bir mühitdə keyfiyyətli səhiyyə xidmətləri görməkdir. Lakin müştərilərin gözləntilərini sağlamlıq turizminin növləri üzrə qruplaşdırmaq olar:

- **Tibbi turizm** xidmətlərinə tələb onu iki fərqli növə ayırır. *Estetik tibbi turizm* yaşayış səviyyəsini yüksəltmək, həyat keyfiyyətini və fiziki görünüşü yaxşılaşdırmaq üçün həyata keçirilən tədbirlər toplusudur. Bu sahədə ən çox təqdim olunan xidmətlər saç əkimi, implant, göz, sinə, burun, üz estetikliyi, qarın çəkmə əməliyyatı, liposaksiya, bədən estetiyi, botoks, lazer müalicələridir. *Medikal tibbi turizm* müalicə almaq, sağlamlıqlarını bərpa etmək və həyati funksiyalarını qorumaq üçün xəstələrin üstünlük verdiyi bir turizm növüdür. Ən çox seçilən tibbi müdaxilə növlərini sadalasaq xərçəng və ürək əməliyyatı, beyin şişi müalicəsi və kök hüceyrə müalicələri ilk sırada gəlir. Bu xəstəliklərin müalicəsində nəzərə alınan əsas amillərdən biri qiymətlərdir. Tibbi turistlər müalicə almaq istədikləri ölkələr haqqında məlumat alır, sonra isə alternativlər arasında seçim edirlər. Qiymət faktorlarından başqa tibbi turizm məkanının cəlbediciliyinə təsir edən amillərə bölgənin mədəniyyəti, məsafə, tibb üzrə ixtisaslaşma və ölkənin tibbi turizmdə nüfuzu aiddir.

**Termal turizm** Avropada – Çexiya, Macarıstan, Fransa, Rusiya, Ukrayna və s. ölkələrdə daha çox inkişaf edib. Bu ölkələrdəki mövcud müalicə-sağlamlıq müəssisələri ixtisaslaşdırılmış sanatoriya və sağlamlıq xidmətləri təklif edir. Termal sağlamlıq turizmindən istifadə edənlər aşağıdakı amillərə önəm verirlər:

- Müvafiq infrastrukturun olması;
- Təbii termal su mənbələrinin olması və termal suyun fiziki və kimyəvi, bakterioloji tərkibi;
- Ətraf mühitin sağlamlığı;
- Nəqliyyat və transfer standartlarının təmin edilməsi;
- Yüksək standartlı həkim personalının olması və orta tibb işçilərinin peşəkarlığı və qonaqpərvərliyi;
- Müasir tibbi texnologiya;
- Səhiyyə xidmətlərində etik dəyərlərə sadiqlik və məlumatların məxfiliyinin qorunması;
- Sağlamlıq xidmətlərinin əlçatanlığı;
- Müalicə-sağlamlıq mərkəzində iqlim, hidro, palçıq, pəhriz və inhalyasiya terapiyası, duz mağaraları və s. olması;
- Aktiv rekreasiya və idman imkanlarının olması;
- İKT geniş istifadə etməklə xidmətlərin təqdim olunması;
- Keyfiyyətli xidmət standartlarının tətbiqi;
- Beynəlxalq səviyyəli tibbi sığorta xidmətlərindən yararlanmaq imkanları.

**Yaşlı və ya 3-cü yaş turizmində** yaşlılara qayğı göstərilə biləcək xidmətlərə və təcrübəyə ehtiyac duyulur. Yaşlılara qayğı dedikdə yaşlıların yalnız yaxşı bir gün keçirməsini təmin etmək nəzərdə tutulmur. Bu turizm növü yaşlılıq səbəbindən fiziki fəaliyyət potensialı gündən-günə azalan insanların mümkün qədər aktiv qalması üçün təklif olunan xidmətlər toplusunu yaradır.

Bu qrupdakı şəxslər ümumilikdə uyğun təbii-iqlim şəraitinin olduğu ərazilərə üstünlük verirlər. Ucuzluq, ərazi üzrə sağlamlıq xidmətlərinin yayılması, bölgəyə girişin asanlığı bu qrupdan olan şəxslərin seçim edərkən üstünlük verdikləri əsas şərtlərdir. Lakin bütün yaşlı insanların gözləntiləri eyni olmadığından, bəzilərinin xəstəliklər və ya fiziki qabiliyyət fərqləri yaşlılara qulluq üçün alt tətbiq sahələrinin ortaya çıxmasına səbəb oldu. Yaşlı turizmini bir neçə alt tətbiq sahələrinə bölmək mümkündür:

- *Sağlam qocalara qulluq* – zehni və əqli cəhətdən sağlam olan, müstəqil olaraq özünə qulluq edə bilən, yoluxucu xəstəlik, alkoqol və ya narkotik asılılığı olmayan qocaya sağlam yaşlı deyilir. Sağlam yaşlı mənəvi motivasiya və ya müəyyən mühit dəyişikliyi hədəfləyən yaşlılara göstərilən xidmət qrupunu təyin edir. Bu cür yaşlı insanların gözləntiləri əsasında hədəf müəssisələrin çoxşaxəli sosial obyektləri olmalıdır. Kiçik bağları, əyləncə məkanları, alış-veriş mühiti, gəzinti yolları, yaş qrupuna uyğun fiziki fəaliyyət sahələri və velosiped yolları kimi imkanların kurort mərkəzlərində olması vacibdir. Bu müəssisələrdə yataq tutumundan asılı olaraq, yaşlılara qulluq texnikalarından başqa müxtəlif sayda tibb bacıları, ioterapistlər və ən azı bir ümumi təcrübəçi işə cəlb olunur.
- *Xroniki xəstəliyi olan yaşlılara qulluq* – 65 yaşdan yuxarı yaşlıların əhəmiyyətli hissəsini əhatə edir. Bu qrup ilin müəyyən vaxtlarında daha yaxşı qulluq və profilaktik tibb xidmətlərinin göstərildiyi qayğı mərkəzlərinə üz tuturlar. Bu yaşlı insanlar ümumiyyətlə ciddi tibbi yardım tələb etməyən xroniki xəstəlikləri olan yaşlı insanlardır. Xroniki xəstəlikləri olan yaşlı insanlar üçün planlaşdırılan qulluq mərkəzlərində əlavə gündəlik sağlamlıq müayinələri tələb olunur.
- *Reabilitasiya və müalicə prioritetli qocalara baxım* – yaşlıların baxıma ehtiyacı olan ən həssas qrupunu əhatə edir. Bu qrup xəstələr, müəyyən bir müddət üçün, məsələn, koronar şuntlama əməliyyatı sonrası

sağlamlıq xidmətinə ehtiyacı olan yaşlı insanlardır. Bu məqsədlə qurulan müəssisələr əsas xəstəxana xidmətləri göstərir, laboratoriya xidmətləri və reabilitasiya üçün yerlər təklif edir. Bu cür müəssisələrdə tibb işçilərindən əlavə sosial xidmət göstərən mütəxəssislər də çalışır.

- *Palliativ (termal dövr) yaşlılara qulluq* – həyatı təhlükə altında olan və müalicə oluna bilməyən xəstələrə lazımi qayğı və müalicənin verilməsidir. Palliativ müalicə yalnız xəstələrin fiziki problemlərini aradan qaldırmaq məqsədi daşımır. Fərdin sosial ehtiyaclarının ödənilməsi də palliativ müalicəyə daxildir. Bu müəssisələrdə müxtəlif sayda tibb bacıları, fizioterapevtlər, psixoloqlar, sosial xidmət mütəxəssisləri və ən azı bir fiziki terapiya reabilitasiya mütəxəssisi, daxili xəstəlik mütəxəssisi və yaşlılara qulluq ilə məşğul olan tibb işçiləri çalışırlar.

- **Əlillər üçün turizmin** əsas iştirakçılarının tələbləri onların əlilliyi olduğu sahələr üzrə müəyyənləşir. Belə ki əlillik dərəcəsi nə qədər aşağıdırsa, iştirakçı bu turizm növündə iştirak etmək üçün bir o qədər həvəslidir. Əlillik dərəcəsinə görə bu turizm növündə iştirak edən turistlərin əsas tələbləri aşağdakılardır:

| | |
|---|---|
| *Əlçatan məlumatlar* | əlil turistlərə təyinat yerləri, nəqliyyat və yerləşmə yerlərində əlçatanlıq şərtləri barədə məlumatların verilməsi. Əlçatanlıq şərtləri barədə dəqiq və etibarlı məlumatlara ehtiyac duyulur. |
| *Əlçatan nəqliyyat* | quru, dəniz və hava, turizm fəaliyyətində iştirakın əsas elementlərindən biridir. Nəqliyyatın hər kəs üçün əlçatan olması deməkdir. |
| *Əlçatan infrastruktur* | Gedilən ölkələrdə ətraf mühit şərtləri hərəkət, görmə və digər hissiyyatlı əlil şəxslərin hərəkətlərini məhdudlaşdıra bilər. Bu səbəbdən yerlərin alt quruluşları əlillərin təqdim edilən xidmətlərdən və ya fəaliyyətlərdən istifadəsini asanlaşdırmalıdır. |
| *Əlçatan xidmət* | Turistik yerlər öyrənmə çətinliyi olan uşaqlar və böyüklər, görmə və eşitmə əngəllilər üçün uyğun olmalıdır. Təlim keçmiş kadrlar tərəfindən təklif olunan xidmətlər isə əlil şəxslərin turizm təcrübələrindən faydalanmasının qənaətbəxş olmasını təmin etməlidir[1]. |

[1] Mənbə: “Exploring Health Tourism 2018” hesabatı, 2018-ci il

**QRAFİK 6. Sağlamlıq turizmində iştirak edən turistləri cəlb edən amillər**




Turistlərin əsas motivasiya mənbəyi qiymətdir. Xüsusilə inkişaf etmiş ölkələrdə sağlamlıq xidmətləri təklif edən müəssisələrin daha çox özəl sektorların əlində cəmləşməsi bu ölkələrdən olan xəstələrin sərfəli qiymət axtarışına çıxmasına səbəb olmuşdur. Göndərən ölkə ilə qəbul edən ölkə arasında valyuta fərqi və göndərən tərəfin valyuta nisbətinin üstün olması da turistlər üçün cəlbedici xarakter daşıyır.

Növündən asılı olmayaraq sağlamlıq turizminin bütün sahələrində təklif olunan xidmətlər, onların keyfiyyəti, həkim və sağlamlıq işçilərinin təhsili, potensialı və ərazinin əlçatanlığı əsas amillər olaraq vurğulanır. Turistlər arasında keçirilmiş sorğu nəticəsində əlavə faktorların da onları sağlamlıq turizmində iştirak etməsi üçün motivasiya etdiyi müəyyən olunmuşdur. Ərazi üzrə ətraf mühitin vəziyyəti, iqlim, mədəniyyət və əhalinin adət-ənənələri və s. faktorlar da əsas götürülür.

### 1.5.2. Təklif analizi

Sağlamlıq turizmində təklif olunan xidmətlər dörd əsas istiqamətlər üzrə qruplaşdırılır:

| | |
|---|---|
| Yaşlılara qulluq xidmətləri | baxım məqsədi ilə başqa bir ölkəyə müvəqqəti səyahət edərkən heç bir şikayəti olmayan yaşlı insanlar üçün göstərilən xidmətlərdir |
| Sağlamlığın təbliği xidmətləri | alternativ tamamlayıcı xidmətlər (tibbi turizm xidmətləri ilə birgə təklif olunur), SPA velnes, termal-sağlamlıq, bitki müalicəsi, masaj və s.) |
| Reabilitasiya xidmətləri | dializ, asılılıqlarla mübarizə proqramı kimi |
| Müalicə ilə əlaqəli xidmətlər | tibbi turizm (estetik, cərrahiyyə, ürək-damar, göz əməliyyatları, xərçəng müalicəsi və s.) |

Sağlamlıq turizmində təklif olunan bu xidmətləri aşağıdakı kimi qruplaşdırmaq olar:

**1) Tibbi turizm üzrə təklif olunan xidmətlər**

Tibbi turizm fərdin sağlamlığını yaxşılaşdırmaq üçün təklif olunan xidmətlər toplusudur. Tibbi turizm ABŞ, Kanada və Qərbi Avropa sakinləri arasında çox populyardır. ABŞ-da sığortası ciddi xroniki xəstəliklərin müalicəsini əhatə etməyən insanların sayı 110 milyona yaxınlaşır. Buna görə bir çox amerikalı xaricdə müalicə almağa üstünlük verir, çünki kardioloji, ortopedik və digər bir çox xəstəliklərin müalicəsi, məsələn Hindistanda və ya Taylandda, ABŞ-a bənzər müalicənin dəyərinin dörddə biri, bəzən isə onda birinə çatır.

Son illərdə Asiya ölkələri tibbi turizm bazarında əhəmiyyətli fəallıq nümayiş etdirirlər. Koreya Respublikasındakı klinikalar hökumətin güclü dəstəyi ilə Rusiya və Uzaq Şərqdəki xəstələrin etimadını qazanıb. Rusiyada 2014-cü il böhranından əvvəl İsraildəki klinikalar çox populyar idi. Yaponiya tibbi vizanın alınması prosedurunu əhəmiyyətli dərəcədə sadələşdirərək bazara tanıtımına da başlamış və bu ölkədə xəstələrin qalmasını asanlaşdırmaq üçün İqtisadiyyat, Ticarət və Sənaye Nazirliyinin nəzdində “Medical Excellence JAPAN” konsorsiumu qurulub. Kanada və İngiltərənin sakinləri dövlət sığortasına malikdirlər, ancaq bir mütəxəssisə müraciət etmək üçün bir neçə ay gözləmək lazımdır. Məsələn, əməliyyat üçün gözləmə müddəti 2 ilə çata bilər. Buna görə kanadalılar və ingilislər gözləmədən lazımi prosedurlardan keçib müalicə ala bilmək üçün tez-tez digər ölkələrə üz tuturlar. 2010-cu illərin əvvəlində tibbi xidmət göstərmək üçün qəbul edilən turistlərin sayına görə lider ölkələr Hindistan, Macarıstan, Meksika, Sinqapur, Tayland, Barbados, Braziliya, İsrail, Koreya Respublikası, Türkiyə olmuşdur. Tibbi turizm üçün ilk onluğa Kanada, Böyük Britaniya, İsrail, Sinqapur, Hindistan, Almaniya, Fransa, Koreya Respublikası, İtaliya, Portuqaliya və Kolumbiya daxildir.



**İsrail** tibbi məqsədlə turistlər daha çox Avropa (xüsusən Şərqi Avropa), MDB ölkələri, ABŞ, Avstraliya, Kipr və Cənubi Afrikadan gəlirlər. Tibbi turistlər İsrailə sümük iliyi nəqli, ürək əməliyyatı və kateterizasiya, onkoloji və nevroloji müalicə, ortopedik prosedurlar, avtomobil qəzalarının bərpası daxil olmaqla müxtəlif cərrahi prosedur və müalicə üçün gəlirlər. İsrailin bu sektorda populyarlığı, yüksək keyfiyyətli tibbi xidmətə sahib olan inkişaf etmiş bir ölkə statusu

ilə yanaşı, bir çox inkişaf etmiş ölkələrə nisbətən daha az tibbi xərclərinin olmasıdır. Amerikalılar arasında isə İsraildə təklif olunan ortopedik prosedurlar məşhurdur, çünki İsraildəki bu prosedurların dəyəri ABŞ-a nisbətən təxminən yarı qiymətədir. İsraildəki tibbi turistlər həm dövlət, həm də özəl xəstəxanalardan istifadə edirlər. İri İsrail xəstəxanalarında tibbi baxımdan eyni dərəcədə yüksək standartlara cavab verən digər müəssisələrə nisbətən müqayisəli prosedurlardan ucuz başa gələn tibbi turizm paketləri təklif olunur. Statistik məlumatlarda 2018-ci ildə İsrailə 500 min tibbi turistin gəldiyi qeyd edilir. Bu tibbi turistlər yerli xəstələrdən fərqli olaraq güzəştli müalicə alırlar. Bundan əlavə, bəzi insanlar Ölü dənizi və Təbəriyyə gölündəki müalicə-sağlamlıq mərkəzlərini ziyarət etmək üçün İsrailə gəlirlər.



**İran**a 2012-ci ildə 30 min, 2015-ci ildə isə 150 – 200 min nəfər turist tibbi məqsədlərlə gəlib. Hazırda bu rəqəmin 500 minə çatdığı qeyd edilir. İranda Hepatit B və C virusu infeksiyası üçün aşağıbüdcəli müalicə xidməti mövcuddur və bu infeksiyalara qarşı xüsusilə Orta Şərq ölkələrindən olan insanlara təqdim edilə bilən unikal təcrübə var. Bundan əlavə İrandakı əczaçılıq şirkətləri Hepatit B və C virusu infeksiyalarına nəzarət üçün lazım olan dərmanları çox aşağı qiymətlərlə və yüksək keyfiyyət ilə istehsal edirlər.



Qabaqcıl tibbi texnologiyanın mövcudluğu və həkimlərin yüksək peşəkarlığı **ABŞ**-a tibbi yardım üçün gedən əcnəbilərin sayının artmasına səbəb olan motivator kimi göstərilir. ABŞ-da bir sıra böyük tibb mərkəzləri və tədris müəssisələrinin xəstəxanalarında müalicə almaq istəyən və xarici ölkələrdən olan xəstələrə xidmət göstərən beynəlxalq tibb mərkəzləri var. Bu müəssisələrin əksəriyyəti beynəlxalq xəstələrə tibbi yardım, yaşayış, maliyyə və təcili yardım xidmətləri daxil olmaqla nəqliyyatla təmin olunmaq üçün xidmət paketləri təklif edir.



2015-ci ildən açıq ürək əməliyyatından tutmuş digər xəstəliklərin müalicəsi üçün mümkün olan xidmətləri təklif edən **Tayland** 2,81 milyon xəstəni cəlb edərək tibbi turizm üçün məşhur bir məkana çevrildi. Rəsmi statistikasına görə 2017-ci ildə Taylanda gələn tibbi turistlərin sayı 3,3 milyon, 2018-ci ildə isə bu rəqəm 3,5 milyona çatmışdır.



**Azərbaycan** İran, Türkiyə, Gürcüstan və Rusiyadan tibbi turizm üçün gələn turistlərin hədəfidir. Bakıdakı "Bona Dea" Beynəlxalq Xəstəxanası 2018-ci ildə beynəlxalq təcrübəni tətbiq etmək üçün inşa edilib və Avropanın müxtəlif ölkələrindən olan işçi heyəti burada çalışır.



2017-ci ildə **Almaniya** xəstəxanalarına 1,2 milyard avrodan çox gəlir gətirən 250 000 xarici xəstə daxil olub. Bəziləri səyahət zamanı gözlənilmədən xəstələnən qonaqlar olsa belə, xarici xəstələrin 40%-dən çoxu planlı şəkildə müalicə üçün gəlib. Müalicə məqsədi ilə ölkəyə gələn turistlərin əksəriyyəti Polşa, Niderland və Fransadan idi. Buraya Orta Şərqdən gələn turistləri də aid etməkolar. Almaniyada universitet xəstəxanaları və Berlindəki University Hospital Freiburg və ya Vivantes kimi böyük bələdiyyə klinikaları tibbi turizm üçün ən məşhur yerlərdir. Hallwang Clinic GmbH ABŞ, İngiltərə, Avstraliya və Yaxın Şərqdən olan xəstələri özünə cəlb edən və Almaniyada xərçəng xəstəliyinin müalicəsində ən yüksək səviyyəli klinikadır.



**Türkiyə**dəki tibbi müalicələrin dəyəri Qərbi Avropa ölkələrinin təklif etdiyi xidmətlərin qiyməti ilə müqayisədə olduqca uyğundur. Buna görə də hər il minlərlə insan tibbi müalicələr üçün Türkiyəni seçir (2018-ci ildə 578 min turist). Buraya səyahət edən tibbi turistlərin 67%-i özəl xəstəxana, 24%-i dövlət xəstəxanası və 9%-i universitet xəstəxanalarından istifadə etmişdir. Türkiyə xüsusilə saç transplantasiyası əməliyyatı üçün əsas mərkəzə çevrilir.

**2) Termal-sağlamlıq turizmi və SPA-velnes turizmində təklif olunan xidmətlər**

Sağlamlıq turizmində istifadə olunan termal turizm, tərkibində ərimiş minerallar olan mineral suların istirahət, sağlamlıq, müalicə və s. məqsədlər üçün istifadəsindən irəli gəlir. SPA termini 19-cu əsrin əvvəllərindən bəri suyun müxtəlif yollarla terapevtik məqsədlər üçün istifadəsindən qaynaqlanan sağlamlığın bərpa olunmasına aiddir. Latınca “Salus Per Aquam” ifadəsinin ilk hərflərindən ibarətdir və “su ilə gələn şəfa” mənasını verir. Zehin və bədən sağlamlığı baxımından isə rifahı ifadə edir. Velnes turizmi daxilində hər cür masaj, dəriyə qulluq, palçıq vannası, yosunla müalicə, talassoterapiya təklif olunur.

Termal sağlamlıq və SPA-velnes turizminin bu sektorun inkişafına təsiri aşağıdakı kimi qiymətləndirilir:

- Turizmin mövsümülük xüsusiyyətinin aradan qaldırılması;
- Turizm baxımından inkişaf potensialı olan bölgələr üçün fürsətlərin yaradılması;
- Yerləşmə müəssisələrində yüksək doluluq nisbətlərinin təmin edilməsi;
- Turizmin şaxələndirilməsi ilə fərqli hədəf bazarlarına çıxma imkanı.

Beynəlxalq SPA Təşkilatı tərəfindən SPA-ların təklif etdikləri xidmətlər aşağıdakı kateqoriyalara bölünür:

- **Klublarda təklif olunan SPA xidmətləri:** Bunlar fitnesslə yanaşı SPA xidmətləri təklif edən klublardır. Bu cür mərkəzlərdə xidmət ala bilmək üçün kluba üzv olmaq lazımdır. Klubların təklif etdiyi üzvlük kartları və müxtəlif üzvlük formaları mövcuddur. Klub SPA-larda fitness faktoru daha çox önə çıxsa da, masaj, sauna, üzgüçülük xidmətləri də təklif olunur. Klub SPA-lar xüsusilə ABŞ-da məşhurdur.

- **Gündəlik SPA**: Xidmətlərin peşəkar şəkildə idarə olunduğu yerlərdə ən çox yayılmış SPA növüdür. İnsanlar günlük və ya həftəlik proqramlara qoşulmaqla sağlamlığın bərpası prosesində iştirak edirlər. Bu sahə həm bir neçə baxım təklif edən (masaj, dincəlmə və aromaterapiya, çay barı və s.), həm də sauna, üzgüçülük kimi daha böyük xidmətlər təklif edən müəssisələrdən ibarətdir.

- **Destinasiya SPA:** Bədən sağlamlığı üçün peşəkar idarə olunan xidmət proqramları və SPA xidmətlərinin təklif olunduğu yerlərdə yerləşmə yolu ilə həyat tərzinin inkişafı və sağlamlığın artırılması üçün təklif edilən xidmətləri əhatə edir. Destinasiya SPA anlayışına iki fərqli hotel tipi daxildir: SPA-hotel (bəzi hotellər yalnız SPA xidmətləri təklif etmək üçün tikilir.), hotel-SPA (hotellər daxilində əlavə SPA xidmətlərinin göstərilməsi məqsədi ilə müəssisə daxilində yerlər ayrılır.)

- **MediSPA (“medical spa”):** Ənənəvi SPA xidmətlərinin və bir-birini tamamlayan müalicələrin birləşdirildiyi bir mühitdə hərtərəfli sağlamlıq xidmətlərini təmin etməkdir və həmçinin SPA mütəxəssisləri tərəfindən verilən xidmətləri də əhatə edir. Medikal SPA-larda estetik cərrahlar, masajistlər və qidalanma proqramları təklif edən mütəxəssislər fəaliyyət göstərir.

- **Mineral SPA:** Təbii mineral, termal və ya dəniz suyu ilə təklif olunan xidmətləri əhatə edir. Ümumilikdə mineral və termal sulardan istifadə etməklə, SPA xidmətlərinin təşkilindən ibarətdir.

- **Resort hotel SPA:** Sağlamlıq və bərpa bölmələrində gündəlik və ya daha uzun müddətli müxtəlif üsullarla həyata keçirilən SPA xidmətlərinin növləri təqdim edilir. Kurortda və ya hoteldə peşəkar şəkildə idarə olunan SPA və sağlamlıq xidmətləri daxildir: vanna qəbul etmə, masaj, üz və bədənə qulluq, sağlam

qidalanma proqramları, üzgüçülük və s. Resort hotellərdə ruh və zehin sağlamlığı üçün qolf, su idmanları, at minmək, velosiped sürmək kimi əlavə xidmətlər də təklif olunur.

SPA kurortlarında turistlərə göstərilən xidmətlərin ardıcılığı nəzərə alınmaqla marketinq strategiyaları müəyyən olunur. Hər bir müəssisənin turistlərin davamlılığını təmin etmək üçün xidmət dəyərləndirməsi aparması vacibdir.

**QRAFİK 7. SPA mərkəzlərində təklif olunan xidmətlər**




SPA mərkəzlərində təklif olunan xidmətlər mərkəzin növü, ərazi üzrə istifadə ediləbiləcək imkanlar (mineral SPA, resort SPA), turistin oteldə qalma müddəti (gündəlik SPA, resort SPA, destinasiya SPA), mütəxəssislərin xidmətlərindən istifadəyə görə (mediSPA) və s. olmaqla qruplaşdırılır. Hər bir növ üzrə təklif olunan xidmətlər yuxarıdakı QRAFİK 7-də əks edilib.

Termal sağlamlıq turizmi və SPA-velnes turizmi Almaniya, Macarıstan, Taylandda inkişaf edib. Sözügedən ölkələr xüsusilə termal turizmin inkişafına görə fərqlənir. Almaniyada Baden-Baden, Bad Fussing və Bad Griesbach şəhərləri termal turizmdə fərqlənirlər. Bu çərçivədə sağlamlıq məhsullarını təklif edən bir çox hotellər və kurort mərkəzləri müəssisələrə öz məhsullarını müvəffəqiyyətlə inteqrasiya edərək

onları bazara çıxara bilirlər. Bundan əlavə, qeyd olunan şəhərin infrastruktur və yaşıllaşdırma kimi digər xərcləri buraya yaşayış məqsədi ilə gələn qonaqların gündəlik ödənişləri ilə qarşılanır. Macarıstandakı termal və SPA sağlamlıq turizmi sektoru daha çox müalicəvi sulardan istifadəyə yönəldilir. Burada sağlamlıq və tibbi təyinatlı hotellər fəaliyyət göstərir. Bundan əlavə, mineral və termal sulara əsaslanan müalicə-sağlamlıq mərkəzlərininin xidmətlərindən yararlanmaqla bu mənbələrdən istifadə etmək mümkündür. Ölkədə beynəlxalq səviyyəli kurort müəssisələrindən tutmuş yerli insanlara xidmət edən bələdiyyə isti bulaqlarına qədər bir çox obyekt mövcuddur. Termal turizmin xaricdə reklamı, onun şaxələndirilməsi və yalnız sağlamlıq üçün deyil, həm də tibbi və balneoloji turizm xidmətləri üzrə məhsullar birgə təklif olunur. Tayland tay masajı, meditasiya, bitki mənşəli tibb və digər alternativ təcrübələri ilə ənənəvi müalicə metodlarının mərkəzi kimi tanınır. Bu turizm xidmətləri ümumiyyətlə ölkədəki çoxsaylı SPA mərkəzlərində təqdim olunur. Belə mərkəzlər turistlərin istirahətinə və özlərini yaxşı hiss etmələrinə xidmət edən eksklüziv məkanlardan, yoqa təklif edən sadə çimərlik obyektlərindən ibarətdir. Tayland höküməti səhiyyə və termal turizm sahələrinin inkişafına prioritet sahə kimi daha çox diqqət ayırır. Müvafiq dövlət strukturları Taylandın Asiyada sağlamlıq və termal turizm baxımından lider ölkə olması üçün iqtisadi layihələr həyata keçirirlər ki, bunun da əsas hissəsini sosial media marketinqinin qurulması, investisiyaların təşviqi təşkil edir.

### 3) Yaşlılar üçün turizm və bu sahədə təklif olunan xidmətlər

Üçüncü yaş turizmində təklif olunan əsas xidmətləri aşağıdakı kimi qruplaşdırmaq olar:

- Qabaqcıl yaşlı turizmi (gəzinti turları, məşğuliyyət tapma);
- Yaşlılara qulluq xidmətləri (qocalar evləri və ya reabilitasiya xidmətləri);
- Klinikalarda reabilitasiya xidmətləri;
- Əlillər üçün xüsusi qayğı və gəzinti turları.

Üçüncü yaş qrupu üçün əsas xidmət yerləri klinik hotellər, ixtisaslaşdırılmış sanatoriyalar, istirahət zonaları, tətil kəndləri və qocalar evləridir. Sağlamlıq turizmi xüsusilə yaşlı turizm iştirakçıları üçün "Uzunömürlü kəndləri" ("long-age village") beynəlxalq anlayışını yeni bir marka olaraq meydana gətirb. "Uzunömürlü kəndləri"n yaradılmasının əsas məqsədləri aşağıdakılardır:

- Xəstəliklərin yaranmasının təxirə salınması və irsi meylləri aşkar edərək erkən tədbirlər görmək;
- Xəstəlikləri, fiziki və zehni problemləri müalicə etmək və onu inteqrativ müalicə ilə yüngülləşdirmək, "sağlam yaşamaq" anlayışını genişləndirmək, yeniləmək və gəncləşdirmək;
- Yaşlılara reabilitasiya və qulluq xidmətləri göstərərək uzun ömür yaşamaq inanclarını artırmaq;
- İnsanların həyatını fiziki və intellektual rifah üçün yönəltmək.

Sağlamlıq keyfiyyətinə üstünlük verən "Uzunömürlü kəndləri" xüsusən orta yaşlı və yaşlı fərdlərə xidmət, gecələmə və müalicə imkanları təklif edir.

Avropada müalicə xərclərinin önümüzdəki illərdə əhəmiyyətli rəqəmlərə çatması gözlənildiyi üçün bəzi ölkələr profilaktik sağlamlıq yanaşmalarını dəstəkləyən fəaliyyətə üstünlük verirlər. Bu səbəbdən bir sıra Avropa ölkələri 65 yaşdan yuxarı vətəndaşlarını və turistləri İspaniya, Fransa, Türkiyə kimi ölkələrə yönəldir. Bu ölkələrin istirahət və termal mərkəzlərində 7-30 gün arasında reabilitasiya xidmətlərindən yararlanırlar. İspaniyada "Aktiv Yaşlanma Proqramı" strategiyası həyata keçirilir. Bu strategiya həm turistləri ictimai həyatda fəal iştirak etmək üçün cəlb etmək, həm də aşağı mövsümdə turizmi canlandırmaq məqsədini daşıyır. Tarixi və ekzotikliyi ilə seçilən təbiət ərazilərindən bu proqram daxilində geniş istifadə olunur. Mövcud proqram çərçivəsində xərclənmiş hər 1 avro 1,8 avro olaraq geri qayıdır. Kurort təyinatlı

hotellərdə bu xidmətlər aralıq mövsümlərdə tətbiq edildiyinə görə müəssisənin rentabelliyinin saxlanılmasına imkan verir. “Üçüncü yaş turizmi” proqramı çərçivəsində Çilinin sağlamlıq turizmi sahəsində atdığı addımlar ölkənin Milli Turizm Xidməti tərəfindən dəstəklənir. Bu proqrama əsasən tur paketlərinin qiymətləri aşağı, orta və pik mövsümlərdə dəyişir ki, bu da müxtəlif seqmentləri əhatə edir. Paketlərə nəqliyyat (avtobus - təyyarə), yaşayış yeri, tam pansion yemək, istirahət və turlar, ekskursiyalar, səhiyyə və səyahət sığortası daxil edilir.

## 1.6. Sağlamlıq turizmi müəssisələrində marketinq fəaliyyəti

### 1.6.1. Sağlamlıq turizmində brendin əhəmiyyəti

Sağlamlıq xidmətləri sahəsində marketinq fəaliyyətlərinə 1970-ci illərdə rəsmi olaraq başlanılmışdır. Evanston Hospital 1976-cı ildə geniş səlahiyyətlərə sahib bir marketinq meneceri təyin etdiyini iddia etsə də, bu sahədə çalışan bir çox mütəxəssis Philip Kotlerin bir neçə il sonra səhiyyə marketinqində çıxan “Qeyri-kommersiya Təşkilatları üçün Marketinq” nəşrinə müraciət edir. Bu gün bildiyimiz marketinq hələ 1970-ci illərin sonunda xəstəxanalarda istifadə edilmirdi.

Bu məqsədlə digər müəssisələrdə olduğu kimi sağlamlıq təşkilatları da marketinq fəaliyyətlərində brend texnikası adlanan tətbiqetmədən istifadə etməyə başladılar. Brend – sağlamlıq sahəsindəki rəqabət üstünlüyünü qorumaq üçün istifadə edilən yeni bir konsepsiyadır. Ənənəvi olaraq, marketinq səhiyyə müəssisələrində digər idarəetmə ehtiyaclarını dəstəkləməyə xidmət edir. Əvvəllər xəstələr həkimləri və ya sağlamlıq planları (sığortaları) xəstəxana ilə əlaqəli olduğundan xəstəxanalara müraciət edirdilərsə, günümüzdə xəstələrin xəstəxana seçimləri bir qurumun digərinə nisbətən daha keyfiyyətli bir xidmət təqdim etməsi prinsipinə əsaslanır. Daim inkişaf edən texnologiya müştəri seçimini dəstəkləyir və xəstəxanalara yerləşdikləri yüksək rəqabət mühitində müvəffəqiyyətlərini qorumaq üçün özlərini brend olaraq tanıtmağa məcbur edir.

Sağlamlıq sektorunun əsas xüsusiyyətləri müştərilərin rəyi, göstərilən xidmətlərin keyfiyyəti, texniki təchizat, həkim personalı, etibar faktoru, müştərilərin anonimliyi və s. amillərin nəzərə alınmasıdır. Texniki məlumatlar səhiyyə sektorunda geniş istifadə olunduğundan istehlakçılar üçün müəssisələr arasında müqayisə aparmağa imkan verir. Buna görə də səhiyyə müəssisələrinin brend ilə istehlakçılara keyfiyyətli xidmət göstərməsi təsəvvürünü yaratmaq lazımdır. Xüsusilə vacib xəstəliklər və müalicələr üçün keyfiyyətli xidmətlər axtaran xəstələrin sayı daha çoxdur. Sağlamlıq sektorunun brendləşdirilməsi müştərilərə inam bəxş etdiyi və müəyyən bir keyfiyyət səviyyəsini təmsil etdiyi üçün istehlakçı məmnuniyyətini artırır.

Brendlər müştərilərinin axtarış proseslərinə kömək edərək dəyər yaradır. Düzgün seçim etmək çox vaxt risklidir. Buna səbəb məhsullar yeni və mürəkkəbdir və ya müştəri əvvəllər belə bir seçim etməmişdir. Alıcı alternativlərə vaxt ayırmağa hazır olsa da məhsullarla bağlı qərar vermək çətin ola bilər. Onların bir çoxunun “təcrübədən sonra” qiymətləndirilməsi lazımdır. Bununla birlikdə bəzi məhsul və xidmətləri satışdan sonra da qiymətləndirmək çətindir. Məsələn, tibbi nəzarətin keyfiyyəti və ya aparılan bir araşdırma xidmət alındıqdan dərhal sonra görünmür. Bu növ məhsul və xidmətlərin yüksək “inandırıcı” keyfiyyətə sahib olduğu deyilirsə, onları qəbul etmək artıq inamın nəticəsidir.

Tibbi xidmətdə çox güclü bir marka olaraq bilinən xəstəxanalar və həkimlər xəstələrin düşüncəsində böyük bir yer tutur. Xəstəxana markası qiymət, müştəri xidməti, işçilərin davranışı və obyekt görünüşü kimi fərqli və yadda qalan adyaratma xüsusiyyətləri ilə müəyyən edilə bilər. Bununla birlikdə sağlamlıq müəssisələrində marketinq işçiləri tez-tez brend anlayışından sui-istifadə edirlər. Ümumiyyətlə bunları loqotiplər və şüarlar şəklində sadəcə korporativ ad və imicin yayılması kimi düşünürlər. Nəticədə əksər sağlamlıq müəssisələri əsas brend anlayışını başa düşə bilmirlər.

Bu vəziyyətdə sağlamlıq kimi fasiləsiz xidmət göstərməli olan səhiyyə müəssisələri xəstələrinin xəstəxana ilə əlaqələrinin necə başladığından xəbərdar olmalıdırlar. Səhiyyə müəssisələrində markalaşmanı təmin edəcək müxtəlif tədbirlər və qərarlar var. Bu qərarları sistemli və şüurlu şəkildə qəbul etmək brendləşmənin uğurunu artırır. Bu fəaliyyətlər və qərarlar arasına güclü bir brend yaratmaq, rəqiblərdən fərqli olmaq, müəyyən sahələrdə məşhur olmaq, brendin işçilər və menecerlər tərəfindən mənimsənilməsi, insan resursları fəaliyyətləri, ünsiyyət və marka liderliyi daxildir. Bunlar kompleks şəkildə tətbiq olunur ki, onlardan birini yerinə yetirmək natamam və ya qeyri-kafi olarsa, digər fəaliyyət və qərarların effektivliyini azaldar.

Ölkələrin sağlamlıq turizm sahəsində brendləşməsi digər məhsul və xidmətlərdən daha çətindir. Bu səbəbdən sağlamlıq turizmindəki markalaşma prosesi sağlamlıq və turizm kimi iki vacib anlayışın özünəməxsus xüsusiyyətlərini nəzərə alaraq qiymətləndirilməsini zəruri edir. Güclü bir destinasiya brendi yaratmaq üçün izləniləcək addımlar aşağıdakı kimi göstərilə bilər:

- Güclü bir brendin təməli ola biləcək yerlərinin müəyyən edilməsi;
- Sadə, cəlbedici, inandırıcı və fərqli bir imicin dizaynı;
- Bütün brend fəaliyyətlərini əhatə edəcək konsepsiyasının müəyyənləşdirilməsi;
- Yaddaqalan bir şüar seçilməsi;
- Tanınmış simvollardan istifadə (Biq Ben (London), Eyfel qülləsi (Paris), Azadlıq heykəli (Nyu York) və s.).

Sağlamlıq xidmətlərində brend destinasiyalar iki istiqamətdə formalaşır:

- Destinasiya üzrə brendin təmsil olunması;
- Onun funksional ölçüsü.

Funksional ölçüyə ölkənin turistik yerləri, günəş, dəniz, mədəniyyət və s. daxildir. Brendin təmsil olunması ölçüsünə isə, destinasiyaya görə seçim edib və buraya səyahət edən şəxslər aiddir. Burada vurğu brendin yaratdığı əlavə dəyər elementidir. Destinasiya seçimi bugünkü müştəri üçün çox əhəmiyyətli bir prestij göstəricisinə çevrilmişdir.

**QRAFİK 8. Destinasiya brendinin işləmə prosesi**




Destinasiya brendinin işləmə prinsipi destinasiya tərəfindən yaradılan və istehlakçılar tərəfindən qəbul edilən münasibətlərin cəmidir. Xüsusilə idarə edilə bilməyən mənbələrdən daxil olan informasiyalar destinasiya brendinə xələl gətirməkdə və ya onun üstünlüklərini vurğulamaqda böyük rol oynayır.

Destinasiyalar müxtəlif məqsədlər üçün brendləşməyə üstünlük verir. Turizm ziyarətçiləri, iş dünyası üçün investorlar, ixtisaslı işçi qüvvəsi, təhsil üçün tələb olunan yer olmaq kimi məqsədlər markalaşma yolunu seçir. Bu halda seçilən hədəfə uyğun fərqli strategiyalar həyata keçirilir. Bir destinasiyanın brendləşmə səylərinə aşağıdakılar aiddir:

1. Bölgənin nə olduğunu ortaya qoyan və bənzər olanlardan fərqləndirən ad, simvol, loqo və ya digər qrafik dizaynlar hazırlamaq;
2. Bölgə ilə bağlı gözləntiləri inteqrasiya olunan unudulmaz bir səyahət təcrübəsinə çevirmək;
3. Bölgə ziyarətçisi və bölgə haqqında məlumat axtaran insanların xərclərini və qəbul olunan risklərini azaltmaq.

Dünya sağlamlıq turizmində rol oynayan əsas destinasiyalar yeritdikləri brendləşmə səyləri əsasında uzun müddətdən sonra müştərilər tərəfindən qəbul edilmişdir.

**CƏDVƏL 5. Dünya sağlamlıq turizmində rol oynayan əsas destinasiyalar (2017-ci il)**

| | | | |
|---|---|---|---|
| 1. Hindistan | 10. Kosta Rika | 19. İngiltərə | 28. İsrail |
| 2. Tayland | 11. Polşa | 20. Avstraliya | 29. Yaponya |
| 3. Sinqapur | 12. Səud. Ərəbistanı | 21. Kuba | 30. İordaniya |
| 4. ABŞ | 13. İsveçrə | 22. Fransa | 31. Mərakeş |
| 5. Malayziya | 14. Argentina | 23. Panama | 32. Yeni Zelandiya |
| 6. Almaniya | 15. BƏƏ | 24. Filippin | 33. Cənubi Koreya |
| 7. Meksika | 16. Türkiyə | 25. Belçika | 34. Tayvan |
| 8. CAR | 17. Çin | 26. Karib adaları | 35. Tunis |
| 9. Braziliya | 18. İspaniya | 27. Macarıstan | |

**MƏNBƏ:** *https://www.igeme.com.tr/dunyada-saglik-turizmi-ulke-ornekleri/*

### 1.6.2. Destinasiyanın brendləşməsi

Destinasiya yerinin turistlərə təqdim edəcəyi imkanlar və tanıtım fəaliyyətindəki hədəf auditoriyaya ünvanlanan mesaj nəticəsində yaranan təcrübələrin birləşməsi ilə formalaşır. Buna görə də destinasiyanın brendləşməsi xidmət keyfiyyəti və reklam fəaliyyətinin birləşməsi şəklində ifadə edilə bilər.

Sağlamlıq turizmində destinasiyanın markalaşma səyləri ilə əlaqəli tətbiqetmələrə əlavə olaraq güvən hissinin də aşılanması çox vacibdir. Sağlamlıq müəssisəsi və səhiyyə işçilərinin vərdişlərinin insan həyatı üçün son dərəcə vacib olması bu sahənin digər turizm növləri arasında fərqli bir mövqeyə qoyur. Bu vəziyyət sağlamlıq turizminə olan inam hissinin daha çox sorğulanmasına səbəb olur. Bu etibarı təmin etmək üçün sağlamlıq turizmində rəqabət üstünlüyünə sahib olmaq istəyən ölkələr və təşkilatlar onun keyfiyyətini və etibarlılığını sübut edərək beynəlxalq akkreditasiya qurumlarından sertifikatlar ala bilərlər.

“Medical Travel Quality Alliance” tərəfindən tibbi turistlər üçün seçilən dünyanın ən yaxşı 10 xəstəxanası göstərilir. “Medical Travel Quality Alliance” tərəfindən edilən qiymətləndirmədə istifadə edilən meyarlar aşağıdakılardır:

1. tibbi keyfiyyət və nəticələr;
2. beynəlxalq rabitə və idarəetmə;
3. beynəlxalq xəstələrin marketinqi;
4. xidmətlərin dəyəri;
5. xəstələrin təhlükəsizliyi və digər təhlükəsizlik tədbirləri;
6. şəffaflıq;
7. digər vacib ehtiyaclara diqqət;
8. veb sayt istifadəsi və sosial şəbəkələrdə aktivlik;
9. rəhbərlik və ortaqlıqlar;
10. birliklər və xarici dəstək.

**CƏDVƏL 6. 2017-ci ilin ən yaxşı 10 xəstəxanası**

| | Xəstəxananın adı: | Ölkə |
|---|---|---|
| 1 | Asklepios Klinik Barmbek | Hamburq, Almaniya |
| 2 | Clemenceau Medical Center | Beyrut, Livan |
| 3 | Fortis Hospital Bannerghatta | Banqalor, Hindistan |
| 4 | Gleneagles Hospital | Sinqapur |
| 5 | Prince Court Medical Center | Kuala Lumpur, Malayziya |
| 6 | Shouldice Hospital | Toronto, Kanada |
| 7 | The Specialty Hospital | Əmman, İordaniya |
| 8 | Samitivej Hospital | Banqkok, Tayland |
| 9 | Christus Muguerza Super Specialty Hospital | Monterrey, Meksika |
| 10 | Anadolu Medical Center | İstanbul, Türkiyə |

**MƏNBƏ:** *https://worldsbesthospitals.net/*

Sağlamlıq turizmi baxımından güclü brendin ən vacib elementlərindən biri sağlamlıq turizmi üçün gələn şəxsin xidmətdən sonra ölkəsinə qayıtmasıdır. Buna görə ölkəsinə məmnuniyyətlə qayıdan hər bir turist brendi gücləndirir. Sağlamlıq turizmi daxilində ölkələrin seçilməsində təsirli olan bir sıra amillər var. Bu amillər sağlamlıq turizmi sahəsində ölkələrin brendləşməsi prosesinə əhəmiyyətli təsir göstərir.

Tibbi turizm tələbatında ən vacib amil müalicəyə ehtiyacdır. Bu ehtiyac yarandıqdan sonra bu sektordakı ölkələrin və xəstəxanaların dünya bazarında yer tutmaq şansı formalaşır. Bundan sonra tibbi turizmdə iştirak edəcək şəxsin hansı ölkəni (iqtisadi, siyasi şərtlər, məsafə, birbaşa uçuşlar), hansı xəstəxananı (xərc, akkreditasiya, imic, təcrübə) və hansı həkimi (ixtisas, məsləhət, nüfuz) seçəcəyi gəlir. Modelin tədarük tərəfi, tələbatı ödəyəcək xəstəxananın kifayət qədər işçi qüvvəsinə və tibbi texnologiyaya sahib olmasıdır. Burada xüsusən xəstəxanaların akkreditə olub-olmaması, işçilərin xarici dil bilikləri, xəstəxananın yerləşdiyi bölgəyə birbaşa uçuşlar, sığorta şirkətləri ilə marketinq strategiyalarının inkişafı, ölkədə keçirilən təbliğat və kampaniyalar tibbi turizmin inkişafına təsir göstərə bilər.

Sağlamlıq təşkilatlarının markalaşma prosesindən əldə edilən təcrübələr, yavaş irəliləmə, rahatlıq, rəqiblərin nəzərə alınması, öhdəlik və dəyərlərin açıqlanması yeni nəticələr çıxarmağa imkan verir. Sağlamlıq turizmində bunlara əlavə olaraq destinasiyanın brendləşməsi üçün ilkin şərtlərə gedəcəyi yeri təyin edən və fərqləndirən ad, simvol, loqo və s. elementlərin yaradılması, destinasiya ilə əlaqəli unudulmaz səyahət təcrübələri yaratmaq və turistlə destinasiya yeri arasında emosional əlaqənin yaradılması aiddir.

Ölkələrin reklam fəaliyyətində istifadə etdikləri bir loqo var. Reklam fəaliyyətlərində təsirli, sadə, cəlbedici və fərqli olmaq üçün ölkə loqotipləri ilə yanaşı şüarlar və vizual simvollardan da istifadə olunması vacibdir.

Yeni bir brend strategiyası hazırlayarkən rəqiblərin markalarını və gələcək istiqamətlərini anlamaq lazımdır. Brend dəyəri yaratmaq orijinal, məqsədyönlü və tutarlı olmalıdır. Brend strategiyasında bacarıqları ortaya qoymadan əvvəl rəqiblərin marka mövqelərindən və gələcək niyyətlərindən əmin olmaq lazımdır. Brendin mövqeyini unikal edib, vədləri rəqiblərdən daha yaxşı yerinə yetirmək vacibdir.

Brendləşmə prosesindəki digər vacib məqam markaya sadiqliyin təmin olunmasıdır. Bu səbəbdən brendin əsas maraqlı tərəfləri arasında uyğunluq əldə edilməlidir. Turistin destinasiyadan razı qalması təmin edilməli və nəticədə ölkə ilə turist arasında müsbət münasibətlər qurulmalıdır. Markaya olan marağı da əhatə edən emosional səbəblər və (emosional bağlılıq); digəri isə rəqib markalarla müqayisədə risk və ya qəbul olunan performans dəyişiklikləridir (hesablanmış inanc). Bir müştərinin sadiqliyi qiymətlərin artmasına rəğmən yenə də bu brendə üstünlük verməsi deməkdir.

Sağlamlıq turizmi beynəlxalq sektor olduğu üçün bu sahədə rəqabət yüksəkdir. Buna görə də keyfiyyəti artırmaq, beynəlxalq standartlara sahib olmaq, yenilik və trendləri izləmək, qazanc əldə etmək üçün turizm məhsullarını yaxşı bir şəkildə bazara çıxarmaq və brendləşmək vacib amildir. Sağlamlıq turizmi, yalnız tibbi müalicə almaq üçün planlı fəaliyyəti deyil, həm də termal sağlamlıq müəssisələrində reabilitasiyanı və yaşlılara qayğı mərkəzlərində xroniki xəstəliklərin müalicəsini əhatə edir. Tibbi turizmin brendləşməsinə görə fərqlənən bəzi ölkələrin təcrübələri haqqında məlumatlar aşağıda verilmişdir:



**Almaniya** Avropanın əsas sağlamlıq bölgələrindən biri olaraq qəbul edilir. İngiltərədən və ABŞ-dan olan tibbi turistlər yüksək səviyyəli tibbi yardım və texniki üstünlük təmin edən xəstəxanalara görə Almaniyaya gəlirlər. Bundan əlavə Almaniyada gözləmə müddəti İngiltərə, Kanada və İrlandiyadan azdır. Almaniya üçün ərazi üzrə brendləşdirmə siyasətinin əsasını dövlət nəzarəti altında xəstəxanalarda keyfiyyətli xidmətin təqdim olunması, yüksək ixtisaslı kadrlardan istifadə və bəzi ölkələrlə müqayisədə müalicə üçün daha az gözləmə müddətinin olması təşkil edir.



Xarici xəstələr üçün ikitərəfli siyasət qəbul edən **Amerika** səhiyyə sektoru bir tərəfdən sağlam turistləri öz ölkəsinə çəkir, digər tərəfdən də başqa ölkələrdə sağlamlıq infrastrukturlarını quraraq müalicə və xidmətləri xəstənin ayağına gətirir. Əslində bu məqsədlə xarici xəstələri cəlb etmək üçün qurulmuş icraetmə komitəsi, Philadelphia International Medicine (PIM) xaricdə sağlamlıq xidmətləri göstərmək üçün xarici investorlara müraciət edir. ABŞ tərəfindən Cənubi Koreyada 860 milyon dollar ödənilərək ümumi bir xəstəxananın qurulması buna misal ola bilər.



**Meksika** son illərdə ABŞ vətəndaşları üçün səhiyyə baxımından üstünlük verilən bir məkan olub. Aşağı səyahət xərcləri və coğrafi yaxınlıq ABŞ və Kanada vətəndaşları üçün rahatlıq yaradır. Bundan əlavə, amerikalılar tibbi müalicəyə ayrılan vəsaitə qənaət etmək üçün Meksikaya üz tuturlar. Meksikada gözləmə vaxtı problemi yoxdur. Buradakı bəzi yeni müasir xəstəxanalar dünyanın ən yaxşıları ilə müqayisə edilə bilər. Bir çox amerikalı artıq çəkidən qurtulmaq və diş implantları üçün Meksikaya quru yolu ilə səyahət edə və eyni gündə geri dönə bilir. Kaliforniya Universitetinin tədqiqatçıları tərəfindən 2018-cu ildə aparılan araşdırmada Kaliforniyadan hər il təxminən iki milyon insanın Meksikada tibbi yardım almaq üçün səfər etdiyi müəyyən edilmişdir. Ölkədəki 9 xəstəxana JCI sertifikatına malikdir. Meksika tibbi, səyahət xərcləri və coğrafi yaxınlıq baxımından Amerika subregionunda üstünlüyə malikdir və tibbi turizmdə brend ölkələr siyahısına daxil olmuşdur.



**Hindistan**da 1990-cı illərin ortalarından başlayaraq sağlamlıq turizminin liberallaşma siyasəti ilə tibbi turizm investisiyalarının həcmi sürətlə artmışdır. Hindistan tibbi turizm çərçivəsində daha təsirli bir şəkildə fəaliyyət göstərə bilmək üçün xüsusi bir viza statusu (M-viza) təyin etdi. Bu çərçivədə tibbi turizm vizası olan turistlərin bir ilə qədər ölkədə qalmasına icazə verilir. Bundan əlavə, xarici tibb işçiləri üçün ayrıca viza proseduru təyin edilərək beynəlxalq səviyyəli həkimlərin təcrübələrindən yararlanmaq imkanı əldə edilmişdir. Hindistan əlverişli qiymətlərlə yüksək keyfiyyətli səhiyyə xidmətlərini birləşdirərək sağlamlıq turizmi bazarında rəqabət qabiliyyətini artırdı. Hindistan kardiologiya, plastik cərrahiyyə, oynaqların müalicəsi və diş implantı sahələri üzrə tibbi turizm destinasiyası kimi brendləşmişdir. Hindistanda son illər tətbiq olunan "Ayurveda" kimi alternativ müalicə metodlarının müasir tibblə birləşdirilməsi ölkənin sağlamlıq turizmi üçün cəlbediciliyini artırmışdır.



**Tayland**dakı xəstəxanalar və digər səhiyyə müəssisələri yüksək standartlara malikdir. 2002-ci ildə Asiyada ilk dəfə JCI akkreditasiyasına sahib olan Tayland nəhəng turizm infrastrukturu, əla yemək təklifləri və mehriban insanları sayəsində dünyanın ən sevimli turizm yerlərindən biri olmuşdur. Taylandda 500-dən çox həkim və cərrah beynəlxalq səviyyəli American Board sertifikatına sahibdir. Bununla yanaşı, aşağı müalicə xərcləri, gözləmə siyahılarının olmaması, ən son tibbi texnologiyaya, bu sahədə olan xidmətlərə əlçatanlıq və 35 xəstəxananın JCI sertifikatına sahib olması ölkənin tibbi turizm üzrə brend olaraq formalaşmasını təmin etmişdir.



**Türkiyə**nin Sağlamlıq Turizmi Departamenti müalicə-sağlamlıq xidmətlərində hədəf olaraq "tibbi turizmdə dünyanın ilk 5 ölkəsi arasında olmaq" məqsədi qoymuşdur. Türkiyədə sağlamlıq turizmi Onuncu İnkişaf Planında təqdim olunan vacib hədəflər:

- Termal turizmdə 100 000 yataq tutumu yaradılması və 1 500 000 xarici turistə xidmət;
- Tibbi turizm sahəsində dünyanın ilk 5-liyi arasına daxil olmaq;
- Üçüncü yaş turizmində 10 min yataq tutumunun yaradılması;
- Xəstəxanalardakı yüksək keyfiyyətli infrastruktur və avadanlıq quraşdırılması;
- Avropa standartlarına bərabər olan təcrübələrin tətbiqi;
- Həkimlərin və səhiyyə işçilərinin təcrübələrinin artırılması və digər ölkələrdə təhsil imkanlarının yaradılması;
- Keyfiyyətli turizm menecmenti;
- Yaxşı bilinən türk qonaqpərvərliyinin aşılanması;
- ABŞ və Avropa ölkələri başda olmaqla bir çox ölkələrə nisbətən daha əlverişli qiymət təklifi və əməliyyatlar üçün uzun müddət gözləmələrə icazə verməmək,
- Viza müraciətində rahatlığın təmin edilməsi,
- JCI tərəfindən akkreditə olunmuş çox sayda xəstəxanalara sahib olmaq;
- Keyfiyyətli səhiyyə xidməti göstərən həkimlərin "American Board" Sertifikatı alması.




**Çexiya** və **Slovakiya**da son illərdə inkişaf edən terapevtik spa mərkəzləri yaradılmışdır. İki ölkənin 60 terapevtik termal mərkəzi vardır ki, burada ildə 500 minə yaxın turistə sağlamlıq xidməti göstərilir. Sığorta şirkətləri, həkim rəyi olması şərtilə müalicə xərclərini tam və ya qismən qarşılamaqla bu ölkələrin termal sağlamlıq turizmində ön plana çıxmasına səbəb olmuşdur.

# 2. AZƏRBAYCANDA SAĞLAMLIQ TURİZMİ

## 2.1. Azərbaycanda sağlamlıq turizminin inkişafı tarixi

Azərbaycanda sağlamlıq turizminin inkişafı tarixi 12-ci əsrdə Naftalan müalicəvi neftindən istifadə ilə başlayır. Naftalan neftindən müalicə məqsədilə karvan yollarının kənarında yerləşən Gülüstan, Goranboy yaşayış məntəqələrinin yaxınlığında müalicə vannaları fəaliyyət göstərmişdir. İpək yolunun iki istiqamətinin buradan keçməsi Naftalan müalicəvi neftindən istifadə edənlərin sayını artırmışdır.

Azərbaycanda 19-cu əsrin ikinci yarısından başlayaraq Naftalan nefti ilə yanaşı müxtəlif mineral və termal su mənbələrindən istifadə olunmağa başlanmışdır. Naftalan neftinin tərkibinin elmi əsaslarla öyrənilməsi, müalicəvi xüsusiyyətlərinin araşdırılması 19-cu əsrin sonlarına təsadüf edir. Həmin dövrdə Gəncə yaxınlığında çar Rusiyasının xüsusi sərəncamı ilə 20 vannadan ibarət müalicə mərkəzi tikilmişdir. Azərbaycanda termal sulardan istifadə olunması 19-cu əsrin sonuna təsadüf edir. Bu vaxt rus zabitlərinin müalicəsini təşkil etmək məqsədilə Lənkəran, Şuşa, Zaqatalada ilk müalicə vannaları istifadəyə verilmişdir. Şuşada olan belə müalicə mərkəzi rus zədaganlarının istirahət mərkəzi kimi məşhurlaşmışdır.

Azərbaycanda ilk sanatoriya 1922-ci ildə Mərdəkanda tikilib. Sonradan Bilgəh, Şüvəlan, Naftalan və Masallıda az tutumlu olsa da, müalicə sağlamlıq mərkəzləri inşa olunaraq istifadəyə verilir. Naftalanda ilk 340 yerlik müalicə sanatoriyası 1926-cı ildə tikilib. Bu həmin dövr üçün keçmiş SSRİ ərazisində ən böyük müalicə-sağlamlıq müəssisəsi sayılırdı.

Azərbaycan 20-ci əsrin 50-90-cı illərində sanatoriyaların sürətli tikintisi ilə seçilmişdir. Kəlbəcərdə İstisu və Naftalanda olan sanatoriyalar ümumi ölkə əhəmiyyətli mərkəzlərə çevrilmişdir. 1970-85-ci illərdə ölkədə sanatoriya-kurort müəssisələrinin sayı 26-a çatdırılmış, nömrə fondu isə 12 500-ü ötmüşdür. Naftalan, Kəlbəcər, Şuşa, Abşeron, Lənkəran, Masallı, Qax, Culfa, Babək və digər bölgələrdə də sanatoriyalar fəaliyyət göstərmişdir.

Müstəqillik dövründə sanatoriyalardan qaçqınlar və məcburi köçkünlərin yerləşdirilməsi üçün istifadə olunmuş və müharibə şəraitində onların fəaliyyəti məhdudlaşdırılmışdır. 2000-ci ildən sonra sanatoriyalar öz imkanlarının az bir hissəsini bərpa edə bilmişdir. Ölkədə iqtisadi stabilliyin yaranması, əhalinin gəlirlərinin artması müalicə-sağlamlıq turizminə tələbatı artırmışdır. Həmçinin Kurortların İnkişafı Haqqında Dövlət Proqramına uyğun olaraq Həmkarlar Təşkilatının tabeliyində olan "Bilgəh", "Abşeron", "Şıx", "Qaranquş", "Günəşli" sanatoriyaları bərpa olunmuşdur. Ölkədə dövlət proqramlarına uyğun olaraq güzəştli kreditlər əsasında Naftalanda yeni sağlamlıq mərkəzləri tikilib istifadəyə verilmişdir.

Ölkədə sağlamlıq turizm üzrə əsas müştəri seqmenti ölkə vətəndaşları olaraq qalır. Belə ki, ölkədə müalicə-sağlamlıq xidmətlərindən istifadə edənlərin sayı 200 min nəfərə yaxındır ki, bununda 63,9 min nəfəri xarici turistlərdən ibarətdir. Müalicə-sağlamlıq turizm xidmətlərindən istifadə edənlərin 68%-i ölkə vətəndaşlarından ibarətdir.

Ölkə vətəndaşları Həmkarlar Təşkilatının güzəştli yollayışlarından yararlanmaqla birlikdə fərdi sağlamlıq xidmətləri təklif edən müasir kurort mərkəzlərinə də gedirlər. Ölkədə ənənəvi güzəştli yollayışlar (putyovka) əsasında sanatoriyaların müalicə xidmətlərindən istifadə olunması dövlət və özəl müəssisələrdə

çalışanların Kurort Səhmdar Cəmiyyətinin tabeliyində olan müalicə-sağlamlıq müəssisələrindən istifadəsinə imkan verir.

Sağlamlıq turizmindən istifadə edən xarici turistlərin əsas hissəsi MDB məkanından gələn qonaqlardan ibarətdir. Bunlar arasında Rusiya, Qazaxıstan, Ukrayna, Belarus, Özbəkistan vətəndaşları Azərbaycandakı sağlamlıq turizm xidmətlərindən daha çox yararlanır. Qeyd olunan seqment müalicə-sağlamlıq xidmətlərinə üstünlük verməklə, ənənəvi olaraq daha çox Naftalan kurortlarını seçirlər. Eyni zamanda, MDB ölkələrindən gələn qonaqların bir hissəsi "Qalaalti Hotel & Spa", Duzdağ və Abşeron sanatoriyalarını seçirlər. Bu seqment üçün sağlamlığın bərpası əsas tələb olmaqla yanaşı, xidmətlərin sayı və keyfiyyəti də önəmli hesab edilir.

## 2.2. Azərbaycanda sağlamlıq turizmi potensialınınqiymətləndirilməsi

Təbii müalicə ehtiyatlarına malik Azərbaycan bu ehtiyatlardan bərpa, profilaktika və müalicə məqsədi ilə istifadə etmək üçün zəruri şərait də yaradıb. Azərbaycanın ərazisi kurortlarla zəngin olan ölkələrdən biridir və həm istirahət, həm də müalicəni təmin edən müəssisələr (sanatoriyalar, istirahət evləri, pansionatlar, balneoloji və palçıq müalicə ocaqları, kurort poliklinikaları, bərpa mərkəzləri və s.), sanatoriya mühafizə zonaları və digər kurort infrastrukturunun təşkili üçün hər cür imkan var.

Ölkənin milli təbii sərvətləri sırasında kurort ehtiyatları (mineral sular, müalicəvi palçıqlar, iqlim və s.), həmçinin onun infrastruktur sahələri iqtisadi və sosial əhəmiyyətə malikdir. Təbii müalicə resursları kurortun ixtisaslaşma istiqamətlərini, ehtiyatları isə onun təminatını müəyyən edir. Bu ehtiyatların müalicə-sağlamlıq turizmi məqsədilə istifadəsinin mümkünlüyü cəlb olunan iqtisadi amillərin (maliyyə, istehsal, kadr və s.) təminatı ilə ölçülür. Təbii kurort-sağlamlıq resurslarından istifadə etməklə xroniki xəstəliklərin müalicəsi, kliniki müalicədən sonra pasiyentlərin bərpası, həmçinin sağlamlığın bərpası və profilaktikası, rekreasiya tədbirləri əldə etmək olar. Belə təbii müalicə ehtiyatlarına mineral sular, müxtəlif növ palçıqlar, Naftalan nefti, yodlu-bromlu, duzlu göllər, iqlim-landşaft, qumlu çimərliklər və s. aiddir. Kurort ehtiyatlarının təsnifatında insanın sağlamlığı üçün lazım olan bütün landşaft və balneoloji amillərin cəmi nəzərə alınır. Bunlar aşağıdakı xüsusiyyətlərinə görə qruplaşdırılır:

- Landşaft-iqlim xüsusiyyətləri;
- Balneoloji ehtiyat potensialı;
- Naftalan müalicəvi nefti və palçıq vannaları;
- Müalicə-sağlamlıq turizmində istifadə üçün əlverişlilik;
- Ərazinin mənzərə müxtəlifliyi və ekoloji xüsusiyyətləri.

Qeyd olunan xüsusiyyətlərin əsas göstəriciləri insanların sağlamlığının bərpası və mövcud texnologiyalardan istifadənin mümkünlüyünü nəzərə almaqla bərpa proseslərinə daxil edilir.

### 2.2.1. Azərbaycanda balneoloji ehtiyat potensialı

Balneoloji ehtiyatlar sanator-kurort müəssisələrində başlıca müalicə amillərindən sayılır. Bütün mineral və termal suların təsnifatı və istifadə edilməsi balneoloji kurortlara aid edilir. Dünyada qəbul olunan səkkiz qrup mineral suyun ölkəmizin ərazisində, demək olar ki, hamısına rast gəlinir.

Azərbaycanın mineral su mənbələrində temperatur 4-64° C təşkil edir. Qarla örtülü Şahdağ, Xınalıq, Tufandağ yaxınlığında yerləşmiş mineral su mənbələri ən aşağı temperatura malikdir. Azərbaycanda temperaturu daha yüksək olan mineral mənbələr Masallı rayonundakı Qotursu, Donuzütəndir. Mineral suların temperaturunun insan orqanizminə təsirini, müalicə məqsədilə yararlı olması və istifadəsini, mənbənin özünün təbii şəraitinin səciyyəsini nəzərə alaraq, bu sular temperatur göstəricilərinə görə CƏDVƏL 7-dəki kimi qruplaşdırılır.

**CƏDVƏL 7. Azərbaycanda mineral müalicəvi suların təsnifatı**

| Qruplar | Temperaturuna görə | Mənbələrin sayı | Kimyəvi tərkibi | Yayıldığı ərazilər |
|---|---|---|---|---|
| Soyuq | 0-17 | 31 | Karbon qazlı | Naxçıvan, Gədəbəy, Tovuz |
| Sərin | 7-12 | 133 | Hidro-karbonatlı və karbon qazlı | Şuşa, Laçın Gədəbəy, Daşkəsən |
| Mülayim | 12-20 | 140 | Natrium-xloridli və hidrokarbonatlı | Şəki-Zaqatala, Dağlıq Şirvan, Quba-Xaçmaz bölgələri |
| İsti | 20-37 | 157 | Hidrogen sulfidli, metan qazlı və kükürdlü | Abşeron, Nabran, Talış zonası |
| Qaynar | 37-40 | 36 | Sulfidli, azotlu və kükürdlü | Abşeron, Talış, Kəlbəcər |
| Çox qaynar | 42-64 | 110 | Kükürdlü, radonlu qazlı sular | Lənkəran-Talış zonası |

**MƏNBƏ:** *Soltanova H.B., Qasımov M.S., Ağasiyev Ə.R. Azərbaycanın kurort təsərrüfatı. Bakı 2017, 215 s.*

### 2.2.1.1. Azərbaycanda mineral suların növləri və onların xüsusiyyətləri

Azərbaycanda tam və dadına görə fərqlənən mineral suların bir neçə növü var:

- turşsular – Badamlı (Babək), Slavyanka və Çayqarışan (Gədəbəy)
- acı sular – Acıbulaq (Ağstafa), Kizilvank (Babək)
- duzlu sular – Tuq (Şuşa)
- duzlu-acı sular – Alaşa (Masallı), Meşəsu və İbadisu (Lənkəran)

Mineral su mənbələri çox mürəkkəb duz və qaz tərkibinə malikdir. Məlumdur ki, təbiətdə bu və ya digər dərəcədə qaz komponentləri və qarışıq mineral maddələri olmayan su mənbələri yoxdur. Mineral sular qaz tərkibinə görə bir sıra qruplara bölünür:

- **Karbonlu mineral sular** bütün ölkədə tədqiq olunmuş müalicəvi su mənbələrinin 35%-dən çoxunu əhatə edir. Bu müalicəvi suların tərkibində karbon qazının miqdarı 250-300 mq-a qədər dəyişir. Ölkəmizdə karbonlu mineral sular ancaq Kiçik Qafqaz və Naxçıvan MR ərazisində yayılmışdır. Belə sulara misal olaraq məşhur Nəhacir (Ordubad), Badamlı (Babək), Turşsu (Şuşa), Qızılca (Gədəbəy), Darıdağ (Culfa), İstisu (Kəlbəcər) kimi mineral su mənbələrini göstərmək olar. Bu müalicəvi suların sayı 100-dən çox olmaqla, ümumi debiti 3,2 mln.l\san təşkil edir.

 **Hidrogen-sulfidli mineral sular** tərkibindəki qazın miqdarından asılı olaraq, müxtəlif üsullarla müalicə məqsədilə istifadə olunur. Tərkibində kükürd çox olduğuna görə dəri xəstəliklərinin müalicəsində daha çox effekt verir. Respublikamızda kükürdlü suların bütün növlərinə təsadüf edilir. Bu tip mineral sulara Abşeron, Lənkəran-Astara, Quba-Xaçmaz bölgələrində və Naxçıvan MR-də rast gəlinir.

 **Metan qazlı sulara** neft-qaz ehtiyatlarının çox olduğu ərazilərdə daha çox rast gəlinir. Xüsusi buruqlar və təbii bulaqlar kimi üzə çıxan metanlı qazlı müalicəvi sular ölkəmizdə geniş yayılmışdır. Bu suların əsas yataqları Abşerondakı duzlu göllərdə və buruq sularında, həmçinin Neftçala, Salyan rayonlarında, Babazənən və Mişovdağ yataqlarında və Talış dağları ərazilərində yayılmışdır. Müalicə xüsusiyyətləri tam öyrənilməsə də, dəri və dayaq-hərəkət orqanlarının müalicəsində geniş istifadə olunur.

 **Azot tərkibli sular** Talış və Böyük Qafqazın cənub ətəyində aşkar edilmişdir. Ölkəmizdə azotlu suların 100-ə qədər mənbəyi öyrənilmişdir. Bu tip mineral sulara həm isti, həm də ılıq olaraq rast gəlinir. Yüksək müalicəvi əhəmiyyətə malik isti azotlu sulardan sağlamlıq turizmində daha çox istifadə olunur. Ölkəmizdə olan azotlu sulara misal olaraq Qubada Xaltan (37-45°C), Lənkəranda Meşəsu, Bigəvər (45-55°C), Alaşa (45-50°C) və s. qeyd etmək olar.

 **Radonlu mineral sular** Azərbaycanın Kəlbəcər və Laçın rayonlarında aşkar edilmişdir. Radon qazı da qeyd olunan müalicəvi sularda ən çox yayılan kimyəvi elementdir. Müalicəvi sularda radon qazının olması, onların müalicə xüsusiyyətini yüksəldir. Kəlbəcər rayonunda Bağırsaq, Naxçıvan MR-də Darıdağ və Dahab sularının tərkibində daha çox, Qax rayonunun İlisu bulaqları, Quba rayonunun Xaltan, Çimi Xaşı bulaqlarında radon qazı aşkar edilmişdir. Ölkəmizdə olan müalicəvi bulaqlardan 34-ü radonlu mineral sulardır.

 **Dəmirli-mərgümüşlü sular** müalicəvi xüsusiyyətlərinə görə aktiv farmakoloji təsirə malikdir. Tərkibində dəmir və mərgümüşün çox olması suyun müalicəvi xüsusiyyətini artırır. Qeyd olunan elementlərin çoxu dəmirli və sulfatlı olur ki, buna da oksidləşmiş filiz yataqları zonalarında, vulkanik süxurların yayıldığı ərazilərdə rast gəlinir. Ölkədə dəmirli-mərgümüşlü sular Naxçıvan, Kiçik Qafqaz ərazilərində geniş yayılmışdır. Bu sulardan mədə-bağırsaq və uroloji xəstəliklərin müalicəsində istifadə olunur. Qeyd olunan sulara misal olaraq Şamaxı rayonunda Cabanı, Zarvan, Tovuz rayonunda Donuzdam, Naxçıvanda Nəhəcir bulaqlarını qeyd etmək olar.

Ümumiyyətlə, mineral suların mənşəyi və fiziki-kimyəvi xüsusiyyətlərini, xarici və daxili tətbiq zamanı müalicə-profilaktik məqsədlə onların istifadə metodlarını, tətbiqi, tibbi göstərişləri və əks-göstərişlərini tibb elminin bir bölməsi olan balneologiya öyrənir. Balneoloji kurortlarda müxtəlif mənşəli təbii və süni hazırlanmış mineral sulardan müxtəlif xəstəliklərin profilaktikası və müalicəsi üçün xaricdən vanna qəbul etməklə və daxilə içməklə istifadə olunur. Ölkədə olan mineral suların analoqları bir çox ölkələrdə yayılmışdır. İnsanlar bu mineral sulardan müalicə, sağlamlıq məqsədilə geniş istifadə edirlər. Bu baxımdan Azərbaycanda olan balneoloji ehtiyatların analoqlarının yayılması və istifadəsini müasir vəziyyətə görə təhlil etdikdə məlum olur ki, ölkədəki bu ehtiyatlardan tam istifadə olunmur.

**CƏDVƏL 8. Azərbaycanda debiti yüksək olan mineral sular və dünyada analoqlarının müqayisəsi**

| № | Mineral mənbənin adı | İnzibati rayon | Debiti Min l/gün | İstifadənin müasir vəziyyəti | Analoqu | Ölkə | İstifadənin müasir vəziyyəti |
|---|---|---|---|---|---|---|---|
| 1 | İlisu bulaqları | Qax | 2700 | Yerli əhəmiyyətli müalicə vannaları | Mineqorsk | Rusiya | Sanatoriya kompleksi |
| 2 | Darıdağ | Culfa | 4500 | Sanatoriya | Mineqorsk | Rusiya | Sanatoriya kompleksi |
| 3 | Xalxal | Oğuz | 90 | İstifadə olunmur | Talqi | Rusiya (Dağıstan) | Sanatoriya və pansionat |
| 4 | Qəmərvan | Qəbələ | 120 | Sanatoriya kompleksi | Matesta | Rusiya (Soçi) | Kurort-sanatoriya kompleksləri |
| 5 | Lahıc | İsmayıllı | 95 | ----- | Matesta | Rusiya (Soçi) | Kurort-sanatoriya kompleksləri |
| 6 | Diallı | İsmayıllı | 50 | İstifadə olunmur | Sxaltuba | Gürcüstan | Kurort-sanatoriya kompleksləri |
| 7 | Zərgəran | İsmayıllı | 100 | Yerli əhəmiyyətli vannalar | Parnaus, Yesentuki | Rusiya (Mineralnıye Vodı ) | Kurort-sanatoriya və SPA mərkəzləri |
| 8 | Qalacıq | İsmayıllı | 110 | Yerli əhəmiyyətli | Saaki | Ukrayna (Krım) | Kurort-sanatoriya kompleksləri |
| 9 | Çağan | Şamaxı | 252 | Yerli əhəmiyyətli vannalar | Uqum | Qazaxıstan | Kurort-sanatoriya və SPA mərkəzləri |
| 10 | Çuxuryurd | Şamaxı | 45 | Yerli müalicə əhəmiyyətli | Medji | Ukrayna (Ukraynanın Karpatyanı bölgəsi) | Kurort-sanatoriya kompleksləri |
| 11 | Çimi | Quba | 125 | Yerli vannalar | Druskinin | Litva | Kurort-sanatoriya kompleksləri |
| 12 | Xaşı | Quba | 120 | İstifadə olunmur | Stavro-ruskie | Rusiya (Novqoqrod) | Kurort-sanatoriya kompleksləri |
| 13 | Zeyvə | Şabran | 45 | Yerli əhəmiyyətli müalicə mərkəzi | Sxaltuba | Gürcüstan | Kurort-sanatoriya kompleksləri |

**CƏDVƏL 8. Azərbaycanda debiti yüksək olan mineral sular və dünyada analoqlarının müqayisəsi**

| № | Mineral mənbənin adı | İnzibati rayon | Debiti Min l/gün | İstifadənin müasir vəziyyəti | Analoqu | Ölkə | İstifadənin müasir vəziyyəti |
|---|---|---|---|---|---|---|---|
| 13 | Zeyvə | Şabran | 45 | Yerli əhəmiyyətli müalicə mərkəzi | Sxaltuba | Gürcüstan | Kurort-sanatoriya kompleksləri |
| 14 | Nabran | Xaçmaz | 1000 | Yerli əhəmiyyətli vannalar | Matesta | Rusiya (Soçi) | Kurort-sanatoriya kompleksləri |
| 15 | Xudat | Xaçmaz | 500 | Yerli əhəmiyyətli müalicə mərkəzi | Medji | Ukrayna (Ukraynanın Karpatyanı bölgəsi) | Kurort-sanatoriya kompleksləri |
| 16 | Baş Əmirxanlı | Siyəzən | 30 | Yerli əhəmiyyətli müalicə mərkəzi | Haftusi | Ukrayna (Lvov) | Kurort-sanatoriya kompleksləri |
| 17 | Qalaaltı | Şabran | 154 | Sanatoriya-kurort kompleksi | Naftusi | Ukrayna (Lvov) | Kurort-sanatoriya kompleksləri |
| 18 | Suraxanı | Abşeron | 500 | Sanatoriya | Talqi | Rusiya (Dağıstan) | Sanatoriya və pansionat |
| 19 | Şıx | Abşeron | 150 | Sanatoriya | Matesta | Rusiya (Soçi) | Kurort-sanatoriya kompleksləri |
| 20 | Mərdəkan | Abşeron | 620 | Sanatoriya | Matesta | Rusiya (Soçi) | Kurort-sanatoriya kompleksləri |
| 21 | Şahtaxtı | Şərur | 70 | Yerli əhəmiyyətli müalicə mərkəzi | Pyatiqorsk | Rusiya (Mineralnıye Vodı) | Kurort-sanatoriya kompleksləri |
| 22 | Badamlı | Şahbuz | 690 | Mineral su doldurulması | Narzan | Rusiya (Mineralnıye Vodı ) | Mineral su doldurulması və kurort-sanatoriya kompleskləri |
| 23 | Sirab | Babək | 178 | Mineral su doldurulması | Borjomi | Gürcüstan | Mineral su doldurulması və kurort-sanatoriya kompleskləri |
| 24 | Vayxır | Babək | 270 | Yerli əhəmiyyətli müalicə mərkəzi | Pyatiqorsk | Rusiya (Mineralnıye Vodı) | Kurort-sanatoriya kompleksləri |

**CƏDVƏL 8. Azərbaycanda debiti yüksək olan mineral sular və dünyada analoqlarının müqayisəsi**

| № | Mineral mənbənin adı | İnzibati rayon | Debiti Min l/ gün | İstifadənin müasir vəziyyəti | Analoqu | Ölkə | İstifadənin müasir vəziyyəti |
|---|---|---|---|---|---|---|---|
| 25 | Nəhəcir | Culfa | 200 | Yerli əhəmiyyətli müalicə mərkəzi | Narzan | Rusiya (Mineralnıye Vodı) | Kurort-sanatoriya kompleksləri |
| 26 | Bağırsaq | Kəlbəcər | 2000 | --- | Brambax | Almaniya (Saksoniya) | Kurort-müalicə və SPA mərkəzləri |
| 27 | İstisu | Kəlbəcər | 3200 | --- | Karlovı Varı, Jeleznavodsk | Çexiya, Rusiya | Kurort-müalicə və SPA mərkəzləri |
| 28 | Tutqun | Laçın | 120 | --- | Karlovı Varı, Jeleznavodsk | Çexiya, Rusiya | Kurort-müalicə və SPA mərkəzləri |
| 29 | Şırlan | Şuşa | 150 | --- | Narzan | Rusiya (Mineralnıye Vodı) | Kurort-sanatoriya kompleksləri |
| 30 | Turşsu | Şuşa | 300 | --- | Narzan | Rusiya (Mineralnıye Vodı) | Kurort-sanatoriya kompleksləri |
| 31 | Çaylı | Qazax | 800 | İstifadə olunmur | Darasun | Rusiya (Zabaykal diyarı) | Yerli əhəmiyyətli müalicə |
| 32 | Meşəsu | Lerik | 300 | Yerli əhəmiyyətli müalicə | Sxaltuba | Gürcüstan | Kurort-sanatoriya kompleksləri |
| 33 | İbadisu | Lənkəran | 1000 | Kurort-sanatoriya kompleksi | Parnaus, Yesentuki | Rusiya (Mineralnıye Vodı) | Kurort-sanatoriya və SPA mərkəzləri |
| 34 | Havzava | Lerik | 270 | Yerli əhəmiyyətli müalicə | Sxaltuba | Gürcüstan | Kurort-sanatoriya kompleksləri |
| 35 | Haftoni | Lerik | 750 | Yerli əhəmiyyətli müalicə | Vışkovo | Ukrayna (Ukraynanın Karpatyanı bölgəsi) | Sanatoriya və pansionat |
| 36 | Zərinqala | Lerik | 150 | Mineral su doldurulması | Narzan | Rusiya (Mineralnıye Vodı) | Kurort-sanatoriya kompleksləri |

**CƏDVƏL 8. Azərbaycanda debiti yüksək olan mineral sular və dünyada analoqlarının müqayisəsi**

| № | Mineral mənbənin adı | İnzibati rayon | Debiti Min l/gün | İstifadənin müasir vəziyyəti | Analoqu | Ölkə | İstifadənin müasir vəziyyəti |
|---|---|---|---|---|---|---|---|
| 37 | Büldül | Lerik | 200 | Yerli əhəmiyyətli müalicə | Narzan, Kislovodsk | Rusiya (Mineralnıye Vodı) | Kurort-sanatoriya kompleksləri |
| 38 | Donuzütən (isti su) | Lerik | 150 | Mineral su doldurulması | Narzan | Rusiya (Mineralnıye Vodı) | Kurort-sanatoriya kompleksləri |
| 39 | Alaşa | Astara | 2500 | Yerli əhəmiyyətli müalicə | Yessentuki | Rusiya (Mineralnıye Vodı) | Kurort-santoriya və istirahət kompleksləri |
| 40 | Slavyanka | Gədəbəy | 95 | Yerli əhəmiyyətli müalicə | Narzan | Rusiya (Mineralnıye Vodı) | Kurort-sanatoriya kompleksləri |
| 41 | Qalakənd | Gədəbəy | 110 | Yerli əhəmiyyətli müalicə | Borjomi | Gürcüstan | Mineral su doldurulması və kurort-santoriya kompleksləri |
| 43 | Alaxançallı | Daşkəsən | 100 | İstifadə olunmur | Narzan | Rusiya (Mineralnıye Vodı) | Kurort-sanatoriya kompleksləri |
| 44 | Şınıx və Pələkli | Tovuz | 15 | İstifadə olunmur | Şmovka | Rusiya (Primorski) | Kurort-sanatoriya kompleksləri |

**MƏNBƏ:** *1.Тагиев И.И., Ибрагимова И.Ш., Бабаев А.М. Ресурсы минеральных и термальных вод Азербайджана. Баку: «Чашыоглу», 2011, 214 с.*
*2. Тагиев И. И, Бабаев Н. И, Современное состояние минеральных и термальных вод Азербайджана и концепция развития бальнеологии и энергетики//Eurasian Scientific Association, 2014, 32 с.*

Kəlbəcər, Laçın və Şuşa rayonlarının ərazisində termal suların temperaturu 60-100ºC-dir. Qarabağ vulkanik yaylasında toplanan mineral su ehtiyatları kimyəvi tərkibinin müxtəlifliyinə görə fərqlənir. Azərbaycanda olan mineral suların ümumi ehtiyatının 33%-i Kəlbəcər, Laçın rayonlarının payına düşür. Bu rayonlarda mineral suların ümumi ehtiyatı 7393 $m^3$/gün təşkil edir ki, bunun da 42%-i Laçının, 58%-i Kəlbəcərin payına düşür. Yalnız Kəlbəcər rayonunun Tərtər çayı hövzəsində 400-dən artıq mineral su yataqları var.

## CƏDVƏL 9. Qarabağda debiti yüksək olan mineral sular və dünyada analoqlarının müqayisəsi

| | Mineral mənbənin adı | Suyun mənbədə temperaturu °C | Debiti Min l/gün | Müalicəvi əhəmiyyəti | Analoqu | Ölkə | Analoqu üzrə istifadənin müasir vəziyyəti |
|---|---|---|---|---|---|---|---|
| **1.** | Bağırsaq (Kəlbəcər rayonu eyniadlı kənd) | 15 | 200 | əsəb sistemi, ürək-damar, ginekoloji xəstəliklər, müalicəvi süfrə suyu | Brambax | Almaniya (Saksoniya) | Kurort-müalicə və SPA mərkəzləri |
| **2.** | Qoturlu (Kəlbəcər rayonu Tutqun çay dərəsi, Başlıbel kəndi yaxınlığı) | 18 | 70 | Dəri, mədə-bağırsaq xəstəlikləri | Narzan Pyatiqorsk | Rusiya | Kurort-müalicə və SPA mərkəzləri |
| **3.** | Qarasu (Tutquçay dərəsi, Alçalı kəndi yaxınlığı) | 21 | 700 | Mədə-bağırsaq xəstəlikləri, müalicəvi süfrə suyu | Pyatiqorsk Malkinsk | Rusiya | Kurort-müalicə və SPA mərkəzləri |
| **4.** | Mozçay, (Tutquçay dərəsi, Başlıbel kəndi yaxınlığı) | 19 | 150 | Mədə-bağırsaq xəstəlikləri, müalicəvi süfrə suyu | Saqveri Lastoçkinsk | Gürcüstan Ukrayna (Krım) | Kurort-müalicə mərkəzləri |
| **5.** | Yuxarı və Aşağı İstisu (Kəlbəcər rayonu İstisu qəsəbəsi) | 61 | 3200 | Mədə-bağırsaq xəstəlikləri, dayaq-hərəkət orqanları, qaraciyər, öd yolları, dəri xəstəlikləri, müalicəvi süfrə suyu | Karlovı Varı, Jeleznavodsk | Çexiya, Rusiya | Kurort-müalicə və SPA mərkəzləri |
| **6.** | Tutqun (Tutquçay dərəsi, Başlıbel kəndi yaxınlığı) | 43 | 600 | Mədə-bağırsaq xəstəlikləri, dayaq-hərəkət orqanları, qaraciyər, öd yolları, dəri xəstəlikləri, müalicəvi süfrə suyu | Karlovı Varı, Jeleznavodsk | Çexiya, Rusiya | Kurort-müalicə və SPA mərkəzləri |
| **7.** | Minkənd (Laçın rayonu Minkənd yaxınlığı) | 29 | 430 | Mədə-bağırsaq xəstəlikləri, dayaq-hərəkət orqanları, qaraciyər, öd yolları, dəri xəstəlikləri, müalicəvi süfrə suyu | Karlovı Varı, Jeleznavodsk | Çexiya, Rusiya | Kurort-müalicə və SPA mərkəzləri |
| **8.** | Şırlan (Şuşa şəhəri yaxınlığı) | 11 | 150 | Mədə-bağırsaq, qaraciyər, öd kisəsi xəstəlikləri, müalicəvi süfrə suyu | Narzan | Rusiya (Mineralnıye Vodı) | Kurort-sanatoriya kompleksləri |
| **9.** | Turşsu (Şuşa rayonu Turşsu kəndi) | 9 | 300 | Mədə-bağırsaq, qaraciyər, öd kisəsi xəstəlikləri, müalicəvi süfrə suyu | Narzan | Rusiya (Mineralnıye Vodı) | Kurort-sanatoriya kompleksləri |

**MƏNBƏ:** 1.Тагиев И.И., Ибрагимова И.Ш., Бабаев А.М. Ресурсы минеральных итермальных вод Азербайджана. Баку: «Чашыоглу», 2011, 214 с.

### 2.2.1.2. Azərbaycanda termal bulaqların sağlamlıq turizmi potensialı

Termal bulaqlardan alınan nümunələrin analizi əsasında sağlamlıq turizmindən istifadə imkanları müəyyən edilmişdir. Bu məqsədlə Qax rayonunun İlisu, Quba rayonunun Xaltan bulaqlarının kimyəvi, fiziki və mikrobioloji analizi aparılmış, müalicəvi xüsusiyyətləri öyrənilmişdir.

**İlisu bulağı**ndan götürülmüş su nümunələrinin kimyəvi-fiziki analizinə əsaslanaraq onun müalicəvi süfrə və vanna müalicəsində istifadəsi üçün yararlı olduğunu qeyd etmək olar. Aparılan analizlərin nəticəsinə əsasən İlisu bulağı zəif qələvi mühitə malik, zəif minerallaşmış, kimyəvi tərkibinə görə hidrokarbonatlı və natriumludur. AZS-216-2006 standartlarına əsasən müalicəvi-süfrə suyu kimi istifadə etmək mümkündür. Bununla yanaşı mineral suyun temperaturunun 35-40°C təşkil etməsi vanna müalicəsində istifadə olunması üçün tövsiyə olunur. Mineral suyu daxilə qəbul etməklə aşağıdakı xəstəliklərin müalicəsi və proflaktikasında istifadə etmək olar:

- mədənin sektor funksiyasının normal və yüksək fəaliyyəti;
- mədənin və onikibarmaq bağırsağın yüngül formalı yaraları, xroniki kolit və enterokolitlər;
- qaraciyər və öd yollarının xroniki xəstəlikləri, xroniki pankreatit;
- maddələr mübadiləsinin pozulması, şəkərli diabet.

Mineral suda vannaların tətbiqi ilə dayaq-hərəkət orqanları, ürək-damar xəstəlikləri, əsəb sistemi, dəri və ginekoloji xəstəliklərinin müalicəsinin effektivliyi bildirilir. Mineral suyun kimyəvi tərkibinin zəngin olması onun analoqları ilə müqayisədə daha çox effekt verməsinə imkan verir.

**"Oğlan-Qız" bulağı**nın fiziki-kimyəvi və mikrobioloji analizi beynəlxalq standartlara uyğun olaraq "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin Elmi Tədqiqat Layihə İnstitutunun laboratoriyasında 40 komponent üzrə aparılmışdır. Həmçinin Azərbaycan Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunun fiziki-kimyəvi analizinə görə su qələvi mühit, zəif minerallaşmış, kimyəvi tərkibinə görə hidrokarbonatlı və natriumludur. Orqanoptik göstəricilərinə görə su rəngsiz, iysiz, şəffaf və çöküntüsüzdür. AZS-216-2006 dövlət standartına əsasən tədqiq edilən su mineral-müalicəvi süfrə suyu və vanna müalicəsində istifadə olunan isti sular qrupuna aiddir. Suyun mədənin sekretor funksiyasının normal və yüksək fəaliyyəti, mədənin və onikibarmaq bağırsağın yüngül formalı yaraları, xroniki kolit və enterokolitlər, qaraciyərin və öd yollarının xroniki xəstəlikləri, xroniki pankreatit, maddələr mübadiləsinin pozulması (şəkərli diabet, piylənmə, podaqra və s.) zamanı yaranan xəstəliklərdə istifadəsi məsləhət görülür. Vanna şəklində isə oynaq-dayaq aparatı, ürək-damar sistemi, əsəb, müxtəlif dəri, ginekoloji xəstəliklərin müalicəsində tövsiyə olunur. Suyun mikrobioloji analizi göstərir ki, tərkibində olan mikro oqranizmlərin miqdarının normaya yaxın olması ondan daxilə qəbul etməklə müalicə məqsədilə istifadə etməni mümkün edir. Eyni zamanda qida orqanlarında fəsadlar törədə bilən "enterokokk"ların olmaması müalicəvi süfrə suyu kimi istifadə olunmasına imkan verir. Bulaq dəniz səviyyəsindən 1500 m hündürlükdə yerləşməklə sıldırım qayalıqlarla əhatələnir. İlisu kəndinin 5 km şimalında yerləşməyinə baxmayaraq mürəkkəb relyef şəraiti yol infrastrukturunun təşkilinə imkan verməmişdir. Yolsuzluq şəraitinin olması müalicəvi sulardan istifadəyə mane olur. Müalicəvi sulara gedən yolun bərpası mövcud potensialdan səmərəli istifadə olunmasına şərait yaradır. Bulağın Rusiya ilə dövlət sərhədinə yaxın yerləşməsi Dövlət Sərhəd Xidməti tərəfindən xüsusi icazələrin alınmasını tələb edir. Mineral bulaqların fiziki-kimyəvi və mikrobioloji analizinin nəticələrinin təhlili göstərir ki, onlardan müalicə-sağlamlıq məqsədilə istifadə olunması mükündür. Bulaqların debitinin (870 min\gün) və temperaturunun yüksək olması, həm daxilə qəbul etməyə, həm də vanna müalicəsində geniş istifadə olunmasına şərait yaradır.

Mineral sulardan sağlamlıq məqsədilə istifadə olunması üçün aşağıdakı təklifləri qeyd etmək olar:

| | |
|---|---|
| Bulaqlardan istifadə olunması üçün Dövlət Sərhəd Xidmətindən icazələrin alınması | Dövlətin bu ərazilərin sağlamlıq turizmi potensialını nəzərə alaraq bulaqlara getmək icazəsini ləğv etməsi vacibdir. |
| Yol infrastrukturunun təşkili | İlisu kəndindən bulaqlara gedən 5 km qədər yol bərpa olunmalıdır. |
| Bulaqların yaxınlığında kiçik SES tikilməsi | Hamamçay üzərində kiçik SES tikilməsi üçün əlverişli şərait var ki, bu da çayın gursulu və düşmə kəmiyyətinin çox olması ilə bağlıdır. Belə bir elektrik stansiyası gələcəkdə tikiləcək infrastruktur üçün fasiləsiz enerji təminatına səbəb olardı. |
| Bulaqların ətrafında sosial infrastrukturun təşkili | Bu məqsədlə yerli idarəetmə orqanları və sahibkarlıq subyektləri tərəfindən gecələmə yerləri, ictimai mobil sanitar qovşaqları, tibb məntəqəsi, ümumi müalicə hamamları, istirahət yerləri və s. təşkil olunmalıdır. |
| Bulaqların ətrafındakı ekoloji mühitin qorunası | İnfrastruktur qurularkən ətraf mühitin sağlamlığı qorunmalı, eyni zamanda mövsümülük və meteroloji şərait nəzərə alınmalıdır. |

Quba rayonunun **Xaltan termal** bulaqlarının fiziki-kimyəvi və mikrobioloji analizi beynəlxalq standartlara uyğun olaraq “Azərsu” Açıq Səhmdar Cəmiyyətinin Elmi Tədqiqat Layihə İnstitutunun laboratoriyasında 40 komponent üzrə aparılmışdır. Həmçinin Azərbaycan Elmi Tədqiqat Tibbi Bərpa İnstitutunun kimyəvi analizi ilə suyun tərkibi haqqında zəif qələvi mühitə malik, zəif minerallaşmış, kimyəvi tərkibinə görə hidrokarbonatlı, natriumlu, zəif sulfidli-təbii mineral müalicəvi süfrə suyu kimi təsdiq olunmuşdur. Suyun temperaturunun 400°C-dən çox olması vanna müalicəsində istifadə olunmasına şərait yaradır. Elmi Tədqiqat Tibbi Bərpa İnstitutunun verdiyi rəyə görə, Xaltan termal bulağının müalicə məqsədilə istifadəsi üçün suyu həm daxilə qəbul etmək, həm də vanna qəbul etməklə bir çox xəstəliklərin müalicəsi və sağlamlığın bərpa olunmasında istifadə etmək olar. Suyun mikrobioloji analizinin nəticələrinə görə bakteriya və digər mikro orqanizmlərin normadan az olması müalicəvi süfrə suyu kimi istifadə olunmasına imkan verir. Suyun daxilə qəbulu aşağıdakı xəstəliklərin müalicəsində daha effektiv sayılır:

- mədənin sekretor funksiyasının normal və yüksək fəaliyyəti;
- mədənin və onikibarmaq bağırsağın yüngül formalı yaraları;
- xroniki kolit və enterokolitlər;
- qaraciyərin və öd yollarının xroniki xəstəlikləri;
- xroniki pankreatit;
- maddələr mübadiləsinin pozulması (şəkərli diabet, piylənmə, podaqra və s.)

Xaltan bulağının suyunun vanna şəklində qəbul edilməsi oynaq və dayaq aparatı, ürək-damar sistemi və əsəb, qadın və ginekoloji xəstəliklərin müalicəsi üçün effektivdir. Xaltan bulaqlarının xarici analoqlarının təhlili göstərir ki, onların bazasında müasir sanatoriya-kurort kompleksləri təşkil olunub. Xüsusilə Şimali Qafqaz və Ukraynanın Krım vilayətində qeyd olunan tərkibdə olan termal mənbələrin bazasında müasir sanatoriyalar tikilmişdir.

Xaltan termal bulağının yerləşdiyi ərazinin coğrafi şəraiti ondan istifadə imkanlarını çətinləşdirir. Termal mənbəyə ən qısa yol Siyəzən rayonundan gəlir. Bulağın 35 km-də asfalt örtüklü yol çınqıllı yolla əvəz olunur. Bulağa gedən yolun Gilgil çay dərəsindən keçməsi və onun yaz aylarında daşması nəticəsində gətirdiyi daşlı-palçıqlı sel yolun kəsişməsinə səbəb olur. Yay mövsümdə çay dərəsində yolun hamarlanması Yolsuzluq avtomobillərinin termal mənbəyə gəlməsinə imkan verir. Müalicəvi bulağın ətrafında infrastruktur şəraiti zəif təşkil olunmuşdur. Termal mənbənin bazasında iki əl üsulu ilə tikilmiş vannalar fəaliyyət göstərir. Bulağın suyundan içmək üçün şərait yaradılmış, mənbədən plastik borular vasitəsilə su çəkilmişdir. Bulağın ətrafında 90 mənzil tikilmişdir ki, onların da şəraiti aşağı olmaqla gecələmək üçün qismən yararlıdır. Mənzillərin bir günlük qiyməti şəraitindən asılı olaraq 10-40 manat təşkil edir. Mənzillər gecələmə yeri kimi nəzərdə tutulduğuna görə ancaq yataq yerlərindən ibarətdir. Yay aylarında bulağın yaxınlığında çadır düşərgələri də fəaliyyət göstərir.

Bulağın yaxınlığı və ətrafında anti-sanitariya vəziyyəti hökm sürür. Məişət tullantıları birbaşa çayın dərəsinə və ya ətraf ərazilərə atılır. Yalnız yayın əvvəlində qismən təmizlik işləri aparılır. Məişət tullantılarının ətraf mühiti çirkləndirməsinin qarşısını almaq üçün mütəmadi olaraq təmizlənmə zərurəti vardır. Məişət tullantıları ilə dolan qutuları yaxınlıqdakı ərazilərdə bəzən basdırırlar və ya ətrafa atırlar. Bulağın yaxınlığında sanitar-gigiyenik vəziyyət bərbad haldadır. Bulağın yaxınlığında 90 mənzil olsa da, kanalizasiya suları “şanbolar” yetərli olmadığına görə birbaşa çay dərəsinə axıdılır. Xaltan termal bulağı müalicəvi xüsusiyyətlərinə görə unikalolsa da, lazımi infrastrukturun olmaması, ondan səmərəli istifadəyə imkan vermir. Bulağa gedən yolun bərpası və onun ətrafında müvafiq infrastrukturun təşkili mövcud potensialdan səmərəli istifadəyə imkan vermiş olardı. Bu baxımdan Türkiyə təcrübəsindən istifadə etməklə yerli idarəetmə orqanlarının və bələdiyyələrin dəstəyi ilə ilkin infrastrukturun yaradılması, sahibkarların cəlb olunmasına təkan vermiş olardı. Ümumilikdə, Xaltan termal bulaqlarından səmərəli istifadə olunması üçün aşağıdakı təklifləri qeydetmək olar:

| | |
|---|---|
| Bulağa gedən yolun bərpası | Bulağa gedən yolun mürəkkəb relyef şəraitindən keçməsi onun tikintisi və bərpası üçün aidiyyəti üzrə maliyyə ayrılması zərurəti vardır. |
| Bulağın ətrafında müvafiq infrastrukturun yaradılması | Yerli idarəetmə orqanlarının, bələdiyyələrin dəstəyi ilə ümumi termal hamam, suiçmə qalereyası, sanitar qovşağı, yüngül konstruksiyalı gecələmə yerləri, kiçik ticarət mərkəzi və iaşə müəssisələrinin tikilməsi sahibkarlıq subyektlərinin cəlb olunmasına imkan verərdi. |
| Ətraf mühitin qorunması və məişət tullantılarının daşınması | Xaltan bulağının ətrafında məişət tullantılarının atılması üçün xüsusi qablar qoyulsa da dolduqdan sonra uzun müddət daşınmır. Həmçinin kanalizasiya sularının birbaşa çaya axıdılması, şanboların yetərsizliyi daha acınacaqlı vəziyyət yaradır. Bələdiyyələrin və digər əlaqəli strukturların bulaqların ətrafında olan ekoloji və sanitar vəziyyətə nəzarət etməsi, məişət tullantılarının mütəmadi olaraq daşınması, kanalizasiya sularının çaya axıdılmasının qarşısının alınması, müvəqqəti şanboların və ya mobil sanitar qovşaqlarının təşkili vacibdir. |

Mineral suların kimyəvi tərkibi, debiti və müalicəvi xüsusiyyətlərinin öyrənilməsi üçün sonuncu dəfə 1988-ci ildə AMEA-nın müxtəlif institutlarının Qarabağa birgə elmi ekspedisiyası təşkil olunmuşdur. Müalicəvi suların debitinin yüksək olması, kimyəvi tərkibinin və temperaturunun dəyişməməsi müəyyən edilmişdir.

Bunlardan **İstisu mineral bulaqları** 1138-ci ildə güclü zəlzələ zamanı yerin qabarması, çatlaması nəticəsində əmələ gəlib. Bulağın suyu hipertermal, karbon qazlı, hidrokarbonatlı- xloridli-sulfatlı-natriumludur. İstisu mineral bulaqları istifadə edilən 12 bulaqdan ibarətdir. Mineral su mənbələrinə Yuxarı və Aşağı İstisu, Turxun, Keşdək, Qoturlu (Kəlbəcər), Minkənd (Laçın) və s. aiddir. Bu bulaqların potensial ehtiyatı, yerləşdiyi ərazinin təbiətinin cəlbediciliyi kurort-müalicə kompleksinin yaradılması üçün əlverişli təbii amillərdir. Müalicəvi bulaqların zənginliyinə görə Kəlbəcər xüsusilə seçilir. Yalnız Tərtər çayının qolu olan Tutqunçay dərəsində 400-ə qədər müalicəvi sulara rast gəlinir ki, bu da kiçik bir ərazi üçün unikal sayıla bilər.

İstisu balneoloji kurortu Qarabağ yaylasının şimal-qərb hissəsində 2200 m yüksəklikdə, Tərtər çayının sağ sahilində alp bitkiləri ilə zəngin ərazidə yerləşir. Suyu hidrotermal, karbon qazlı, hidrokarbonatlı-xloridli-sulfatlı-natriumludur. Mineral bulaqların suyu müalicə məqsədi ilə içilir və vanna qəbul edilir. Burada mədə-bağırsaq xəstəliyinə, maddələr mübadiləsinin pozğunluqlarına, habelə hərəkət orqanları, sinir sistemi və ginekoloji, bəzi uroloji xəstəliklərə tutulanlar müalicə oluna bilərlər. Bulaqların suyundan alınan duzlar xroniki qəbizlik, qaraciyər, ödlük, qastrit və s. xəstəliklərin müalicəsində yararlıdır. Kimyəvi tərkibi və fiziki xüsusiyyətlərinəgörə bu sular dünyaca məşhur olan Çexiyanın Karlovı Varı mineral suyuna oxşardır. İstisuyun hərarəti 58,8ºC-dir. Həmçinin suyun tərkibi brom, yod, mərgümüş, fosfor, sink, mis, nikel,maqnezium, dəmir və s. kimyəvi maddələrlə zəngindir.

**Şuşa-Turşsu rekreasiya zonasında** yüksək debitli Turşsu, Şırlan, İsabulağı, Zamanpəyəsi, Daşaltı bulaqları vardır. Bunlardan müalicəvi xüsusiyyətləri təsdiq olunanlar Turşsuvə Şırlan bulaqlarıdır. Qeyd olunan mineral sular mikroelementlərlə zəngin, əsasən, karbon qazlı-hidrokarbonatlı-maqneziumlu-natriumlu-kalsiumludur. **Turşsu mineral suyunun** tərkibində dəmirin olması anemiyalı xəstələrin də burada müalicə olunmasına imkan verir. Turşsudan, Şirlandan çıxan mineral sular böyük müalicəvi əhəmiyyətə malik olub mədə-bağırsaq, qaraciyər- öd kisəsi xəstəliklərində və tərkibində kifayət qədər dəmir olduğuna görə qan azlığında müvəffəqiyyətlə tətbiq edilə bilər.

**ŞƏKİL 1. Azərbaycan Respublikasının balneoloji-iqlim xəritəsi**



### 2.2.1.3. Azərbaycanda mineral suların sağlamlıq turizmində istifadə istiqamətləri

Azərbaycanda mövcud olan mineral və termal suların debiti yüksək olsa da, onlardan istifadənin səviyyəsi aşağı olaraq qalır. Ölkəmizdəki mineral suların analoqlarının təhlili göstərir ki, onların əksəriyyətində müasir kurort-sanatoriya kompleksi və SPA mərkəzləri yaradılıb. Ölkədəki debiti yüksək olan mineral suların bazasında ən azı ölkə əhəmiyyətli sanatoriya komplekslərinin tikilməsi mümkündür.

**CƏDVƏL 10. Ölkəmizdə mineral sulardan az istifadə olunmasının səbəbləri**

| | Azərbaycanda mineral sulardan az istifadə olunmasının səbəbləri |
|---|---|
| 1. | **Mineral suların ətrafında normal infrastrukturun olmaması**<br>Əksər bulaqların orta və yüksək dağlıq ərazilərdə yayılması mənimsənilməsini iqtisadi baxımdan çətinləşdirir. Böyük və Kiçik Qafqazın mineral sularının yayıldığı ərazilərin dəniz səviyyəsindən orta hündürlüyü 1200-1500m-ə çatır. Relyefin meylliyinin 4,5°-dən çox və mürəkkəb olması ondan istifadə imkanlarını çətinləşdirməklə yanaşı, daha çox vəsait cəlb olunmasını tələb edir. |
| 2. | **Mineral suların əksəriyyətinə gedən yolların bərbad olması və ya yolsuzluq şəraiti**<br>Əksər bulaqların orta və yüksək dağlıq ərazilərdə yayılması mənimsənilməsini iqtisadi baxımdan çətinləşdirir. Böyük və Kiçik Qafqazın mineral sularının yayıldığı ərazilərin dəniz səviyyəsindən orta hündürlüyü 1200-1500m-ə çatır. Relyefin meylliyinin 4,5°-dən çox və mürəkkəb olması ondan istifadə imkanlarını çətinləşdirməklə yanaşı, daha çox vəsait cəlb olunmasını tələb edir. |
| 3. | **Mineral suların ətrafında sosial infrastruktur sahələrinin olmaması**<br>Dağlıq ərazilərdə yerləşən mineral bulaqların ətrafında heç bir sosial infrastruktur sahəsinin olmaması onlardan istifadə edənlərin sayının az olması və anti-sanitar vəziyyətin yaranmasına səbəb olur. |
| 4. | **Mineral suların ətrafında sosial infrastruktur sahələrinin olmaması**<br>Dağlıq ərazilərdə yerləşən mineral bulaqların ətrafında heç bir sosial infrastruktur sahəsinin olmaması onlardan istifadə edənlərin sayının az olması və anti-sanitar vəziyyətin yaranmasına səbəb olur. |
| 5. | **Mineral sulardan müalicə məqsədilə istifadə olunmasının texniki-iqtisadi əsaslandırılmasının olmaması**<br>Dağlıq ərazilərdə yerləşən mineral bulaqların ətrafında heç bir sosial infrastruktur sahəsinin olmaması onlardan istifadə edənlərin sayının az olması və anti-sanitar vəziyyətin yaranmasına səbəb olur. |
| 6. | **Mineral sulardan müalicə məqsədilə istifadə olunmasının texniki-iqtisadi əsaslandırılmasının olmaması**<br>Mineral sulardan istifadənin kapital tutumu, texniki iqtisadi göstəricilərinin əsaslandırılmaması bu sahəyə investorların cəlb olunmasına imkan vermir. |
| 7. | **Mineral suların ətrafında anti-sanitar vəziyyətin yaranması və bu sahəyə nəzarətin olmaması**<br>Mineral sulardan geniş miqyasda kortəbii vəziyyətdə istifadə olunması, kommunal xidmətlər olmadığına görə ətraf mühitə atılan tullantılar anti-sanitariya vəziyyəti yaradır. Mineral suların yaxınlığında heç bir sanitar qovşağı yoxdur və ya bərbad vəziyyətdədir. |

Müalicəvi mineral sulardan istifadə olunması üzrə təkliflər:

| | |
|---|---|
| Mineral sulardan istifadənin iqtisadi rentabelliyinin müəyyən olunması | Mineral suların debitinin yüksək olması onların rentabelliyini təmin edir. Xarici analoqları ilə müqayisədə müalicəvi suların debitinin yüksək olması onlardan istifadənin rentabelli olmasını göstərir. Bu da müalicəvi bulaqların istifadəsi üçün əsas ola bilər. |
| Mineral bulaqların istifadəsi üçün onların ayrı-ayrılıqda kimyəvi tərkibinin, müalicəvi xüsusiyyətlərinin dəqiq müəyyən olunması | Bu məqsədlə mineral bulaqların kimyəvi tərkibinin analizi və Səhiyyə Nazirliyi tərəfindən müalicə olunan xəstəliklərin dəqiq göstərişləri təsdiq olunmalıdır. Beynəlxalq təcrübədə müalicəvi bulaqlardan istifadə olunmasının ilkin şərti onların debiti, kimyəvi tərkibi və müalicəvi xüsusiyyətlərinin öyrənilməsindən başlayır. |
| Mineral sulardan istifadə olunması üçün infrastrukturun yaradılması imkanları | Mineral sulara gedən yolların bərpası, sosial infrastruktur sahələrinin yaradılması, müalicə vannaları üçün yerlərin tikilməsi vacibdir. Dövlət tərəfindən mineral su mənbələrinə yolların bərpası və ya çəkilməsi onlardan istifadə olunmasına təkan verərdi. Yol infrastrukturunun bərpası müxtəlif investisiyaların cəlb olunmasına səbəb olardı. |
| Yerli idarə etmə orqanları və bələdiyyələr tərəfindən mineral suların ətrafında minimum infrastruktur şəraitin yaradılması və piyada cığırlarının müəyyən olunması | Bu məqsədlə bələdiyyələrin ərazisində olan müalicəvi bulaqlardan istifadə üçün minimum infrastrukturun təşkili, sanitar nəzarətin artırılması, ətraf mühitin qorunması investorlarını cəlb etmək olar. Bələdiyyələrin idarəetməsində olan kiçik müalicə-sağlamlıq mərkəzlərinin təşkili də səmərəli olardı. |

### 2.2.2. Palçıq vulkanlarının öyrənilməsi

Azərbaycanda palçıq vulkanları tektonik inkişafdan asılı olaraq, Qobustanda, Abşeron yarımadasında, Abşeron arxipelaqında, Cənub-Şərqi Şirvan düzündə, Şamaxı rayonunda, Ağsu çayının aşağı axarında, az miqdarda Siyəzən və Şabran rayonlarında yayılıb. Azərbaycanda 350-dən çox palçıq vulkanı mənbələri var ki, bunların da kimyəvi və üzvi tərkibinin zənginliyi onların müalicə məqsədilə istifadə olunmasına imkan verir. Vulkan palçıqlarının hamısı müalicə məqsədilə istifadə oluna bilməz. Onların tərkibində üzvü birləşmələrin, yod, brom, hidrogen sulfidin, naftenlərin miqdarı çox olduqda müalicə üçün yararlı hesab edilir. Müalicəvi palçıq əsasən lil palçığı (Masazır və Zığ gölünün palçıqları) və təpə (vulkan) palçıqları hesab olunur.

Azərbaycanda 9 vulkanın müalicəvi tərkibinin təsdiq olunmasına baxmayaraq, onlardan müalicəvi məqsədlər üçün məhdud istifadə edilir. Yuxarıda qeyd edildiyi kimi Masazır gölünün palçığı 40 il müddətində kurort müalicəsində geniş istifadə olunsa da, son 10 ildə göldə duz istehsal edildiyindən bu işlər həyata keçirilmir.

**ŞƏKİL 2. Müalicəvi palçıqların yayılması**




1. Lökbatan
2. Keyrəki
3. Keçəldağ
4. Bozdağ-Güzdək
5. Qaradağ Pilpiləsi
6. Otmanbozdağ
7. Üçtəpə
8. Dəmirçi
9. Şıxzərli
10. Kiçik Mərəzə
11. Pirəkəşkül
12. Qələndəraxtarma
13. Çeildağ
14. Torağay
15. Bahar
16. Daşgil
17. Diləngəz
18. Ayrantökən
19. Qoturdağ
20. Axtarma-Paşalı
21. Ağzıbir
22. Durovdağ
23. Bəndovan
24. Qarasu adası
25. DTA-ya palçıq vulkanları ilə bağlı ayrılmış ərazi

Bahar, Axtarma-Paşalı, Axtarma-Qaradağ, Masazır, Mişovdağ, Otmanbozdağ, Kənizdağ, Şorbulaq, Babazənən, Qaynarca, Perşkül, Daşgil – ümumilikdə, 40-a yaxın vulkan palçığının müalicəvi xüsusiyyətləri öyrənilib və biokimyəvi analizlərlə təsdiqini tapıb. Ölkədə müalicəvi baxımdan ən çox öyrənilmiş Axtarma-Qaradağ, Daşgil, Bahar, Masazır, Babazənən, Qaynarca vulkan palçıqlarının tərkibində brom, yod, naften, bor və digər üzvü birləşmələrin çox olmasına görə Gürcüstanın palçıq kurortu olan Axtala mənbəyinə oxşardır, üzvi tərkibinə görə isə daha zəngindir. Eyni zamanda, Şimali Qafqazdakı Tabukan gölü və Krımdakı vulkan palçıqlarından müalicəvi təsirlərinə görə üstündür.

**CƏDVƏL 11. Palçıq vulkanlarının yayılması**

| Yayıldığı rayon | Palçıq vulkanı | Palçıq vulkanı təzahürləri | Ümumi sayı |
|---|---|---|---|
| 1. Xəzərsahili-Siyəzən | 2 | 5 | 7 |
| 2. Şamaxı-Qobustan | 86 | 34 | 120 |
| 3. Abşeron yarımadası | 45 | 24 | 69 |
| 4. Aşağı Kür (Salyan, Neftçala rayonları) | 25 | 8 | 33 |
| 5. Xəzər dənizindəki adalar (Bakı və Abşeron arxipelaqı) | 117 | 7 | 124 |
| **Cəmi** | **277** | **76** | **353** |

**MƏNBƏ:** *AMEA Geologiya və geofizika İnstitutunun illik hesabatı, 26 dekabr 2018.*

Vulkan palçıqlarının müalicəvi xüsusiyyətləri onun tərkibində bioaktiv maddələrin olması, yapışqanlığı, istilik tutumu, hidrogen-sulfidli, yod, brom və naftenli maddələrin olması ilə bağlıdır. Vulkan palçıqlarında üzvü maddələrin miqdarı 0,49-1,67% və bəzən yüksək olur ki, bu da onun müalicəvi xüsusiyyətlərini artırmış olur. Üzvi maddələrin tərkibində 10,6-20,0% asfaltenlər (oksidləşmiş qatran), 7,32-34% benzol qatranları, 12,5-30% spirt-benzol qatranları, 32-54,32% yağlar, 0,01-0,06% naften turşuları, 57,1-65,12% mentan-naften karbohidrogenləri, 7,88-21,45% aromatik karbohidrogenlər var. Vulkan palçığının müalicəvi əhəmiyyətini artıran amil qeyd olunan üzvü maddələrin zənginliyi ilə bağlıdır. Vulkan palçığının tərkibində çoxlu miqdarda borat turşusunun (200–600 mq/l-ə qədər) və selenin olmasının xüsusi müalicəvi əhəmiyyəti vardır. Yerin təkindən palçıqla birlikdə çıxan qazların tərkibi metan, karbon və azotdan ibarət olur ki, bu da onun balneoloji müalicəvi xüsusiyyətlərini arırır.

Vulkan palçığı yüksək kolloudallığa malik qələvi peloidlər (pH 8,5–9,9) tipinə aid olmaqla, kifayət qədər duru və ya maye fazası ilə təmin edilir. Yüksək qələvi mühiti dərini yumşaldır, elastikliyini artırır, epidermisi kövrəldir, bununla da onun keçiriciliyini artırmaqla müalicənin keyfiyyətini yüksəldir. Vulkan palçığının plastikliyi, istilik tutumu, yapışqanlığı onun müalicəvi xüsusiyyətlərini artırmış olur. Spesifik komponentlərlə – mineral duzlar, üzvü birləşmələr və mikroelementlərlə zənginləşmiş müalicəvi xassələrə malik olan vulkan palçığı insan orqanizminə müsbət təsir edir.

Vulkan palçığının digər palçıqlardan üstünlükləri aşağıdakılardır:

- xırdalanmış, qaymağa bənzər yumşaq gil kütləsi, yalnız özünə məxsus olan mineral birləşmələr və buna uyğun xüsusi terapevtik təsirdən ibarətdir. Bu üstünlüklər onların müalicə imkanlarını artırmaqla yanaşı, bioaktiv maddələrin stabil qalmasına imkan verir.
- dərinliklərdən çıxan vulkan palçıqları lil, torf, sapropel palçıqlarından fərqli olaraq biostimullaşdırıcı təsirə malik kimyəvi mikroelementlər və üzvi maddələrlə zənginləşir. Bunun nəticəsində müalicə üçün tətbiq sahələri genişlənmiş olur. Əgər torflu və sapropel palçıqları dəri və dayaq hərəkəti orqanlarının müalicəsində effekt verirsə, vulkan palçıqlarında müalicə prosedurlarının sayı 10-dan çoxdur, kosmetik vasitələr və müalicəvi kremlər də istehsal etmək olur.

- vulkan palçıqları dərindən (4-7 km) səthə çıxdığına görə antropogen təsirə məruz qalmır, bu da müalicəvi effektini artırmış olur.
- vulkan palçığında yod, brom, manqan və s. bir çox faydalı elementlərin olması da onun digər palçıqlarla müqayisədə müalicəvi imkanlarını artırır.

Vulkan palçığı əsəb sistemi, dəri və oynaq xəstəliklərinin müalicəsində istifadə olunur. Vulkan palçıqlarının hamısından təbabətdə istifadə olunmur və müalicəvi məqsədlə istifadəsi tibbi cəhətdən təsdiqlənməlidir. Vulkan palçığı müalicə vasitəsi olaraq kurortdan kənar şəraitdə müxtəlif xəstəxanalarda istifadə olunur. Palçıq vulkanlarından istifadə təcrübəsi Krımda (Yevpatoriya), Rusiyada (Şimali Qafqazda Tambukan gölü) və Yeni Zelandiyada mövcuddur.

Keçən əsrin 80-cı illərində Azərbaycan kurortologiya və müalicənin fiziki metodları ETİ-da (indiki tibbi reablitasiya ETİ) tibb elmləri doktoru Fəridə Əfəndiyeva vulkan palçığının klinik öyrənilməsinə başlamışdı. Nəticədə vulkan palçığının müalicədə istifadə üçün yararlığı yüksək qiymətləndirilmişdir.

AMEA Geologiya İnstitutu uzun illər ərzində Kurortologiya institutu və Akademiyanın digər institutları, xüsusilə Torpaqşünaslıq və Aqrokimya institutu ilə Azərbaycanın vulkan palçıqlarında bioloji aktiv maddələrin (duzlar, qazlar, vitaminlər, fermentlər, hormonlar, biogen stimulyatorlar) aşkar edilməsi üçün elmi tədqiqatlar aparmışlar. Nəticədə bu palçığın ölkənin 15 tibb müəssisələrində müalicə təcrübəsində tətbiqinə nail olunmuşdur. Belə ki, keçən əsrin 70-80-ci illərində Şorbulaq və Axtarma-Qaradağ vulkanlarının palçığı terapevtik təmayüllü xəstələrin müalicəsində Bakı şəhərinin poliklinikalarında, 3 nömrəli qadın konsultasiyasında, “8-ci kilometr”dəki kosmetoloji müalicə obyektində, Abşeron yarımadasının sanatoriya-profilaktoriyalarında, Bahar vulkanının palçığı Ələt-liman stansiyasının qovşaq xəstəxanasında, Babazənən palçığı Salyan Mərkəzi xəstəxanasında müvəffəqiyyətlə tətbiq olunub.

Vulkan palçığının yüksək balneoloji xüsusiyyətlərinə görə bir sıra xəstəliklərin müalicəsində ondan istifadə edirlər. Bura dayaq-hərəkət aparatının, oynaqların, onurğanın, ətraf əsəb sisteminin, dəri, mədə-bağırsaq traktının müalicəsi, şəkər diabeti xəstəliyi, ateroskleroz və boyun osteoxondrozu, ginekologiya, urologiya və kosmetologiya daxildir. Azərbaycanın vulkan palçığının üzvi komponentlərində bioloji aktiv maddələr aşkar edilmişdir. Onlarda müalicə üçün faydalı inqridiyentlər: yod, bor, brom, maqnium, litium, vanadium, mis, dəmir və s. müəyyən olunmuşdur. Üzvi maddələrdən – naften, humin və fulvo turşuları və başqa bir sıra fermentlər qeydə alınmışdır. Bundan başqa palçıqlar bakterisid maddələr və digər birləşmələr özündə ehtiva edir ki, onlar orqanizmin müalicəsində müsbət rol oynayır. Üzvi maddələrin göstəricilərinə görə vulkan palçığı müalicəvi Naftalan neftinə yaxındır.

Qeyd etmək vacibdir ki, palçıq vulkanları neft-qaz rayonlarında yayılıb. Bu təbii ki, palçığın kimyəvi tərkibində və müalicəvi xüsusiyyətlərində əks olunur, onları yerüstü mənşəli lillərdən, torf və sapropel müalicə palçıqlarından fərqləndirir. Yerin dərinliklərindən çıxan vulkan palçıqları faydalı mikroelementlərlə və üzvi maddələrlə zəngin olub yüksək biostimul təsirinə malikdir. Bu palçıqların daha bir xüsusiyyəti ondan ibarətdir ki, onların kimyəvi tərkibi stabildir. Belə ki, quru palçıq su ilə isladıldıqda ilkin vəziyyətini bərpa edir və bütün faydalı keyfiyyətlərini hifs edir. Ona görə də müalicə üçün nəinki təzə, həm də qurumuş palçıqlardan istifadə etmək olar.

Respublikamızın bir sıra rayonlarında yerli sakinlər öz təşəbbüsləri ilə yay aylarında palçıq vannalarını bilavasitə vulkanlarda qəbul edirlər və beləliklə, palçıq müalicəsinin “misir metodundan” faydalanırlar. Ələt qəsəbəsinin Xəzərin sahilində yerləşən Bahar vulkanında palçıqdan istifadə edən xəstələr dənizin yaxınlığından istifadə edərək su prosedurları da qəbul edirlər.

Palçıqdan hazırlanan kosmetik vasitələr krem və yağlar müalicə və kosmetik vasitə kimi geniş istifadə olunur. Palçıq vulkanından hazırlanan kosmetik vasitələrin tərkibi çoxlu minerallar və kalsium, sink, manqan, gümüş, molibden kimi mikroelementlərlə zəngindir. Həmin maddələr dəriyə müalicəvi təsir göstərərək qan dövranını yaxşılaşdırır, dəridə geniş məsamələr əmələ gələndə onların kiçilməsinə və azalmasına səbəb olur.

Ölkədə 350-dən çox palçıq vulkanı və palçıq təzahürlərinin geniş yayılması, müalicəvi xüsusiyyətlərinin beynəlxalq səviyyədə təsdiq olunmasına baxmayaraq bu sahə üzrə ixtisaslaşdırılmış müalicə-sağlamlıq mərkəzləri fəaliyyət göstərmir. Palçıq vulkanlarının ərazisində müasir turizm infrastrukturunun yaradılması layihəsi "Regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"-na uyğun olaraq DTA tərəfindən hazırlanmışdır. Bu layihə Abşeronun cənubu və Qobustan ərazisində olan bir çox palçıq vulkanlarını əhatə edir. Layihə 12 min $m^2$ ərazidə olan 14 palçıq vulkanlarından turizm məqsədilə istifadəyə əsaslanır. Layihə çərçivəsində infrastrukturun yaradılması, palçıq vannaları və təcrübə mərkəzinin təşkili, turizm fəaliyyətləri üçün müvafiq yerlərin ayrılması planlaşdırılmışdır. Burada turizm məqsədli istirahət yerləri, turizm mərkəzi, baxış nöqtəsi, turist cığırları, zıplayn, kvadrosıkl yolları və s. təşkili nəzərdə tutulur. Ölkədə vulkan palçıqlarından səmərəli istifadə olunması üçün aşağıdakı təklifləri qeyd etmək olar:

| | |
|---|---|
| Vulkan palçıqlarının müalicəvi xüsusiyyətlərinin təsdiq olunması | Belə ki, bütün vulkan palçıqlarının kimyəvi, üzvü tərkibi eyni deyildir və hər birindən müalicə məqsədilə istifadə olunmur. Müalicə məqsədilə istifadə üçün nəzərdə tutulan vulkan palçıqlarının analizinin aparılması və hansı xəstəliklərin müalicəsində tətbiqi müəyyən edilməlidir. |
| Vulkan palçıqlarından müalicə məqsədilə sanatoriya, xəstəxan və tibbi bərpa mərkəzlərində istifadəsi | Belə bir təcrübə Krımda olan Yevpatoriya kurortunda mövcuddur ki, bu da vulkan palçıqlarından ibarət sanatoriyada kompleks müalicəyə əsaslanır. |
| Abşeron sanatoriyalarında vulkan palçığı ilə müalicənin təşkili | Hazırda Kurort Səhmdar Cəmiyyətinin tabeliyində olan "Qaranquş" sanatoriyasında vulkan palçıqlarından qismən istifadə olunur. Abşeron sanatoriyalarında vulkan palçığından kompleks istifadə olunması üçün maddi texniki bazanın mövcudluğu bu imkanlardan yararlanmağa şərait yaradır. |
| Abşeronda vulkan palçığına əsaslanan ixtisaslaşdırılmış sanatoriyanın tikilməsi | Belə bir sanatoriyanı müalicəvi xüsusiyyətləri daha üstün olan Daşgil palçıq vulkanın bazasında təşkil etmək mümkündür. Eyni zamanda, Zığ, Masazır palçıqlarından istifadə etməklə kompleks müalicə xidməti göstərən sanatoriyaların tikintisi iqtisadi cəhətdən səmərəli olardı. |

### 2.2.3. İqlim və talassoterapiya imkanlarının tədqiqi

Azərbaycan Respublikası ərazisində kurort sərvətlərindən ən mühümü iqlimdir. Azərbaycan ərazisində iqlim hələ qədim zamanlardan əhalinin həm təsərrüfat, həm də müalicə və istirahət məqsədləri üçün mövsümi yerdəyişməsinə səbəb olan amillərdən biri olmuşdur. Məlumdur ki, iqlimin komponentləri (havanın temperaturu, nisbi rütubətlik, küləyin sürəti, günəşli günlərin sayı və s.) istirahət üçün komfortluğu təyin etməyə imkan yaradır. Tükənməz ehtiyat olan günəş radiasiyası sağlamlıq ocaqları və kurortlarda istirahət və müalicə profilini müəyyən edir.

Respublikanın iqlim şəraiti çox müxtəlifliyi ilə seçilir. Qeyd olunan müxtəliflik ilk növbədə ərazimizin əsasən subtropik qurşaqda yerləşməsi və il ərzində müxtəlif hava kütlələrinin gəlməsi ilə bağlıdır. Onu da qeyd edək ki, ərazimizin 35%-i mülayim qurşaqda, qalan 65%-i isə subtropikin quru iqlimində yerləşir. Ölkədə relyefin müxtəlifliyi və dağlıq ərazilərin çox olması iqlim tiplərinin müxtəlifliyinə səbəb olmuşdur. Buna görə də ölkə ərazisində şaquli qurşaqlıq və yağıntıların paylanmasından asılı olaraq 9 iqlim tipi yaranır ki, bu da turizmin müxtəlif növlərinin inkişafına təkan vermişdir. Ölkədə orta illik temperatur düzənlik və dağ ətəyi ərazilərdə əsasən 10°C-dən yüksəkdir və qış ayları mülayim keçir. Burada günəşli günlərin sayı da çoxdur ki, bu da helioterapiya müalicəsinin aparılması üçün əlverişli sayılır.

İqlimin komfort hədlərinin müəyyənləşdirilməsi əsasən temperaturdan asılı olur. Məsələn, mülayim enliklərdə məskunlaşmış insanlar üçün komfort hədlərin dəyişməsi 15-18°C, rütubətlənmə göstəricisi 60-65% komfort hədd kimi qəbul edilir. İnsanların istirahət və sağlamlığının bərpası üçün ən optimal temperatur 20-23°C, kütləvi istirahət mövsümündə isə 25°C hesab edilir ki, bu da yarımquraq ərazilər üçün səciyyəvidir. İqlim komfortluluğunda havada olan oksigenin miqdarının yüksək olmasının nəzərə alınması vacibdir. Bir çox xəstəliklərin profilaktikası və müalicəsi baxımından iqlim kurortları üçün səciyyəvi olan müalicəvi amillər (dəniz suyu, günəş vannaları, isti qum vannaları, dağ iqlimi və s.) əhəmiyyətli hesab olunur.

Azərbaycan Respublikasında həm düzən, həm də dağlıq ərazilərdə istirahət ocaqları mövcuddur. Lakin o da aydındır ki, respublikanın dağ iqlim zonalarında istirahətin təşkili üçün mövcud olan amillərdən hələ lazımi səviyyədə istifadə olunmur. Kurort məqsədləri üçün aparılan iqlim rayonlaşdırılmasında ilk növbədə kurort müalicəsi və istirahətə təsir edən təbii amillər nəzərə alınır. Kurort ehtiyatlarının istifadə edilməsində landşaft amili iqlim qədər əhəmiyyətli olduğu üçün çox vaxt iqlim – landşaft rayonlaşdırmasına üstünlük verilir. Azərbaycanın 5 iqlim-landşaft vilayətində kurort müalicəsi və istirahət məqsədləri üçün 12 zona, onların da daxilində 23 rayon ayrılır. Dağlıq ərazidə zonalar dar zolaq tutduğuna və onları xırdalamağa ehtiyac olmadığına görə rayon kimi də səciyyələndirilir.

**CƏDVƏL 12. Azərbaycanda iqlim-landşaft rayonlaşmasının kurort-müalicə əhəmiyyətinə görə qruplaşdırılması**

| Landşaft iqlim rayonları | Yayıldığı ərazi | Hündürlük qurşaqlığı üzrə yayılması | İqlim komfortluğunun təkrarlanması %-lə | Nisbi rütubətin göstəriciləri %-lə | Turizmdə istifadə xüsusiyyəti |
|---|---|---|---|---|---|
| Subtropik mülayim landşaft-iqlim zonası | Şəki-Quba zonası | Alçaq dağlıq zona | 60-65 | 50-60 | İstirahət və müalicə-sağlamlıq məqsədli |
| Mülayim landşaft-iqlim zonası | İlisu-Qonaqkənd zonası | Orta dağlıq zona | 45-50 | 70-80 | Dağ idman, xizəkçilik, ekoloji turizm |
| Rütubətli və soyuq iqlimli orta yüksək dağlıq landşaft | Orta və yüksək dağlıq zona | Yüksək dağlıq zona | 30-35 | 75-80 | Dağa dırmanma, ekstremal turizm |
| Quru subtropik iqlimli düzənlik landşaft zonası | Aran rayonları | Düzənlik və qismən dağətəyi zona | 40-45 | 40-50 | İstirahət və ekoloji turizm |
| Rütubətli landşaft zonası | Lənkəran-Talış zonası | Düzənlik və orta dağlıq ərazilər | 60-70 | 70-75 | İstirahət, ekoloji, müalicəvi turizm |

**MƏNBƏ:** *1. Əyyubov Ə.C. Azərbaycan SSR-nin kurort və istirahət yerlərinin iqlimi. Bakı 1987, 93 s. 2. Soltanova H.B., Qasımov M.S., Ağasiyev Ə.R. Azərbaycanın kurort təsərrüfatı. Bakı 2017, 215 s.*

Ərazilər dağlıq ərazilərdə subtropik və mülayim iqlim şəraiti olan Şəki – Quba zonası, mülayim iqlimli İlisu – Qonaqkənd zonası, rütubətli və soyuq iqlimli yüksək dağ zonası, subtropik iqlimli Şəmkir – Füzuli zonası, mülayim iqlimli Şuşa – Gədəbəy zonası, soyuq iqlimli yüksəkdağ zonası, Naxçıvan vilayətinin kontinental iqlimli dağətəyi və ortadağ zonaları, Talışın subtropik və mülayim iqlimli zonalarına ayrılır. Respublikanın alçaq dağlıq (800-1000 m), ortadağlıq (1000-1800 m), yüksək dağlıq (2000 m-dən yuxarı) qurşaqlarında yerləşən bu zonalar istirahət, müalicə-sağlamlıq turizminin təşkili üçün əhəmiyyətli imkanlara malikdir.

Respublikamızda düzənliklər və quru subtropik iqlimə malik olan bölgələr helioterapiya, dağlıq, dağətəyi ərazilər aeroterapiya üçün əlverişlidir. Bununla yanaşı temperatur rejiminin və komfort hədlərin təkrarlanması göstəricilərindən məlum olur ki, dağlıq, dağətəyi ərazilərdə yay aylarında (mövsüm dövründə) havalar sərin keçir ki, bu da Aran rayonların, Abşeronun əhalisinin yay aylarında həmin bölgələrə istiqamətlənməsində əsas amillərdən sayılır.

**CƏDVƏL 13. Azərbaycanın istirahət mərkəzlərinin bəzi mikroiqlim göstəriciləri**

| S/s | İstirahət mərkəzləri | Mövsüm dövründə günəşli saatların miqdarı | Komfort günlərin təkrarlanması (%-lə) | Mövsüm dövründə (t °C) | Havanın nisbi rütubətliyi (%-lə) | Küləyin orta süratı il ərzində 15m/san çox | Aero və helio-terapiya imkanları |
|---|---|---|---|---|---|---|---|
| 1. | Abşeron | 1458 | 72-75 | 24-26 | 65-70 | 67 | Yüksək |
| 2. | Yalama-Nabran | 1337 | 65-70 | 22-25 | 65-72 | 37 | Orta |
| 3. | Şəki, Marxal | 1278 | 60-68 | 20-23 | 60 | 12 | Orta |
| 4. | Lənkəran | 1229 | 65-75 | 20-25 | 70 | 23 | Yaxşı |
| 5. | Masallı | 1210 | 62-68 | 20-22 | 70 | 14 | Orta |
| 6. | Göygöl, Hacıkənd | 1081 | 55-63 | 15-20 | 80 | – | Orta |
| 7. | İsmayıllı | 1285 | 60-65 | 22-24 | 55-60 | 15 | Orta |
| 8. | Qax, İlisu | 1236 | 58-4 | 20-23 | 61 | 5 | Orta |
| 9. | Naxçıvan | 1676 | 70-75 | 24-26 | 50 | 16 | Yüksək |
| 10. | Quba | 1220 | 65-70 | 18-22 | 69 | 6 | Orta |

**MƏNBƏ:** *1. Mahmudov R.N. Müasir iqlim dəyişmələri və təhlükəli hidrometeoroloji hadisələr, Bakı 2018, 232 s.*
*2. Soltanova H.B., Qasımov M.S., Ağasiyev Ə.R. Azərbaycanın kurort təsərrüfatı. Bakı 2017, 215 s.*

**Alçaq dağlıq zonanın iqlimi**

Subtropik və mülayim iqlimli Şəki-Quba zonası Böyük Qafqazın Kür-Araz ovalığı sərhəddindən başlamış 800-1000 m hündürlüyə qədər bütün dağətəyi hissəni əhatə edir. Azərbaycanın düzənlik rayonlarında güclü istilər düşəndə burada havalar nisbətən sərin və günəşli keçir. Orta dağlıq ərazi ilə birlikdə burada iqlim və balneoloji kurortların yaradılması və müalicə-sağlamlıq turizmi üçün böyük prespektivlər vardır. Rütubətlənmə şəraitinə görə zona 5 iqlim – landşaft rayonuna bölünür. Bunlar yarımrütubətli meşəli Balakən-Qəbələ rayonu, yarımquraq-çöl landşaftlı (bəzi yerdə meşəli) Acınohur-Şamaxı rayonu, quraq-yarımsəhra Qobustan rayonu, yarımquraq-meşəli Quba – Qalaaltı rayonu və quraq-çöl landşaftlı Ceyrançöl rayonudur. İqlim və landşaft şəraitinin əlverişliliyinə görə bu rayonların içərisində hazırda ən çox əhəmiyyət kəsb edən Balakən-Qəbələ və Quba-Qalaaltı rayonlarıdır. İlin soyuq fəslində tez-tez təkrarlanan günəşli havalar helioterapiyanı davam etdirməyə imkan verir. Balakən-Qəbələ rayonunu qış iqlim ehtiyatına görə İsveçrənin məşhur Montre kurortu ilə müqayisə etmək olar. Balakənin iqlimi İtaliyada Siennanın, Zaqatalanın iqlimi Milanın, Şəkinin iqlimi Potensanın iqliminə çox oxşayır. Qubanın iqlim göstəriciləri isə Kislovodskdan az fərqlənir. Lakin Balakən-Qəbələ rayonunun ancaq özünəməxsus olan, dünyanın başqa yerlərində təkrarı olmayan bir iqlim keyfiyyəti də diqqəti cəlb edir. Bu apreldən oktyabra qədər günəşli havaların, xüsusilə gecə buludlu havanın tez-tez təkrarlanmasıdır. Buna görə də rayonda yağıntıların xeyli hissəsi (40-60%-i) gecə düşür, gündüz isə hava açılır. Yağıntıların belə rejimi bitki və

heyvanat aləminin ekoloji şəraitini yaxşılaşdırır, havanın daha təmiz olmasına və kurort sərvətlərindən fasiləsiz istifadə etməyə şərait yaradır.

Əlverişli iqlim şəraiti olan Qəbələdə həm iqlim, həm də balneoiqlim istirahət mərkəzi yaratmaq üçün imkanlar vardır. Bu imkanlardan hazırda geniş istifadə olunur. Bunu Qəbələdə yaradılmış istirahət kompleksi sübut edir.

Araşdırmalar göstərir ki, Şəkidə iyul ayında EET saat 13-də 49%, Zaqatalada isə 62% olduğu hallarda 22-28$^{\circ}$ olur. Bu rayon mərkəzlərinin yaxınlığında olan Marxal və Car hissəsində isə EET 70% komfort iqlim şəraiti müşahidə edilir. Buna görə də zonanın hündürlüyü 800-1000m olan hissəsi kurort və istirahət turizmi məqsədi üçün daha geniş istifadə edilə bilər. Burada Marxal xüsusi qeyd olunmalıdır. Ən isti ayın temperaturu Marxalda 22$^{\circ}$C-dən artıq deyildir. Mülayim dağ-dərə küləkləri Marxalın havasını müntəzəm dəyişir. Buludsuz yay günlərində zəif külək Kiş çayının yatağı boyunca dağlara doğru əsir. Axşama yaxın havada durğunluq əmələ gəlir, günəş batandan sonra isə dağlardan düzənliyə doğru əsən zəif külək havanı xeyli sərinlədir. Qış ayları Marxalda sakit və qarlı keçir. Lakin Marxal qışının da öz gözəlliyi vardır. Hazırda Marxal istirahət mərkəzində iqlimlə müalicə üçün təbii imkanlarla yanaşı, turistlərin rahatlığı və dincəlməsi üçün də şərait yaradılmışdır. Böyük Qafqazın cənub yamaclarında eyni təbiətə malik yerlər az deyildir. Bunlara Qəbələ rayonundakı Duruca kəndi və Nohur gölünün ətrafları, Balakən və Zaqatala rayonları sərhədindəki şəlaləli Katex çayı hövzəsi, Oğuz rayonunda Xalxal, Quba rayonunda Qəçrəş istirahət mərkəzlərini göstərmək olar.

Talışın subtropik və mülayim iqlimli zonaları dəniz səviyyəsindən 800-900 metrədək alçaq dağlıq qurşağında yerləşir. İqliminin başlıca xüsusiyyəti yay aylarının quraq və bir qədər isti, qışının isə sərin keçməsidir. İqlim ehtiyatlarından istifadə etmək üçün ən əlverişli vaxt Buravar-Siakar silsiləsinin ətəklərində (Masallı, Lerik, Yardımlı rayonları) mayın axırlarından sentyabrın birinci yarısına qədər olan dövrdür. Qalan vaxtda tez-tez təkrarlanan yağışlı havalar ərazinin rekreasiya imkanlarını məhdudlaşdırır. Tez-tez təkrarlanan isti və quru havalar Ərkivan, Qotursu, Meşəsu kimi mineral bulaqların əsasında balneoiqlim kurort zonası yaradılmasına imkan verir.

- **Ortadağlıq zonanın iqlimi**

Mülayim iqlimli İlisu-Qonaqkənd zonasında orta dağ qurşağının mülayim iqlimi və meşələri üstünlük təşkil edir. Dəniz səthində hündürlüyü 1000- 1800, bəzi yerlərdə 2000 metrə çatır. Buna görə də yayı sərin, payız və yazı yağıntılı, qışı isə qarlı keçir. Yay aylarında az buludlu, gündüz buludlu və yağışlı havalar, qışda isə mülayim şaxtalı havalar üstünlük təşkil edir. Tez-tez təkrarlanan yağışlı havalar aprel və may, oktyabr və noyabr aylarında məhdudlaşdırıcı rol oynayır.

Böyük Qafqazın cənub və şimal şərq zonasında istirahət məqsədləri üçün ən əlverişli vaxt iyunun ikinci yarısından sentyabrın ikinci yarısınadək və qış aylarıdır. Qış burada şaxtalı və qarlı keçir. Qar örtüyü 2-4 ay davam edir. Zonanın bir çox məntəqələrində (İlisu, Xalxal, Çuxuryurd, Qonaqkənd, Xaltan və s.) termal və soyuq mineral bulaqları müxtəlif profilli iqlim-balneoloji kurortların yaradılmasına imkan verir.

Subtropik iqlimli Şəmkir-Füzuli zonası Kiçik Qafqazın Qazax rayonundan başlayıb Zəngilan rayonuna qədər bütün dağətəyi hissəsini əhatə edir. Buraya quraq çöl landşaftı (bəzi yerlərdə dağətəyi meşələri) olan Qazax, Ağstafa, Tovuz, Goranboy, Ağdam-Füzuli və Zəngilan-Qubadlı rayonlarının dağətəyi əraziləri daxildir. Yayı isti keçdiyinə görə 500-600 metr hündürlüyə qədər iqlim profilli sağlamlıq ocaqlarının yaradılması imkanları azdır. Zonanın orta dağ sərhəddinə yaxın hissəsi isə yay istirahət mərkəzləri, yerli əhəmiyyətli sağlamlıq ocaqları yaradılması üçün istifadə edilə bilər. Burada havanın

rütubətliliyi də azdır. Böyük Qafqazın eyni hündürlükdə cənub yamaclarına nisbətən zonada illik yağıntının miqdarı təxminən 2 dəfə az düşür ki, bu da ərazinin kurort-sağlamlıq imkanlarını artırır. Qeyd olunan rayonların dağ ətəyi zonasında yerli əhəmiyyətli rekreasiya zonası fəaliyyət göstərir.

Mülayim iqlimli Şuşa, Gədəbəy, Göygöl, Kəlbəcər, Daşkəsən rayonları özünün zəngin kurort ehtiyatlarına – müxtəlif tərkibli mineral bulaqlarına, dağ kurortları üçün əlverişli iqlim şəraitinə, təmiz və şəffaf havasına, gözəl dağ mənzərələrinə, qəribə relyef formalarına, zəngin bitki örtüyü və heyvanat aləminə görə əvvəlki zonalardan fərqlənir. Burada kurort ehtiyatları nisbətən az istifadə edilsə də, düzən və dağətəyi rayonlarla müqayisədə daha perspektivlidir.

İqlimin səciyyəvi xüsusiyyətlərinin yaranmasında dəniz səthindən 1000-2000 m hündürlük, mürəkkəb relyefli dağlıq rayonlara məxsus olan hava dövranı prosesləri mühüm rol oynayır. Yayda, hətta ən isti aylarda belə insan komfort və sərinlik şəraitində olur. Əgər Böyük Qafqazın cənub yamaclarında yay aylarında gecə buludlu havalar səciyyəvidirsə, burada gündüz buludlu havalar daha tez-tez təkrarlanır. May və iyun aylarının hər birində havalar təxminən 15 gün buludlu və yağmurlu olur. Qeyd olunan bölgələrdə bir-birindən yamacların makro-ekspozisiyasına görə fərqlənən 3 rayon ayrılır. Bunlar Göygöl-Hacıkənd, Şuşa-Kəlbəcər və Laçın-Minkənd rayonlarıdır. Göygöl-Gədəbəy rayonunda Hacıkənd, Göygöl kimi kurort- rekreasiya yerləri mövcuddur.

İyul – avqust aylarında Göygöldə havalar Bakı və Gəncəyə nisbətən 10°C sərin keçir. Göygöldə ən yüksək temperatur $30^0$C-dən artıq olmur. İlin ən isti vaxtında belə saat 13-də ekvivalent effektiv temperatur kölgədə əksər (82 %) hallarda 8-17°C arasında dəyişir. Komfort şəraiti cəmi 15% hallarda müşahidə edilir. Lakin iyun-avqust aylarında dağ günəşi şüalarının gərginliyi yüksək olduğuna görə günəşli günlərdə radiasiya ekvivalent effektiv temperatur çox vaxt saat 11-dən 16-dək komfort zonasında olur. Göygöldə oktyabr apreldən $10^0$C istidir. Bu fərq özünü effektiv temperaturun təkrarlanmasında da göstərir. Lakin oktyabr aprelə nisbətən bir qədər rütubətli və yağışlıdır.

Yay kurort mövsümündə istirahət və gəzintini məhdudlaşdıran yeganə meteoroloji ünsür yağışdır. Yağışlı günlərin sayı mayda 10, iyunda 11, iyulda 9, avqustda 6, sentyabrda 12, oktyabrda isə 5-dir.

Atmosfer proseslərinin dəyişmə kəskinliyi az olduğuna və gündüz buludlu havalar səth örtüyünün güclü qızmasının qarşısını aldığına görə temperaturun sutkalararası dəyişkənliyi də kəskin deyildir. Sutkalıq amplitud yay aylarında çox vaxt 5-8°C, günəşli günlərdə isə 9-12°C arasında tərəddüd edir. Sutkalararası temperatur fərqi isə ən çox 2°C dən azdır. Zonada iqlimlə müalicənin tətbiq edilməsi üçün ən əlverşli şərait Şuşa-Kəlbəcər rayonundadır. Şuşanın iqlimi, Turşsu mineral suyu iqlim-balneoloji kurort üçün çox əlverişlidir. Göygöldə olduğu kimi Şuşada da yay aylarında sərin və komfort şəraitli havalar üstünlük təşkil edir. Lakin Şuşada Göygöldən fərqli olaraq hava yanvar ayında 2°C, iyulda isə 3,3°C isti keçir. Yay kurort mövsümündə Şuşada günəşli havaların təkrarlanması mayda 36%, iyunda 48%, iyulda 52%, avqustda 62%, sentyabrda isə 42%-dir. Deməli, Şuşada istirahət və müalicə üçün ən əlverişli vaxt iyun-avqust aylarıdır.

Yay müalicə və istirahət dövrü (iyun – avqust) dağ-çəmən landşaftı üstünlük təşkil edən Laçın-Minkənd rayonunda daha quru və günəşli keçir. Minkənd ətraflarında yay daha günəşli və az yağmurlu olmasına görə Şuşadan da üstündür. Sakit, şaxtalı, qarlı qış ayları isə Kislovodskun qış mövsümünə çox oxşayır. Aydın, şaxtalı qış günlərində Minkənd mineral bulaqlarından fəvvarə kimi qalxan buxar topaları buraya ilk dəfə gələnlərə xoş təsir bağışlayır. Minkənd və onun ətrafları əlverişli iqlim və balneoloji amillər

əsasında Azərbaycanın ən yaxşı iqlim-balneoloji kurortu kimi inkişaf etdirilməyə layiqdir. Ümumiyyətlə, Azərbaycanın orta dağlıq zonasının zəngin təbiəti müalicə-sağlamlıq turizmi üçün əlverişlidir.

Naxçıvan təbii vilayətinin dağətəyi və ortadağ zonalarının iqlimi kontinentaldır. Rayonun şəfa bulaqları ilə zəngin olan Badamlı, Batabat, yüngül saf havası olan Əylis, Bist, bağlı-bağatlı Dırnıst, Kələki ətrafları və s. kimi gözəl mənzərəli sağlamlıq və istirahət guşələri çoxdur. Müxtəlif tərkibli mineral sular burada iqlim-balneoloji profilli sanatoriya, istirahət obyektlərinin yaradılmasına əsas verir.

Zonada günəşli günlərin sayı 165-190-a çatır ki, bu, Abşeron yarımadasından da çoxdur. İl ərzində cəmi 30 – 50 tutqun gün müşahidə olunur, onun da çoxu qış aylarına düşür. Buna müvafiq olaraq yağıntılar da azdır. Tutqun və yağışlı havaların belə rejimi insan sağlamlığı üçün çox yaxşıdır. Qış Azərbaycanın digər ortadağ rayonlarına nisbətən şaxtalı və sakit keçir. Bəzən ayaz qış gecələrində yaranan temperatur inversiyası nəticəsində havanın temperaturu dağətəyi rayona nisbətən yüksək olur. Buna görə də Əndəmicdə mütləq minimal temperatur (-27°C) Culfadakına (-29°C) nisbətən 2°C artıqdır.

Naxçıvan-Ordubad rayonunun zəngin kurort və rekreasiya ehtiyatları hələ istifadə edilmir. Lakin rayonda uroloji xəstəliklərin müalicəsi üçün Bayraməli (Türkmənistan) tipli iqlim kurortu yaradılması üçün imkan var. Yüksək yay temperaturu böyrək xəstəliklərinin müalicəsi üçün yaxşı olsa da, kütləvi istirahəti və ümumiyyətlə, açıq havada ağır fiziki işlərin görülməsini məhdudlaşdıran bir amil kimi qiymətləndirilir. Naxçıvan Muxtar Respublikasının xoş iqlimli, müxtəlif tərkibli mineral suları, mənzərəli dağ gölləri, kurort və rekreasiya yerlərinin təbii-sağlamlıq ehtiyatlarını tamamlayan amillərdir.

Quraqlıq ortadağ, mülayim, isti çöl, bəzi yerlərdə hətta yarımsəhra iqlimi Lerik-Çayuzu rayonunda daha üstündür. Buravar-Siakar rayonundan hündürdə yerləşməsinə baxmayaraq burada istirahət mövsümü daha uzun, hava şəraiti isə insan səhhəti üçün daha əlverişlidir. Bu, birinci növbədə, dağ havasının saflığı və rütubətliliyinin az olması ilə əlaqədardır. 1100m hündürlükdə yerləşən Lerikdə illik yağıntının miqdarı Lənkəran ovalığındakından 2-3 dəfə azdır. İsti və quraq keçən günlərinin sayı iyun ayında 6, iyulda 12, avqustda isə 9-dur.

Lerikdən bir qədər yuxarıda Pirəsura, Nurovud və başqa kəndlərin ətraflarında dağ yarımsəhra və quru çöl şəraiti vardır. Burada yay aylarında havanın nisbi rütubətliyi çox vaxt 30-40%, bəzi günlərdə hətta 10-15%-ə enir. Mülayim termik şəraitdə quru və təmiz dağ havası nəfəs yolları və ağciyər xəstəliklərinin müalicəsində ən təsirli müalicə vasitəsi hesab olunur. Bu həm də yerli əhalinin uzun ömürlüyünün təbii şərtlərindən biridir.

- **Yüksək dağlıq zonanın iqlimi**

Rütubətli və soyuq iqlimli yüksək dağ zonasının hündürlüyü 2000 metrdən yuxarı olan ərazini əhatə edir. Yayı çox qısa (2-2,5 ay), qışı isə qarlı və şaxtalı olub 5-6 ay davam edir. Soyuq iqlimli yüksəkdağlıq zona Kiçik Qafqazın 2000 m hündürlükdən yuxarıda yerləşən yaylaqlarını əhatə edir. İyul və avqustda Aran rayonlarında güclü istilər düşəndə yüksək dağ zonasında gündüzlər sərin, gecələr isə hətta soyuq olur. Məsələn, Xaçbulaq yaylaqlarına yaxın olan Şəmkir Göygölündə (2470 metr) orta aylıq temperatur iyunda 8,2°C, iyulda 10,9°C, avqustda 11,4°C, sentyabrda isə 8,3°C-dir. Bu, Gəncənin həmin aylardakı orta temperaturundan 13-14°C aşağıdır.

Komfort və sərin hava şəraiti ilə bərabər zona ekzotik mənzərəli alp və subalp çəmənlikləri, sıra dağları, sərin bulaqları ilə tanınır. Zonanın iqlim və balneoloji imkanlarının çox olmasına baxmayaraq, mütəşəkkil müalicə tədbirləri iqlim-balnenoloji kurortu kimi İstisuda aparılır. Dəniz səviyyəsindən 2294 m

hündürlükdə yerləşdiyinə görə qış burada 5 ay davam edir, qarlı və şaxtalı keçir. Mütləq minimal temperatur, İstisuda -29°C, Şəmkir Göygölündə isə -32°C təşkil edir. Hündürlük amili havanın təmizliyini, düz günəş radiasiyasının yüksək gərginliyini, ultrabənövşəyi şüaların bolluğunu təmin edir. Lakin hündürlük amili İstisuyun nadir tərkibli mineral sularından balneoloji məqsədlər üçün daha geniş miqyasda istifadə etməyi xeyli məhdudlaşdırır.

Kəlbəcər, Laçın və Şuşa rayonlarında havanın orta sutkalıq temperaturu 10ºC-dən yuxarı olan günlərin sayı düzənliklərdə 210, orta dağlıqda 190, yüksək dağlıqda 50-120 gün arasında dəyişir. İllik günəş radiasiyası düzənlik və orta dağlıq zonalarda 132-136 kkal/sm²-dan başlayaraq yüksək dağlıqda 140-144 kkal/sm²-dək artır. Orta dağlıq ərazilərdə 300-600 mm, yüksək dağlıq zonada 700-800 mm yağıntı düşür. Regionun landşaftında alp və subalp çəmənlikləri, meşələr üstünlük təşkil edir və nadir ağacları olan meşələrin sahəsi 92 min ha-dır. (Respublika meşələrinin 9%-i). Bunun 72%-i Kəlbəcər və Laçın inzibati rayonlarında yerləşən turizm-rekreasiya əhəmiyyətli dağ meşələrindən ibarətdir.

Şuşanın iqlimi qışda nisbətən soyuq (-3°, +4°), yayda sərin, günəşli (+18°) olur. Orta aylıq hərarət yanvar ayında -2,2ºC, iyun ayında +13,3ºC arasında dəyişir. Nisbi rütubətlilik orta hesabla 70-80 faiz arasında olur. Orta illik yağıntı 630-660 millimetrdir. Ən çox yağıntı yay aylarında müşahidə edilir. Şuşada əsən küləklərin sürəti orta hesabla 4-6 metr/saniyə olur. Çox nadir hallarda təxminən ildə 4-6 dəfə nisbətən güclü (12 metr/saniyə) küləklərə təsadüf edilir. Dumanlı günlərin sayı orta hesabla ildə 80-dir.

Şuşa kurortunun ərazisi dekorativ və meyvə ağacları ilə zəngindir. Kurort amilləri kompleksinin xüsusiyyətlərinə, havanın saflığına, təmizliyinə və müalicəvi əhəmiyyətinə görə Şuşa kurortu İsveçrənin dünyaca məşhur Davos kurortu ilə müqayisə edilə bilər. Qafqaz kurortlarının tədqiqatçısı, iqlim amillərinin xüsusiyyətlərinin mükəmməl bilicisi sayılan V.İ. Fiqurovski Şuşa kurortunun iqlimini İtaliyanın, İsveçrənin, eləcə də Avropanın bir sıra məşhur kurortlarının iqlimləri ilə müqayisəli surətdə öyrənmiş, bir çox parametrlərə görə üstünlüyü Şuşa kurortuna vermişdir.

Şuşa-Turşsu rekreasiya zonasının əlverişli mikroiqlim göstəriciləri, zəngin müalicəvi bulaqları ürək-damar, tənəffüs yolları, mədə-bağırsaq, qaraciyər, öd yolları və uroloji xəstəliklərinin müalicəsi üçün əlverişli sayılır.

Kurort zonasında iqlimlə müalicənin tətbiq edilməsi üçün ən əlverşli şərait Şuşa-Kəlbəcər rayonundadır. Şuşanın iqlimi, Turşsu mineral suyu iqlim-balneoloji kurort üçün çox əlverişlidir. Göygöldə olduğu kimi Şuşada da yay aylarında sərin və əlverişli şəraitli havalar üstünlük təşkil edir. Lakin Şuşada yanvar ayı Göygöldən 20C, iyulda isə 3,30C isti keçir. Yay kurort mövsümündə Şuşada günəşli havaların təkrarlanması mayda 36%, iyunda 48%, iyulda 52%, avqustda 62%, sentyabrda isə 42%-dir. Deməli, Şuşada istirahət və müalicə üçün ən əlverişli vaxt iyun – avqust aylarıdır.

Yay müalicə və istirahət dövrü (iyun – avqust) dağ – çəmən landşaftı üstünlük təşkil edən Laçın – Əhmədli kurort zonasında daha quru və günəşli keçir. Minkənd ətraflarında yay daha günəşli və az yağmurlu olduğuna görə Şuşanın iqlimini üstələyir. Sakit, şaxtalı-qarlı qış ayları isə Kislovodskinin qış mövsümünə çox oxşayır. Aydın, şaxtalı qış günlərində Minkənd mineral bulaqlarından fəvvarə kimi qalxan buxar topaları buraya ilk dəfə gələnlərə xoş təsir bağışlayır. Minkənd və onun ətrafları əlverişli iqlim və balneoloji amillər əsasında Azərbaycanın ən yaxşı iqlim – balneoloji kurortu kimi inkişaf etdirilməyə layiqdir.

### CƏDVƏL 14. Azərbaycanın kurort-iqlim zonalarının əsas göstəriciləri

| | Kurort-iqlim zonasının adı | Balneoloji-iqlim göstəriciləri (orta temperatur ⁰C) | Kurort-sağlamlıq əhəmiyyəti |
|---|---|---|---|
| **1.** | Abşeron dəniz sahilləri | Orta illik: 14,9<br>Yay ayları: 26,5<br>Qış ayları: 3-5<br>Nisbi rütubət: 75% | Talaso və aeroterapiya |
| **2** | Qızılqazma –Altıağac | Orta illik: 8,8<br>Yay ayları: 20,5<br>Qış ayları: -2-+3<br>Nisbi rütubət: 65%<br>Ekzotik meşə landşaftı. | Kurort – sağlamlıq |
| **3.** | İlisu – Sarıbaş | Orta illik: 8,4<br>Yay ayları: 19,5<br>Qış ayları: -2-+4<br>Nisbi rütubət: 70%<br>Müalicəvi bulaqlar, meşə və dağ-çəmən landşaftı | Kurort – sağlamlıq, aerotera-piya və hava vannaları, balneoloji müalicə |
| **4.** | Çimçımax – Qəbizdərə | Orta illik: 7,8<br>Yay ayları: 20,5<br>Qış ayları: -4-+1<br>Nisbi rütubət: 72%<br>Müalicəvi bulaqlar, ekzotik meşə landşafti | Kurort – sağlamlıq, balneoloji müalicə |
| **5** | Kiş – Marxal | Orta illik: 9,2<br>Yay ayları: 21,5<br>Qış ayları: -4-+3<br>Nisbi rütubət: 63%<br>Ekzotik meşə landşaftı | Kurort – sağlamlıq |
| **6.** | Bum – Qəmərvan | Orta illik: 7,8<br>Yay ayları: 21,3<br>Qış ayları: -4-+2<br>Nisbi rütubət: 65%<br>Müalicəvi bulaqlar, meşə və dağ-çəmən landşaftı | Kurort – sağlamlıq, aeroterapiya, balneoloji müalicə |
| **7.** | Xal-Xal – Filfili | Orta illik: 7,6<br>Yay ayları: 20,3<br>Qış ayları: -4-+2<br>Nisbi rütubət: 67%<br>Müalicəvi bulaqlar, ekzotik meşə landşafti | Kurort – sağlamlıq, balneoloji müalicə |

| | Kurort-iqlim zonasının adı | Balneoloji-iqlim göstəriciləri (orta temperatur °C) | Kurort-sağlamlıq əhəmiyyəti |
|---|---|---|---|
| **8.** | Basqal – Sulut | Orta illik: 8,4<br>Yay ayları: 20,8<br>Qış ayları: -3-+2<br>Nisbi rütubət: 62%<br>Müalicəvi bulaqlar, ekzotik meşə landşaftı | Kurort – sağlamlıq, balneoloji müalicə |
| **9.** | Çuxuryurd – Avaxıl | Orta illik: 8,2<br>Yay ayları: 21,2<br>Qış ayları: -4-+2<br>Nisbi rütubət: 58%<br>Müalicəvi bulaqlar, meşə və dağ-çəmən landşaftı | Kurort – sağlamlıq, aeroterapiya, balneoloji müalicə |
| **10.** | Qonaqkənd – Xaltan | Orta illik: 8,4<br>Yay ayları: 19,3<br>Qış ayları: -5-+2<br>Nisbi rütubət: 65%<br>Müalicəvi bulaqlar, meşə və dağ-çəmən landşaftı | Kurort – sağlamlıq, aeroterapiya, balneoloji müalicə |
| **11.** | Xuray – Laza | Orta illik: 7,9<br>Yay ayları: 20,2<br>Qış ayları: -4-+2<br>Nisbi rütubət: 68%<br>Meşə və dağ-çəmən landşaftı | Kurort – sağlamlıq, aeroterapiya |
| **12.** | Yalama – Nabran | Orta illik: 13,1<br>Yay ayları: 24,3<br>Qış ayları: 2-5<br>Nisbi rütubət: 72%<br>Müalicəvi bulaqlar, düzənlik meşə landşaftı | Kurort – sağlamlıq, talasoterapiya və balneoloji müalicə |
| **13.** | Düz Bilici – Qalaaltı | Orta illik: 8,4<br>Yay ayları: 21,5<br>Qış ayları: -2-+3<br>Nisbi rütubət: 57%<br>Müalicəvi bulaqlar, dağ-meşə və meşə-çöl landşaftı | Kurort – sağlamlıq, balneoloji müalicə |
| **14.** | Dəstəfur – Alaxançallı; Xoşbulaq – Astaf | Orta illik: 7,3<br>Yay ayları: 19,5<br>Qış ayları: -5-+1<br>Nisbi rütubət: 65%<br>Müalicəvi bulaqlar, dağ-meşə və dağ-çəmən landşaftı | Kurort – sağlamlıq, aerotera-piya, balneoloji müalicə |
| **15.** | Miskinli zonası (Qalakənd-Düzyurd ətrafı) | Orta illik: 7,5<br>Yay ayları: 19,5<br>Qış ayları: -4-+2<br>Nisbi rütubət: 57%<br>Müalicəvi bulaqlar, dağ-meşə və dağ-çəmən landşaftı | Kurort – sağlamlıq, aeroterapiya, balneoloji müalicə |
| **16.** | Xınna və Əsrikçay | Orta illik: 8,3<br>Yay ayları: 20,6<br>Qış ayları: -3-+2<br>Nisbi rütubət: 58%<br>Müalicəvi bulaqlar, ekzotik meşə landşaftı | Kurort – sağlamlıq, aeroterapiya, balneoloji müalicə |

| | Kurort-iqlim zonasının adı | Balneoloji-iqlim göstəriciləri (orta temperatur °C) | Kurort-sağlamlıq əhəmiyyəti |
|---|---|---|---|
| **17.** | Hacıkənd – Toğana – Göygöl MP | Orta illik: 7,9<br>Yay ayları: 21,5<br>Qış ayları: -4-+2<br>Nisbi rütubət: 65%<br>Ekzotik meşə landşaftı, göllər | Kurort – sağlamlıq, aeroterapiya |
| **18.** | Kəlbəcər – İstisu | Orta illik: 6,7<br>Yay ayları: 18,1<br>Qış ayları: -6-(-1)<br>Nisbi rütubət: 67%<br>Müalicəvi bulaqlar, dağ-meşə və dağ-çəmən landşaftı | Kurort – sağlamlıq, balneoloji müalicə, aeroterapiya |
| **19.** | Korcabulaq – Şəlvə | Orta illik: 6,8<br>Yay ayları: 19,1<br>Qış ayları: -5-(-1)<br>Nisbi rütubət: 67%<br>Müalicəvi bulaqlar, dağ-meşə, dağ-çəmən landşaftı | Kurort-sağlamlıq, balneoloji müalicə, aeroterapiya |
| **20.** | Turşsu – Şuşa | Orta illik: 7,2<br>Yay ayları: 19,2<br>Qış ayları: -5-+1<br>Nisbi rütubət: 58%<br>Müalicəvi bulaqlar, dağ-meşə, dağ-çəmən landşaftı | Kurort – sağlamlıq, balneoloji müalicə, aeroterapiya |
| **21.** | Ağbulaq – Batabat | Orta illik: 6,7<br>Yay ayları: 18,2<br>Qış ayları: -7-(-2)<br>Nisbi rütubət: 56%<br>Müalicəvi bulaqlar, dağ-çəmən landşaftı | Kurort – sağlamlıq, aeroterapiya |
| **22.** | Xanəgah – Boyəhməd | Orta illik: 8,2<br>Yay ayları: 22,5<br>Qış ayları: -6-(-2)<br>Nisbi rütubət: 54%<br>Müalicəvi bulaqlar, dağ-çöl və dağ-çəmən landşaftı | Kurort – sağlamlıq, balneoloji müalicə, aeroterapiya |
| **23.** | Ağdərə – Xurs | Orta illik: 7,4<br>Yay ayları: 22,4<br>Qış ayları: -5-(-1)<br>Nisbi rütubət: 56%<br>Müalicəvi bulaqlar, dağ-çöl və dağ-çəmən landşaftı | Kurort – sağlamlıq, balneoloji müalicə, aeroterapiya |
| **24.** | Haftoni – İstisu və dəniz sahili | Orta illik: 13,4<br>Yay ayları: 23,5<br>Qış ayları: 3-5<br>Nisbi rütubət: 76%<br>Müalicəvi bulaqlar, qara qum, ekzotik düzən və dağ-meşə landşaftı | Kurort – sağlamlıq, balneoloji müalicə, talasoterapiya |

| | Kurort-iqlim zonasının adı | Balneoloji-iqlim göstəriciləri (orta temperatur °C) | Kurort-sağlamlıq əhəmiyyəti |
|---|---|---|---|
| **25.** | Buzeyir – Şonaçola – Büldül | Orta illik: 7,6<br>Yay ayları: 19,3<br>Qış ayları: -4-+2<br>Nisbi rütubət: 56%<br>Müalicəvi bulaqlar, dağ-meşə və dağ-quru çöl landşaftı | Kurort – sağlamlıq, aeroterapiya |
| **26.** | Qəriblər – Dəmbəlov | Orta illik: 12,3<br>Yay ayları: 22,6<br>Qış ayları: 3-5<br>Nisbi rütubət: 76%<br>Müalicəvi bulaqlar, dağ-meşə landşaftı | Kurort – sağlamlıq, balneoloji müalicə |
| **27.** | Xanbulan su anbarı – Hirkan MP | Orta illik: 12,5<br>Yay ayları: 22,4<br>Qış ayları: 2-4<br>Nisbi rütubət: 73%<br>Müalicəvi bulaqlar, dağ-meşə landşaftı | Kurort – sağlamlıq |
| **28.** | Ökü – Pirembel | Orta illik: 9,1<br>Yay ayları: 20,5<br>Qış ayları: -3-(+2)<br>Nisbi rütubət: 57%<br>Müalicəvi bulaqlar, dağ-quru çöl və dağ-meşə landşaftı | Kurort – sağlamlıq, aeroterapiya |
| **29.** | Kəlbəcər – İstisu (Kəlbəcər rayonu) | Orta illik: 6,7<br>Yay ayları: 18,1<br>Qış ayları: -6-(-1)<br>Nisbi rütubət: 67%<br>Müalicəvi bulaqlar, dağ-meşə və dağ-çəmən landşaftı | Kurort-sağlamlıq, balneoloji müalicə, aeroterapiya |
| **30.** | Korcabulaq – Şəlvə (Laçın rayonu) | Orta illik: 6,8<br>Yay ayları: 19,1<br>Qış ayları: -5-(-1)<br>Nisbi rütubət: 67%<br>Müalicəvi bulaqlar, dağ-meşə və dağ-çəmən landşaftı | Kurort-sağlamlıq, balneoloji müalicə, aeroterapiya |
| **31.** | Minkənd – Əhmədli (Laçın rayonu) | Orta illik: 6,8<br>Yay ayları: 18,3<br>Qış ayları: -5-(-3)<br>Nisbi rütubət: 65%<br>Müalicəvi bulaqlar, dağ-meşə və dağ-çəmən landşaftı | Kurort-sağlamlıq, balneoloji müalicə, aeroterapiya |
| **32.** | Turşsu – Şuşa (Şuşa rayonu) | Orta illik: 7,2<br>Yay ayları: 19,2<br>Qış ayları: -5-+1<br>Nisbi rütubət: 58%<br>Müalicəvi bulaqlar, dağ-meşə və dağ-çəmən landşaftı | Kurort-sağlamlıq, balneoloji müalicə, aeroterapiya |

**MƏNBƏ:** *1.Mahmudov R.N. Müasir iqlim dəyişmələri və təhlükəli hidrometeoroloji hadisələr, Bakı 2018, 232 s.; 2.Soltanova H.B., Qasımov M.S., Ağasiyev Ə.R. Azərbaycanın kurort təsərrüfatı. Bakı 2017, 215 s.*

Azərbaycanın iqlimi talassoterapiya, aeroterapiya, helioterapiya müalicəsinin təşkili, istirahət və sağlamlıq turizminin inkişafına təkan vermişdir. Ölkədə mövcud istirahət mərkəzlərinin əksəriyyətinin iqlim-landşaft şəraiti əlaverişli olan ərazilərdə cəmlənməsi mikroiqlim göstəricilərinin əlverişli olması ilə bağlıdır. Bununla yanaşı, mikroiqlim potensialından müalicə-sağlamlıq turizmi baxımından zəif istifadə olunmasını qeyd etmək olar.

Əlverişli və sərin hava şəraiti ilə bərabər Kəlbəcər, Laçın və Şuşa zonası gözəl mənzərəli subalp və alp çəmənləri, sıra dağları, sərin bulaqları ilə tanınır. Hündürlük amili havanın təmizliyini, düz günəş radiasiyasının yüksək gərginliyini, ultrabənövşəyi şüaların bolluğunu təmin edir. İqlim şəraitinin təhlili göstərir ki, Kəlbəcər, Laçın, Şuşada iqlim-balneoloji kurortu yaradılması üçün bütün təbii imkanlar vardır. Balneoloji-iqlim potensialı ilə seçilən ərazilərin ətrafında geniş meşə və dağ-çəmən landşaftının yayılması, təbiət abidələrinin mövcudluğu ərazinin sağlamlıq turizmi məqsədilə istifadə olunmasına şərait yaradır.

Ölkədə iqlim resurslarının müalicə sağlamlıq turizmində istifadə olunması üçün aşağıdakı təklifləri qeyd etmək olar:

| | |
|---|---|
| Mikroiqlim şəraiti əlaverişli olan ərazilərin müəyyən olunması və iqlim terapiya imkanlarından yararlanma | Mikroiqlim şəraiti əlverişli olan ərazilərə bütün dağlıq və dağətəyi rayonlarda rast gəlinir. Burada oksigenin bol olması da müalicə-sağlamlıq imkanlarını artırır. Bu baxımdan Şamaxıda Çuxuryurd – Avaxıl istiqaməti, Şəkidə Xan yaylağı ərazisi, Oğuzda Fil-Fili və Xalxal, Gədəbəydə Miskinli ərazisi, Lerikdə Zuvand çökəkliyi, Tovuzda Xınna dərəsi və Fındıqlı meşəsi, Şuşada Daşaltı dərəsi və Topxana meşəsi, Şahbuzda Batabat yaylası və s. aeroterapiya üçün əlverişli bölgələrdəndir. |
| Dağ iqlim kurortlarının təşkili üçün əlverişli şəraitin olması | Belə dağ iqlim kurortlarının Şamaxı, İsmayıllı, Qəbələ, Şəki, Quba, Qusar, Gədəbəy, Tovuz, Lerik, Yardımlı, Ordubad və Şahbuz rayonlarında, işğaldan yeni azad olunmuş bölgələrdə təşkili mümkündür. Azərbaycanın dağ-iqlim amilləri İsveçrə, Avstriya, İtaliya, Fransanın Alp dağlarında olan iqlim kurortları ilə oxşar mikroiqlim şəraitinə malikdir. |
| Xəzər sahillərində talassoterapiya və helioterapiya imkanlarının mövcudluğu | Xəzər sahillərində günəşli günlərin və saatların çox olması, quru iqlim şəraiti, sahillərdə oksigenin, yodun çox olması, narın qumlu çimərlikləri talassoterapiya imkanlarını artırır. Abşeronun şimal sahillərinin “qızıl” qumlu, Lənkəran sahillərinin qara qumlu çimərlikləri talassoterapiyanın təşkili üçün daha əlverişli ərazilərdir. |
| Azərbaycanın iqlim şəraitinin rekreasiya və sağlamlıq turizminin birgə təşkilinə imkan verməsi | Ölkənin dağlıq və dağ ətəyi ərazilərində mikroiqlim şəraiti istirahət, sağlamlıq, ekoloji, qış turizm növlərinin təşkili üçün əlverişli olduğuna görə onların birgə istifadə olunması səmərəli olardı. Bu məqsədlə “təbiət-rekreasiya və sağlamlıq” turizm məhsullarının hazırlanması məqsədəuyğundur. |

## 2.3. Azərbaycanda kurort-sağlamlıq müəssisələrinin cari vəziyyətininmüqayisəli təhlili

Ölkədəki müalicə-sağlamlıq müəssisələrinə Kurort Səhmdar Cəmiyyətinin tabeliyində olan sanatoriyalardan, Naftalanda fəaliyyət göstərən müalicə-sağlamlıq müəssisələrindən, “Qalaalti Hotel & Spa”, “Qafqaz Thermal & Spa Hotel”, “Lankaran Springs Wellness Resort” mərkəzlərindən və yerli əhəmiyyətli kiçik müalicə-sağlamlıq mərkəzləri aiddir. Qeyd olunan sağlamlıq mərkəzlərinin təqdim etdiyi xidmətlərin fərqli olması, bazarda fəaliyyət imkanlarının yüksəkliyi, təqdim etdiyi məhsulların çeşidinin müxtəlifliyi onların seçilməsinə səbəb olmuşdur.

Azərbaycanda sağlamlıq turizmi siyasətini bu sahədə fəaliyyət göstərən müəssisələrin ixtisaslaşmasına uyğun olaraq qruplaşdırmaq olar.

**CƏDVƏL 15. Azərbaycanda fəaliyyət göstərən sağlamlıq turizmi müəssisələrinin ixtisaslaşması**

| |
|---|
| **Sağlamlaşdırma (SPA-velnes) xidmətləri təklif edən kurort müəssisələri:** |
| Lankaran Springs Wellness Resort, Qalaalti Hotel & Spa, Qafqaz Thermal & Spa Hotel, Chenot Palace Gabala, Duzdağ hotel |
| **Müalicə və sağlamlıq xidmətləri təklif edən kurort müəssisələri:** |
| Gashalti Health Hotel, Chinar Hotel & Spa, Garabag Resort & SPA |
| **Ənənəvi sanatoriya xidmətləri təklif edən kurort müəssisələri:** |
| Şəfa, Möcüzəli Naftalan, Kəpəz, Gözəl Naftalan, Sehirli Naftalan, Elmi Tədqiqat Tibbi Bərpa İnstitutunun ixtisaslaşdırılmış klinikası, Şıx, Bilgəh, Günəşli, Abşeron, Qaranquş, Suraxanı Tibbi Bərpa mərkəzi, Şəfa müalicə pansionatı |
| **İstirahət və Spa xidmətləri təklif edən kurort müəssisələri:** |
| Marxal Resort & Spa, Guba Palace, Shahdag Hotel & Spa |

“Qalaalti Hotel & Spa” və "Lankaran Springs Wellness Resort" hotelləri sağlamlaşdırma xidmətlərinin sayına və keyfiyyətinə görə fərqlənir. Bu da həmin hotellərin daha çox turist cəlb etməsinə imkan verir. Qeyd olunan hotellər ilboyu fəaliyyət göstərməklə yanaşı, xarici və yerli turistlərin xidmətlərindən yararlanması üçün şərait yaradır.

Naftalanda olan müalicə-sağlamlıq müəssisələrinin və sanatoriyaların fəaliyyətinin əsasını eyniadlı müalicəvi neft təşkil edir. Burada yüksək kateqoriyalı hotellər müalicə ilə yanaşı, sağlamlıq və SPA xidmətləri təklif edirlər. Sanatoriyalar isə ixtisaslaşdırılmış Naftalan nefti əsasında müalicəyə üstünlük verirlər. Qeyd olunan sanatoriyalarda velnes-SPA xidmətləri yoxdur.

Abşeron sanatoriyaları əsasən ixtisaslaşdırılmış müalicə-sağlamlıq xidmətləri təklif edir. Bu sanatoriyalarda velnes-SPA xidmətləri yoxdur. Onların fəaliyyətinin əsas hissəsi AHİK üzvlərinə güzəştli müalicə-sağlamlıq xidmətləri göstərilməsindən ibarətdir.

İstirahət və Spa hotellərinin əsas müştəri seqmentinin istirahət-əyləncə təyinatlı olması, sağlamlaşdırma (SPA-velnes) xidmətinin azlığı, layihənin əsas məqsədinə uyğun olmaması, onların araşdırılmasının məqsədəuyğun hesab edilməməsinə səbəb olmuşdur.

Seçilmiş sağlamlıq müəssisələrinin cari vəziyyətini araşdırdıqda, Abşeron sanatoriyalarının xidmətlərində oxşar əlamətlərin çox olması, müalicə təyinatının üstünlüyü və ixtisaslaşmasına görə fərqlənməsi turist qəbulu imkanlarını artırmasını müşahidə etmək olar. Eyni zamanda, Abşeron sanatoriyalarında pasiyentlərin qəbulunda ümumi diaqnostik müalicələrin aparılması da geniş yayılmışdır. Bu sanatoriyalarda kompleks kurort xidmətlərinin göstərilməməsi, gələn turistlərin dinamikasına mənfi təsir etmiş, həmçinin onların rəqabət qabiliyyətini aşağı salmışdır. Abşeron sanatoriyalarında marketinq reklam xidmətlərinin təşkil olunmaması, hətta internet portal və linklərinin yaradılmaması onların turist qəbulu imkanlarını minimuma endirir. Bunun nəticəsidir ki, qeyd olunan sanatoriyaların xidmətlərindən xarici turistlər demək olar ki, istifadə etmir, həmçinin əsas müştəriləri güzəştli yollarla gələn pasiyentlərdən ibarətdir.

- **Kurort Qapalı Səhmdar Cəmiyyətinin tabeliyində olan sanatoriyalar**

**“Bilgəh” kardioloji sanatoriyası** Bakının Bilgəh qəsəbəsində yerləşir. Sanatoriya yeni texniki avadanlıqla təchiz olunmuş müalicə-diaqnostika bazasıdır. Sanatoriyanın korpus və kottecləri müasir tələblərə cavab verən otaqlardan ibarətdir. Sanatoriya 1 dörd mərtəbəli korpus, 2 iki mərtəbəli korpus və 5 bir mərtəbəli və iki mərtəbəli kotteclərdə yerləşdirilmiş 442 çarpayıya malikdir. Sanatoriyada 44 iki nəfərlik bir otaqlı yarım lüks, 4 bir otaqlı bir nəfərlik lüks, 49 iki nəfərlik iki otaqlı lüks, 6 dörd nəfərlik üç otaqlı lüks nömrələr, 8 iki nəfərlik iki otaqlı lüks kotteclər, 20 üç nəfərlik iki otaqlı seksiyalar, 48 bir otaqlı iki nəfərlik sadə nömrələr, 12 iki nəfərlik bir otaqlı nömrələr var. Sanatoriyada tam müalicə olunmaq üçün qonaq minimum 18 gün burada qalmalı və lazımi prosedurlardan keçməlidir. Qiymətləri münasib olan bu sanatoriyada yerli əhali bütün il ərzində müalicə olunur və tam xidmət almaq imkanları vardır.

Sanatoriyada funksional müalicə-diaqnostika şöbəsi, biokimya və klinik laboratoriya, fizioterapiya, psixoterapiya, stomatologiya, ginekologiya otaqları və müalicəvi vanna şöbəsi fəaliyyət göstərir. Həmçinin 400 nəfərlik qış klubu və konsert zalı, 450 nəfərlik yeməkxana, kitabxana, idman meydançası, trenajor meydançası, tennis kortu, narın qumlu çimərliyi vardır. Burada ürək-damar xəstəliklərinin müalicəsi aparılır. Sanatoriya il ərzində 5000 nəfərə qədər pasiyentə xidmət edir. Ümumi diaqnoz qoyulduqdan sonra müalicə prosedurları aparılır. Sanatoriyanın xidmətlərindən istifadə edənlərin əsas hissəsi ölkə vətəndaşlarından ibarətdir.

**“Günəşli” nevroloji sanatoriyası** paytaxtdan cəmi 35 km aralı, Mərdəkan qəsəbəsində yerləşir. “Günəşli” nevroloji sanatoriyası əsəb sistemi xəstəliklərinin təyini və müalicəsi üçün müalicə-diaqnostika bazasıdır. Sanatoriyanın korpusları müasir tələblərə cavab verən yeni təmirdən çıxmış otaqlardan ibarətdir. Burada 49 iki yerlik iki otaqlı lüks, 95 bir otaqlı iki yerlik və 15 bir yerlik bir otaqlı nömrələr var. Sanatoriyanın ümumi tutumu 640 yerlikdir. Yay fəslində yeniyetmə və uşaqlar üçün 140 yerlik şöbə ayrılır, qış aylarında isə sanatoriyada yaşlılar üçün ambulator-kurs müalicəsi həyata keçirilir. Tikildiyi ilk illərdə sanatoriyada xidmət yüksək səviyyədə olmuşdur. Hazırda sanatoriyada il boyu fəaliyyət göstərməklə xəstələrə xidmət edə biləcək 231 yer vardır. Sanatoriyada bir növbədə 500-dək adam istirahət edə bilir. Son

illərdə sanatoriya xeyli genişləndirilmişdir. İstirahətə gələnlər bir-birinə yaxın inşa edilmiş 8 müxtəlif korpusda yerləşdirilir. Hər korpusun xidmətçiləri, tibb bacıları və həkimləri vardır. Ümumi yeməkxana isə sanatoriya şəhərciyinin mərkəzindədir.

"Günəşli" sanatoriyası il ərzində 3500 pasiyentə xidmət etmək imkanına malikdir. Əsas müştəriləri güzəştli yollayışlarla gələnlərdən ibarətdir. Burada müalicə xidmətləri stasionar xəstə qəbuluna imkan vermir. Yalnız qış aylarında belə xəstələrin qəbulu aparılır. Bəzi şöbələr yalnız yay aylarında fəaliyyət göstərir. Onu da qeyd edək ki, sanatoriyada təmir bərpa işlərinin aparılması hesabına gələn pasiyentlərin sayı artmışdır. Bunun nəticəsidir ki, sanatoriyaya gələnlərin sayı ildən-ilə artaraq 3,7 min nəfərə çatmışdır (2017-ci il). Xəstələr asudə vaxtlarını əyləncəli tədbirlərdə, dəniz sahili gəzintidə keçirə bilirlər. Şənbə və bazar günləri müxtəlif şəhərətrafı ərazilərə, ziyarət və pirlərə ekskursiyalar təşkil olunur. Asudə vaxtın daha səmərəli keçirilməsi məqsədilə sanatoriyada kütləvi tədbirlər, bayram və şənliklər də təşkil edilir.

**"Abşeron" sanatoriyası** Mərdəkan qəsəbəsində yerləşir. Sanatoriyada kliniki biolaboratoriya, rentgen və endoskopiya kabinetləri olan müalicə-diaqnostika mərkəzi vardır. Sanatoriyada başlıca təbii müalicə amili şəfalı palçıqlar hesab olunur. Sanatoriya ətrafı yaşıllıqlarla örtülü olan 2 korpusdan və geniş müalicəvi diaqnostika mərkəzindən, zəngin və müxtəlif çeşidli, o cümlədən pəhriz yeməkləri təklif edən yeməkxanadan, mədəniyyət mərkəzi və kitabxanadan ibarətdir. Sanatoriyanın nömrələri lüks və standart olmaqla iki qrupa bölünür. Sanatoriya 318 nəfər xəstə qəbul etmək imkanına malikdir.

Sanatoriyada pasiyentlərə əsasən müalicə diaqnostik xidmətlər göstərilir. Sanatoriyada pasiyentlərin asudə vaxtının səmərəli təşkili üçün əlavə müxtəlif ekskursiya xidmətləri də təklif olunur. Sanatoriyanın xidmətlərindən istifadə edənlərin sayı il ərzində 2500-3000 nəfərə çatır. Bunların da əsas hissəsi yay aylarında gələn turistlərdən ibarətdir.

**"Qaranquş" sanatoriyası** Mərdəkan qəsəbəsində yerləşən klinik biokimya laboratoriyası olan diaqnostika bazasıdır. "Qaranquş" sanatoriyası böyrək və sidik yolu xəstəliklərinin müalicəsi üzrə ixtisaslaşmışdır. Sanatoriyada əsas müalicə amili gətirilən "Qalaaltı" müalicəvi suyudur. Sanatoriya 3 korpusdan, müalicə mərkəzindən, yeməkxana və kütləvi mədəni tədbirlərin keçirilməsi üçün mədəniyyət mərkəzindən ibarətdir. Əsasən uroloji və sidik yolları xəstəliklərinin müalicəsi aparılır.

"Qaranquş" sanatoriyası 498 xəstə qəbul etmək imkanına malikdir. Sanatoriyanın ərazisində uzun illər istifadəsiz qalan 3 saylı yataq korpusunda aparılan yenidənqurma işlərinin nəticəsində müasir tələblərə cavab verən və 36 çarpayıdan ibarət yataq korpusu fəaliyyət göstərir. Digər sanatoriyalarda aparılan analoji tədbirlərlə yanaşı, buradakı 4 və 5 saylı yataq korpuslarında da yenidənqurma işləri aparılmışdır. Kliniki müalicə metodları üstün olduğuna görə turist qəbulu imkanları minimumdur.

**"Şıx" sanatoriyası** Bakıda, Xəzər dənizi sahilində yerləşir. Sanatoriya əsasən dayaq-oynaq sistemi xəstəliklərinin müalicəsi üzrə ixtisaslaşmışdır. Sanatoriyanın müalicə məqsədli altı bölməsi fəaliyyət göstərir. Kimya və biokimya laboratoriyaları, rentgen kabineti, funksional tədqiqatlar kabinetinin olduğu müalicə-diaqnostika bazasıdır. Sanatoriyada dayaq hərəkət, müxtəlif yırtıqlar, əsəb xəstəliklərinin kompleks şəklidə müalicəsi aparılır. Xəstəliklərin müalicəsində temperaturu 750C-dən çox olan hidrogen-sulfidli termal mənbələrdən istifadə olunur. 2016-cı ildə "Şıx" sanatoriyası əsaslı təmir olunmuşdur. 102 çarpayılıq bu sanatoriya 1, 2 və 3-nəfərlik otaqlardan ibarətdir. Pasiyentlərin əsas hissəsi ölkə vətəndaşlarından ibarətdir.

Abşeronun digər sanatoriyalarından olan “Xəzər”, “Araz”, “Pirşağa” və 2014-cü ildə tikilmiş Suraxanı tibbi bərpa mərkəzi öz imkanlarının az bir hissəsindən istifadə edirlər. Bunun da əsas səbəbi məcburi köçkünlərin yerləşdirilməsi və fəaliyyət imkanlarının məhdud olması ilə bağlıdır.

**“Suraxanı” Tibbi Bərpa Mərkəzi** 14 yerlik olmaqla müalicə xidmətlərini təklif edir. “Suraxanı” Tibbi Bərpa Mərkəzində ən son avadanlıqlarla təchiz olunmuş fizioterapevtik reabilitasiya mərkəzi fəaliyyət göstərir. “Suraxanı” Tibbi Bərpa Mərkəzində insanlara müalicəvi paketlər təqdim olunur. Bu paketlər 10 günlük olur və qiyməti 450 manatdır. Həmçinin həkim müayinəsinə əsasən pasiyentin sağlamlıq vəziyyətinə görə bəzi prosedurların sayını azaltmaq və ya artırmaq olur.

- **“Qalaalti Hotel & Spa” kurort kompleksi**

“Qalaalti Hotel & Spa” kurortu Böyük Qafqazın şimal-şərq yamacında, sıx meşəliklər əhatəsində yerləşir. Əsas müalicə vasitəsi eyni adlı bulaqdan axan mineral sudur, bir qədər neft və kükürd qazı qoxusu verir. Hidrokarbonatlı-kalsiumlu-maqneziumludur. İqlimi və ətrafların landşaftının cəlbediciliyi funksional sinir xəstəliklərinin müalicəsinə yaxşı təsir göstərir. Hazırda "Qalaalti Hotel & Spa" sağlamlıq istirahət zonası yenidən qurulmuş, sanatoriyanın ərazisi genişləndirilmiş, müasir standartlara cavab verən "Qalaalti Hotel & Spa"nın tikintisi aparılmışdır. 7 hektar sahədə salınmış "Qalaalti Hotel & Spa" müalicə-sağlamlıq mərkəzi turizm destinasiyası kimi müasir xidmətlər göstərir. "Qalaalti Hotel & Spa" kurort müalicə kompleksində 240 nömrə vardır. Müalicə sağlamlıq mərkəzinin eyni vaxta 340-dan çox turistə xidmət göstərmək imkanı vardır.

“Qalaalti Hotel & Spa” mərkəzinə gələnlərin dinamikası onların sayının 3500 nəfəri keçməsi, illik artımın 10-12% təşkil etməsi, onun xidmətlərinin yüksək olması və tətbiq olunan marketinq proqramları ilə bağlıdır. Kurort mərkəzindən istifadə edən turistlər arasında xarici ölkə vətəndaşlarının artması da onların turist qəbulu imkanlarını artırmışdır. MDB ölkələri ilə yanaşı, Cənub-Qərbi Asiya və Avropa ölkələrindən gələnlərin sayının artması müşahidə olunur. Onu da qeyd edək ki, kurortun xidmətlərindən istifadə edənlər təkcə xəstələr deyil, digər turistlərdən də ibarətdir. Təklif olunan yüksək xidmətlər turistlərin cəlb olunmasında əhəmiyyətli rol oynayır.

- **Naftalan kurortları**

Ölkədə fəaliyyət göstərən əsas kurort-sağlamlıq destinasiyalarından biri də Naftalan şəhərində fəaliyyət göstərən sanatoriyalardır. Naftalan şəhərində olan kurortların sayı 11-ə çatmaqla, ümumi nömrə fondu 2000-ə yaxındır. Naftalanda fəaliyyət göstərən sanatoriyalar beynəlxalq səviyyədə daha yüksək xidmət imkanlarına malikdir. Möcüzəli Naftalan nefti ilə aparılan müalicə prosedurları 20-dən çox xəstəliyin müalicəsində istifadə olunur. Hazırda Naftalan şəhərində müasir xidmətlər göstərən “Çinar”, “Qaşaltı”, “Qarabağ”, “Naftalan”, “Möcüzəli Naftalan”, “Sehrli Naftalan”, “Kəpəz” və s. kurort mərkəzləri müasir xidmətlər təklif edirlər. Perspektiv planda Naftalanda bir neçə müalicə-sağlamlıq mərkəzlərinin tikintisi də planlaşdırılır.

Naftalan şəhərində fəaliyyət göstərən müalicə mərkəzlərindən istifadə edənlərin dinamikasının təhlili göstərir ki, həm yerli, həm də xarici turistlərin sayı artmışdır. Bunu nəzərə alaraq Naftalan kurortlarında yeni xidmətlərin təklif edilməsi gələn turistlərin dinamikliyinin saxlanılmasına imkan verir.

Naftalan sanatoriyaları üzrə beynəlxalq rəqabət qabiliyyətinin artırılması üçün əlavə xidmətlərin təşkil olunması, yeni kurort destinasiyalarının istifadəyə verilməsi, marketinq və reklam işinin təşkili kütləvi turist axınlarının cəlb olunmasına imkan vermiş olardı. Burada beynəlxalq təcrübəni öyrənməklə

kurort məhsullarının çeşidinin artırılması, müxtəlif vaxtlara uyğun turların planlaşdırılması və nəqliyyat imkanlarının yaxşılaşdırılması onun rəqabət qabiliyyətini artıra bilər.

Naftalan kurortlarından istifadə edənlərin dinamikası göstərir ki, son illər onların sayında artım müşahidə edilmişdir. Gecələmələrin sayının 40 mini keçməsi və orta illik artımın 15-17%-ə çatması göstərilən xidmətlərin səviyyəsinin yüksəlməsi ilə bağlıdır. Həmçinin Naftalan kurortlarına gələn xarici turistlərin sayının artması da bu dinamikanı təmin etmişdir.

Ümumilikdə, ölkədə sanatoriya-kurort turizminin təhlili göstərir ki, onun inkişafı üçün zəngin balneoloji ehtiyatlar və müasir infrastruktur sahələri var. Ölkədə kurort-müalicəvi turizmin prioritet istiqamət olaraq seçilməsi son yeddi ildə bu sahəyə ayrılan güzəştli investisiyaların artmasında özünü göstərmişdir ki, bunun hesabına müasir müalicə müəssisələri tikilib istifadəyə verilmişdir. Köhnə sanatoriyaların bərpası, müasir avadanlıqlarla təmin olunması da qeyd olunan inkişafın təzahürüdür.

Bununla yanaşı Naftalanda 11 kurort-sanatoriya kompleksinin bərpası və tikintisinin aparılması, "Qalaalti Hotel & Spa" kurort kompleksinin yenidən qurulması, Lənkəranda İstisu sanatoriya kompleksinin istifadəyə verilməsi, Naftalan neftinin müalicəvi xüsusiyyətinin Avropa Səhiyyə təşkilatı tərəfindən qəbul olunması, həmçinin Naftalan və Qalaaltının Avropa Termal Şəhərlər Birliyinə daxil olması bu sahədə olan dinamik inkişafın göstəricisi sayıla bilər. Eyni zamanda ölkəmizə müalicə-sağlamlıq məqsədilə gələn turistlərin sayının dinamik olaraq artması müalicəvi sağlamlıq müəssisələrinin müasir standartlara cavab verməsi ilə bağlıdır.

Qeyd olunanlardan savayı, Şuşa şəhərində işğala qədər 400 yerlik istirahət evi, 130 yerlik "Şəfa" turist bazası, Şuşa sanatoriya-kurort birliyinə aid 1316 yerlik sanatoriya var idi. Bu sanatoriya 1985-ci ildən sonra ilk özəl müəssisələrdən biri olub və "Zamanpəyə" (Soyuqbulaq) turist bazası kimi fəaliyyət göstərib.

## 2.4. Sağlamlıq turizmində "putyovka" sistemi, üstünlükləri vəparametrləri

Azərbaycanda ənənəvi olaraq dövlət sektorunda işləyən insanlar üçün "putyovka" sxeminin inkişaf etməsi səciyyəvi olub. Hazırda Azərbaycanda müalicə-sağlamlıq turizminin inkişafı xeyli dərəcədə bu ənənənin üzərində qurulub və ondan bəhrələnir. Mövcud infrastruktur rekonstruksiya olunmaqla müasir dövrün tələblərinə uyğunlaşdırılaraq potensial yerli turistlərin ehtiyaclarının ödənilməsi üçün hazır vəziyyətə gətirilib. Vaxtilə kurort mərkəzi kimi məşhurlaşmış Naftalan və Abşeron sanatoriya-kurort müəssisələrinin yenidən qurulması cəlbedici destinasiya olaraq əhəmiyyətin saxlamışdır.

Ölkədə "putyovka" sxemi Həmkarlar İttifaqı üzvləri üçün təqdim edilən güzəştli xidmətlərdən ibarətdir. Bu sxemin əhatə dairəsi AHİK üzv olan müəssisə və təşkilatların üzvlərinin ödədiyi üzvülük haqqına görə güzəştli sağlamlıq və istirahət xidmətlərindən istifadəyə əsaslanır. AHİK əsas üzvləri dövlət təşkilatlarından ibarət olduğuna görə hazırda "putyovka"lardan onlar daha çox yararlanmış olur. Eyni zamanda, DSMF tərəfindən maliyyələşən imtiyazlı şəxslər sanatoriyalarda güzəştli xidmətlərdən yararlana bilir. DSMF tərəfindən hər il orta hesabla 1800-2000 yollayış imtiyazlı şəxslərə AHİK sanatoriyalarında müalicə almaları üçün verilir.

**QRAFİK 9. 2010-2018-ci illər ərzində DSMF-dən alınan yollayışlar və onlara çəkilən ümumi xərc**




**MƏNBƏ:** *AHİK hesabatları*

Azərbaycandan xeyli sayda dövlət qulluqçusu, müəllim, həkim və s. sənət sahibləri kurort-sanatoriya müəssisələrində dincəlməyə üstünlük verirlər. Əlbəttə ki, burada münasib qiymət amilinin rolunu xüsusi olaraq qeyd etmək lazımdır. Həmkarlar Təşkilatının tabeliyində olan sanatoriya müəssisələri öz müştərilərinin əhəmiyyətli hissəsinin məhz ölkədaxili vətəndaşlar olduğunu nəzərə alır, xidmətlərin müasir səviyyədə təşkil olunmasında bazardakı tələbata əsaslanmaqla güzəştli qiymət amilinə, nisbətən uzunmüddətli müalicə-sağlamlığı nəzərdə tutan turizm xidmətlərinin təqdim olunmasına xüsusi fikir verirlər.

İnkişaf etmiş ölkələrində turizmin təşkili təcrübəsindən istifadə edərək biz Azərbaycanda “putyovka” sxeminin turizmin inkişafı modelinin təkmilləşdirilməsinə dair təklifləri aşağıdakı kimi ifadə edə bilərik. Sağlamlıq turizmində “putyovka” sxemini üç əsas parametr üzrə xarakterizə etmək olar: **bu məhsulların təşkili, keyfiyyəti və dəyəri.**

Sovet dövründə turizm məhsullarının təşkilini izləyərək bu nəticəyə gəlmək olar ki, turizm məhsulları aşağıdakı sxem üzrə hərəkət edirdi: “dövlət – turizm müəssisəsi (idarəsi) – insan”. Dövlət əhalinin sağlamlığı ilə bağlı xərclərin əsas tədiyəçisi rolunu yerinə yetirir və hər bir konkret müəssisənin işçilərinə müəyyən turizm mərkəzlərinə putyovkalar (yollayışlar) təklif edirdi. Qarşılıqlı fəaliyyət şaquli sxem üzrə təşkil edilmişdi. Müasir dövrdə dövlət bu sferada aparıcı rolunu dayandırdığına görə həmin sistem və müvafiq sxem işləmir.

“Putyovka” sisteminin müvəffəqiyyətli fəaliyyəti məqsədəuyğundur: “turizm təklifi – dövlət – insan”. Bu halda dövlət sosial turizm sahəsində tələb və təklif arasında, yəni turizm üzrə idarə və təşkilatlar arasında münasibətlərin əsas tənzimləyicisi və nəzarətçi rolunu yerinə yetirir.

İkinci parametr – keyfiyyət parametri aşağıdakı suallara cavab verməlidir: insan harada və necə sağlamlığını bərpa edə bilər? İnsan səfərdən, istirahətdən nə gözləyir? O, sağlamlıq turizm məhsulları istehlakına hansı xarakteristikalar təqdim edir? Sovet dövründə vətəndaşların gəlirləri bütövlükdə bir-birinə yaxın səviyyədə idi və turizm məhsullarının keyfiyyət parametri praktik olaraq hamı üçün eyni məna

daşıyırdı, çünki turist səfərlərinin çoxu dövlət dotasiyaları hesabına təşkil olunur, turistlər üçün rahatlıqlar minimal səviyyədə təmin edilirdi. İnsanlar üçün rahatlığın səviyyəsindən daha çox, istirahət özü, şəraitin dəyişməsi əhəmiyyətli idi. Hətta minimum əmək haqqı alan işçi kurorta gedə, həvəskar turizmlə məşğul ola bilirdi.

Azərbaycan cəmiyyətində baş vermiş təbəqələşmə nəticəsində indi turizm məhsullarının keyfiyyət parametrinə təqdim edilən tələblər dəyişib. Vətəndaşların gəlirlərinin səviyyəsinə görə aşağı təbəqə, orta təbəqə və yüksək təbəqə formalaşıb. Rahatlıq səviyyəsi böyük rol oynamağa başlayıb: gəlir nə qədər çoxdursa, tələblər də bir o qədər yüksəkdir. Beləliklə, bu sahədə keyfiyyət parametri yox olmur, amma onun modifikasiyası müşahidə olunur.

Qrafikdən də göründüyü kimi 3 parametrdən yalnız təşkilati parametr tamamilə dağıdılmış, ikinci parametr şəklini dəyişmiş, qiymət parametri isə dəyişməz qalıb. Bununla əlaqədar, birinci parametri daha ətraflı nəzərdən keçirmək lazımdır.

**QRAFİK 10. Azərbaycanda sosial turizmin inkişafı modeli**



Hazırda Azərbaycanın əhalisinin sağlamlıq turizminə tələbi müxtəlif olsa da, gəlirləri müxtəlif səviyyədə olan insanlar turizm məhsulları istehlakını davam edirlər. Amma hansı ölkədə sağlamlığı bərpa etmək, yerləşmə vasitələrinin kateqoriyalarının seçimi və başqa məsələlərin həllində həmin insanın gəlirləri mühüm rol oynayır. Beləliklə, sağlamlıq və istirahətlə bağlı bütün bu kateqoriyaların tərkib hissəsi olan qiymət parametri dəyişməz qalır və burada sovet dövrünə xas olan əlaqələrin davamını müşahidə etmək olar. Hazırda Həmkarlar təşkilatının tabeliyində olan sanatoriyalarda kommersiyalaşma prosesi müşahidə olunur və çox şey gəlirlərin səviyyəsindən asılıdır. Amma gəlirlərin səviyyəsindən asılı olmayaraq, hər bir insanın layiqli şəraitdə sağlamlığı bərpa etmək hüququ olmalıdır. Buna görə də "putyovka" sistemi turistə təqdim edilən rahatlıq yalnız onun tədiyə qabiliyyətinin azlığı səbəbindən aşağı səviyyədə olmamalıdır.

**QRAFİK 11. Güzəştli yollayışların təklif edilməsi üzrə əməkdaşlıq**




Azərbaycanda turistlərin yerləşdirilməsi ilə bağlı xidmətlər bazarında sosial turizm subyektləri arasında əlaqələr qırılmışdır. "Putyovka" sistemində dövlət tədiyəçi rolunu ümumiyyətlə yerinə yetirmir, yalnız həmkarlar ittifaqının xətti ilə xüsusilə dövlət təşkilatlarında çalışan işçilərə güzəştli xidmətlər təklif edirlər. Bu baxımdan köhnə maliyyələşdirmə və tənzimləmə sistemi dağılıb, yenisi isə hələlik yaranmayıb.

Respublika əhalisinin sosial cəhətdən zəif təbəqələrinə göstərilən sosial xidmətlərin ümumi həcmində ənənəvi olaraq əhəmiyyətli seqment təşkil edən qeyri-kommersiya sektorunu sosial turizmin inkişafında iştiraka cəlb etmək lazımdır. Məsələn, Fransada turizm xidmətləri təklifi kommersiya sektoru ilə assosiativ sektor arasında bölünür. Assosiativ sektor sosial turizm təkliflərini təmsil edir. Assosiasiyaya

mənsub olan turizm müəssisələri qeyri-kommersiya və sosial “fəlsəfə” xarakteri daşıyırlar. Onlar hər ay Milli Turizm Assosiasiyaları İttifaqına maliyyə vəsaitləri köçürürlər. Bu orqan dövlətə tabe olmur, dövlət hakimiyyəti orqanlarında xırda turist assosiasiyalarının maraqlarını təmsil edir, turizm mərkəzlərinin konkret layihələrinin maliyyələşdirməsinə nail olaraq, onların reallaşdırılmasına və irəliləyişinə dövlət səviyyəsində təsir edir, sərgilərdə milli turizm məhsullarını təqdim edir, birgə reklam kampaniyasını reallaşdırır. Sosial turizm sahəsində fəaliyyət göstərən turizm müəssisələrinin bu könüllü qeyri-kommersiya birləşməsi bu sferada əhəmiyyətli çəkiyə malikdir, çünki o, sosial turizmlə bağlı bütün təklifləri birləşdirir.

Dövlətin sosial siyasəti vətəndaşların sosial baxımdan müdafiə olunmamış kateqoriyalarının və vətəndaşların hər kateqoriyasına münasibətdə differensiya edilmiş qiymət siyasəti yürüdən sağlamlıq müəssisələrinin dəstəklənməsinə yönəldilməlidir. Belə siyasət aşağıdakı məqamlarla ifadə olunmalıdır:

- sosial turistlər üçün ayrılan “putyovka”ların dəyərinin ümumi məbləğinə vergi yükünün azaldılması;
- sanatoriyaların maddi-texniki bazasının yenilənməsinə kömək;
- həmkarlar ittifaqının tabeliyində olan sanatoriyalarda xidmətlərin təkminləşdirilməsi;
- dövlət sektoru ilə yanaşı, özəl təşkilatların “putyovka”lardan yararlanmaq imkanlarının təmin olunması;
- özəl sağlamlıq müəssisələrinin məhsullarının 10-15%-ə qədərinin “putyovka”lar vasitəsilə həmkarlar təşkilatının xətti ilə satışını təşkil etmək;
- turizm mərkəzlərinin əlil arabalarında hərəkət edən əlillərin qəbulu üçün yenidən qurulmasına kömək.

Lakin ekspertlərin fikrincə, sosial turistləri qəbul edən sağlamlıq turizm müəssisələrinin hər birində sosial turistlərin sayı 10-20%-dən çox olmamalıdır. Bu göstərici aztəminatlı şəxslərin turizm müəssisələrində dincələnlərin ümumi sayına inteqrasiyası üçün ən əlverişli göstərici olub, onların başqa sosial təbəqələrə məxsus insanlar arasında özlərini psixoloji cəhətdən rahat hiss etmələrinə imkan verəcək. Məxsusi olaraq əhalinin aztəminatlı kateqoriyaları üçün sağlamlıq mərkəzlərinin yaradılması isə cəmiyyətin tam qütbləşməsinə gətirib çıxarar və belə insanların istirahətini sosial cəhətdən gərginləşdirərdi.

Bununla birlikdə, müasir şəraitdə sanatoriya-kurort müəssisələri kommersiya əsasında işləməyə məcburdurlar, bu isə “putyovka” ilə güzəştli gələnlərin sayının azalmasına gətirib çıxarır. Sanatoriya-kurort müalicəsi üçün dotasiya verən müəssisələrin bu imkanının kəskin azalması nəticəsində əhaliyə güzəştli putyovkalar verilməsinin kəskin ixtisarı fonunda sağlamlıq xidmətlərinin verilməsinin həcmi bir neçə dəfə azalmışdır.

Ölkədə daxili turizmə qatılanlar iki milyon nəfərdən çoxdur ki, bunun da 2%-ni sağlamlıq xidmətlərindən istifadə edənlər təşkil edir. Bu da çox aşağı rəqəm sayılır. Qeyd olunan göstəricinin aşağı olmasının bir sıra səbəbləri vardır ki, bunlardan biri insanların kurortlar haqqında az məlumatlı olması, sanatoriya-kurort müalicəsinin faydalı olması barədə az bilməsi və ətraflı maariflənməyə ehtiyaclarının olmasıdır. Hazırda Azərbaycanda müalicə-sağlamlaşdırıcı turizmin inkişaf etdirilməsində Qərb ölkələrinin – Almaniyanın, İtaliyanın, Çexiyanın, Slovakiyanın, Polşanın, Sloveniyanın geniş tətbiq etdiyi “dövlət sektoru ilə özəl sektor müəssisələrinin birgə əməkdaşlığı” təcrübəsi aktiv araşdırılmalı və istifadə olunması imkanları nəzərdən keçirilməlidir. Sağlamlıq turizmində tibbi sığorta hesabına maliyyələşdirilən kurort müalicəsi sxeminə keçilməsi vacibdir. Həmkarlar təşkilatının tabeliyində olan sanatoriya-kurort müəssisələrinin müasir bazar münasibətləri dövründə yetərli xidmətlər təqdim etməməsi onların kütləvi turist cəlb etməsinə imkan vermir. Bu nöqteyi-nəzərdən sağlamlaşdırıcı istirahətin təşkilində “qismən maliyyələşdirmə” sxeminin yaxın illərdə daha aktiv tətbiqi onların fəaliyyətinin genişləndirmiş olacaqdır. “Putyovka” siteminə dövlət təşkilatları ilə yanaşı, özəl qurumların da cəlb olunması, geniş istehlakçı

kütlələrinə yönəldilməsi onun effektivliyini artırmış olardı. Bu baxımdan "putyovka" üstünlüklərini aşağıdakı kimi qruplaşdıraq olar:

- *"Dövlət sektoru ilə özəl sektor müəssisələrinin birgə əməkdaşlığı" modeli.* Qeyd olunan model dövlətin özəl sektora dəstəyi, bu sahənin stimullaşdırılması, uzunmüddətli güzəştli kreditlərin verilməsi, bu sahə üzrə mövcud layihələrin dəstəklənməsindən ibarətdir.
- *Ənənəvi* sosial turizmin inkişafının *dəstəklənməsi.* Bu məqsədlə həmkarlar təşkilatının xətti ilə "putyovka" üzrə güzəştli xidmətlər öz əhəmiyyətini saxlayır ki, bu da ölkənin bir çox regionlarından davamlı turist axınlarının təmin olunmasına imkan verir.
- *Kurort destinasiyasının sağlamlıq, təhsil, mədəniyyət və biznes-kommunikasiya mərkəzi, unikal təbii ehtiyatlar bazasında hərtərəfli sağlamlıq ərazisi kimi identifikasiya edilməsi.* Bu məqsədlə Naftalan, Abşeron, Lənkəran, Qəbələ, Qalaaltı, Naxçıvan sağlamlıq destinasiyaları kimi identifikasiya edilməsi onların cəlbediciliyinin artırılmasına, strateji inkişafına təkan vermiş olardı.

## 2.5. Müalicə-sağlamlıq turizminin tənzimlənməsi

Ölkədə mineral sulardan istifadə olunmasının hüquqi qaydaları "Təbii müalicə ehtiyatları, müalicə-sağlamlaşdırma yerləri və kurortlar haqqında", "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" "Təbiəti mühafizə və təbiətdən istifadə haqqında" "Özəl tibb fəaliyyəti haqqında" qanunlar, Nazirlər Kabinetinin "Kurortlar haqqında Nümunəvi Əsasnamə"-nin təsdiq edilməsi haqqında qərar, həmçinin Ekologiya və Təbii Sərvətlər Nazirliyinin "Geoloji Kəşfiyyat xidməti üzrə əsasnamə" ilə tənzimlənir. Eyni zamanda, bu sahənin tənzimlənməsində icra orqanlarının qanunvericiliyə uyğun qərarları, yerli idarəetmə orqanları və bələdiyyələrin səlahiyyətləri daxilində torpaqların icarəyə götürülməsi və tikinti quraşdırma işlərinin aparılmasına icazələrin verilməsi qaydaları ilə tənzimlənir.

**CƏDVƏL 16. Müalicə-sağlamlıq müəssisələrinin təşkili üçün nəzərə alınan hüquqi qaydalar**

| | Müalicə-sağlamlıq müəssisələri | Müvafiq icra qurumu | Qanunvericilik bazası və mənbə |
|---|---|---|---|
| **1.** | Ərazilərin idarəetmə, icarə və mülkiyyətə götürülməsi | Yerli idarəetmə orqanları və bələdiyyələr | Torpaqlardan istifadəyə və onların mühafizəsinə Dövlət Nəzarəti haqqında Əsasnamə, Bakı şəhəri, 28 noyabr 2000-ci il № 421 |
| **2.** | Mineral və termal suların analizi və rəyin verilməsi | Səhiyyə Nazirliyi İcbari Tibbi Sığorta Üzrə Dövlət Agentliyi TƏBİB publik hüquqi şəxsin "Elmi Tədqiqat Tibbi Bərpa İnstitutu" | "Təbii müalicə ehtiyatları, müalicə-sağlamlaşdırma yerləri və kurortlar haqqında" Azərbaycan Respublikasının Qanunu 1 aprel 2008-ci ildə (№ 557-IIIQ) |
| **3.** | Mineral, termal suların müalicəvi xüsusiyyətləri və əks göstərişinin təyin olunması | Səhiyyə Nazirliyi İcbari Tibbi Sığorta Üzrə Dövlət Agentliyi TƏBİB publik hüquqi şəxsin "Elmi Tədqiqat Tibbi Bərpa İnstitutu"<br>AZS-216-2006 standartları üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyi | "Təbii müalicə ehtiyatları, müalicə-sağlamlaşdırma yerləri və kurortlar haqqında" Azərbaycan Respublikasının Qanunu 1 aprel 2008-ci ildə (№ 557-IIIQ)<br>Kurortlar haqqında Nümunəvi Əsasnamə Bakı şəhəri, 8 yanvar 2009-cu il |
| **4.** | Hüquqi və fiziki şəxslərin müalicə-sağlamlıq müəssisəsinin təşkili üçün tələb olunan lisenziya | Azərbaycan Respublikası Səhiyyə Nazirliyi | "Təbii müalicə ehtiyatları, müalicə-sağlamlaşdırma yerləri və kurortlar haqqında" Azərbaycan Respublikasının Qanunu, 1 aprel 2008-ci ildə (№ 557-IIIQ)<br>Özəl tibb fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu, 30 dekabr 1999-cu il<br>Azərbaycan Respublikası Prezidentinin 2015-ci il "Lisenziya tələb olunan fəaliyyət növlərinin siyahısı və həmin fəaliyyət növlərinə lisenziya verilməsinə görə ödənilən dövlət rüsumunun məbləğləri" |
| **5.** | Müalicə-sağlamlıq müəssisələrinin təşkilində həkim və orta tibb personalına qoyulan tələblər | Azərbaycan Respublikası Səhiyyə Nazirliyi | "Təbii müalicə ehtiyatları, müalicə-sağlamlaşdırma yerləri və kurortlar haqqında" Azərbaycan Respublikasının Qanunu, 1 aprel 2008-ci ildə (№ 557-IIIQ) |
| **6.** | Müalicə-sağlamlıq müəssisələrində sanitar-gigiyenik qaydalara qoyulan tələblər | Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi | "Təbii müalicə ehtiyatları, müalicə-sağlamlaşdırma yerləri və kurortlar haqqında" Azərbaycan Respublikasının Qanunu 1 aprel 2008-ci ildə (№ 557-IIIQ) |

**MƏNBƏ:** *Azərbaycan Respublikasının Qanunvericiliyi toplusu. II cild, Bakı: "Avrasiya press", 2018.*

Ölkədə müalicə-sağlamlıq turizm müəssisələrinin təşkilində CƏDVƏL 13-də qeyd olunan 6 addım ardıcıl olaraq nəzərə alınmalıdır. Burada sağlamlıq müəssisəsinin təşkili üçün zəruri hüquqi prosedurlar qeyd olunur və qanunvericilik bazası göstərilir.

“Təbii müalicə ehtiyatları, müalicə-sağlamlaşdırma yerləri və kurortlar haqqında” Azərbaycan Respublikasının Qanunu 1 aprel 2008-ci ildə (№ 557-IIIQ) qəbul olunmuşdur. Bu qanun təbii müalicə ehtiyatlarından istifadənin hüquqi tərəflərini müəyyən etmiş olur. Ərazinin müalicə-sağlamlaşdırma yeri və kurort kimi tanınması üçün tələblər müəyyən edilir. Bu tələblərə görə təbii müalicə ehtiyatları tibbi-bioloji, kurortoloji, geoloji, hidrogeoloji tədqiqatlar əsasında müəyyən edilir. Onlardan istifadə qaydası isə Nazirlər Kabinetinin “Kurortlar haqqında nümunəvi əsasnamə”si ilə tənzimlənir.

Təbii müalicə ehtiyatlarının, müalicə-sağlamlaşdırma yerlərinin və kurortların öyrənilməsi, istifadəsi, inkişafı və mühafizəsi sahəsində dövlətin səlahiyyətləri müəyyən edilir. Burada dövlətin səlahiyyətləri, müalicə ehtiyatlarından istifadə qaydaları, ekspertizanın aparılması və kurort fondunun dövlət uçotu və s. öz əksini tapır. Təbii müalicə ehtiyatlarından istifadə olunmasında bələdiyyələrin səlahiyyətlərinə torpaqların icarəyə verilməsi, müalicə-sağlamlıq müəssisələrinin inşası, bu sahə üzrə dövlət proqramlarında iştirak, öz ərazisində mühafizənin təşkili daxildir. Ölkədəki təbii müalicə ehtiyatlarının regionlarda cələnməsi bələdiyyələrin sağlamlıq turizmindən yararlanmasına imkan verir. Bələdiyyələr öz ərazisində olan müalicəvi bulaqların bazasında sağlamlıq mərkəzləri tikmək və “ekonom” qiymətlərlə turistlərə təqdim etmək hüququna malikdir. Belə təcrübə Türkiyənin yerli idarəetmə orqanlarında var.

Təbii müalicə ehtiyatlarından istifadə tənzimlənməsi hüquqi və fiziki şəxslərin ixtiyarına verilərkən onun təyinatının saxlanılması əsas götürülür. Bütün hallarda təbii müalicə ehtiyatlarının bazasında sağlamlıq və istirahət mərkəzlərinin tikintisi tələb olunur. Mineral suların, müalicəvi palçıqların və digər təbii müalicə ehtiyatları yataqlarının istifadəsi üçün rəyin verilməsi İcbari Tibbi Sığorta Üzrə Dövlət Agentliyi TƏBİB publik hüquqi şəxsin “Elmi Tədqiqat Tibbi Bərpa İnstitutu”-nun bu sahə üzrə ixtisaslaşmış mütəxəssisləri tərəfindən verilir. İnstitutun rəyi AZS-216-2006 standartlaşma qaydalarına əsasən təbii müalicə vasitələrinə (mineral və termal sular, müalicəvi palçıqlar, Naftalan nefti və s.) verilir. Eyni zamanda, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin “Geoloji Kəşfiyyat xidməti” şöbəsinin mütəxəssisləri tərəfindən müəyyən edilmiş qaydada ehtiyatların miqdarı və işlənməsi təyin edilir. Bu da təbii müalicə ehtiyatlarının hasilatı və istifadəsi texnologiyası yataqlarının vaxtından əvvəl tükənməməsinə, çirklənməməsinə və təbii müalicə ehtiyatlarının öz müalicəvi xassələrini itirməməsinə təminat verməlidir. Qeyd olunan təminata nəzarət Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən həyata keçirilir.

Kurortlarda müalicə-sağlamlaşdırma məqsədi ilə təbii müalicə ehtiyatlarından istifadə olunması müvafiq icra hakimiyyəti orqanı (Səhiyyə Nazirliyi) tərəfindən təsdiq edilmiş konkret göstəriş və əks-göstərişlərə uyğun həyata keçirilir. Belə bir sənəd “Elmi Tədqiqat Tibbi Bərpa İnstitutu” tərəfindən verilir.

Müalicə-sağlamlıq turizmi fəaliyyətinin həyata keçirilməsi üçün və ya sanatoriyaların təşkilində hüquqi və fiziki şəxslər qanunvericilikdə müəyyən olunmuş qaydada tibb fəaliyyətinə xüsusi razılıq (lisenziya) almalıdır. Belə bir lisenziya Səhiyyə Nazirliyi tərəfindən “Özəl tibb fəaliyyəti haqqında” qanununa uyğun olaraq verilir. Bu fəaliyyət üçün lisenziyaların alınması Azərbaycan Respublikası Prezidentinin 2015-ci il “Lisenziya tələb olunan fəaliyyət növlərinin siyahısı və həmin fəaliyyət növlərinə lisenziya verilməsinə görə ödənilən dövlət rüsumunun məbləğləri” fərmanı ilə tənzimlənir. Sağlamlıq müəssisələri və sanatoriyaların təşkili üçün tələb olunan lisenziya 2250 manat müəyyən edilib.

Təbii müalicə ehtiyatlarının istifadəsi, müalicə-sağlamlaşdırma yerlərinin təşkilində sanitar qaydalara əməl olunası qanunvericiliklə tənzimlənir. Təbii müalicə ehtiyatlarının yerləşdiyi ərazidə ətraf mühiti çirkləndirən müəssisələrin təşkilinə icazə verilmir, onların istifadəsi üçün torpaq sahələrinin icarəyə verilməsi qadağan edilir.

Ərazinin kurort kimi tanınması həmin ərazinin və orada mövcud olan təbii müalicə ehtiyatlarının tibbi-bioloji, kurortoloji, geoloji, hidrogeoloji və digər tədqiqatları əsasında müvafiq qanunvericiliyə uyğun olaraq müəyyən edilir. Kurortun ərazisində aşağıdakı zonalar yerləşir:

- təbii müalicə ehtiyatları, onların istifadə olunması üçün qurğu və tikililər, sanatoriya-kurort və istirahət müəssisələri, həmçinin istirahət və müalicə üçün kurortlara gələn insanlara xidmət göstərən məişət, iaşə və ticarət obyektləri yerləşən kurort zonası;
- kurort ərazisində daim yaşayan əhali üçün nəzərdə tutulmuş yaşayış evləri, ictimai binalar və digər qurğu və tikililər yerləşən zona;
- mərkəzləşdirilmiş təsərrüfat və texniki xidmətlərin yerləşdiyi zona.

Mineral su və müalicəvi palçıq mənbələrinin istifadəsinə (onların resurslarına müvafiq olaraq və texnoloji istismar sxemi əsasında), müalicəvi palçıq və mineral suların debitinə, kimyəvi tərkibi və fiziki xüsusiyyətlərinə nəzarət Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və bələdiyyələr tərəfindən həyata keçirilir.

Sağlamlıq mərkəzlərində müalicə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən təsdiq edilmiş, elmi cəhətdən əsaslandırılmış metodika əsasında həyata keçirilir. Kurortlarda müalicə-sağlamlaşdırma məqsədi ilə təbii müalicə ehtiyatlarının istifadə olunması Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən təsdiq edilmiş konkret göstəriş və əks-göstərişlərə uyğun həyata keçirilir. Bu qaydalara uyğun təlimatların verilməsi Elmi Tədqiqat Tibbi Bərpa İnstitutu tərəfindən müəyyən edilir. Qeyd olunan təşkilat mineral və termal suların müalicəvi xüsusiyyətləri və əks göstərişlərini göstərməklə istifadə qaydaların təsdiq edir.

Kurort ərazisi daxilində inşaat üçün torpaq sahələrinin ayrılması kurortların inkişafı proqramına uyğun olaraq qüvvədə olan qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilir. Belə torpaq sahələrinin ayrılması yerli icra orqanları və bələdiyyələrin qərarları əsasında tənzimlənir. Tikinti işlərinin aparılması isə memarlıq-arxitektura idarəsinin təsdiqi əsasında aparılır. Belə qərarların verilməsində yanğından mühafizə, nəqliyyatın və ictimai asayişin təhlükəsizliyi üzrə tədbirlər kurortların inkişaf proqramına uyğun və xüsusi mühafizə olunan təbiət ərazilərində müvafiq işlərin aparılması üçün qanunvericilikdə müəyyən edilmiş qaydalara riayət edilməklə həyata keçirilir.

Yeni sanatoriya-kurort müəssisələrinin tikintisi və ya fəaliyyətdə olanların genişləndirilməsi məqsədi ilə torpaq sahələri ayrılmamışdan əvvəl onların yerləşəcəyi yerin müəyyən edilməsi müvafiq qanunvericiliklə tənzimlənir. Sanitariya mühafizə zonalarında eroziya proseslərinə gətirib çıxaran və təbii müalicə ehtiyatlarına, kurortların sanitariya vəziyyətinə mənfi təsir göstərən, torpağı, havanı, suyu çirkləndirən, meşələrə, yaşıllığa zərər yetirən fəaliyyət zonalarının növündən asılı olaraq məhdudlaşdırılır və ya qadağan edilir. Kurortların sanitariya mühafizə zonasında qaydalara riayət olunması üzərində nəzarət Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən həyata keçirilir.

2000-ci ildə qəbul olunan “Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanununda müalicə-sağlamlıq resurslarından səmərəli istifadə və ətraf mühitin qorunması, kurortların təsnifatı, hüquqi və fiziki şəxslərə idarəetmə, mülkiyyətinə, icarəyə

verilməsi göstərilir. Xüsusi mühafizə olunan təbiət ərazilərindən və obyektlərindən ödənişli istifadə qaydaları müəyyən edilir.

Fiziki və hüquqi şəxslər elmi, mədəni, tədris, turizm, istirahət (rekreasiya) və məhdud təsərrüfat məqsədləri ilə xüsusi mühafizə olunan təbiət ərazilərindən və obyektlərindən istifadəni ödənişli əsaslarla həyata keçirirlər. Bu ərazilərdən rekresiya məqsədləri ilə istifadə olunması qaydalarını Ekologiya və Təbii Sərvətlər Nazirliyi müəyyən edir.

Təbiətdə turizm və rekreasiyanın inkişafı təsdiq edilmiş layihə sənədləri əsasında yerli əhəmiyyətli təbiət parkının ərazisində yerləşən torpaq sahələrinin, təbiət obyektlərinin, binaların və qurğuların ayrı-ayrı fiziki və hüquqi şəxslərə icarəyə (istifadəyə) verilməsi yolu ilə həyata keçirilə bilər. Təbiət parkının ərazisində mehmanxanaların, kempinglərin, iaşə və digər obyektlərin tikintisi və istifadəsi, insanların istirahəti məqsədilə digər şəraitlərin yaradılması təbiət parkının fiziki və hüquqi şəxslərlə bağladığı müqavilələr əsasında həyata keçirilə bilər. Burada təbiət komplekslərinin və obyektlərinin mühafizəsi, bərpası və istifadəsi üzrə müəyyən edilmiş tələblərə zidd olmayan başqa fəaliyyət növləri fiziki və hüquqi şəxslərlə bağlanmış müqavilələr əsasında həyata keçirilir. Belə bir müqavilə hüquqi və fiziki şəxslərlə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin müvafiq qurumları arasında bağlanılır və qeyd olunan təşkilat onun mühafizəsi üzrə monitorinqləri həyata keçirir.

## 2.6. Maraqlı tərəflərin analizi

Freemana görə maraqlı tərəf (“stakeholder”) təşkilatın məqsədlərinə çatmasına təsir edə biləcək və ya təsirlənən hər hansı bir qrup və ya şəxsdir. ÜTT turizm sahələrində maraqlı tərəfləri turizm mütəxəssisləri, dövlət orqanları, eləcə də mətbuat və digər media orqanları olaraq müəyyənləşdirib. Əlavə olaraq, digər maraq qrupları və ayrı-ayrı şəxslər, xüsusən yerli sakinlər və idarəetmə orqanları daxil edilir (Macbet, Burns, Chandler, Revitt, & Veitch, 2002). Turizmlə əlaqəli tərəflər bu sektor ilə maraqlanan və ya təsir edən (müsbət və ya mənfi) hər hansı bir şəxs və ya qrupları əhatə edir.

Qeyd olunanları nəzərə alaraq Azərbaycanda sağlamlıq turizminin inkişafında dövlət, biznes nümayəndələri, beynəlxalq təşkilatlar, QHT və tərəfdaşları, idarəetmə orqanları, bələdiyyələr və yerli icma (yerli əhali) maraqlı tərəf olaraq müəyyənləşdirilmişdir. Azərbaycan Respublikasında müalicə-sağlamlıq turizminin inkişafı üçün bir çox maraqlı tərəflər var. Bu maraqlı tərəfləri əsasən 6 qrupa bölmək olar.

**QRAFİK 12. Azərbaycanda müalicə-sağlamlıq turizmində maraqlı tərəflərin (stakeholders) analizi**




**MƏNBƏ:** *1. Freeman R. Strategic management: A stakeholder approach. Cambridge Univ Pr, America; 2014., 134 p.*
*2. Alireza Jabbari, Masoud Ferdosi, Mahmoud Keyvanara, Zahra Agharahimi. Stakeholders' analysis of the medical tourism industry: development strategies in Isfahan//Journal of Education and Health Promotion | Vol. 2 | August 2013, p.5-13*

### 2.6.1. Turizm sənayesi müəssisələri

Bu bölməyə daxil olan sənaye müəssisələri 4 alt-qrupa bölünür. Bunlara aşağıdakılar aiddir:

**a) Yerləşmə müəssisələri**

Sağlamlıq turizmində yerləşmə xidmətlərinə müalicə-sağlamlıq müəssisələri, sanatoriyalar, SPA velnes mərkəzləri, müalicə pansionatları aiddir. Azərbaycanda qeyd olunan sağlamlıq xidmətləri göstərən yerləşmə müəssisələri əsasən balneoloji ehtiyatların mənbələrinin yaxınlığında tikilmişdir. Bu baxımdan balneoloji ehtiyatların mənimsənilməsi sağlamlıq müəssisələrinin inkişafına səbəb olur. Sağlamlıq müəssisələrinin maraqları balneoloji və mikro-iqlim resurslarından birgə istifadə olunması hesabına kompleks müalicə-kurort xidmətlərini göstərməkdən ibarətdir. Balneoloji ehtiyatların yaxınlığında alt infrastrukturun formalaşması sağlamlıq turizmi müəssisələrinin təşkilinə imkan vermiş olur.

**b) Nəqliyyat vasitələri**

Azərbaycan Respublikasında müalicə-sağlamlıq turizminin inkişafı üçün əsasən hava, avtomobil, dəmiryol nəqliyyat vasitələrində fəaliyyət göstərən şirkətlər və sahibkarlar maraqlı tərəflər kimi çıxış edir. Hava nəqliyyatı ölkədə beynəlxalq turist daşımalarının əsas hissəsini təşkil edir.

**QRAFİK 13. Hava yolları ilə Azərbaycana gələn xarici vətəndaşların ümumi sayı**




**MƏNBƏ:** *Azərbaycanın Dövlət Statistika Komitəsi 2019*

Ölkəmizə gələn turistlərin sayı 2018-ci ildə 3,6 mln nəfər təşkil etmişdir ki, bunun da 1,183 mln nəfəri, yəni 40%-ə yaxını hava nəqliyyatının payına düşür. Bu baxımdan hava nəqliyyatı ölkədə sağlamlıq turizm paketlərinin xarici ölkə vətəndaşlarına daha çox satılmasında maraqlı tərəf kimi çıxış edir. Belə ki, sağlamlıq turizmi məhsullarının səyahət agentlikləri ilə "AZAL" və digər hava nəqliyyatı şirkətləri arasında birgə hazırlanması turistlərin cəlb olunmasında əhəmiyyətli olardı.

Hava nəqliyyatında qiymətlərin yüksək olması digər turizm növləri kimi sağlamlıq turizminə mənfi təsir edir. Ölkədə sağlamlıq turizminin prioritet sahə olmasını nəzərə alaraq "AZAL"-ın qiymət siyasətinə yenidən baxıla bilər. Xüsusilə ölkənin sağlamlıq turizm mərkəzləri üçün paket alan turistlərə güzəştli qiymətlərlə avia vauçerlər təqdim edilə bilər. Eyni zamanda, DTA, "AZAL" və sağlamlıq müəssisələri ölkəyə sağlamlıq turizm seqmentini cəlb etmək üçün birgə qiymət siyasəti hazırlana bilər.

Azərbaycana dəmir yolu ilə gələn turistlər azlıq təşkil edir ki, bu da vaxt itkisinin çox olması və qatarlarda xidmətlərin yetərli olmaması ilə bağlıdır. Hazırda əsas sağlamlıq turizm destinasiyası olan Naftalan-Gəncə istiqamətində sürət qatarının fəaliyyət göstərməsi, təhlükəsizlik baxımından əlverişli olması dəmir yollarının müalicəvi turizmdə maraqlarını təmin etmiş olur. Bakı-Tbilisi-Qars qatarının müasir vaqonlarla təmin olunması gələcəkdə Türkiyə və Gürcüstandan gələn turistlərin sayının artımına imkan verəcəkdir. Buna görə də Naftalan şəhərinə yaxın olan Goran stansiyasının infrastrukturunun təkmilləşdirilməsi, sərnişin qəbulu imkanlarının artırılması, Goran-Naftalan şəhəri arasında müntəzəm avtobusların fəaliyyət göstərməsi zərurətini yaradacaqdır.

Avtomobil nəqliyyatı müalicə-sağlamlıq turizminin inkişafında əsas maraqlı tərəflərdən hesab olunur. Onlar transfer, birbaşa çatdırma və təchizatın təmin olunması hesabına gəlir əldə edirlər. Bununla yanaşı, balneoloji mənbələrin əsasən dağlıq ərazilərdə cəmlənməsi avtomobil nəqliyyatına tələbatı artırmış olur. Bəzi balneoloji mənbələrin mürəkkəb relyefdə yerləşməsi xüsusi avtomobillər və atdan istifadəni zəruri edir.

**c) Turizm biznesi vasitəçiləri**

Turizm biznesinin vasitəçilərindən olan turoperator, səyahət agentlikləri, brokerlər müalicə-sağlamlıq turizminin inkişafında maraqlı tərəflərdəndir. Azərbaycanda gəlmə turizmdə prioritet istiqamət olaraq müalicə-sağlamlıq paketlərinin təqdim olunması turoperator və səyahət agentliklərini cəlb etmiş olur. Ölkədə fəaliyyət göstərən bir çox turoperator və səyahət agentlikləri müalicə-sağlamlıq müəssisələri ilə əməkdaşlıq əsasında paketlərin təşkilində və məhsulların satılmasında maraqlıdırlar. Müalicə-sağlamlıq turizmi məhsullarının formalaşması, satışının təşkilində ixtisaslaşdırılmış turoperator və səyahət agentliklərinin formalaşması vacibdir. Belə ixtisaslaşmış turoperator və səyahət agentlikləri ölkənin sağlamlıq turizm məhsullarının beynəlxalq bazarda tanıtdırılması və satışının təşkilində əhəmiyyətli rol oynaya bilər.

**d) Qidalanma müəssisələri**

Ölkədə müalicə-sağlamlıq turizminin inkişafı qidalama sektoruna tələbatı artırmış olur. Sağlamlıq müəssisələrinin yaxınlığında qidalanma müəssisələrinin sayının artmasına, bir çox şəbəkə restoranların təşkilinə səbəb olur. Türkiyə təcrübəsi göstərir ki, 300 yerlik termal mənbənin yaxınlığında minimum 3 və ya 4 qidalanma müəssisəsi fəaliyyət göstərir, həmçinin mövsüm dövründə rentabenli işləyir. Qəbələ rayonu misalında qeyd edək ki, rayonda 2000-ci ildə 14 iaşə müəssisəsi olduğu halda, hazırda onların sayı 100-dən çoxdur. Qidalanma müəssisələrinin sayının artması turizmin müxtəlif növlərinin, eyni zamanda sağlamlıq turizminin inkişafı ilə birbaşa bağlıdır. Eyni zamanda, qidalanma müəssisələrində milli kulinariya məhsullarının təqdim olunması turizmin təbliğinə xidmət etmiş olur.

### 2.6.2. Dövlət qurumları

Azərbaycanda fəaliyyət göstərən dövlət qurumlarının böyük əksəriyyəti respublikada müalicə-sağlamlıq turizminin inkişafında dolayısı ilə maraqlı tərəf kimi çıxış etsələr də, birbaşa maraqlı olan dövlət qurumları da vardır. Bunlardan DTA, ETSN, Səhiyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi , İqtisadiyyat Nazirlikləri və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası birbaşa maraqlı tərəflərə aiddir. Bunlardan DTA müalicə-sağlamlıq turizmi sahəsində layihələrin verilməsi, təkliflərin dəstəklənməsi, Destinasiya Menecment təşkilatları vasitəsilə sağlamlıq turizm məhsullarının formalaşdırılmasında və s. maraqlıdır.

Səhiyyə Nazirliyi müalicəvi sulardan istifadə olunması üçün onun tibbi təyinatı haqqında rəsmi rəy verir, eyni zamanda müalicə olunan xəstəliklərin təyinatını müəyyən edir. Qeyd olunan digər nazirliklər sağlamlıq turizminin inkişafının dəstəklənməsi, sosal turizmin inkişafı, mövcud ehtiyatlardan səmərəli istifadə olunması, ətraf mühitin qorunmasına görə maraqlı tərəf olaraq çıxış edir.

AHİK təşkilatı isə tabeçiliyində olan Kurort Səhmdar Cəmiyyəti vasitəsilə maraqlı tərəflərdəndir. AHİK üzv olan təşkilatların əməkdaşlarının güzəştli şərtlərlə "Kurort Səhmdar Cəmiyyəti"-nin sanatoriyalarında müalicəsini təşkil edirlər. Bu baxımdan müalicəvi-sağlamlıq turizminin inkişafı həmkarlar təşkilatı vasitəsilə əhalinin xüsusi sosial qruplarının müalicə və sağlamlığının təşkili baxımından maraqlı tərəflərdəndir.

### 2.6.3. Yerli idarə orqanları

Yerli icra orqanları və bələdiyyələr bölgələrində turizmin müxtəlif növləri ilə yanaşı, balneoloji ehtiyatlardan istifadə olunmaqla müalicə-sağlamlıq turizminin inkişafında maraqlıdırlar. Türkiyə təcrübəsi göstərir ki, bölgələrdə olan valiliklər və bələdiyyələr termal mənbələrdən istifadə olunması üçün alt infrasturkturu formalaşdırır, bu sahəyə başlanğıc investisiya cəlb edirlər. Mürəkkəb relyef şəraitində olan bölgələrdə bələdiyyələrə məxsus müalicə-sağlamlıq mərkəzləri tikirlər. Ölkəmizdə yerli idarəetmə orqanları, bələdiyyələr öz ərazilərində olan balneoloji ehtiyatlardan istifadə olunması üçün infrastrukturun formalaşdırılmasında maraqlı olmalıdır.

### 2.6.4. Tərəfdaşlar

Müasir dövrümüzdə bir çox beynəlxalq təşkilatlar var ki, onlar ümumi bəşəri maraqları qoruyur və mövcud təbii, iqtisadi ehtiyatların davamlı istifadə edilməsinə öz dəstəklərini verirlər. Əhalinin məşğulluğunun təmin olunması, onların gəlirlərinin artırılmasında beynəlxalq təşkilatlar daha çox maraqlıdırlar. Avropa Birliyi, Alman Əməkdaşlıq Təşkilatı (GIZ), İslam İnkişaf Bankı və s. Azərbaycanda əhalinin məşğulluğunun təmin olunmasına vəsaitlər ayırır ki, bunlardan müalicə-sağlamlıq turizm məqsədilə yararlanmaq mümkündür. Eyni zamanda QHT, ixtisaslaşmış assosasiyalar və digər ictimai qrumlar sağlamlıq turizminin inkişafında müxtəlif layihələrin verilməsi, təlimlərin keçirilməsi, marketinq PR işinin təşkilində aktiv iştirakla yanaşı, maraqlı tərəf kimi çıxış edirlər.

### 2.6.5. Müştəri seqmenti

Bütün insanlar turizm sektoru üçün potensial müştərilər olsa da, müalicə-sağlamlıq sektoru müəyyən yaş qrupları və bəzi seqmentlər üzrə təklif olunur. Azərbaycanda müalicə-sağlamlıq turizmindən istifadə edənlərin əsas hissəsini yerli vətəndaşlar təşkil etsə də xarici turistlərin də sayı artır. Bu seqmentlər arasında orta yaşlılar üstünlük təşkil etsə də yeni tikilən sağlamlıq mərkəzlərinin kompleks sağlamlıq, SPA və istirahət xidmətləri təklif etməsi istehlakçıların sayının artırılmasına səbəb olur. Ölkədə fəaliyyət göstərən müasir tipli müalicə-sağlamlıq mərkəzlərində ixtisaslaşdırılmış müalicə ilə yanaşı, istirahət və SPA xidmətlərinin təqdim olunması bu sahənin müştəri seqmentinin artmasına səbəb olmuşdur. Buna görə də yeni müalicə-sağlamlıq müəssisələrində kompleks xidmətlərin təqdim olunması, onların rentabelliyini artırmış və daha çox turist cəlb olunmasına imkan vermişdir.

Abşeron sanatoriyalarında ixtisaslaşdırılmış müalicə xidmətləri təklif olunur ki, bunun da əsas müştəriləri yerli vətəndaşlardan ibarətdir. Belə vətəndaşlar əsasən sosial turizmdən yararlanan, müxtəlif

dövlət və qeyri-dövlət qrumlarında çalışan personalın, həmçinin həmkarlar təşkilatı tərəfindən güzəştli yollayışlarla təmin olunan müştərilərdən ibarətdir.

### 2.6.6. Yerli icmalar

Müalicə-sağlamlıq destinasiyalarının formalaşması yerli icmaların xidmətlərindən istifadə edənlərin sayının artmasına şərait yaradır. Bu baxımdan icmalar kirayə evlər verməklə yanaşı, işizliyin azaldılması, turistlərə əlavə xidmətlərin göstərilməsində iştirakı, ənənəvi istehsalın stimullaşdırılmasını təmin etmiş olur. Çünki regionda turizm inkişaf etdikcə destinasiyaya daha çox turist səfər edir və yerli vətəndaşlar öz kənd təsərrüfatı məhsullarını turistlərə vasitəçisiz sata bilir, öz evlərini turistlərə kirayə verir, həmçinin region üzrə turistlərə bələdçilik edərək əlavə gəlir qazana bilirlər.

### 2.6.7. Digər maraqlı tərəflər

Yuxarıda sadalanan maraqlı tərəflərdən əlavə digərləri də var ki, onlar müalicə-sağlamlıq turizmi üçün maraqlı tərəflər kimi çıxış edir. Buraya müxtəlif banklar, layihələri maliyyələşdirən investorlar, tədris müəssisələri və mərkəzləri aid edilə bilər. Naftalan şəhərində olan "Qarabağ", "Qaşaltı", "Çinar", "Möcüzəli Naftalan", Şabran rayonunda "Qalaalti Hotel & Spa", Lənkəran rayonunda "Lankaran Springs Wellness Resort" müalicə-sağlamlıq mərkəzlərinin tikilməsində dövlətin verdiyi güzəştli kreditlərdən yararlanılmışdır. Eyni zamanda, ölkənin iri bankları və digər maliyyə təşkilatları bu sahədə iri layihələrin maliyyələşdirilməsində iştirak edirlər.

## 2.7. Tələb analizi

Ölkədə sağlamlıq turizmi sanatoriya-kurort xidmətləri üzrə ixtisaslaşdığına görə xarici turistlər bu sahədə ixtisaslaşan müəssisələrə daha çox gəlirlər. Ölkəyə sağlamlıq məqsədilə gələn turistlər əsasən Naftalan neftinin müalicəvi xüsusiyyətlərindən yararlanmağa üstünlük verirlər.

Azərbaycan Rusiya, Qazaxıstan, Ukrayna, İran, Türkiyə və Gürcüstandan sağlamlıq turizmi üçün gələn turistlərin hədəfidir. Eyni zamanda, Bakıdakı "Bona Dea" Beynəlxalq Xəstəxanası 2018-ci ildə beynəlxalq təcrübəni tətbiq etmək üçün inşa edilmişdir və Avropanın müxtəlif ölkələrindən olan işçi heyəti burada çalışır. Bu da yaxın gələcəkdə Azərbaycanın tibbi turizm üzrə xidmətlər təqdim etməsinə imkan verəcək. Azərbaycanda sağlamlıq turizmi üzrə gələn xarici turistlərin tələbində Naftalan kurortları, "Qalaalti Hotel & Spa", "Lankaran Springs Wellness Resort", Qəbələdəki "Chenot Palace Gabala" və Naxçıvanda "Duzdağ" hotelləri üstünlük təşkil edir.

Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə 2019-cu ildə Azərbaycanı 3,2 milyona yaxın xarici qonaq ziyarət etmişdir. Ölkəyə gələn xarici qonaqların 2,8 milyondan çoxu turizm məqsədilə gələnlərdən ibarətdir ki, bu da ümumi qonaqların 90,3% -ni təşkil edir. Ölkəyə 63,9 min nəfər xarici turist (2,23%) sağlamlıq məqsədilə gəlmişdir. Gələn turistlərin 42 min nəfəri Naftalanın sanatoriya-kurort müəssisələrinin xidmətlərindən istifadə etmişdir. Bu da ölkəyə müalicə-sağlamlıq məqsədilə gələn turistlərin 65,7%-ni təşkil edir.

**CƏDVƏL 17. Azərbaycana sağlamlıq turizmi məqsədilə gələnlərin müqayisəli dinamikası**

| İllər | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|---|---|
| Cəmi gəlmə sayı (min nəfər) | 2484,1 | 2508,9 | 2297,8 | 2006,2 | 2248,8 | 2696,7 | 2849,6 | 3170,4 |
| Turizm məqsədilə (min nəfər) | 1985,9 | 2129,5 | 2159,7 | 1921,9 | 2044,7 | 2454,0 | 2605,3 | 2863,5 |
| Sağlamlıq turizmi (min nəfər) | 43,0 | 46,2 | 46,3 | 36,5 | 41,5 | 49,1 | 63,1 | 63,9 |
| Sağlamlıq turizminin cəmi turistlər üzrə payı (%) | 2,17 % | 2,17 % | 2,14 % | 1,90 % | 2,03 % | 2,00 % | 2,42 % | 2,23% |
| Əvvəlki illə müqayisədə faiz artımı | | | | | +6,84% | -1,30% | +21% | +1,3% |

**MƏNBƏ:** *DSK turizm statistikası 2020*

Azərbaycana müalicə-sağlamlıq məqsədilə gələn turistlərin ölkələr üzrə statistik təhlilləri göstərir ki, Rusiya, Qazaxıstan, Ukrayna, Türkiyə, Belarus, Özbəkistan, İran vətəndaşları üstünlük təşkil etmişdir. Bu da həmin ölkə vətəndaşlarının Azərbaycanın sağlamlıq turizmi barədə daha çox informasiyasının olması və ənənəvi sanatoriya xidmətlərinə üstünlük verməsi ilə bağlıdır.

MDB məkanından gələn turistlərin üstünlük verdiyi yerlər arasında Naftalanın sağlamlıq müəssisələri daha məşhurdur. Naftalan şəhərində yüksək, orta və aşağı kateqoriyalı sanatoriya-kurort müəssisələrinin olması xarici turistlərin seçim imkanlarını artırır. Eyni zamanda Naftalan sağlamlıq müəssisələrinin təqdim etdiyi müalicə paketləri də xarici turistləri cəlb edir. Naftalandakı kurortların orta və uzun müddətli müalicə-sağlamlıq paketləri təqdim etməsi, mövsümlərarası dövrdəki endirimli qiymətlər onların məhsullarını xarici turistlər üçün əlçatan edir.

Ölkədə sağlamlaşdırma və balneoloji turizm xidmətləri təqdim edən müasir kurort mərkəzlərinin sayı artmışdır. Bunlara misal olaraq, Naxçıvanda "Duzdağ hotel" (151 nömrə), Qəbələdə "Qafqaz Thermal & Spa Hotel" (61 nömrə), "Chenot Palace Gabala" (75 nömrə), Şabranda "Qalaalti Hotel & Spa" (176 nömrə), Lənkəranda "Lankaran Springs Wellness Resort" (182 nömrə), Şəkidə "Marxal Resort & Spa" (198 nömrə) qeyd etmək olar. Bunlardan "Marxal Resort & Spa" və "Chenot Palace Gabala" əsasən istirahət təyinatı üzrə daha çox xidmətlər təqdim edir. "Chenot Palace Gabala"da ekzotik landşaft və dietik qidalar, "Marxal Resort & Spa" hotelində isə SPA və sağlamlıq xidmətləri təqdim olunur ki, bu da onların birbaşa müalicə-sağlamlıq turizmində iştirakını təmin etir.

Azərbaycanda balneoloji və sağlamlaşdırma turizmində fərqlənən "Qalaalti Hotel & Spa", Duzdağ və "Lankaran Springs Wellness Resort" xarici turistlərə daha çox xidmət göstərir. Qeyd olunan kurort mərkəzləri müalicə-sağlamlıq sahələri üzrə ixtisaslaşsa da, istirahət, əyləncə, gecələmə və s. xidmətlər təklif

edir. Bu hotellərdə xidmətlər çeşidinin çox olması sağlamlıq məqsədilə yanaşı, istirahət təyinatlı turistlərin cəlb olunmasına imkan verir. Hotellərin Qərbi Avropa modelinə uyğun olaraq kompleks kurort-sağlamlıq xidmətləri təklif etməsi onların cəlbediciliyini artırmış olur.

Səhiyyə Nazirliyində 41 müəssisə, Həmkarlar İttifaqı Konfederasiyası nəzdində 12 sanatoriya və istirahət mərkəzi fəaliyyət göstərir. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi qaçqınların və köçkünlərin məskunlaşdığı 88 dövlət və 6 özəl kurort müəssisəsi olduğunu bildirir.

Ölkədə sağlamlıq turizm tələbinin əsas hissəsi daxili turizmin payına düşür. Azərbaycanda ənənəvi müalicə-sağlamlıq və bərpa xidmətləri təklif edən müəssisələr Kurort Səhmdar Cəmiyyətinin tabeliyində olan Abşeron sanatoriyalarıdır. Abşeronda fəaliyyət göstərən beş sanatoriyanın (“Şıx”, “Bilgəh”, “Günəşli”, “Abşeron”, “Qaranquş”) nömrə fondu 1090-a çatır. Bu sanatoriyalara əsasən dövlət müəssisələrində çalışan əməkdaşlara müalicə-sağlamlıq xidmətləri üzrə güzəştli yollayışlar təqdim edilir.

Həmkarlar İttifaqı Konfederasiyasında birləşən bir çox sahəvi həmkarlar təşkilatları sağlamlıq müəssisələrinə müəyyən kvoto miqdarında turist yollayışları əldə edirlər. Daha sonra əməkdaşlıq etdikləri müəssisələrdə həmkarlar ittifaqının nümayəndəsi vasitəsilə müəssisələrin işçilərinə yollayışlar təqdim edirlər. Həmin işçilər də adətən Həmkarlar İttifaqlarının tərkibində olan sanatoriyalara və ya sahəvi həmkarlar ittifaqları təşkilatlarının balansında olan sağlamlıq turizmi obyektlərinə istirahət etmək üçün yolanırlar. Sanatoriyalara yollayışların orta müddəti 2 həftədir. 2018-ci ildə Həmkarlar İttifaqı və özəl sektor vasitəsilə 100 mindən çox yollayışlar vətəndaşlara verilib. Nəzərə alınsa ki, bəzən yollayışlar ailələrə verilir və bəzən də yerli vətəndaşlar yollayışlar olmadan da özləri sağlamlıq obyektlərinə gedirlər, kobud hesablama ilə sağlamlıq turizmində real bazar tələbinin daxili və xarici turistlərlə birlikdə təxminən 200 min nəfərə qədər olduğu güman edilə bilər. Onu da qeyd edək ki, Kurort QSC tabeliyində olan sanatoriyalarla yanaşı, AHİK xətti ilə Masallıda “İstisu”, Qax rayonunda “Şəfa”, Naftalandakı aşağı kateqoriyalı sanatoriyalara yollayışlar təqdim edirlər.

**CƏDVƏL 18. Kurort Səhmdar Cəmiyyətinin tabeliyində olan sanatoriyalardan istifadə edənlərin dinamikası (nəfərlə)**

| Sanatoriyaların adı | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|
| Bilgəh | 5390 | 5122 | 5046 | 5352 | 4859 |
| Abşeron | 2109 | 2046 | 1920 | 1985 | 1773 |
| Günəşli | 3745 | 3250 | 3045 | 3194 | 2781 |
| Qaranquş | 683 | 610 | 580 | 763 | 705 |
| Şıx | --- | 380 | 992 | 938 | 858 |
| Naftalan Kurort Birliyi | 257 | 264 | 258 | 297 | 270 |
| Şəki istirahət mərkəzi | 95 | 88 | 73 | 80 | 74 |
| Cəmi | 12279 | 11760 | 11914 | 12609 | 11320 |
| Əvvəlki ilə görə müqayisə | | -4,2% | +1,3% | +5,8% | -10,2% |

**MƏNBƏ:** *Kurort Səhmdar Cəmiyyətinin hesabatı 2020*

Kurort Səhmdar Cəmiyyətinin tabeliyində olan sanatoriyalardan istifadə edənlərin sayı 11-12 min nəfər arasında dəyişir. Sanatoriyalardan istifadə edən pasiyentlər 2016-cı ildə əvvəlki illə müqayisədə 4,2% azalmışdır ki, bu rəqəm müvafiq olaraq 2019-cu ildə 10,2% aşağı düşmüşdür. Sanatoriyalardan istifadə edənlərin sayının azalması onların müasir avadanlıqlarla təmin olunmasına baxmayaraq asudə vaxtın təşkili, qidalanma və digər xidmətlərin standartlardan aşağı olması ilə bağlıdır. Onu da qeyd edək ki, Səhmdar Cəmiyyətin tabeliyində olan sanatoriyaların il ərzində 25 min turistə xidmət etmək imkanları vardır. Hazırda bu imkanların 45,2% həcmində turist qəbul edir. Sanatoriyalar arasında "Bilgəh" pasiyentlərin qəbuluna görə fərqlənir. "Bilgəh" sanatoriyasından gələn turistlərin sayının çox olması müalicə-sağlamlıq xidmətlərinin sayının artırılması, asudə vaxtın təşkili üçün çimərliklərdən istifadənin mümkünlüyü ilə bağlıdır.

Sanatoriyaların xidmət paketlərinin yarısı güzəştli yollayışlar əsasında AHİK tərəfindən, qalanları isə kommersiya əsaslı bazar qiymətinə uyğun satılır. Səhmdar Cəmiyyətinin özü maliyyələşməyə keçdiyinə görə bazar qiymətlərinə uyğun məhsulların satışına üstünlük verirlər. Sanatoriyaların 2011-cu ildən başalayaraq Dövlət proqramı çərçivəsində bərpası, müasir avadanlıqlarla təmin olunması, xidmətlərin sayının və həkimlərin peşəkarlığının artırılması turist axınlarının artmasına səbəb olmuşdur. Bu baxımdan Abşeron sanatoriyalarında nömrələrin sayı dəyişməsə də, ondan istifadə edən müştərilərin sayı artmışdır. Sanatoriyaların xidmətlərindən istifadə edənlərin sayı son beş ildə iki dəfəyə yaxın artmışdır.

Abşeron sanatoriyalarının xidmətlərində oxşar əlamətlərin çox olması, müalicə təyinatının üstünlüyü və ixtisaslaşmasına görə fərqlənməsi daha çox turist cəlb etməyə imkan vermişdir. Onu da qeyd edək ki, Abşeron sanatoriyalarında pasiyentlərin qəbulunda ümumi diaqnostik müalicələrin aparılması da geniş yayılmışdır. Sanatoriyalar aralıq mövsümlərdə stasionar xəstələr və həmkarlar təşkilatlarının göndərdikləri pasiyentlər üçün xidmətlər təklif edirlər ki, bu da onların artım səviyyəsinin az bir hissəsini əhatə edir. Sanatoriyalardan istifadə edənlərin sayı ümumilikdə 12 min nəfərdən çox olsa da, onların 70%-ə yaxını yay aylarında gələn pasiyentlərdən ibarət olur. Ona görə də sanatoriyalarda yerlərin dolma səviyyəsi mövsümlərarası dövrdə 20%-ə qədər azalır. Bəzi sanatoriyalarda isə bu göstərici nisbətən yüksəkdir və 35-40%-ə çatır. Ümumilikdə götürdükdə sanatoriyalarda mövsümə görə yaranan problemlər qalmaqdadır və əlavə marketinq tədbirlərini artırmaqla onu həll etmək mümkündür.

Ümumilikdə, fəaliyyət göstərən sağlamlıq müəssisələrinə olan tələbata görə onları aşağıdakı kimi qruplaşdırmaq olar:

| | |
|---|---|
| İlboyu fəaliyyət göstərən müalicə-sağlamlıq mərkəzləri | Naftalan kurortları, Naxçıvanda "Duzdağ Hotel", Qəbələdə "Qafqaz Thermal & Spa Hotel", "Chenot Palace Gabala", Şabranda "Qalaalti Hotel & Spa", Lənkəranda "Lankaran Springs Wellness Resort", Şəkidə "Marxal Resort & Spa", Abşeronda "Bilgəh", "Şıxov", "Abşeron", "Günəşli" və "Suraxanı" müalicə-sağlamlıq mərkəzləri |
| Mövsüm dövründə faəliyyət göstərən sanatoriyalar | Abşeronda "Qaranquş", Naftalanda "Kəpəz", "Şəfa ocağı", Qax rayonunda "Şəfa", Masallı rayonunda "İstisu", Culfada "Darıdağ" sanatoriyaları (əksəriyyətində texniki avadanlıqlar ilboyu fəaliyyət göstərməyə şərait yaradır və bu da imkan verir ki, marketinq fəaliyyətlərini gücləndirərək daha çox turist qəbul etsinlər.) |

## 2.8. Təklif analizi

Azərbaycanın sağlamlıq turizmi bazarında təklif etdiyi məhsullar Naftalan nefti və balneoloji müalicə, sağlamlaşdırma xidmətlərindən ibarətdir. Burada fəaliyyət göstərən sağlamlıq müəssisələrindən üçü beşulduzlu, ikisi dördulduzlu hotellər, qalanları isə müalicə xidmətləri göstərən sanatoriyalardan ibarətdir. Sağlamlıq turizmində təklif analizi bu sahədə cari vəziyyətin təhlilini geniş araşdırmalıdır.

**Naftalan nefti** 70-dən artıq xəstəliyin müalicəsində, o cümlədən dermatoloji, ginekoloji, nevroloji, ürək-damar, uroloji xəstəliklərin müalicəsində faydalıdır. Naftalan neftinin müalicəvi xüsusiyyətlərini əks etdirən standartlar 2020-ci ildə Elmi Tədqiqat Tibbi Bərpa İnstitutunun rəyi əsasında Nazirlər Kabineti tərəfindən təsdiq olunmuşdur. Səhiyyə Nazirliyinin Elmi Tədqiqat Bərpa İnstitutunda Naftalan neftindən müalicəvi məqsədlər üçün istifadə ilə bağlı metodiki göstərişlər mövcuddur. Naftalan neftinin tərkibinin beynəlxalq səviyyədə sertifikatlaşdırılmasına ehtiyac vardır. Lakin ölkədə sağlamlaşdırma xidmətlərinin inkişafı, habelə beynəlxalq sağlamlıq turzimi bazarına çıxmaq üçün sağlamlaşdırma xidmətləri ilə bağlı dövlət standartlarının olması da vacibdir.

**“Qalaalti Hotel & Spa” mərkəzi** müalicə və sağlamlıq xidmətləri təklif edir ki, bu da yerli və xarici turistlərin cəlb olunasına imkan verir. “Qalaalti Hotel & Spa” kompleksi mineral su əsasında uroloji xəstəliklər, öd yolları, sidik kisəsi və axarlarında daşların əridilməsi, mədə-bağırsaq xətəliklərinin müalicəsi xidmətləri təklif edir. Sanatoriyanın müasir tibbi avadanlıqlarla təmin olunması, peşəkar həkim personalı gələn turistlərin tələbatını ödəməyə imkan verir. “Qalaalti Hotel & Spa” kompleksində sağlamlaşdırma və istirahət üçün əlverişli şəraitin yaradılması, müalicə ilə yanaşı, turist təyinatlı seqmentlər üçün də əlverişlidir. Hoteldə təklif olunan müxtəlif SPA, istirahət, əyləncə xidmətləri onun cəlbediciliyini artırır. “Qalaalti Hotel & Spa” müalicəvi istirahət kompleksinin Avropa Tarixi Termal Şəhərlər Assosiasiyasına üzv seçilməsi beynəlxalq turist axınlarına səbəb olacaqdır.

**“Lankaran Springs Wellness Resort” sağlamlıq mərkəzi** 12 aktiv su mənbəyi, o cümlədən 7 quyu və 5 bulaq əsasında müalicə və sağlamlıq xidmətləri təklif edir. Mənbələr istilik dərəcəsinə əsasən izotermal, termal və hipertermal sular hesab edilir. “Lankaran Springs Wellness Resort”da qan dövranı, sinir, sümük-əzələ sistemləri, birləşdirici toxumanın, tənəffüs orqanlarının, həzm sisteminin xəstəlikləri, maddələr mübadiləsi və qidalanma pozuntuları, dəri və dərialtı toxumanın və sidik-cinsiyyət sistemi xəstəliklərinin müalicəsi aparılır. “Lankaran Springs Wellness Resort” sağlamlıq mərkəzi müalicə ilə yanaşı sağlamlaşdırma, Spa, istirahət, əyləncə xidmətləri də təklif edir ki, bu da müxtəlif təyinatlı turistlərin cəlb olunmasına imkan verir. Müalicə-sağlamlıq mərkəzi aktiv SMM fəaliyyəti aparmaqla sağlamlaşdırma və istirahət məqsədilə İran seqmenti üzrə turistləri cəlb edə bilər. Onu da qeyd edək ki, ölkəmizə gələn İran vətəndaşlarının yarıdan çoxu Lənkəran İqtisadi rayonuna səfər edirlər.

Qəbələ rayonundakı **“Qafqaz Thermal & Spa Hotel”** Yengicə kəndində səthə çıxan mineral isti sular əsasında müalicə xidmətləri təklif edir. Termal hoteldə isti sular əsasında dəri, revmatizm, sümük və oynaq xəstəliklərinin müalicəsi aparılır və sağlamlaşdırma, istirahət, Spa, əyləncə, ekskursiya xidmətləri də təklif olunur ki, bu da daha çox turist kütləsinin cəlb olunmasına şərait yaradır. Hotelin Qəbələ turist destinasiya mərkəzində yerləşməsi ilboyu turist axınlarının təmin olunmasına imkan verir.

Qəbələ rayonundakı **“Chenot Palace Gabala”** müasir tibbi proqramlara uyğun sağlamlaşdırma, Spa, estetik prosedurlar və metabolik proqramlar təklif edir ki, bu da turistlərin fiziki və zehni bərpasına yönəldilir. Hotelin “Anri Şeno” proqramlarına uyğun əsas və qabaqcıl detoks, proflaktika, yaşlanmaya

qarşı, stresdən qurtulma, enerjinin bərpası, çəkinin azaldılması və fiziki aktivlik üzrə paketləri turistlərə təqdim olunur. Hotelin qeyd olunan özəllikləri yüksək gəlirli xarici turistlərin cəlb olunmasına istiqamətlənir.

**Kurort Səhmdar Cəmiyyətinin tabeliyində olan Abşeron sanatoriyaları** əsasən ölkə vətəndaşları üçün güzəştli yollayışlar əsasında müalicə-sağlamlıq xidmətləri təklif edir. Abşeron sanatoriyalarında turistlərə müalicə məqsədli kurort xidmətləri də təklif olunur. Müalicə məqsədi ilə gələn qonaqlar minimum 14 günlük paket götürürlər. Bu paketlərə sanatoriyada gecələmə, müayinə, müalicə, gün ərzində üç dəfə tam qidalanma və digər xidmətlər daxildir. Abşeron sanatoriyaları ixtisaslaşdırılmış müalicə və bərpaya üstünlük verir. Sağlamlaşdırma və SPA xidmətlərinin zəif təşkili xarici turistlərin cəlb olunmasına imkan vermir. Kurort Səhmdar Cəmiyyəti öz vəsaitləri və dövlət proqramına uyğun ayrılan güzəştli kreditlər hesabına Mərdəkan qəsəbəsində 50 yerlik "MİRAS" sanatoriyası tikmişdir. Bakının neft milyonçuları olan Şəmsi Əsədulayev və Musa Nağıyevin bağ evlərinin bərpası əsasında "MİRAS" sanatoriyası istifadəyə verilmişdir. Sanatoriyada bütün müalicə-sağlamlıq (su prosedurları, palçıq, yod-brom və Naftalan vannaları, fizioterapiya, inqalyasiya və s.) və sağlamlaşdırma (SPA-velnes, rekreasiya-idman mərkəzi, fin, türk, buxar hamamları və s.) xidmətləri təklif olunur. Sanatoriya kommersiya qiymətləri əsasında fəaliyyət göstərir.

**Duzdağ mağaraları** MDB bazarı üçün təklif edilən əsas ənənəvi turizm məhsuludur. Bronxial astmalı xəstələrin karst mağaralarında, duz şaxtalarında müalicəsinin yüksək effekt verdiyi elmi ədəbiyyatda qeyd edilir. Xüsusən duz mədənlərində natrium və xlor ionları üstünlük təşkil etdiyindən o spleoterapiya-ağciyər bronx xəstəliklərinin müalicəsinə müsbət təsir göstərir. Duzdağ mağaralarında kalsium ionları, habelə natrium və xlor (Na+ Cl+) ionlarının üstünlük təşkil etdiyi duz şaxtalarının müalicəvi əhəmiyyəti vardır. Şaxtalar Azərbaycanın Naxçıvan şəhərində 1979-cu ildən fəaliyyət göstərir. Duz şaxtalarında spleoterapiya İtaliya, Macarıstan, Polşa (Krakov), Almaniya, Ukrayna (Ujqorod), Ruminiya və s. kimi ölkələrdə də geniş yayılmışdır. Duzdağ mağarasının eyniadlı hotelin yaxınlığında yerləşməsi buraya müalicəyə gələnlərin gecələməsi üçün əlverişli şərait yaradır. "Duzdağ hotel"inin kompleks kurort xidmətləri göstərməsi sağlamlıqla bağlı gələn turistlərlə yanaşı, digər seqmentlərin də cəlb olunmasına imkan verir. Hotel turistlərə duz mağarasında müalicə ilə yanaşı, Spa, istirahət və əyləncə xidmətləri də təklif edir.

**ŞƏKİL 3. Duzdağ mağarasında turistlər üçün yaradılmış şərait**





**MƏNBƏ**: *Duzdağ Fizioterapiya Mərkəzi*

Respublikamızda sağlamlıq turizminin tibbi (müalicə) istiqaməti daha çox inkişaf etsə də, sağlamlaşdırma istiqaməti zəif inkişaf etmişdir. Xüsusən Naftalan və Duzdağda olan təbii müalicə amilləri, habelə Yuxarı Qarabağ zonasında mövcud olan termal bulaqlardan SSRİ dönəmində tibbi turizm məqsədləri üçün istifadə edilmişdir. "Qalaalti Hotel & Spa", "Lankaran Springs Wellness Resort" və "Chenot Palace Gabala" sağlamlıq turizmi mərkəzləri tibb turizm məhsulları ilə bərabər, həmçinin sağlamlaşdırma turizmi xidmətləri təklif edir. Lakin mövcud sağlamlaşdırma turizmi obyektləri regional bazarda özünəməxsus turizm məhsulları ilə çıxış etmir. Sağlamlıq turizmi məhsullarının daha da inkişaf etdirilməsi üçün əlavə yeni məhsullar və paketlər təklif olunmalıdır. Həmçinin turistlərin asudə vaxtının səmərəli təşkili, destinasiyaya məxsus suvenirlərin, kosmetik məhsulların hazırlanması, nəqliyyat problemlərinin həllinə ehtiyac vardır. Sağlamlıq mərkəzlərinin ətrafında sosial infrastruktur sahələrin, iaşə və əyləncə obyektlərinin təşkili vacibdir.

## 2.9. Azərbaycanda sağlamlıq turizmi xidmətləri

### 2.9.1. Yerli sağlamlıq turizmi müəssisələrinin xidmətlərinin müqayisəli təhlili

Ölkədə fəaliyyət göstərən müalicə-sağlamlıq müəssisələrinin təqdim etdikləri xidmətlərə ixtisaslaşdırılmış müalicə-sağlamlıq, sağlamlıq-istirahət, SPA-velnes aiddir. Yüksək kateqoriyalı müalicə-sağlamlıq mərkəzlərində ixtisaslaşdırılmış müalicə-sağlamlığın bərpası ilə yanaşı SPA-velnes xidmətləri də təqdim olunur. Dörddulduzlu müalicə-sağlamlıq mərkəzlərində ixtisaslaşdırılmış müalicə-bərpa, az sayda SPA xidmətləri, Abşeron kurortlarında ixtisaslaşdırılmış sanatoriya-müalicə xidmətləri, yerli əhəmiyyətli müalicə-sağlamlıq mərkəzlərində isə əsasən vanna müalicəsi və bəzi fizioterapiya xidmətləri gələn qonaqlara təqdim olunur.

Yüksək kateqoriyalı müalicə-sağlamlıq mərkəzlərində təqdim olunan xidmətlər də bir-birindən fərqlənir. Belə ki, Naftalanda yerləşən müalicə-sağlamlıq müəssisələrinin təqdim etdikləri paketlərdə ixtisaslaşdırılmış müalicə-sağlamlıq xidmətləri üstünlük təşkil etsə də, "Qalaalti Hotel & Spa" və "Lankaran Springs Wellness Resort" mərkəzlərində sağlamlıq və istirahət təyinatlı məhsullar turistlərə daha çox təqdim olunur. "Qalaalti Hotel & Spa" və "Lankaran Springs Wellness Resort" mərkəzlərinin istirahət təyinatı üstünlük təşkil etdiyinə görə müalicə xidmətləri bir çox hallarda paketdən əlavə ödənişlə turistlərə təqdim olunur.

**QRAFİK 14. Azərbaycanda müalicə-sağlamlıq müəssisələrinin paketlər üzrə təqdim etdiyi müalicə xidmətləri**




**Mənbə:** *https://www.booking.com/hotel/az/*

Beşulduzlu müalicə sağlamlıq müəssisələrinin təqdim etdiyi müalicə sağlamlıq xidmətlərinin əsas hissəsi ixtisaslaşma ilə birbaşa bağlıdır. Naftalan şəhərində olan müalicə-sağlamlıq müəssisələrində Naftalan nefti əsasında aparılan müalicə-sağlamlıq prosedurları ilə yanaşı müxtəlif su prosedurları və kliniki-cərrahi xəstəliklərdən sonrakı bərpa xidmətləri də təqdim edilir. Bu xidmətlər Naftalanın beşulduzlu müalicə mərkəzlərində demək olar ki, oxşar olsa da bəzi prosedurların sayına görə bir-birindən fərqlənmiş olur. Buna görə də paketə daxil olan xidmətlərin seçilməsində ənənəvi olaraq Naftalan vannalarının qəbulu və xəstəliklərə uyğun müalicə xidmətlərinin keyfiyyəti turistləri daha çox maraqlandırır. Bu hotellərdə istirahət və sağlamlığın bərpasına yönəldilən xidmətlərdən turistlərin istifadə etmək imkanlarının olması onların rentabelliyini artırmış olur. Hazırda qeyd olunan müəssisələr müalicə-sağlamlıq və istirahət paketlərini birgə təqdim edir ki, bu da il boyu turistlərin cəlb olunmasına imkan verir.

"Lankaran Springs Wellness Resort" mərkəzinin təqdim etdiyi müalicə paketləri terapevtik, kardioloji, rematoloji, dermatoloji, ginekoloji, nevroloji, endokrinoloji prosedurlardan ibarətdir. Bu

müalicə paketlərində prosedurların sayı 15-19 arasında dəyişir. Paketə daxil olan müalicə-sağlamlıq xidmətləri yerində həkim tərəfindən təyin olunur və turistlərə uyğun prosedurlar təqdim edilir. Müalicənin əsas istiqaməti termal vannalardan istifadəyə əsaslansa da əlavə olaraq kardioloji, nevroloji və ginekoloji xidmətlər də təqdim edilir. Bununla yanaşı müalicə-sağlamlıq mərkəzində "sağlamlıq və istirahət" paketlərinin birgə təqdim olunması il boyu turist axınlarını təmin etmiş olur.

"Qalaalti Hotel & Spa" mərkəzində "Lankaran Springs Wellness Resort" müalicə-sağlamlıq mərkəzində olduğu kimi əsas müalicə ilə yanaşı əlavə sağlamlıq prosedurları da həyata keçirilir. "Qalaalti Hotel & Spa" mərkəzində qastroenterologiya, urologiya və andrologiya, kardiologiya, nevrologiya, terapiya və digər fizioterapevtik prosedurlar təklif olunur. Müəssisənin əsas ixtisalaşma sahəsi mineral sulardan istifadəyə əsaslansa da, əlavə müalicə xidmətlərinin təklif olnması gələn turistlərin müxtəlif paketlərdən istifadə etməsinə imkan verir.

**QRAFİK 15. Azərbaycanda yüksək kateqoriyalı müalicə-sağlamlıq müəssisələrində SPA-velnes xidmətləri**




**MƏNBƏ:** *https://www.booking.com/hotel/az/*

Beşulduzlu hotellərdə təqdim olunan sağlamlıq SPA xidmətləri əsasən oxşar olmaqla müxtəlif su prosedurları və hamamlardan ibarətdir. Ölkədə fəaliyyət göstərən bütün beşulduzlu müalicə-sağlamlıq müəssisələrində SPA və fitnes mərkəzləri, fizioterapiya, hovuzlar, gözəllik salonları və s. fəaliyyət göstərir. Həmçinin müxtəlif baxım xidmətləri, dəniz, dağ havasından ibarət oksigen otaqları turistlərə təqdim olunur. SPA xidmətləri və müxtəlif növ kosmetik masajlar paketdən əlavə ödənişlər əsasında həyata keçirilir.

Ölkədə fəaliyyət göstərən dördulduzlu müalicə-sağlamlıq mərkəzləri Naftalanda olan "Sehrli Naftalan" və "Gözəl Naftalan" sanatoriyalarından ibarətdir. Bu sanatoriyalar əsasən müalicə-sağlamlıq xidmətləri üzrə ixtisaslaşıb. Qeyd olunan sanatoriyaların sağlamlıq-SPA və fitnes xidmətləri nisbətən azdır ki, bu da onların əsasən müalicə xidmətləri təqdim etməsindən irəli gəlir.

**CƏDVƏL 19. Dördulduzlu müalicə-sağlamlıq müəssisələrinin təqdim etdiyi xidmətlər**

| | Müalicə-sağlamlıq müəssisələri | Əsas müalicə paketləri | SPA-Wellness |
|---|---|---|---|
| **1.** | Möcüzəli Naftalan | - Naftalan vannaları<br>- Oynaq<br>- Dayaq hərəkət<br>- Ginekoloji<br>- Sinir<br>- Periferik damar<br>- Dəri<br>- Uroloji | - Müxtəlif növ massaj |
| **2.** | Sehirli Naftalan | - Naftalan vannaları<br>- Oynaq<br>- Dayaq hərəkət<br>- Sinir<br>- Periferik damar<br>- Ginekoloji<br>- Dəri<br>- Uroloji | - Müxtəlif növ massaj |
| **3.** | Kəpəz | - Naftalan vannaları<br>- Oynaq<br>- Dayaq-hərəkət<br>- Sinir<br>- Ginekoloji<br>- Dəri | - Fitnes mərkəzi<br>- Müxtəlif növ massaj |

**MƏNBƏ:** *https://www.booking.com/hotel/az*

Bu dördulduzlu sanatoriyalarda müalicə paketləri, demək olar ki, oxşardır və Naftalan neftinə əsaslanır. Sağlamlıq SPA xidmətlərinin təşkilinə önəm verilmir. Belə ki, dördulduzlu sanatoriyalarda SPA xidmətləri müxtəlif növ masaj və bədənə baxım, fitnes mərkəzi isə nisbətən yaxşı təchiz olunmuş idman qurğularından ibarətdir. Qeyd olunan mərkəzlər sağlamlıq xidmətlərinin təşkili üçün effektiv sayılmır. Bu sanatoriyalardan istifadə edən turistlərin əsas irad tutduqları fəaliyyət sahəsi SPA və fitnes mərkəzləri ilə bağlıdır.

Abşeron sanatoriyaları ixtisaslaşdırılmış müalicə xidmətləri təklif edir. Bu sanatoriyalar ənənəvi olaraq keçmiş SSRİ dövründən qalan müalicə-sağlamlıq xidmətlərini pasiyentlərə təqdim edir. Belə xidmətlər ixtisaslaşdırılmış müalicə və intensiv terapiya-bərpa prosedurlarından ibarətdir.

## CƏDVƏL 20. KSC-nin tabeliyində olan sanatoriyaların təqdim etdiyi xidmətlər

| | Müalicə-sağlamlıq müəssisələri | Əsas müalicə paketləri | SPA-Wellness |
|---|---|---|---|
| **1.** | Bilgəh | - Kordial tip üzrə neyrosirkulyator distoniya<br>- Kardioloji xəstəliklər<br>- Xroniki ürək çatışmazlığı<br>- Yod-brom vannaları | - Massaj<br>- Müalicəvi bədən tərbiyəsi<br>- Psixoterapiya<br>- Fizioterapiya<br>- Günəş və hava vannaları<br>- Müalicəvi dəniz vannaları<br>- Müalicəvi gimnastika<br>- Sualtı duş-massaj |
| **2.** | Abşeron | - Mədə və 12 barmaq bağırsağın xorası<br>- Xroniki qastritlər<br>- Xroniki kolit və enterekolit<br>- Xroniki xolesistit<br>- Xroniki hepatit<br>- Mədə və öd kisəsinin əməliyyatdan sonrakı vəziyyəti<br>- Xroniki pankreatit<br>- Şəkərli diabet<br>- Yod-brom vannaları | - Massaj<br>- Müalicəvi bədən tərbiyəsi<br>- Fizioterapiya<br>- Fitnes mərkəzi<br>- Açıq idman sahəsi |
| **3.** | Qaranquş | - Yod-brom vannaları<br>- "Qalaaltı" mineral su qalareyası<br>- Palçıqla müalicə<br>- Naftalan və parafinlə müalicə<br>- Elektroişıq müalicəsi<br>- Mədə-bağırsaq yuyulması | - SPA mərkəzi<br>- Fitnes mərkəzi<br>- Massaj<br>- Sauna |
| **4.** | Günəşli | - Müalicə-diaqnostik<br>- Nervoloji xəstəliklər<br>- Yod-brom vannaları<br>- Elektroişıq müalicəsi<br>- Mastika yaxmaları<br>- Palçıqla müalicə | - Massaj<br>- Müalicəvi bədən tərbiyəsi<br>- Psixoterapiya<br>- Aromaterapiya<br>- Sualtı duş-massaj<br>- Sualtı dartılma<br>- İqlim terapiyası |
| **5.** | Şıx | - Artritlər və poliartritlər (qeyri-vərəm mənşəli)<br>- Revmatoidli artrit (remissiya dövrü)<br>- Xroniki mialgiya<br>- Kontrakturalar<br>- Poliosteoartrozlar<br>- Yayılmış osteoxondrozlar<br>- Ankilozlaşan spondiloartritlər<br>- İşalqik ağrılar, bel-omba radikuliti<br>- Podaqrik artrit – sidik turşulu diatez | - Fitnes<br>- Massaj<br>- Müalicəvi bədən tərbiyəsi<br>- İqlim terapiyası |

**MƏNBƏ:** *Kurort Səhmdar Cəmiyyətinin məlumatları, 2018*

Abşeron sanatoriyalarında ixtisaslaşdırılmış tibbi xidmətlər üstünlük təşkil edir və prosedurların sayı müalicə təyinatına uyğun olaraq müəyyən edilir. Bu sanatoriyalarda müalicə prosedurlarının sayı onların ixtisaslaşmasından asılıdır. "Bilgəh" kardioloji sanatoriyasında prosedurların sayı 15-19, "Qaranquş" uroloji sanatoriyasında 14-19, "Günəşli" nevroloji sanatoriyasında 12-18, "Şıx" santoriyasında 13-17, "Abşeron" mədə-bağırsaq sanatoriyasında 12-18-ə çatır. Sanatoriyalarda müalicə xidmətlərinə diaqnostika və müayinələr də daxildir.

Abşeron sanatoriyalarında sağlamlıq SPA xidmətlərinə az önəm verildiyinə görə əsasən müalicəyə ehtiyacı olan pasiyentlər müraciət edirlər. Sanatoriyaların SPA mərkəzləri müxtəlif növ masaj, fizioterapiya xidmətləri təklif edir. Bununla yanaşı sanatoriyalarda açıq və qapalı idman mərkəzləri də fəaliyyət göstərir.

Ölkədə fəaliyyət göstərən müalicə-sağlamlıq mərkəzlərinin təqdim etdikləri xidmətlərin təhlili göstərir ki, beşulduzlu hotellərin təqdim etdikləri xidmətlər sayına və keyfiyyətinə görə daha çox fərqlənirlər. Beşulduzlu müalicə-sağlamlıq mərkəzlərinin təqdim etdikləri müalicə-sağlamlıq və istirahət paketləri bu sahədə beynəlxalq miqyasda rəqabət aparmasına imkan verir. Bu müəssisələrdə kompleks müalicə-sağlamlıq, SPA və istirahət xidmətlərinin birgə təqdim olunması oların rəqabət imkanlarını artırır.

Dördulduzlu sanatoriyalarda əsasən ixtisaslaşdırılmış müalicə, bərpanın təklif olunması, sağlamlıq-SPA xidmətlərinin azlığı, həmçinin SPA və fitnes avadanlıqlarının keyfiyyətinin aşağı olması onların rəqabət imkanlarını azaldır. Eyni zamanda sağlamlıq-SPA xidmətlərinin az olması gələcəkdə sanatoriyaya gəlmək istəyən turistlərin çəkinməsinə səbəb olacaqdır.

Abşeron sanatoriyalarında təqdim olunan müalicə xidmətləri əsasən tibbi prosedurlardan ibarətdir ki, bu da müəssisənin ixtisaslaşmasına uyğun təklif olunur. Bu sanatoriyaların əsas müştəri kütləsinin güzəştli yollayışlardan istifadə edənlər olması sanatoriyaların ancaq müalicə xidmətləri təklif etməsinə səbəb olmuşdur. Abşeron sanatoriyalarında SPA və istirahətlə bağlı xidmətlər turistlərə demək olar ki, təklif olunmur. Bu sanatoriyalarda kompleks kurort xidmətlərinin təqdim olunmaması gələn turistlərin sayının az olmasına səbəb olur. Abşeron sanatoriyalarından istifadə edənlərin sayının 5-6 min nəfər arasında dəyişməsi və əsasən güzəştli yollayışlarla gələnlərin üstünlük təşkil etməsi, təqdim edilən xidmətlərin aşağı səviyyədə olması ilə bağlıdır. Abşeron sanatoriyalarında kompleks müalicə, sağlamlıq və SPA xidmətlərinin təqdim olunması, idarəetmənin təkmilləşdirilməsi, marketinq siyasətinin düzgün qurulması onların cəlbediciliyini artırmış olacaq.

### 2.9.2. Sağlamlıq turizmi müəssisələrinin xidmətlərinin çeşidinin artırılması

Ölkəmizdə fəaliyyət göstərən müalicə-sağlamlıq müəssisələri hüquqi baxımdan müxtəlif şəbəkələrə daxil olan mərkəzlərdən, AHİK tabeliyində olan sanatoriyalardan və ayrıca sahibkarlıq subyektlərinin tabeliyində olan müalicə-sağlamlıq müəssisələrindən ibarətdir. Bu şəbəkələrə "ABSHERON Hotel Group"a daxil olan "Qalaalti Hotel & Spa", "Lankaran Springs Wellness Resort", Naftalanda "Gashalti Health Hotel", "Garabag Resort & SPA", bununla yanaşı özəl müalicə-sağlamlıq müəssisləri – Naftalanda olan digər sanatoriyalar ("Çinar", "Möcüzəli Naftalan", "Sehirli Naftalan", "Kəpəz"), "Gilan Holding" şirkətlər qrupuna aid "Qafqaz Thermal & Spa Hotel", müxtəlif özəl sahibkarlıq subyektlərinə məxsus müəssisələr – Masallı rayonunda İstisu "Fatimeyi Zəhra" sanatoriyası, "Yanar bulaq", Qaxda "Şəfa", Qəbələdə "Qəmərvan", Xaçmazda "Xudat", Bakı şəhəri Suraxanı qəsəbəsində tibbi bərpa və müalicə mərkəzləri aiddir.

**Abşeron kurortları**

Kurort Səhmdar Cəmiyyətinin tabeliyində olan 10-a yaxın müalicə-sağlamlıq müəssisələrindən "Bilgəh", "Abşeron", "Qaranquş", "Günəşli", "Şıx" sanatoriyaları ilboyu fəaliyyət göstərir. Lakin Xəzər, Araz, Pirşağı kimi müalicə sağlamlıq müəssisələrinin korpuslarında qaçqınlar yerləşdirildiyinə görə tam gücləri ilə fəaliyyət göstərə bilmirlər. Abşeronda olan sanatoriyalar əsasən müalicə-diaqnostik mərkəz kimi fəaliyyət göstərir. Təbii üsullarla müalicənin aparılması ilə yanaşı diaqnostik müalicənin aparılması gələn turistlərin sayının artmasına imkan vermişdir. Buna görə də sanatoriyaların bəziləri yerli əhaliyə ümumi kliniki müalicə xidmətləri də təklif edir.

Abşeron sanatoriyalarının xidmətlərindən istifadə edənlərin dinamikası son illər nisbətən artmışdır ki, bu da onların bəzilərinin rekonstruksiya olunması və yeni avadanlıqlarla təmin olunması ilə bağlıdır. Abşeron sanatoriyalarında kompleks kurort xidmətlərinin göstərilməməsi gələn turistlərin sayına təsir etmiş, həmçinin xarici turistlərin sayının az olmasına səbəb olmuşdur.

Hal-hazırda Kurort Səhmdar Cəmiyyətinin tabeliyində olan "Bilgəh", "Abşeron", "Qaranquş", "Günəşli", "Şıx" sanatoriyaları, həmçinin "İlisu" pansionatı fəaliyyət göstərir. Bu sanatoriyaların 2009-cu ildən başlayaraq dövlət proqramı çərçivəsində bərpa olunması, müasir avadanlıqlarla təmin olunması, xidmətlərin sayının artması, peşəkar həkimlərin cəlb olunması istifadə edənlərinin sayının artmasına səbəb olmuşdur. Onu da qeyd edək ki, sanatoriya xidmətlərindən istifadə edən müştərilər arasında güzəştli yollayışlarla gələnlərin sayının üstünlüyü onların əsasən Həmkarlar İttifaqının tabeliyində olan Kurort Səhmdar Cəmiyyətinin tərkibində olması ilə bağlıdır. Hazırda Abşeron kurortlarından güzəştli yollayışlarla istifadə edənlərin sayının 4500-5000 pasiyent arasında dəyişməsi həmkarlar təşkilatının il ərzində verdiyi yollayışların sayının az dəyişməsi ilə bağlı olmuşdur.

Abşeron sanatoriyalarına gələnlərin dinamikasında son beş ildə baş verən dəyişmələr daha çox gecələmə müddətlərinin artması ilə bağlı olmuşdur ki, bu da yeni avadanlıqların quraşdırılması və xidmətlərin çeşidinin artması ilə bağlıdır. Abşeron sanatoriyalarının xidmətlərində müalicə təyinatının üstünlüyü və müəyyən xəstəliklər üzrə ixtisaslaşması pasiyentlərin seçiminə təsir edir. Eyni zamanda Abşeron sanatoriyalarında pasiyentlərin qəbulunda ümumi diaqnostik müalicələrin aparılması da geniş yayılmışdır. Bu sanatoriyalarda kompleks kurort xidmətlərinin göstərilməməsi gələn turistlərin dinamikasına mənfi təsir edir və onların rəqabət imkanlarını azaldır. Abşeron sanatoriyalarında ixtisaslaşdırılmış müalicə xidmətləri təklif olunsa da, müəssisə daxilində asudə vaxtın təşkilinə xüsusi diqqət yetirilmir. Beynəlxalq arbitorlar vasitəsilə Bilgəh və "Şıx" sanatoriyaları haqqında rəylərin sayı nisbətən çoxdur ki, bunlar da "mysanatorium" saytında cəmlənmişdir. "Günəşli", Abşeron, "Qaranquş" sanatoriyaları haqqında rəylər azdır və qiymətləndirmə aparılmayıb.

"Bilgəh" sanatoriyasında müalicə, yerləşmə xidmətləri yüksək qiymətləndirilsə də (8,5 bal), qidalanma və personalın xidməti nisbətən aşağıdır (8-8,3 bal). Eyni növ qidalanmanın təklif olunması turistlər üçün darıxdırıcı olur. Asudə vaxtın təşkili isə yalnız stolüstü oyunlar, piyada gəzmək üçün parkdan istifadə və idman mərkəzləri ilə təmin olunur. Müəssisə daxilində asudə vaxtın təşkili üçün mövcud avadanlıqlar müasir vəziyyətdə olsa da, onlardan istifadə olunması üçün məhdudiyyətlərin olması rəylərdə qeyd olunur. Həftəsonu asudə vaxtın təşkilində Abşeron yarımadası və Bakı şəhərinin tarixi yerlərinə aşağı səviyyəli ekskursiyalar təşkil olunur. Həmçinin çimərlik sahəsinin ümumi istifadəsi, stol və digər avadanlıqların ödənişli olması, ətrafının antisanitar vəziyyəti turistləri bu müalicə müəssisəsinə gəlməkdən çəkindirir.

**CƏDVƏL 21. Abşeron sanatoriyalarında xidmətlərin təkmilləşdirilməsi istiqamətləri**

| Xidmətlərin adı | Təkmilləşdilməsi vacib olan istiqamətlər |
|---|---|
| Müalicə-sağlamlıq | - Müalicə prosedurlarının sayının artırılması<br>- SPA velnes xidmətlərinin təklif olunması<br>- SPA mərkəzlərinin təşkili<br>- Mövcud SPA mərkəzlərində xidmətlərin təkmilləşdirilməsi<br>- Tibbi personalın təkmilləşdirilməsi<br>- Sağlamlığın bərpasına yönəldilən xidmətlərin təşkili |
| Qidalanma | - Yeməklərin çeşidlərinin artırılması<br>- Yeməklərin keyfiyyətinin yaxşılaşdırılması<br>- Diyetik yeməklərin tətbiqində sanatoriyanın ixtisaslaşmasının nəzərə alınması<br>- Qidalanmada əlavə xidmətlərin uyğun qiymətə təqdim olunması |
| Otaq xidmətləri | - Otaqlarda havalandırma sistemlərinin təkmilləşdirilməsi<br>- Otaq təmizlənməsində standartların tətbiqi<br>- Otaqların sanitar qovşağında müvafiq əşyalarla təminatının yaxşılaşdırılması<br>- Otaqların kateqoriyasından asılı olmayaraq kondisionerlərlə təmin olunması<br>- Otaqlarda sanitar qovşaqların müntəzəm təmizlənməsi |
| Asudə vaxtın təşkili | - Sanatoriyaların daxilində xidmət çeşidinin artırılması<br>- Rekreasiya sahəsində müxtəlif proqramların tərtibi<br>- Animasiya və əyləncə yerlərinin təşkili<br>- Kinoteatr və kitabxanaların işinin müasirləşdirilməsi<br>- Özəl çimərliklər<br>- Ekskursiyaların təşkilində səyahət agentlikləri ilə əlaqələrin qurulması<br>- Həftə sonu asudə vaxtın təşkili üzrə proqramların hazırlanması |
| Personal | - Personalın müştərilərlə davranış qaydalarının təkmilləşdirilməsi<br>- Yeməkxanalarda masa arxası xidmətçilərin peşə təlimlərinin artırılması<br>- Orta tibb işçilərinin müştərilərlə münasibətinin təkmilləşdirilməsi |

"Şıx" sanatoriyası üzrə aparılan araşdırmalardan məlum olur ki, yerləşmə və müalicənin keyfiyyəti yaxşı səviyyədə (8-8,5) qiymətləndirilir. Nömrələrin əsas problemi gilavar küləyi əsdikdə otaqlara dənizdən gələn pis qoxunun dolmasıdır. Eyni zamanda sanatoriya ərazisində rütubətin yüksək olması da turistlər üçün çətin vəziyyət yaradır. "Şıx" sanatoriyasında qidalanma turistlərin rəyində aşağı olaraq qeyd edilir ki (7 bal), bu da yeməklərin çeşidinin az və bəzilərinin keyfiyyətinin aşağı olması ilə bağlıdır. Səhər, günorta və axşam yeməklərinin eyni tipli olması da turistləri buraya gəlməkdən çəkindirə bilər. Eyni zamanda, "Şıx" sanatoriyasının ətrafında antisanitar vəziyyət, istirahət üçün yerlərin azlığı da turistlərin rəylərində qeyd edilir.

Kurort Səhmdar Cəmiyyətinin digər sanatoriyalarından olan “Abşeron”, “Günəşli”, “Qaranquş” sanatoriyaları təmir olunsa da, qidalanma, asudə vaxtın təşkili, personalın xidmətində əksikliklər turistlərin qarşılaşdığı əsas problemlərdən sayılır. Qeyd olunan sanatoriyalarda müalicə və tibbi personalın keyfiyyəti artırılsa da, nömrə xidmətləri, təminat, qidalanma, asudə vaxtın təşkili ilə bağlı problemlər qalmaqdadır.

**Naftalan kurort-sağlamlıq mərkəzləri**

Naftalan şəhərində fəaliyyət göstərən müalicə-sağlamlıq müəssislərinin təqdim etdikləri xidmətlərin əsasını Naftalan nefti ilə müalicə təşkil edir. Hotellərin kateqoriyalarından asılı olaraq müxtəlif vanna müalicəsi, su prosedurları, fizioterapiya, SPA xidmətləri təqdim edilir.

Beynəlxalq aqriqatorlar tərəfindən (xüsusilə booking.com) Naftalan sanatoriyalarına gələn müştərilərin rəyləri əsasında formalaşdırılan qiymətləndirmə göstəricilərinə əsasən araşdırma aparılmışdır. Naftalanda beşulduzlu Çinar, Qaşaltı, Qarabağ müalicə-sağlamlıq mərkəzləri üzrə turistlərin rəyləri təxminən oxşar olmaqla 8,5 baldan çoxdur. Naftalanda olan müalicə-sağlamlıq mərkəzlərinin beynəlxalq aqriqatorlardan alınan məlumatlar əsasında qiymətləndirilməsinin təhlili hotellər üzrə QRAFİK 15-dəki kimi verilmişdir.

**QRAFİK 16. Naftalanda beşulduzlu müalicə-sağlamlıq müəssisələri haqqında turistlərin rəyləri**




**MƏNBƏ:** *booking.com*

Naftalanda beşulduzlu hotellərin ümumi dəyərləndirilməsində nisbətən aşağı göstərici qiymətlər və internet təminatı ilə bağlıdır. Qiymətlərin nisbətən yüksək olması təqdim olunan əlavə xidmətlərə daha çox aid edilir. Belə ki, hotelin paket üzrə təqdim etdiyi qiymətlər regionda olan beşulduzlu müalicə mərkəzlərindən az fərqlənir. Naftalan şəhərindəki beşulduzlu hotellərin paketlərdə təqdim etdiyi bir günlük qiymət 200-230 manat təşkil edir ki, bu göstərici Mineralnıye Vodı ərazisindəki müalicə sağlamlıq mərkəzlərində 200-260 manat, Lvov kurortlarında 190-250 manat təşkil edir. Turistlərin qiymət üzrə rəylərində əsas narazılıq ekstra xidmətlər və transferlə bağlıdır.

İnternet təminatı regionlar üçün səciyyəvi problem olduğuna görə provayderlər qiymətindən asılı olmayaraq yüksək sürətli internet təqdim etmirlər. Bu da texniki proses olduğuna görə turistlərə yüklənmənin yüksək olması ilə izah edilir.

Naftalan şəhərinin dördulduzlu müalicə mərkəzlərindən olan “Gözəl Naftalan” və “Möcüzəli Naftalan” hotelləri üzrə turistlərin rəyləri 8 baldan yuxarıdır. Qeyd olunan hotellərin təmizlik xidməti üzrə (7,3 bal), qiymətlərin xidmətlərin keyfiyyətinə uyğun olmaması (6,9 bal), yerləşməyə görə (7,4 bal), internet xidmətinə görə (5 bal) mənfi amil olaraq qeyd edilir. Turistlər otaqların günaşırı təmizlənməsini və ağların, dəsmalların iki gündən dəyişməsi hallarını da qeyd edirlər. Yerləşmənin zəif olması da otaq xidmətlərinin aşağı olması ilə bağlıdır. Otaqların təmizliyinin əsasən müraciət əsasında aparılmasını da turistlər mənfi cəhət olaraq qeyd edirlər.

Qeyd olunan hotellərin paketlərində bir günlük müalicə, gecələmə və üç dəfə qidalanma birlikdə 60-80 manat təşkil edir ki, bu da eyni kateqoriyadan olan hotellər üçün yüksək deyildir.

Qidalanmada çeşidlərin az olması da turistlər tərəfindən mənfi amil kimi qeyd edilir. Qeyd olunan müalicə mərkəzlərində qidalanmada açıq süfrə təqdim olunsa da, yeməklərin növünün eyni olması, bəzən nahar və axşam menyularının az fərqlənməsini də turistlər öz rəylərində mənfi olaraq qeyd edirlər.

Bu hotellərdə həkimlərin professionalığının yüksək olması qeyd olunsa da, orta tibb işçilərinin turistlərlə davranış qaydalarında müəyyən çatışmazlıqlar qeyd edilmişdir.

Naftalan şəhərində fəaliyyət göstərən digər müalicə mərkəzlərindən “Möcüzəli Naftalan”, “Gözəl Naftalan Resort”, “Naftalan” “Şəfa vannaları”, “Kəpəz” santoriyalarında xidmətlərin keyfiyyətinin artırılması ilə bağlı ehtiyacın olduğu bütün rəylərdə üstünlük təşkil edir. Bu sanatoriyalardan “Mözüzəli Naftalan” və “Sehrli Naftalan” haqqında rəylərə beynəlxalq aqriqatorlarda daha çox rast gəlinir və orta bal göstəriciləri 7-8 bal arasında dəyişir. Bu sanatoriyalarda qiymətlər ucuz olsa da, paketə daxil olan müalicə xidmətlərinə görə əlavə ödəniş tələb olunması halları üstündür. Qidalanma ilə bağlı xidmət keyfiyyətinin artırılmasına ehtiyacın olması vurğulanmışdır. Paketə daxil olan tibbi prosedurlara, masaj və digər fizioterapiya xidmətlərinə görə əlavə pul tələb olunur. Personalın dil biliklərinin zəif, müştərilərlə davranış qaydalarının təkmilləşdirilməsinə ehtiyacın olduğunu turistlər xüsusilə qeyd edirlər.

**CƏDVƏL 22. Naftalan şəhərindəki beşulduzlu müalicə-sağlamlıq mərkəzlərində xidmətlərin təkmilləşdirilməsi istiqamətləri**

| Xidmətlərin adı | Təkmilləşdirilməsi vacib olan istiqamətlər |
|---|---|
| Müalicə-sağlamlıq | - Müalicə prosedurlarının sayının artırılması<br>- Sağlamlıq-bərpa prosedurlarının tətbiqi<br>- Müalicəvi kosmetoloji xidmətlərin təşkili<br>- Fərdi müalicə-sağlamlıq proqramlarının təşkili<br>- Normaya uyğun mütəmadi dəyişdirilmənin təmin edilməsi<br>- Qaşaltı sanatoriyasında otaq xidmətlərinin təkmilləşdirilməsi |
| Qidalanma | - Qidalanmada əlavə xidmətlərin uyğun qiymətə təqdim olunması<br>- Yeməklərin çeşidinin artırılması<br>- Ərzaq təminatının yaxşılaşdırılması və keyfiyyətinin artırılması |
| Asudə vaxtın təşkili | - Rekreasiya sahəsində müxtəlif proqramların tərtibi<br>- Qrup halında idman və əyləncəli tədbirlərin keçirilməsi<br>- Hotelin ərazisində müxtəlif tədbirlərin təşkilatçısının olması<br>- Qaşaltı sanatoriyasında velosipedlə hərəkət üçün yerlərin ayrılması<br>- Ekskursiyaların təşkilində səyahət agentlikləri ilə əlaqələrin qurulması<br>- Həftəsonu asudə vaxtın təşkili üzrə tur və ekskursiyaların təşkili |
| Personal | - Xarici dil biliklərinin təkmilləşdirilməsi<br>- Peşə bacarıqlarının yüksəldilməsi<br>- Orta tibb işçilərinin azlığı |

Beynəlxalq aqriqatorlar üzrə araşdırmalardan məlum olur ki, qeyd olunan müalicə-sağlamlıq mərkəzlərində otaq xidmətləri rəy verən turistlər tərəfindən mənfi olaraq qiymətləndirilmişdir. Otaqlarda təmizlik işlərinin gündəlik təşkil edilməsi ilə bağlı qonaqların təklifləri rəylərdə yer almışdır. Həmçinin transferin çox pis və baha təşkil olunması, şəxsi avtomobil ilə gəldikdə isə dayanacağın pulsuz olaraq istifadəsi nəzərdə tutulsa da, əlavə ödəniş tələb olunması xüsusilə vurğulanmışdır. İnternetin sürətinin çox zəif olması, bəzən bir neçə saat işləməməsi adi hal sayılması, sanatoriyaların yaşıllıq sahəsində sahibsiz itlər və pişiklərin olması və onların gecə boyunca istirahətə mane olması bildirilir. Ətraf ərazilərdə antisanitar vəziyyətə də rast gəlindiyi turistlərin rəyində qeyd olunur.

**"Qalaalti Hotel & Spa" kurortu**

"Qalaalti Hotel & Spa" kurortu Böyük Qafqazın şimal-şərq yamacında, sıx meşəliklər əhatəsində yerləşir. Əsas müalicə vasitəsi eyniadlı bulaqdan axan mineral sudur. Suyun tərkibi Naftusi bulaqlarına oxşar olmaqla hidrokarbonat-kalsium-maqneziumludur. Müalicə mərkəzinin iqlimi yayı quru-isti, qışı mülayim-rütubətli olmaqla sərin keçir. Kompleks 176 nömrə və 354 nəfərlik birdəfəlik tutuma malikdir. Müalicə-sağlamlıq mərkəzi uroloji xəstəliklər üzrə ixtisaslaşmışdır.

"Qalaalti Hotel & Spa" təqdim ediyi xidmətlərə görə turistlərin beynəlxalq aqriqatorlar vasitəsilə verdikləri rəylər əsasında qiymətləndirilməsi 8,6 bal təşkil edir. Hotelin komfortluq, təmizlik, qidalanma və s. xidmətlərini turistlər tərəfindən yüksək qiymətləndirilib.

**QRAFİK 17. "Qalaaltı Hotel & Spa" mərkəzinin booking.com-dan turistlərin rəyi əsasında qiymətləndirmə göstəriciləri**




**MƏNBƏ**: *https://www.booking.com/hotel/az/qalaalti-amp-spa.ru.html#tab-reviews*

Hotel xidmətləri barədə booking.com-da 216 turistin real rəyi əsasında qiymətləndirmə aparılıb. Rəylərin əsas hissəsi müsbət olsa da, bəzi turistlər asudə vaxtın təşkilində problemlərin olması, personalın xarici dil biliklərinin zəifliyi və bəzi texniki qüsurlarla bağlı qeyd ediblət. Müxtəlif qrup turistlər tərəfindən mini barda çeşidlərin artırılması və personalın bütün xidmətlər barədə məlumatlar təqdim etməsi kimi təkliflər də rəylərdə yer almışdır. Asudə vaxt baxımından ekskursiyaların zəif təşkili, əyləncə və animasiya xidmətlərinin az olması, həftəsonu istirahətin təşkilinin ancaq hotel daxilində planlaşdırılması rəylərdə xüsusi olaraq qeyd olunub.

**CƏDVƏL 23. “Qalaalti Hotel & Spa” mərkəzində xidmətlərin təkmilləşdirilməsi istiqamətləri**

| Xidmətlərin adı | Təkmilləşdirilməsi vacib olan istiqamətlər |
|---|---|
| Müalicə-sağlamlıq | - Müalicə prosedurlarının sayının artırılması<br>- Sağlamlıq-bərpa prosedurlarının tətbiqi<br>- Müalicəvi kosmetoloji xidmətlərin təşkili<br>- Fərdi müalicə-sağlamlıq proqramlarının təşkili<br>- Müalicəvi suyun çöküntülərindən müalicə məqsədilə istifadə olunması<br>- Vulkan palçığı ilə müalicə imkanlarının tətbiqi<br>- Həkim və orta tibb işçilərinin peşə yönümlü keyfiyyətinin artırılması |
| Qidalanma | - Qidalanmada əlavə xidmətlərin uyğun qiymətə təqdim olunması<br>- Yeməklərin çeşidinin artırılması |
| Asudə vaxtın təşkili | - Rekreasiya sahəsində müxtəlif proqramların tərtibi<br>- Qrup halında idman və əyləncəli tədbirlərin keçirilməsi<br>- Hotelin ərazisində müxtəlif tədbirlərin təşkilatçısının olması<br>- Ekskursiyaların təşkilində səyahət agentlikləri ilə əlaqələrin qurulması<br>- Çıraqqalaya gedən yolun bərpası və ekskursiya məqsədilə istifadə olunması<br>- Həftəsonu asudə vaxtın təşkili üzrə tur və ekskursiyaların təşkili |
| Personal | - Xarici dil biliklərinin təkmilləşdirilməsi<br>- Peşə bacarıqlarının yüksəldilməsi<br>- Orta tibb işçilərinin turistlərlə davranış qaydalarının təkmilləşdirilməsi |

Ölkədə fəaliyyət göstərən müalicə-sağlamlıq müəssisələrinin fəaliyyətinin təhlilindən aydın olur ki, son on ildə onların sayında artım olmaqla yanaşı, göstərdiyi xidmətlərin kəmiyyət və keyfiyyəti artıb. Eyni zamanda, ölkəyə gələn turistlər arasında müalicə-sağlamlıq məqsədilə gələnlərin sayının artması da bu sahədə keyfiyyət dəyişmələrinin baş verməsilə bağlıdır. Ölkənin əsas müalicə sağlamlıq destinasiyasından ibarət olan Naftalan kurortlarının xidmətlərindən istifadə edənlərin sayının 40 min nəfəri keçməsi, Qalaaltı və Lənkəranda yeni müalicə mərkəzlərinin istifadəyə verilməsi onların rəqabət qabiliyyətini artırır.

Ölkədə fəaliyyət göstərən müalicə sağlamlıq müəssisələrinin əsas tələb bazarında rəqabət imkanlarının qiymətləndirilməsinin təhlili üçün Rusiya, Ukrayna, Gürcüstan və Türkiyənin eyni profilli müəssisələri ilə aparılmış müqayisəli araşdırmalar göstərir ki, ölkəmizin müalicə-sağlamlıq turizmində təklif etdiyi xidmətlər, asudə vaxtın təşkili və qiymətlər qeyd olunan ölkələrin turizm bazarından az fərqlənir. Xüsusilə, yüksək kateqoriyalı dörd və beşulduzlu hotellərin təqdim etdikləri müalicə prosedurlarının sayı, asudə vaxt imkanları qonşu ölkələrdən geri qalmır və bəzi hallarda üstündür.

**CƏDVƏL 24. Ölkələr üzrə müxtəlif kateqoriyalı kurort-SPA mərkəzlərində xidmətlərin təşkili və qiymətlər**

| | Üç ulduz | Dörd ulduz | Beş ulduz |
|---|---|---|---|
| **Azərbaycan Respublikası** | | | |
| Həftəlik müalicə prosedurlarının sayı | 9-12 | 12-15 | 19-21 |
| Asudə vaxtın təşkili | Açıq havada idman qurğuları, stolüstü oyunlar | Açıq və qapalı yerlərdə idman qurğuları, SPA mərkəzi, açıq hovuz, stolüstü oyunlar. Amfi-teatr, həftəsonu canlı musiqi | Açıq və qapalı idman mərkəzləri, Rekreasiya və SPA mərkəzi, açıq və qapalı hovuzlar, stolüstü oyunlar, kinoteatr, internet klub, oyun aparatları, həftə sonu amfiteatrda canlı musiqi. |
| Qidalanma | Üç dəfə dietik qidalanma (menyu üzrə) | Üç dəfə qidalanma (İsveç masası) | Üç dəfə qidalanma (İsveç masası), desertlər, otaqlarda çay, meyvə və dietaya uyun içkilər |
| Mövsüm dövründə günlük orta qiymət (manatla) | 60-80 | 136-150 | 206-228 |
| **Rusiya Federasiyası-Şimali Qafqaz kurortları** | | | |
| Həftəlik müalicə prosedurlarının sayı | 28 | 28-35 | 35 |
| Asudə vaxtın təşkili | Açıq və qapalı idman qurğuları ilə təmin olunmuş meydança, stolüstü oyunlar, amfi-teatr, gün ərzində canlı musiqi | Açıq və qapalı idman qurğuları, SPA mərkəzi, açıq hovuz, stolüstü oyunlar, amfiteatr, kinoteatr, internet klub, həftə sonu konsertlər, ekskursiya xidmətləri | Açıq və qapalı idman qurğuları, SPA mərkəzi, açıq və qapalı hovuz, amfiteatr, kinoteatr, canlı musiqi, velosiped meydançası, həftə sonu konsertlər, uşaqlar üçün oyun meydançası, ekskursiya xidmətləri |
| Qidalanma | Üç dəfə diyetaya uyğun qidalar, desert və meyvələr otaqlarda çay, müalicəvi su. | Üç dəfə açıq süfrə üzrə qidalanma, desert, mövsümi meyvələr, limitsiz çay, qəhvə Otaqlarda hər gün çay, meyvə, su və bəzi süd məhsulları | Üç dəfə açıq süfrə üzrə qidalanma, limitsiz qəlyanaltı, desert və meyvələr. Otaqlarda çay, qəhvə, mövsümi meyvələr, su və süd məhsulları. |
| Orta günlük qiymət (manatla) | 80-110 | 130-160 | 210-260 |

| | Üç ulduz | Dörd ulduz | Beş ulduz |
|---|---|---|---|
| **Türkiyə Cümhuriyyəti** | | | |
| Həftəlik müalicə prosedurlarının sayı | Müalicəyə uyğun olaraq təyin olunur.<br>Əsas prosedurlar: 12 | Müalicəyə uyğun təyin olunur.<br>Əsas prosedurlar: 15 | Müalicəyə uyğun təyin olunur.<br>Əsas prosedurlar: 19 |
| Asudə vaxtın təşkili<br>Qidalanma<br>Orta günlük qiymət | Açıq və qapalı idman qurğuları, stolüstü oyunlar, SPA mərkəzi, açıq hovuz, əyləncə yerləri, həftəlik animasiyalar, müxtəlif məqsədli ekskursiyalar | Açıq və qapalı idman qurğuları, stolüstü oyunlar, SPA mərkəzi, açıq və qapalı hovuz, əyləncə yerləri, günlük animasiyalar, kinoteatr, kitabxana, müxtəlif məqsədli ekskursiyalar | Açıq və qapalı idman qurğuları, stolüstü oyunlar, SPA mərkəzi, açıq və qapalı hovuz, əyləncə yerləri, günlük animasiyalar, kinoteatr, uşaq əyləncə mərkəzi, açıq və qapalı hovuzlar, həftsonu konsertlər, velosiped və gəzinti elektromobillər üçün kirayə yeri, kitabxana, müxtəlif məqsədli ekskursiyalar |
| | Səhər yeməyi (İsveç masası) | Gündə iki dəfə açıq süfrə və desertlər. Sifarişli xidmətlərin üstünlüyü | Üç dəfə qidalanma və desertlər (İsveç masası), bəzilərində gündə iki dəfə qidalanma, açıq süfrə. |
| | 85-100 | 130-165 | 185-256 |
| **Gürcüstan Respublikası** | | | |
| Həftəlik müalicə prosedurlarının sayı | Yerində müalicəyə görə təyin olunur.<br>Əsas prosedurlar: 12-15 | Yerində müalicəyə görə təyin olunur.<br>Əsas prosedurlar: 15-17 | Yerində müalicəyə görə təyin olunur.<br>Əsas prosedurlar: 19-21 |
| Asudə vaxtın təşkili | Açıq idman qurğuları, stolüstü oyunlar, amfi-teatr, karaoke, atla gəzinti. | Açıq və qapalı idman qurğuları, SPA mərkəzi, açıq hovuz, stolüstü oyunlar, kinoteatr, hər gün canlı musiqi, kitabxana, həftəsonu animasiyalar, velosiped və atla gəzinti, ekskur-siya xidmətləri | Açıq və qapalı idman qurğuları, SPA mərkəzi, açıq və qapalı hovuz stolüstü oyunlar, kinoteatr, hər gün canlı musiqi, uşaq əyləncə mərkəzi, müxtəlif oyun aparatları, kitabxana, həftə sonu animasi-yalar, velosiped və atla gəzinti, ekskursiya xidmətləri. |
| Qidalanma | Üç dəfə menyu üzrə və bəzilərində İsveç masası | Üç dəfə qidalanma (İsveç masası), desert və mövsümi meyvələr. | Üç dəfə qidalanma (İsveç masası), desert və mövsümi meyvələr. Otaqlarda çay, su, meyvə və süd məhsulları. |
| Orta günlük qiymət | 72-95 | 140-155 | 205-250 |

| | Üç ulduz | Dörd ulduz | Beş ulduz |
|---|---|---|---|
| **Ukrayna Respublikası** | | | |
| Həftəlik müalicə prosedurlarının sayı | 24 | 28-32 | 35-40 |
| Asudə vaxtın təşkili | Açıq və qapalı idaman qurğuları, stolüstü oyunlar, SPA mərkəzi, əyləncə yerləri, həftəlik animasiyalar | Açıq və qapalı idman qurğuları, SPA mərkəzi, açıq hovuz, stolüstü oyunlar, kinoteatr, hər gün canlı musiqi, kitabxana, həftəsonu animasiyalar, velosiped kirayəsi, ekskursiya xidmətləri | Açıq və qapalı idman qurğuları, SPA mərkəzi, açıq və qapalı hovuz, stolüstü oyunlar, uşaq əyləncə mərkəzi, kinoteatr, hər gün canlı musiqi, kitabxana, həftəsonu animasiyalar, velosiped kirayəsi, ekskursiya xidmətləri |
| Qidalanma | Üç dəfə diyetik qidalar (İsveç masası) | Üç dəfə diyetik qidalar (isveç masası), desert, çeşidli şirələr. Limitsiz çay, su. | Üç dəfə diyetik və ümumi qidalanma (İsveç masası), desert və yerində çəkilən meyvə şirələri. Otaqlar-da çay, su, süd məhsul-ları və meyvə |
| Orta günlük qiymət | 70-85 | 110-150 | 190-250 |

**MƏNBƏ:** *booking.com*

Ölkələr üzrə müxtəlif müalicə müəssisələrinin təqdim etdikləri müalicə prosedurlarının sayı hotel-SPA mərkəzlərinin ulduz dərəcələrindən asılı olaraq dəyişir. Eyni zamanda bütün müalicə-sağlamlıq mərkəzlərində əsas müalicə prosedurları saxlanılır və paketə daxil edilir. Xüsusilə Ukrayna, Rusiyanın Mineralnıye Vodı, Gürcüstan sanatoriya-kurort müəssislərində əsas müalicə posedurları hotellərin kateqoriyalarından asılı olmayaraq eyni səviyyədə saxlanılır. Türkiyənin termal kurortlarında isə müalicə prosedurları bir çox hallarda yerində təyin olunur, əsas müalicə və digər xidmətlər tur paketə daxil edilir. Həftəlik təqdim olunan müalicə prosedurlarının sayı yüksəkkateqoriyalı Mineralnıye Vodı sanatoriyalarında orta hesabla 28-35 olduğu halda, eyni göstərici Türkiyənin termal kurortlarında 15-19, Gürcüstanın müalicə-sağlamlıq mərkəzlərində 17-21, Ukraynanın Karpatyanı bölgəsinin sanator-kurortlarında 32-40, Azərbaycandakı yüksəkkateqoriyalı hotel və SPA mərkəzlərində isə 15-21 arasında dəyişir. Təhlildən aydın olur ki, ölkəmizdəki sağlamlıq müəssisləri təqdim etdiyi müalicə prosedurlarının sayına görə rəqiblərindən geri qalır. Bu da xarici turistləri Azərbaycandakı müalicə-sağlamlıq müəssisələrini seçməkdən çəkindirən amillərdəndir.

### 2.9.3. Müalicə-sağlamlıq xidmətlərinin qiymətlərinin müqayisəli təhlili

Rusiyanın Mineralnıye Vodı bölgəsində yerləşən müalicə-sağlamlıq müəssisələrində qiymətlər müəssisənin kateqoriyasından asılı olaraq dəyişir. Belə ki, üçulduzlu və daha aşağı kateqoriyalı müalicə-sağlamlıq müəssisələrində qiymətlər 80-100 AZN arasında dəyişdiyi halda, beşulduzlu hotellərdə 200 AZN-dən başlayır. Qiymətlər xidmətlərdən asılı olaraq dəyişsə də, müalicə prosedurlarının sayı hər iki kateqoriya üzrə təxminən eynidir. Dörd və beşulduzlu mərkəzlərdə qidalanma, otaqların kateqoriyası, həkim personalı və onların peşəkarlığı, tibbi avadanlıqların müasir olması qiymətlərin daha yüksək olmasına təsir edir.

Ukraynanın Lvov bölgəsinə aid kurortlarda qiymətlər Mineralnıye Vodıda yerləşən eyniprofilli müəssisələrdən yüksəkdir. Lvov kurortlarında müalicə prosedurlarının və xidmətlərin sayının çox olması qiymətlərin nisbətən yüksək olmasına səbəb olur. Eyni zamanda, qiymətləri Mineralnıye Vodı sanatoriyalarından az fərqlənən, lakin çoxçeşidli xidmətlər təklif edən hotellər də mövcuddur.

Gürcüstandakı yüksəkkateqoriyalı müalicə-sağlamlıq müəssisələrində qiymətlər nisbətən bahadır. Bu da əsas sağlamlıq turizmi destinasiyalarında orta və yüksəkkateqoriyalı hotellərin az olması ilə bağlıdır. Baxmayaraq ki, təqdim olunan müalicə prosedurlarının və asudə vaxtın təşkilinə yönəldilən xidmətlərin sayı Lvov və Mineralnıye Vodı kurortları ilə müqayisədə daha azdır, qiymətlər əksinə, nisbətən yüksəkdir.

Türkiyənin termal hotellərində qiymətlər müqayisə olunan ilk üç regiondakı müalicə-sağlamlıq müəssisələrinin təklif etdiyi qiymətlərdən yüksəkdir. Bu da təqdim olunan xidmətlərin keyfiyyətinin yüksək olması və daha çox yüksək kateqoriyalı hotellərin fəaliyyət göstərməsi ilə bağlıdır.

Azərbaycanda müalicə sağlamlıq müəssisələrində qiymətlərini rəqib ölkələrin sanator-kurort müəssisələri ilə müqayisədə baha hesab edilə bilməz. Bir sıra hallarda Mineralnıye Vodı, Lvov və Gürcüstanın müalicə-sağlamlıq müəssisələrindən daha ucuz təklifləri də müşahidə etmək olar. Buna baxmayaraq, hava nəqliyyatının yüksək qiymətə təqdim olunması müalicə-sağlamlıq paketlərinin baha olması ilə nəticələnir. Belə ki, Azərbaycana qonşu olan və müqayisə ilə təhlil olunan rəqib regionlara hava nəqliyyatı ilə daha ucuz qiymətə səfər etmək olur. Bu da turistlərin Azərbaycanı ziyarət etməyə çəkindirən amillərdən hesab olunur. Həmçinin təqdim olunan müalicə prosedurlarının azlığı və asudə vaxtın təşkilinə yönəldilən tədbirlər çeşidinin məhdud olması gələn turistlərin tələbatını tam ödəməyə imkan vermir.

## 2.9.4. Qidalanma xidmətləri

Rusiya, Ukrayna və Gürcüstanın müalicə-sağlamlıq müəssisələrində ənənəvi olaraq, əsasən üç dəfə qidalanma, xüsusən də dietik menyu üzrə bufet sistemi təklif olunur. Türkiyənin termal hotellərində isə tur paketə əsasən iki dəfə qidalanma daxil olur, bir çox hallarda müalicəyə uyğun dietik qidalar təklif edilir.

Azərbaycanda Kurort Səhmdar Cəmiyyətinin tabeliyində olan sanatoriyalarda üç dəfə qidalanma təklif olunsa da, keyfiyyəti nisbətən aşağı olur. Dörd və beşulduzlu müalicə-sağlamlıq müəssisələrində isə tur paketə uyğun üç dəfə açıq masa üzrə qidalanma təqdim edilir. Burada dietik qidalanma ilə yanaşı, milli və Avropa mətbəxinin nümunələri təklif edilir.

Ümumilikdə, ölkənin aparıcı müalicə-sağlamlıq mərkəzlərində təqdim olunan qidalanma xidməti keyfiyyətinə görə bir-birindən fərqlənir və digər regionların mərkəzlərindən geri qalmır. Bununla bərabər, yüksəkkeyfiyyətli qida və müxtəlif meyvə şirələrinin təqdim olunması turistlər tərəfindən müsbət qarşılanır.

**ŞƏKİL 4. Naftalan kurortunda yerləşən beşulduzlu hotellərdə qidalanma xidmətləri**






**MƏNBƏ:** *"Gashalti Health Hotel", "Chinar Hotel & Spa", "Garabag Resort & SPA"*

## 2.9.5. Azərbaycanda sağlamlıq turizmi xidmətlərinin inkişafı perspektivləri

Azərbaycanda sağlamlıq turizminin inkişafı üçün geniş potensialın olması, onlardan səmərəli istifadə edərək ölkənin sağlamlıq turizmi destinasiyasına çevrilməsinə geniş imkanlar açır. Ölkədə fəaliyyət göstərən kurort-müalicə müəssisələrində yeni xidmətlərin təklif olunması daha çox gəlir götürməyə imkan vermiş olardı ki, bu da animasiya proqramlarının hazırlanması, aktiv istirahətin təşkili üçün şəraitin yaradılması, geniş SPA-velnes xidmətlərinin təşkilindən asılıdır.

Ölkədə sağlamlıq turizmi sahəsində xidmətlərin yüksəldilməsi, beynəlxalq miqyasda rəqabət qabiliyyətinin artırılması üçün aşağıdakı tədbirlər görülə bilər:

- **Unikal kurort müalicə imkanları təqdim edən destinasiya məhsullarının cəlb olunması** – bu, sahənin regional rəqabət imkanlarını artıracaq. Beynəlxalq miqyasda rəqabət qabiliyyətli məhsulların təqdim olunmasında "Naftalan" və "Qalaaltı" brendinin təqdim olunmasını əhəmiyyətlidir. Naftalan neftinin unikal müalicəvi və kosmetik imkanlarından istifadə etməklə təşkil olunan müasir komplekslərə tələbat artmaqdadır. Buna görə də "Naftalan" brendinin yaradılması və beynəlxalq miqyasda təbliği bu sahədə daha çox effekt vermiş olacaq.

- **Kurort xidmətləri üzrə müalicəvi sağlamlıq turizmi paketlərinin hazırlanması** – səyahət agentliklərinin ölkədə sağlamlıq turizmi mərkəzləri üçün müasir xidmətlərin təklif olunmasına və onun paket halında reklamının təşkilinə ehtiyac var. Səyahət agentlikləri vasitəsilə nəqliyyat vasitələri, yerləşmə və animasiya xidmətlərinin paket olaraq satışının təşkili bu sahədə uğur qazanmağa imkan vermiş olacaq.

- **Kurort-müalicə xidmətləri təklif edən destinasiyalarda turistlərin asudə vaxtının təşkili üçün müxtəlif müddətləri əhatə edən animasiya proqramlarının tərtibi** – kurort-müalicə mərkəzlərində animasiya tədbirlərinin günlük və həftəlik olaraq proqramlaşdırılması, həftəsonu istirahətdə isə müxtəlif turların və ekskursiya proqramlarının təklif olunması vacibdir. Belə tədbirlər turistlərin asudə vaxtının səmərəli təşkil olunmasına, ölkəmizin turizm imkanlarının təbliğinə gətirib çıxaracaq.

- **Balneoloji, iqlim kurort resurslarının daha çox cəmləşdiyi ərazilərdə mobil sağlamlıq mərkəzlərinin yaradılması** – belə destinasiyaların Gədəbəy, Tovuz, Zaqatala, Qax, Şabran, Masallı, Lerik və s. müalicəvi sularla zəngin olan bölgələrdə təşkili mümkündür. Bunlar da imkan verəcək ki, rayonların turizm potensialından daha səmərəli istifadə olunsun, həmçinin yerli əhalinin sağlamlığını bərpa etmək mümkün olsun.

- **Naftalan müalicəvi nefti əsasında kosmetik məhsulların istehsalı** – bu məqsədlə müalicəvi neftdən istifadə edilərək yeni yaradılacaq kosmetik məhsulların tərkibinin öyrənilməsi və müalicə, kosmetik xidmətlərdə tətbiqinin mümkünlüyü müəyyənləşdirilməlidir. Onu da qeyd edək ki, müalicəvi turizmdə tətbiq olunan SPA xidmətlərində qeyd olunan kosmetik məhsullardan istifadə olunması mümkündür ki, bu da həmin məhsulların ixrac potensialının artmasına, digər sağlamlıq müəssisələrində istifadə olunmasına səbəb ola bilər. Belə ki, hazırda Naftalanın müalicəvi neftindən Avropa ölkələrinin kurortlarında geniş istifadə olunur ki, buna da misal olaraq Çexiya və Xorvatiya kurortlarını xüsusilə qeyd etmək olar.

- **Naftalan nefti əsasında istehsal olunan kosmetik vasitələrin, dərmanların və digər məhsulların brendləşdirilməsi** – Naftalan neftindən alınan məhsulların qablaşdırılması və marketinqinin təşkili, onun satış kanallarının müəyyən edilməsi məqsədəuyğun olardı. Avropa təşkilatları tərəfindən həmin məhsulların standartları və müalicəvi xüsusiyyətlərinin təsdiqi üçün beynəlxalq institutlardan Naftalan

neftinin müalicəvi əhəmiyyətini təsdiqləyən sertifikatın alınması onun brendləşməsinə xüsusilə təkan verəcəkdir.

 **Sağlamlıq xidmətlərində "putyovka" (güzəştli yolayış) sisteminin təkmilləşdirilməsi** – həmkarlar təşkilatının xətti ilə güzəştli yollayışların bütün sağlamlıq müəssisələrini əhatə etməsi səmərəli olardı. Həmçinin sağlamlıq müəssisələrinin üçüncü yaş qrupu üçün güzəştli məhsullar təqdim etməsi aşağı gəlirli vətəndaşlar üçün bu sahənin əlçatanlığını təmin edərdi.

 **Sağlamlıq məhsullarının inkişaf etdirilməsi** – bu məqsədlə Naftalan üçün qısa, orta və uzun müddətli müalicə və sağlamlaşdırma turları, "Qətransız Naftalan məlhəmi", kosmetik məhsullar istehsalı, yeni sağlamlaşdırma proqramlarının turistlərə təklif edilməsi vacibdir. Eyni zamanda termal sular əsasında balneoloji turizm və palçıqla müalicə üzrə mərkəzlərin təşkili, məhsullarının təqdim olunması bu sahənin inkişafına təkan veriş olardı.

 **Sağlamlıq turizmində investisiyaların cəlb olunması** – sahibkarlıq subyektlərinin sağlamlıq turizmi sahəsinə vəsaitlərini yönəltmək üçün vergi, gömrük güzəştlərinin tətbiqi vacibdir. Həmçinin müalicə-sağlamlıq sənayesi üçün gətirilən avadanlıqlara gömrük güzəştlərinin tətbiqi də sahibkarları bu sahəyə investisiya qoymağa stimulaşdırar.

Ümumilikdə Azərbaycanda kurort turizm məhsullarının beynəlxalq miqyasda tanıdılması, qiymətlərininin rəqib ölkələrə görə bazara uyğunlaşdırılması, onun onlayn platformada təbliğatının aparılması, bu sahədə SMM strategiyasının tətbiqi daha çox iqtisadi effekt vermiş olardı. Xüsusilə Naftalan, "Qalaalti Hotel & Spa", Yengicə, Duzdağ, "Lankaran Springs Wellness Resort" kurortlarına aid paket turların hazırlanmasında qısa, orta və uzun müddətli məhsulların təqdim olunması və onların beynəlxalq səviyyədə təbliğatı vacibdir. Bununla yanaşı Naftalan neftinin bazası əsasında istehsal olunan kosmetik məhsulların çeşidinin artırılması və onun aidiyyatı üzrə brendləşdirilməsi həmin məhsullara tələbatı artırmış olardı.

## 2.10. Sağlamlıq turizmi müəssisələrinin əlavə rekreasiya imkanları

Sağlamlıq müəssisələrində rekreasiya fəaliyyətinin təşkili birbaşa təbii və antropogen ehtiyatlarla bağlıdır. Eyni zamanda aktiv rekreasiya fəaliyyətinin tərkib hissələrindən biri bu sahədə asudə vaxtdan səmərəli istifadə olunmasıdır.

### 2.10.1. Sağlamlıq turizmində rekreasiya fəaliyyətinin təşkili

Rekreasiya fəaliyyətinin təsnifatında başlıca əlamət onun funksional istiqamətidir. Rekreasiya fəaliyyəti funksiyalarına görə aşağıdakı tiplərə bölünür:

- **Müalicə –** sağlamlığının bərpa olunması. Müalicə xarakterli rekreasiya tədbirləri iqlim, palçıq, mineral sular kimi təbii müalicə ehtiyatlarını ehtiva edir.
- **Təbiət** – ətraf mühitlə bağlı olan tədbirlər və ətraf mühitdən istifadə etməklə sağlamlığın bərpası. Bura təbiət qoynunda sakit istirahət, ekzotik landşaft ərazilərinə gəzintilər və turlar, təbiət abidələri və milli parklara səyahətlər daxildir.
- **Dərketmə –** şəxsiyyətin mənəvi cəhətdən inkişafı. İnsanın mənəvi və estetik tələbatının ödənilməsini əhatə edir. Bura mədəni-tarixi abidələr, yeni rayon, kənd, ölkələrlə, onların etnoqrafiyası, iqtisadiyyatı, mədəniyyəti ilə tanışlıq və s. aiddir.
- **İdman –** insanın fiziki cəhətdən inkişafı. Bura SPA mərkəzləri, açıq və qapalı idman meydançaları, yoqa və digər idman tədbirləri daxildir.

Yuxarıdakı təsnifatdan savayı, rekreasiya fəaliyyətinin müalicə-kurort, sağlamlaşdırıcı, idman və dərk etmə, animasiya, asudə vaxtın təşkili sahələri də ayrılır. Müalicə-sağlamlıq müəssisələrində rekreasiya fəaliyyəti əsasən üç mərhələdə tətbiq olunur: intensiv müalicəyə qədər, intensiv müalicə dövründə və müalicədən sonrakı bərpa dövründə. Bütün bu mərhələlər üçün xüsusi rekreasiya tədbirləri planlaşdırılır.

Sanatoriya-kurort mərkəzlərində pasiyentlərin intensiv terapiyası dövründə ərazidən kənar asudə vaxtın təşkilini müalicə kursuna uyğun olaraq təşkil etmək mümkün olmur. Belə ki, termal vannalar və ya Naftalan vannaları qəbul edən pasiyentin aktiv hərəkətləri və mikroiqlim şəraitinin dəyişməsi müalicənin gedişinə mənfi təsir göstərə bilər. Buna görə də müalicə-sağlamlıq müəssisələri çalışır ki, mərkəz daxilində asudə vaxtın təşkili üçün daha əlverişli şərait yaratsın.

**QRAFİK 18. Müalicə-sağlamlıq müəssisələrində asudə vaxtın təşkili istiqamətləri**




**MƏNBƏ:** *Севрюков Иван Юрьевич, Размахнина Анастасия Дмитриевна, Иванова Мария Игоревна. Организация культурно-досуговой деятельности в санаторно-курортных учреждениях // Международный научный журнал «символ науки» № 04-1/2017 ISSN 2410-700X, с.147-149*

Müalicə-sağlamlıq müəssisələrində asudə vaxtın təşkili müxtəlif istiqamətdə təşkil olunsa da, yuxarıda qeyd olunan səbəbə görə bu fəaliyyətin komponetləri müəssisədaxili xidmətləri daha çox əhatə edir. Bura idman, müxtəlif oyunlar, su əyləncələri, kitabxana, canlı musiqi, istirahət-əyləncə mərkəzinin xidmətləri daxildir. Animasiya və konsertlərin verilməsi isə müəssisə rəhbərliyi ilə müqavilə əsasında xidmətlər göstərən təşkilatlarla birgə həyata keçirilir. Animasiya və konsertlərin təşkili əsasən həftə sonları baş tutur. Bəzi sanatoriya-kurort müəssisələrində animasiya xidmətləri mövsüm dövründə müntəzəm olaraq təklif olunur.

Müalicə-sağlamlıq müəssisələrində həftəsonu asudə vaxt və istirahətin təşkili daha aktual sayılır. Buna görə də müalicə-sağlamlıq mərkəzləri səyahət agentlikləri və müxtəlif tur və ekskursiya xidmətləri təklif edən sahibkarlıq subyektləri ilə müqavilə əsasında asudə vaxtın səmərəli təşkilinə önəm verir. Həftəsonu istirahətin təşkili təbiət, dərketmə, xüsusən də şəhər ekskursiyaları və s. çeşidli xidmətlərlə tamamlanır.

Azərbaycanda fəaliyyət göstərən müalicə-sağlamlıq mərkəzlərində rekreasiya xidmətləri idman və sağlamlıqla əlaqəli müəssisədaxili tədbirlərdən ibarətdir. Abşeron sanatoriyalarında bu istiqamətdə görülmüş işlər siyahısında idman meydançasında gəzinti ərazisi, idman qurğuları, tennis kortu və digər idman tədbirlərinin təşkili yer alır, stoüstü oyunlar və kitabxana fəaliyyət göstərir. Bu xidmət çeşidi Abşeronun bütün sanatoriyalarında mövcud deyil. Ümumilikdə, Abşeron sanatoriyalarında pasiyentlərin asudə vaxtının təşkili əsas xidmət sahəsi olaraq nəzərdə tutulmur, yardımçı sahə kimi baxılır.

Naftalandakı kurort-sanatoriya müəssisələrində asudə vaxtın təşkilində “Qaşaltı”, “Garabag Resort & SPA” və “Möcüzəli Naftalan” müalicə-sağlamlıq mərkəzləri daha çox xidmətlər təklif edir. Qeyd olunan müəssisələr üçgüçülük hovuzu, kinoteatr, animasiyalar, canlı musiqi, internet, oyun avadanlıqları, uşaqların əylənməsi üçün yerlər, açıq və qapalı idman yerlərinin olması ilə seçilir.

“Qalaalti Hotel & Spa” və “Lankaran Springs Wellness Resort” müalicə mərkəzlərində asudə vaxtın təşkilində hoteldaxili müxtəlif növ xidmətlər turistlərə təqdim olunur. Eyni zamanda, hoteldaxili xidmətlərin sayının çox olması da gələn turistlərin istirahəti üçün əlverişli şərait yaradır.

**ŞƏKİL 5. “Lankaran Springs Wellness Resort”da hoteldaxili əyləncə imkanları**



**MƏNBƏ:** “Lankaran Springs Wellness Resort”

**ŞƏKİL 6. “Qalaalti Hotel & Spa” və “Garabag Resort & SPA”da hoteldaxili əyləncə imkanları**



**MƏNBƏ:** “Qalaalti Hotel & Spa” və “Garabag Resort & SPA”

Asudə vaxtın təşkilində beynəlxalq təcrübənin təhlili göstərir ki, müalicə-sağlamlıq mərkəzlərində asudə vaxtın təşkilinə yönəldilən tədbirlər intensiv terapiya və müalicə ilə bağlı olan və həftə sonları təqdim edilən xidmətlərdən ibarətdir. İntensiv müalicə dövründə təqdim olunan xidmətlər əsasən hoteldaxili istirahət, idman, stolüstü oyunlar, əyləncə yerləri, kitabxanalar və s.-dən istifadəyə əsaslanır. Həftəsonu asudə vaxtın təşkilində isə üstünlük tur və ekskursiyalara verilir və iki istiqamət əsas götürülür: mədəni- dərketmə və təbiət turları.

Müalicə-sağlamlıq müəssisələrinin göstərdiyi xidmətlərin çeşidinin artması və təyinatının çoxtərəfli istiqamətdə dəyişməsi də asudə vaxtın təşkilində müxtəlifliklərə səbəb olur. Belə ki, müalicə-sağlamlıq

müəssisələri sanatoriyalar, kurort və termal SPA, həmçinin istirahət SPA mərkəzlərinə bölünür. Həmçinin ixtisaslaşdırılmış müalicə-sağlamlıq xidmətlərinin geniş yayılması da insanların müəyyən xəstəliklərə görə onları seçməsinə səbəb olur. Buna görə də, bir çox müalicə-sağlamlıq müəssisələrində turistlərin asudə vaxtının təşkilində hoteldaxili xidmətlərə önəm verilir. Həftəsonu tur və ekskursiyaların planlaşdırılmasında brokerlər və səyahət agentlikləri daha fəal iştirak edir.

**QRAFİK 19. Azərbaycanın müalicə-sağlamlıq müəssisələrində həftəsonu istirahətin təşkili modeli**




Azərbaycandakı müalicə-sağlamlıq müəssisələri qonaqlara həftəsonu istirahətinin səmərəli keçirmələri üçün əlavə xidmətlər təklif edə bilmir. Yerli sənaye üzvlərinin asudə vaxtın təşkli ilə bağlı mövcud problemlərdən biri məhz budur. QRAFİK 18-də verilmiş modelə uyğun olaraq həftəsonu asudə vaxtın təşkilində üç istiqamətdən birinin seçilməsi məqsədəuyğundur. Belə xidmətlərin formalaşdırlmasında səyahət agentlikləri və brokerlər fəal iştirak edə bilərlər. Müalicə-sağlamlıq müəssisələri bu sahədə aktiv olan və öz layihələrini təklif edən turizm şirkətləri və ya yeni formalaşan destinasiya təşkilatları ilə əməkdaşlıq edərək bu sahədə üzləşdikləri çətinlikləri aradan qaldırmaqla bərabər, turistlərə daha keyfiyyətli və tam xidmət paketi təklif edə bilərlər. Beynəlxalq təcrübəyə əsasən, belə müalicə-sağlamlıq müəssisələrində həftəsonu asudə vaxtın təşkilində səyahət agentlikləri fəal iştirak edir və hazırladıqları turizm paketləri, eksursiya və digər xidmətləri turistlərə daha güzəştli şərtlərlə sata bilir. Ölkəmizdə qeyd olunan təcrübədən istifadə olunması turistlərin müalicə-sağlamlıq müəssisələrinə cəlb olunmasında əlavə marketinq aləti rolunda çıxış edə bilər.

Azərbaycandakı müalicə-sağlamlıq mərkəzlərinin bir hissəsi tərəfindən həyata keçirilən ekskursiya xidmətlərinin əksəriyyəti yaxınlıqda yerləşən mədəni obyektlər və tarixi abidələrdə baş tutur. Buna görə də bu yerlərin müalicə-sağlamlıq mərkəzlərinə yaxın yerləşməsi, xüsusən də məsafənin əsasən 150 km-a qədər olması məqsədəuyğun hesab olunur.

### 2.10.1.1. Naftalanda həftəsonu asudə vaxtın təşkili imkanları

Azərbaycanda müalicə-sağlamlıq mərkəzləri ekskursiya imkanlarına görə fərqlənir. Naftalan şəhəri bir sıra mühüm tarixi və təbiət qoruqları, eləcə də qədim yaşaşayış məntəqələrinə yaxın, multietnik tərkibə məxsus regionda yerləşir. Burada müalicə-sağlamlıq mərkəzləri aşağıdakı ekskursiyaları təklif edə bilər:

- Gəncə şəhərinin tarixi mərkəzinə ekskursiyalar;
- Alman irsi ilə bağlı Göygöl və Şəmkir rayonlarına tematik ekskursiyalar;
- Gədəbəy və Tovuz rayonlarına milli irs, ənəvəvi sənətkarlıq, etnoqrafik və təbiət-ekoloji ekskursiyalar;
- Göygöl Milli Parkına təbiət ekskursiyaları;
- Şəki şəhəri "Yuxarı Baş" və Kiş kəndinə mədəni irs ekskursiyaları.

Səyahət agentliklərinin Naftalana turizm paketləri hazırlayarkən nəzərə almalı olduqları mühüm amillərdən biri turistlərin həftəsonu asudə vaxtlarının nəzərə alınmasıdır. Səyahət agentlikləri turistlərin istəyinə uyğun olaraq, Gürcüstanın tarixi məkanlarına ikigünlük turlar da təklif edə bilər. Xarici turistlər üçün təklif olunan turizm paketlərində iki gün Bakıda qalıb xidmətlərdən yararlanmaq, növbəti həftə sonları isə ekskursiyalar və ya turlar təqdim oluna bilər. Bu xidmətləri paketin qiymətinə daxil etməklə gələn turistlərin müalicəsi və istirahətini səmərəli təşkil etmək olar. Eyni zamanda, qonaqların həftəsonu sərbəst vaxtda Naftalandan Gəncə şəhərinə komfortlu nəqliyyat vasitələri ilə ticarət və əyləncə mərkəzləri, teatr və digər mədəni obyektlərə səfər etməsi üçün müvafiq məlumatların toplandığı tətbiqlərin yaradılması da turistləri bu sahədə daha yaxşı informasiya ilə təmin edə bilər. Xüsusi qeyd olunmalıdır ki, Naftalan şəhərinə gələn turistlərin həftəsonu asudə vaxtda yaxınlıqda yerləşən təbiət, mədəni irs və digər imkanlardan ümumi şəkildə istifadəsi daha əhəmiyyətlidir. Bu baxımdan bu turistlər üçün həftə sonları ümumiləşdirilmiş paketlərin təqdim olunması tövsiyəolunandır.

**QRAFİK 20. Naftalan müalicə-sağlamlıq mərkəzlərində həftəsonu asudə vaxtın təşkili modeli**




Naftalan şəhərinə gələn turistlərin asudə vaxtının təşkilində əsas istiqamətlərə tarixi-mədəni irs, təbiət-rekreasiya imkanları və mədəni-kütləvi tədbirlər aiddir. 20-ci qrafikdə verilmiş modelə əsasən, regionun ekskursiya imkanları ilə mədəni-kütləvi tədbirləri əlaqələndirmək mümkündür.

Naftalan ətrafında yerləşən bölgələrdə zəngin tarixi-mədəni irsin olması onlardan ekskursiya məqsədilə istifadə olunmasına şərait yaradır. Turistləri cəlb edən əsas ekskursiya obyektlərinə Göygöl rayonundakı alman irsini qeyd etmək olar. Rayon mərkəzi əvvəllər Yelenendorf adlanıb. Onun əsası 1819-cu ildə qədim Xanlıqlar kəndi yaxınlığında məskən salan alman icması tərəfindən qoyulub. Vürtemberq krallığından Cənubi Qafqaza, o cümlədən Azərbaycanın qərbinə köç edən almanlar Yelenendorf qəsəbəsi ilə yanaşı, indiki Şəmkir və Tovuz rayonları ərazisində də məskən salıblar. İlkin vaxtlar almanlar Yelenendorfda 600-ə yaxın evdən ibarət 6 küçə salıblar. Almanların bu yerlərdən deportasiyasından 70 ilə

yaxın vaxt keçsə də, şəhərdə alman irsinin izləri, o cümlədən alman qəbirstanlığı qorunub saxlanılır. Evlərin əvvəlki görkəmi dövlət tərəfindən bərpa edilib.

Göygöldə 1854-1857-ci illərdə inşa edilmiş alman lüteran kilsəsi (kirxa) yerləşir. 1941-ci ildə yerli sakinlər İosif Stalinin əmri ilə Qazaxıstana deportasiya edilənədək bu ibadət evi fəaliyyət göstərib. Ardınca binada Böyük Vətən müharibəsində əsir düşmüş almanlar yerləşdirilib, hospital, idman zalı fəaliyyət göstərib. Hazırda burada Göygöl Rayon Tarix-Diyarşünaslıq Muzeyi yerləşir. Muzeydə rayonun tarixi, kənd təsərrüfatı, əhalinin məişətini əks etdirən 2 minə yaxın eksponat var. Muzeydə almanların həyat tərzini, Forer qardaşları tərəfindən əsası qoyulmuş sənaye üsulu ilə şərabçılığın inkişafı tarixini əks etdirən xüsusi guşə fəaliyyət göstərir. Lüteran kilsəsinin binası rayona gələn turistlərin ilk ziyarət etdiyi məkandır.

Göygöl rayonun sonuncu alman sakini Viktor Klaynın evi də muzeyə çevriləcək. Viktor Klayn 1935-ci ildə Yelenendorf adlandırılan bu ərazidə anadan olub və 2007-ci ildə 72 yaşında ikən vəfat edib. Onun evi qədim alman evi üslubunda olmaqla, 5 otaqdan ibarətdir. Ata-babalarından miras qalmış evi və məişət əşyalarını satın almaq istəyənlər olsa da, Viktor onların heç birini satmayıb. Hazırda həmin əşyalar mənzildədir və rayon rəhbərliyi tərəfindən qorunur. Yenidən qurulması nəzərdə tutulan mənzil təmir olunduqdan sonra ev-muzeyi və mədəniyyət mərkəzi kimi fəaliyyət göstərəcək. Tikili 2012-ci ildə Mədəniyyət Nazirliyinin balansına verilib, burada muzey yaradılması nəzərdə tutulur.

Rayona gələn turistlər ənənəvi sənətkarlıq nümunələri ilə yaxından tanış olmaq üçün Cahan Cəfərovun çəllək və Camal Qurbanovun səbət toxuma emalatxanası, həmçinin rayon mədəniyyət mərkəzinə baş çəkirlər.

Naftalan şəhərinə gələn turistlərin asudə vaxtının təşkilində Gəncə şəhərinin tarixi memarlıq abidələri və ictimai iaşə obyektlərindən geniş istifadə oluna bilər. Gəncə şəhərində Mədəniyyət Nazirliyinin balansında olan 100-ə yaxın tarixi-memarlıq abidəsi yerləşir. Bu abidələrin bir-birinə yaxın yerləşməsi gələn turistlər üçün eksursiyanın təşkilini asanlaşdırır. Əsas ekskursiya obyektlərinə bərpa olunmuş Gəncə qala divarları, Nizaminin “Xəmsə”sinə həsr olunmuş kompozisiya, Şah Abbas məscidi, Cavad xan küçəsindəki tarixi binalar, Cavad xanın dəftərxana binası, Alman lüterian kilsəsi, Gəncə Xan sarayı, İmamzadə kompleksi, İcra Hakimiyyətinin binası, Günbəzli və Bultulka ev, tarixi Xan bağı, Gəncə park-bulvar kompleksi, dünyanın beş ən böyük park-kompleksindən biri olan Heydər Əliyev parkını və s. qeyd etmək olar.

Naftalana gələn turistlər üçün şərab dequstasiyalarının keçirilməsi üçün regionda 6 müəssisə fəaliyyət göstərir. Göygöl, Şəmkir, Tovuz (“Baltika”) rayonlarında yerləşən bu müəssisələrdə şərab istehsalı ilə yanaşı, qonaqlar üçün xüsusi dequstasiya xidməti də təklif olunur.

Şəmkir və Gədəbəy rayonları mədəni irs abidələrinə görə fərqlənir. Şəmkir şəhərində ekskursiya obyektləri olaraq alman irsinə aid evlərdən ibarət küçə, Tarix və diyarşünaslıq muzeyi, qədim şəhər xarabalıqlarını qeyd etmək olar. Gədəbəy rayonunda Koroğlu qalası, Namərd qala, Mahrasa məbədi, Tağlı körpü kimi tarixi memarlıq abidələri ilə yanaşı, Slavyanka kəndində taxta üzərində oyma kimi ənənəvi sənətkarlıq, icmaların təqdim etdikləri milli mətbəx nümunələri (qutab, fəsəli, çeçil pendiri, xamada can əti, şapalaq kababı və s.), Gədəbəy şəhərində xalçaçılıq mərkəzi, Novosaratovkada rus-molokan icmasının mədəniyyətini əks etdirən Kolya dayının evi turistlər üçün əsas ekskursiya obyektləri və təklif olunan mədəni irs nümunələridir.

Şəki şəhərinə ekskursiyalar ənənəvi olaraq təşkil olunur. Bu ekskursiyalarda Şəki Xan sarayı və

"Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğunun ərazisində yerləşən digər tarixi abidələr, muzeylər, sənətkarlıq mərkəzi, Yuxarı və Aşağı karvansaray, Kiş alban məbədi və s. ziyarət olunmaqla yanaşı, mili mətbəx nümunələri, xüsusən də şirniyyatlar təqdim olunur.

Naftalan kurortu yaxınlığında Gədəbəy, Göygöl, Daşkəsən rayonları təbiət turizmi üçün labüd olan infrastruktura (xüsusən də, yol-nəqliyyat infrastrukturu), ən əsası da təbii ehtiyatlara malikdir. Təbiətin toxunulmamış gözəlliyi turistləri də cəlb edir və Naftalanda mövcud olan sanator-kurort mərkəzləri üçün geniş imkanlar yaradır.

Göygöl rayonunda Hacıkənd qəsəbəsi, Toğana kəndi və Kürəkçay dərəsinin sahillərində piknik etmək,Göygöl Milli Parkı ərazisində 8 yürüş marşrutu üzrə irəliləyərək Göygöl və Maragölü ziyarət etmək olar.

Şəmkir-Gədəbəy istiqamətində olan təbiət ərazilərindən Çənlibel dağı və Altay marallarının saxlandığı əraziyə baxmaq, Gədəbəydə Yuxarı Narzan, Söyüdlü, Düzyurd, Qalakənd, Novosaratovka kəndlərinin yaxınlığında olan dağ meşə və dağ çəmən landşaftları, təbiət abidələri turistlərin istirahəti üçün əlverişlidir. Qeyd olunan ərazilərin təmiz quru havası, əlverişli mikroiqlim şəraiti, landşaftı istirahətin səmərəli keçirilməsi və pikniklərin təşkilinə şərait yaradır.

Daşkəsən istiqamətində əlverişli mikroiqlim şəraiti, oksigenin bol olması, mineral suların zənginliyi, dağ çəmənlikləri turistləri daha çox cəlb edir. Naftalana gələn turistlər üçün Gəncə-Daşkəsən-Əmirvar istiqamətində təbiət tematik marşrutlarının təşkili daha əlverişlidir. Əmirvar istiqamətində bərk örtüklü yolların mövcudluğu, meşəlik ərazilər, mineral sular və “İnəkboğan” adlandırılan mağaranın burda yerləşməsi, onun ətrafında piknik keçirmək üçün şəraitin olması turistlərin istirahəti üçün əlverişlidir.

Naftalan müalicə mərkəzlərinə gələn turistlər üçün Tovuz rayonunun Əsrik dərəsinə, Fındıqlı meşəsinə, mineral su mənbələrinə turların təşkili də mümkündür. Bununla yanaşı, Tovuz rayonunun Xınna dərəsi adlandırılan əraziləri də landşaft müxtəlifliyi ilə seçilir ki, bu istiqamətdə turlar təşkil oluna bilər. Bu marşrutlar üzərində 20 landşaft abidəsinə, mineral bulaqlara, təbiət abidəsi olan Qarmaqvari şam meşələrinə rast gəlmək olar.

Gəncə şəhərinin mədəniyyət mərkəzlərindən olan Dövlət Dram Teatrının repertuarı, həmçinin şəhərdə keçirilən kütləvi musiqili, milli etnoqrafik tədbirlər Naftalan kurortunun turistləri üçün də maraqlı ola bilər. Gəncədə yerləşən ticarət mərkəzləri Naftalana gələn turistlərin asudə vaxtının təşkilində istifadə olunması, eyni zamanda belə ticarət mərkəzlərində milli suvenirlərin satılması mümkündür.

Regionun ən əhəmiyyətli mədəni-kütləvi tədbirlərindən biri Gədəbəyin Düzyurd yaylasında keçirilmiş Yaylaq festivalıdır. Miskinli yaylağında orijinal üslubda salınan “Yaylaq yurdu” adlı etno-qəsəbədə yaşayış yurdları (alaçıqlar) ilə yanaşı, cıdır meydanı, yaylaq (kənd təsərrüfatı) bazarı, sənətkarlıq guşəsi, “Dədə Qorqud” ocağı (tamaşaçılar üçün səhnə), yaylaq yatağı (ev heyvanları üçün yerlər), pəhləvan meydanı, “Aşıq Ələsgər” ocağı, yaylaq süfrəsi və digər tematik sahələr təşkil olunub. Festival şərti olaraq mədəni–etnoqrafik, milli yaylaq (idman) oyunları, eko–etnoturizm adlı üç hissədən ibarət olub. Milli Yaylaq Festivalı günlərində mədəni–etnoqrafik hissədə aşıqların deyişməsi, milli rəqslər (yallılar, cəngilər), xalq mahnıları, müxtəlif xalq səhnələri və tamaşaları, qədim xalq oyunları (dirədöymə, çilingağac, əzəldəyməz, müçük, aşıq–aşıq, molla mindi) təşkil olunub, yaylaq kulinariya nümunələri (odun üzərində bişən xörəklər - dovğa, çoban buğlaması, sacüstü kətələr, kabablar və sair) təqdim edilib. Həmçinin tətbiqi sənət nümunələrinin nümayişi və satış–sərgisi təşkil olunub. Festivalın milli yaylaq (idman) oyunları şərti adı altında keçirilən hissəsində qədim kökə söykənən yorğa at yarışları (müxtəlif məsafə və

kateqoriyalarda), milli güləş yarışı, çaparaq at yarışları, çoban güləşi (kəmər güləşi), nümunəvi çıxışlar, atüstü milli oyunlar – Çövkən, Baharbənd, Sürpapaq, Piyalə, Ər endir (atüstü güləş), Gərdək qaçırmaq, Zorxana, Kəndirbazlıq və ox atma təşkil edilib. Yaylaq festivalının eko–etnoturizm hissəsində isə turistlər üçün köhnə ənənəvi üslubda düzəldilmiş yurdlarda qalmaq imkanı yaradılıb. Şərti olaraq XVIII əsrin ənənəvi yaylağına səyahət də təşkil edilib. Həmçinin bölgənin məşhur yerlərinə – Koroğlu qalası, Mahrasa məbədi, Qız qalası və digər məkanlara turlar, at gəzintiləri, “Alman izləri” adlı xüsusi ekskursiyalar təşkil olunub. Festival yenidən keçiriləcəyi təqdirdə, iyul–avqust aylarında Naftalan şəhərinə gələn turistlər həftəsonu yaylaq festivalına gələrək müxtəlif mədəni tədbirlərə tamaşa edə biləcəklər.

Həftəsonu asudə vaxtın təşkili üçün “təbiət-mədəni irs”, “tarix-milli irs”, “təbiət-milli irs-kütləvi tədbir” paketləri təqdim oluna bilər. Bu istiqamətdə aşağıdakı tur paketlərin təqdim olunması mümkündür:

- Gədəbəy istiqamətində təbiət-milli irs-ənənələrə əsaslanan paket təqdim oluna bilər. Belə paketlərə rayonun landşaft müxtəlifliyinin əhatə olunması ilə bərabər, mədəni irs nümunələri, rayonun etnoqrafiyası, mövsümə uyğun olaraq Yaylaq festivalı əlavə oluna bilər.
- Göygöl rayonu üzrə “mədəni irs-təbiət” tur paketlərinə rayonun tarixi memarlıq abidələri, alman irsi, ənənəvi sənətkarlıq nümunələri, Hacıkənd, Çaykənd, Toğana kəndlərinin təbii əraziləri və Göygöl MP daxil edilməlidir.
- Gəncə şəhərinin mədəni irs, mədəni-kütləvi tədbirlər və şopinq imkanlarını birləşdirən “Mədəni irs və şopinq” paketi daxilində Gəncə şəhərinin tarixi-memarlıq abidələri, muzeyləri, teartlarda getmək, həmçinin şopinq imkanlarını əhatə etməsi turistlər üçün daha cəlbedici ola bilər.

### 2.10.1.2. “Qalaalti Hotel & Spa”da həftəsonu asudə vaxtın təşkili imkanları

“Qalaalti Hotel & Spa”da həftəsonu asudə vaxtın təşkili Naftalan kurortlarına nisbətən fərqlidir. Belə ki əsas magistral yoldan kənarda, eləcə də Abşeron və Bakı şəhərinə yaxın məsafədə (120 km) yerləşməsi ekskursiya və turların formalaşmasına təsir edir. Abşeron yarımadası və Bakı şəhərində yerləşən tarixi abidələr, muzeylər, çimərliklər və əyləncə mərkəzləri “Qalaalti Hotel & Spa” kurortuna gələn turistlərin həftəsonu asudə vaxtının təşkilinin daha səmərəli olmasına imkan verir. Bununla yanaşı, müalicə-sağlamlıq mərkəzinin yaxınlığında Şahdağ və Altıağac MP-nin yerləşməsi “təbiət-rekreasiya” paketlərinin formalaşdırılmasına səbəb olur. Eyni zamanda, Şabran rayonundakı qədim şəhərin qalıqları (Şahnəzərli kəndi), xalçaçılıq sənəti turistlərə təqdim oluna bilər.

**CƏDVƏL 25. “Qalaalti Hotel & Spa”da həftəsonu asudə vaxtın təşkili istiqamətləri**

| Təqdim olunan paketlər | Ekskursiya obyektləri |
| --- | --- |
| Mədəni irs | Şabran şəhər xarabalıqları, xalçaçılıq mərkəzi, Qobustan qayaüstü rəsmləri və muzeyi, Mərdəkan, Nardaran qalaları və Suraxanı Atəşgah kompleksi |
| Təbiət-istirahət | Zeyvə kəndinin ətrafında dağ meşə landşaftı, Xəzər çimərlikləri və Altıağac MP-yə səyahət, Ənbil gölü |
| Şəhər ekskursiyası və şopinq | Bakı şəhərinə ekskursiya və şopinq |
| Təbiət | Şabran rayonundan Şahdağ MP-yə səyahət |

### 2.10.1.3. “Lankaran Springs Wellness Resort”da həftəsonu asudə vaxtın təşkili imkanları

“Lankaran Springs Wellness Resort” həftəsonu asudə vaxt və istirahətin təşkili üçün əlverişli coğrafi mövqeyə sahibdir: Lənkəran şəhərinə yaxınlıq, unikal və ekzotik təbii şərait (xüsusən yaxınlıqdakı Hirkan və Qızılağac Milli Parkları), Lerik rayonunda təbiət, tarix və etnoqrafik abidələrin mövcudluğu. Səyahət agentlikləri “Lankaran Springs Wellness Resort”a turizm paketlərinə Bakı şəhəri üzrə ikigünlük turlar və hotelxarici həftəsonu fəaliyyət növlərini daxil edə bilər.

**CƏDVƏL 26. “Lankaran Springs Wellness Resort”da həftəsonu asudə vaxtın təşkili modeli**

| Təqdim olunan paketlər | Ekskursiya obyektləri |
|---|---|
| Mədəni irs | Ənənəvi sənətkarlıq və milli məxbəx, Lənkəran şəhəri |
| Təbiət-istirahət | Lerik rayonu milli irsi, Uzunömürlülər muzeyi, Buzeyr, Zuvand yasaqlığı və təbiət əraziləri |
| Kənd təsərrüfatı | Sitrus meyvələri, çay və çəltik plantasiyaları |
| Təbiət-rekreasiya | Hirkan MP, Xanbulan su anbarı, Moskva meşəliyi, Lənkəran çimərlikləri |

“Lankaran Springs Wellness Resort”da asudə vaxtın təşkili üçün regionun zəngin milli irs nümunələri, ənənəvi sənətkarlıq, milli mətbəxi, kənd təsərrüfatı imkanları, adət-ənənələrindən istifadə etmək mümkündür. Hirkan MP-də turistlər üçün 12 istiqamətdə marşrut təklif olunur və onlardan ikisi nisbətən asan olmaqla piyada yürüşlər üçün əlverişlidir (məsələn, 2,4 km uzunluğunda olan “Sağlam həyat” marşrutu). Burada relikt bitkiləri görmək, Moskva meşəsi, Xanbulan su anbarını əhatə edən marşrutlardan istifadə etmək olar.

Bölgənin kənd təsərrüfatında çay, çəltik plantasiyaları, sitrus meyvələri bağları və tərəvəz sahələri mühüm yer tutur. Lənkəran rayonunun Tüədo, Sütəmurdov, Siyavar kəndlərindəki çay, dağətəyi kəndlərdə (Gəgiran, Biləsər, Ürgə) çəltik plantasiyaları, bir çox yaşayış məntəqələrində becərilən sitrus meyvələri turistlər üçün cəlbedicidir. Mövsüm dövründə rayonun çay, çəltik plantasiyaları və sitrus meyvələri bağında ekskursiyaların təşkili mümkündür. Lənkəran rayonunda çimərlik üçün yararlı olan sahil ərazisi 3 500 metrdir. Bu ərazi müalicəvi əhəmiyyətə malik qara qum ehtiyatları ilə zəngin olduğundan, rekreasiya və sağlamlıq məqsədləri üçün istifadə olunur. Talış dağlarının oksigen ilə zəngin saf havası, quru iqlimi, rütubətin azlığı burada yaşayanların uzun ömürlü olmasını təmin edən amillərdəndir. Lerik rayonunda dünyada yeganə olan Uzunömürlülər muzeyi turistlərin diqqətini cəlb edir. Muzeydə iki ekspozisiya salonu və 1200-dən çox eksponat var. Ekskursiya obyekti olaraq qonaqlara uzunömürlü insanlar barədə məlumat almaq, onları həyat və fəaliyyəti ilə tanış olmaq turistlər üçün maraqlıdır. Rayonda yerləşən Zuvand çökəkliyi, Buzeyir mağarası, landşaft abidələri də ekskursiya marşrutlarına salına bilər.

Lənkəranın tam mərkəzində yerləşən 1913-cü ildə tikilmiş Mirəhməd xanın evi və bu binada fəaliyyət göstərən Lənkəran Tarix-Diyarşünaslıq muzeyi, yerli memarlığına görə seçilən yaşayış evləri, Lənkəran bazarı və orada fəaliyyət göstərən sənətkarlıq mərkəzləri əsas ekskursiya obyektləridir. Lənkəran rayonu özünəməxsus milli mətbəx nümunələri ilə zəngindir. Bölgənin istənilən restoran və iaşə müəssisələrində milli mətbəx nümunələrini dadmaq olar.

## 2.10.2. Rekreasiya fəaliyyətinin təşkilinin müqayisəli təhlili



Rusiyanın **Mineralnıye Vodı** bölgəsində fəaliyyət göstərən müalicə-sağlamlıq müəssisələri arasında dörd və beşulduzlu hotellər asudə vaxtın təşkilinə daha çox diqqət ayırır və geniş çeşidli xidmətlər təklif edir. Bölgənin üç ulduz və daha aşağı kateqoriyalı hotellərində asudə vaxt xidmətləri ancaq yerləşmə müəssisələrinin daxilində həyata keçirilir. Regionda fəaliyyət göstərən müalicə-sağlamlıq müəssisələrində əsasən daxili idman qurğuları, SPA mərkəzlərindən istifadə üstünlük təşkil edir. Hotellərdə həftə sonları turizm şirkətləri müxtəlif ekskursiya və tur xidmətləri təşkil etsə də, bir çox hallarda qiymətinin baha olmasına görə tələbat yüksək olmur. Turizm şirkətlərinin təklif etdiyi ekskursiyalar arasında Mineralnıye Vodı və bölgəyə aid şəhərlər, tarixi yerlər, kanatla Elbrus dağının ətəklərinə səyahət, Dombay istirahət və əyləncə mərkəzinə turlar daha məşhurdur. Aşağı kateqoriyalı hotellərdə isə üstünlük müalicəyə verilir, asudə vaxtda sadəcə stolüstü oyunlar, kitabxana xidməti təklif olunur, bəzilərində isə yemək vaxtı canlı musiqi ifa olunur.



**Gürcüstan Respublikası**nın müalicə sağlamlıq mərkəzlərində isə asudə vaxtın təşkili daha çox təbiət və landşaftla bağlı xidmətlərə istiqamətlənir. Bunun da əsas hissəsi təbiətdə gəzintilərdən, velosiped kirayəsi, kanat yollarından istifadəyə yönəldilir. Həftə sonları isə müxtəlif tarixi-mədəni məkanlara ödənişli əsaslarla tur və ekskursiyalar təklif olunur. Ümumilikdə, turistlərə təqdim olunan paketlərdə asudə vaxtın təşkili nəzərdə tutulmur. Müalicə-sağlamlıq müəssisələrində animasiya xidmətləri də yalnız dörd və beşulduzlu hotellərdə həyata keçirilir.



**Ukraynanın Lvov** bölgəsində müalicə-sağlamlıq müəssisələrində asudə vaxtın təşkili əsasən iki istiqamətdə qurulur. Birinci istiqamət müalicənin intensiv getdiyi dövrü əhatə edir. Bura hoteldaxili idman qurğularından, SPA mərkəzindən istifadə və bəzi animasiya tədbirləri aiddir. İkinci istiqamət isə pasiyentlərin adaptasiyası dövründə təklif olunur və bu zaman qonaqlar təbiətlə bağlı həftəsonu turları, Lvov və yaxınlıqda yerləşən tarixi digər şəhərlər (məsələn, Ujqorod və s.), Macarıstanın Balaton gölü sahilləri və Polşanın Krakov şəhərinə səfərlərə qoşula bilərlər. Eyni zamanda, Karpat dağlarının ekzotik landşaftı ilə bağlı bir çox marşrutlardan da geniş şəkildə istifadə olunur. Lvov regionunda olan bütün turizm mərkəzlərində turistlər üçün çox sayda əyləncəli tədbirlər keçirilir.



Asudə vaxtın təşkilində **Türkiyə** təcrübəsi daha əhəmiyyətlidir. Ölkənin bütün termal kurortlarında asudə vaxtın təşkili üçün çoxsaylı hoteldaxili xidmətlər, eləcə də tarixi şəhərlərə, təbii məkanlara geniş xidmət paketi ilə həftəsonu turları təklif edilir. Termal hotellərdə hər gün təklif olunan animasiya xidmətləri və əyləncəli tədbirlər də turistləri asudə vaxtlarını səmərəli və əyləncəli keçirməyə imkan verir. Xüsusi vurğulanmalıdır ki, bu xidmətlərin bəziləri paketə daxil olmasa da, hoteldaxili asudə vaxtın təşkili ilə bağlı xidmətlər üçün ödəniş tələb olunmur.



**Azərbaycan**da müalicə-sağlamlıq müəssisələrində asudə vaxtın təşkili onların kateqoriyalarından asılı olaraq dəyişir. AHİK tabeliyində olan Kurort Səhmdar Cəmiyyətinin tabeliyinə məxsus sanatoriyalarda müəssisədaxili idman qurğuları, kitabxanalar, stolüstü oyunlar qonaqların istifadəsində olur. Bəzən həftəsonu istəkdən asılı olaraq, ekskursiyalar da təşkil olunur. Ümumiyyətlə, Kurort Səhmdar Cəmiyyətinin tabeliyində olan Abşeron sanatoriyalarında asudə vaxtın təşkili prioritet daşımır.

Naftalan sanatoriyalarında da eyni vəziyyəti müşahidə etmək olar və buna görə də region xarici rəqiblərindən bu göstəriciyə görə geri qalır. Naftalan hotellərində vəziyyət nisbətən qənaətbəxşdir və burada müxtəlif idman meydançaları, SPA mərkəzləri, qapalı hovuzlar fəaliyyət göstərir. Eyni zamanda həftə sonları bir sıra bölgələrə ekskursiyalar və turlar təklif olunur. Belə ekskursiyalar səyahət agentlikləri tərəfindən əsasən Şəki şəhərinin tarixi-memarlıq abidələrinə təşkil olunur.

"Qalaalti Hotel & Spa" və "Lankaran Springs Wellness Resort" müalicə-sağlamlıq mərkəzlərində qonaqlara asudə vaxtlarını keçirmək üçün əsasən hotel daxilində təqdim olunan xidmətlər – SPA, qapalı və açıq idman yerləri, hovuzlar, animasiya xidmətləri təklif olunur.

Azərbaycanda müalicə-sağlamlıq müəssisələrində asudə vaxtın təşkilinin müqayisəli təhlili ölkənin bu istiqamətdə təklif etdiyi xidmətlərin rəqib ölkələrin eyni göstəricilərinə nisbətən daha zəif qurulmasını üzə çıxardır. Müalicə-sağlamlıq müəssisələri tərəfindən təqdim olunan paketlərdə əsasən hoteldaxili xidmətlər əks olunur. Həftə sonları və adaptasiya dövründə ekskursiya xidmətləri yetərli olmadığına görə gələn qonaqlar onlardan az istifadə edirlər. Yüksəkkateqoriyalı hotel və SPA mərkəzləri də müəssisədən kənar turizm xidmətlərin təklif olunmasında maraqlı deyil. Bu da onların qlobal müalicə-sağlamlıq turizm bazarında rəqabət imkanlarına mənfi təsir edir. Azərbaycanda fəaliyyət göstərən müalicə-sağlamlıq müəssisələri asudə vaxtın təşkilində Türkiyə və Ukrayna təcrübəsindən daha çox yaralana bilər. Türkiyədə oxşar profilə malik müəssisələrin təklif etdiyi genişçeşidli daxili xidmətlər, animasiya və digər tədbirlərin əlaqələndirilməsi yerli müəssisələrdə də tətbiq oluna bilər. Eyni zamanda, Türkiyə təcrübəsində olduğu kimi tur və ekskursiya xidmətlərinin çeşidinin artırılması, bu məqsədlə turizm agentlikləri ilə əməkdaşlıq qurulması məqsədəuyğun olar.

## 2.11. Azərbaycanda sağlamlıq turizmi üzrə marketinq fəaliyyəti

### 2.11.1. Azərbaycanda sağlamlıq turizmində brendin formalaşdırılması

Azərbaycanda balneoloji turizm sahəsində brendin yaradılması imkanları "Naftalan nefti", müalicəvi bulaqlara əsaslanan sanatoriya-kurort xidmətlərinin təklif olunması ilə bağlıdır. Ölkəmizin bu sahədə təqdim etdiyi xidmətlər MDB məkanı və Yaxın Şərq ölkələrindən gələn turistləri daha çox cəlb edir.

## CƏDVƏL 27. Naftalan müalicəvi neftinin brendləşdirilməsi istiqamətləri

| | Brendləşmə | Fəaliyyət istiqamətləri | Gözlənilən nəticələr |
|---|---|---|---|
| **1.** | Strateji planlaşdırma | - qanunvericilik bazası;<br>- dövlət proqramları və strateji yol xəritəsi;<br>- DTA və Turizm Bürosunun sağlamlıq turizmində dəstəyi;<br>- investisiyaların təşviqi. | - sahibkarlıq subyektlərinin sayının artması;<br>- destinasiya mərkəzinin inkişafı;<br>- dövlət tərəfindən elmi-praktiki dəstək;<br>- dövlət və özəl investisiyaların artması |
| **2.** | Bazarın öyrənilməsi | - hədəf bazarların araşdırılması;<br>- yeni bazarların araşdırılması;<br>- vasitəçilərin və satış kanallarının öyrənilməsi;<br>- imicin  formalaşdırılması. | - Avropa seqmentinin cəlb olunması;<br>- Ənənəvi seqmentlərə yeni məhsulların təqdim olunması;<br>- "Naftalan" məhsullarının istehsalı və tanıtdırılması;<br>- yeni partnyorlarla işin qurulması. |
| **3.** | Platformanın hazırlanması | - yerli standartların alınması;<br>- beynəlxalq standartlaşma;<br>- Beynəlxalq Spa mərkəzi ilə əməkdaşlıq;<br>- atributun yaradılması. | - yerli və xarici turist axınlarının artması;<br>- xidmətlərin keyfiyyətinin yüksəldilməsi;<br>- yerli və  beynəlxalq səviyyədə tələbatın artması. |
| **4.** | Brend fərdiliyi | - loqotipin yaradılması;<br>- müxtəlif məhsullarda loqotipin təbliği;<br>- vizual kommunikasiya;<br>- reklamın təşkili | - beynəlxalq səviyyədə məhsullarla geniş səviyyədə tanışlıq keçirilir;<br>- vizual əlaqələr qurulur;<br>- turistlərin cəlb olunması artır. |
| **5.** | Media strategiyası | - kommunikativliyin təmin olunması;<br>- səmərəli media daşıyıcılarının müyyənləşdirilməsi;<br>- infoturların təşkili;<br>- SMM təşkili;<br>- media strategiyasında maliyyə məsələlərinin həlli. | - Naftalan məhsullarına səmərəli dəstək;<br>- davamlı media əlaqələrinin qurulması;<br>- sosial media üzərindən reklam və təbliğatın aparılması;<br>- izləyiciləri çox olan media ilə əməkdaşlığın qurulması. |
| **6.** | Bredin təşviqi | - təşviqat planının hazırlanması;<br>- vizual obrazın adaptasiyası;<br>- reklam məhsullarının hazırlanması;<br>- səmərəli reklam kampaniyasının təşkili. | - vizual obrazın beynəlxalq miqyasda tanınması;<br>- beynəlxalq arbitrlarda davamlı reklamın aparılması;<br>- geniş müştəri kütləsinin məlumatlandırılması |
| **7.** | Brendin monitorinqi | - fəaliyyətin təhlili;<br>- nəticələrin təhlili;<br>- qiymətləndirmə;<br>- proqnozlaşdırma | - müxtəlif seqmentdən olan turistlərin cəlb olunması;<br>- nöqsanların müəyyənləşdirilməsi;<br>- gələcək strategiyanın qurulması. |

Ölkədə sağlamlıq turizm xidmətləri üzrə brend platformasının hazırlanmasında müxtəlif atribut və dəyərlərin təhlili, kombinasiyasına əsas götürülməlidir. Bu baxımdan belə dəyərin yaradılması üçün ilk növbədə Naftalan müalicəvi neftinin beynəlxalq ISO standartı alması vacibdir. Hazırda Naftalan neftinin müalicəvi xüsusiyyətinin beynəlxalq səviyyədə təsdiqlənməsi artıq brend platformasının formalaşmasında müvafiq hədəf kütləsinin seçilməsinə imkan verir. Burada Naftalan kurortlarının hədəf auditoriyasının seçilməsi, onların maraqlarının təmin olunması və yeni müştəri kütləsinə istiqamətlənən xidmətlərin təklif edilməsi üstünlüyünü qeyd etmək olar.

Naftalan kurortlarında məhsulların mediya strategiyası həm bura təşkil olunan infoturlar, həm də onlayn reklamlarının artması ilə müşahidə olunur. Naftalan kurortlarının hədəf qrupları üzrə kommunikativliyinin təmin olunması üçün mərkəzin yaradılması, onun maliyyə planının hazırlanması və büdcəsinin müəyyənləşdirilməsi effektiv olardı. Bu mərkəz Naftalan üzrə kurort məhsullarının səmərəli mediya dəstəyinin formalaşdırılmasını, ideyaların tətbiqini, reklam mesajlarının formatının işlənməsində üstünlüklərin təmin olunmasını təmin etmiş olardı.

### 2.11.2. Sağlamlıq turizmində marketinq və tanıtım fəaliyyəti işinin təşkili

Kurort marketinq kompleksi beş əsas elementdən (məhsul, qiymət, irəlilətmə, yer, personal) təşkil olunub ki, bunlar marketinq tədqiqatları aparılması və əldə olunan məlumatların təhlilindən sonra formalaşır. Bundan irəli gələrək bazarda kurort məhsulunun mövqeyini və müəyyən bazar seqmentlərinə təsirinin istiqamətlərini müəyyən edən marketinq proqramı hazırlanır.

Sanatoriya-kurort xidmətlərində marketinqin bölmələri ikili funksiya yerinə yetirir: ilk olaraq təşkilatın bütün bölmələri üçün satış üzrə agent kimi fəaliyyət göstərir, daha sonra isə fəaliyyət göstərdiyi bazarda nümayəndə kimi çıxış edirlər.

Ölkədə sağlamlıq turizmi sahəsində marketinq siyasəti xarici hədəf bazarlara istiqamətlənən təbliğat və təşviqat kampaniyasından ibarətdir. Dövlət səviyyəsində sağlamlıq xidmətlərinin beynəlxalq bazarda tanınmasına, standartlaşma sertifikatlarının alınmasına, bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsinə dəstək olur.

**QRAFİK 21. Azərbaycanda sağlamlıq turizmində marketinq siyasəti**




Ölkədə sağlamlıq turizmində marketinq təşkili dövlətin birbaşa dəstəyi, beynəlxalq sertifikatların alınması, yeni məhsulların təqdim olunması, beynəlxalq sərgilərdə iştirakdan ibarətdir. Dövlət Proqramları strateji yol xəritəsində sağlamlıq turizmini prioritet istiqamət olaraq seçdiyinə görə bu sahəyə investisiyalar yönəldir, güzəştli kreditlər verir. Bu proqramlar çərçivəsində Naftalan şəhərində “Çinar”, “Qarabağ”, “Qaşaltı”, “Möcüzəli Naftalan”, Şabran rayonunda “Qalaalti Hotel & Spa”, Lənkəran rayonunda “Lankaran Springs Wellness Resort” sağlamlıq mərkəzlərinin tikintisinin əsas investoru olmuşdur. Eyni zamanda, Kurort Səhmdar Cəmiyyətinin tabeliyində olan sanatoriyaların bərpası və müasir avadanlıqlarla təmin olunması birbaşa dövlətin maliyyə dəstəyi hesabına aparılmışdır.

DTA və Turizm Bürosu bu sahənin inkişafı üçün “Strateji Yol Xəritəsi”-nin 3.1-ci “Sağlamlıq turizmi üçün tələbatın yenidən formalaşdırılması” bəndinin 3.1.1-ci “Sağlamlıq turizmi üzrə 2017-2020-ci illəri əhatə edən fəaliyyət planının hazırlanması” yarımbəndi üzrə tədbirlər planı hazırlamışdır. Tədbirlər planına uyğun olaraq sağlamlıq turizmində yeni məhsulların yaradılması, onların yaxınlığında əyləncə və iaşə müəssisələrinin, asudə vaxtın təşkili aiddir. Tədbirlər planına uyğun olaraq bu sahədə beynəlxalq sertifikatların alınması, marketinq strategiyasının hazırlanması üzrə dövlət dəstəyi öz əksini tapır. ISO və digər beynəlxalq sertifikatların alınmasının vacibliyi sağlamlıq turizmi məhsullarının imicinin formalaşmasına, beynəlxalq miqyasda tanınması və rəqabət imkanlarının artmasına səbəb olardı.

Naftalan, “Qalaalti Hotel & Spa”, “Lankaran Springs Wellness Resort”, “Duzdağ Hotel”, “Chenot Palace Gabala” sağlamlıq mərkəzlərinə aid məhsulların təbliği, yenilərinin təşkili və reklamına üstünlük

verilir. Naftalan sağlamlıq destinasiyasına aid məhsulların təbliği, sağlamlaşdırma və Spa xidmətlərinin genişləndirilməsinə ehtiyac vardır.

Bununla yanaşı, sağlamlıq mərkəzlərində xüsusi kampaniyaların keçirilməsi turistlərin cəlb olunmasında səmərəli ola bilər. Belə kampaniyalarda gecələmə müddətinə görə ödənişsiz bir gün əlavə olunması, həftəsonu, aralıq mövsümlərdə endirimlər, ailəyə ikinci otağın qiymətinin 50% ucuz təklif olunması, daimi müşətərilər üçün xüsusi paketlərin təqdim olunması əsas marketinq tədbirlərindən sayıla bilər. Eyni zamanda ekstra xidmətlər – "à la carte" restoranlarında, SPA mərkəzlərində endirimlər turistlərə təqdim olunmalıdır. Korparativ müştərilərə, ailəvi qonaqlara xüsusi paketlərin təqddim olunması da vacibdir. Sağlamlıq müəssisələrində böyüklər üçün animasiya xidmətlərinin, qapalı və açıq məkanlarda amfiteatrların təşkili də əhəmiyyətli olardı. Sağlamlıq müəssisələrində Azərbaycanın mədəniyyəti, incəsənəti, musiqisi, mətbəxtini əks etdirən tematik tədbirlərin keçirilməsi turistlərin asudə vaxtının təşkili ilə yanaşı, onların təbliğinə şərait yaradırdı.

İxtisaslaşdırılmış sanatoriya xidmətlərin səviyyəsini yüksəltməklə turistləri cəlb etmək mümkündür. Kurort Səhmdar Cəmiyyətinin tabeliyində olan sanatoriyaların beynəlxalq arbitorlar vasitəsilə öz məhsullarının təbliği, yeni orta və uzun müddətli paketlərin təqdim olunması onların marketinq fəaliyyətinin əsasını təşkil etməlidir.

Sərgilərdə ölkənin sağlamlıq məhsullarının təqdim olunması üzrə həm dövlət səyahət agentlikləri vasitəsilə, həm də fərdi formada sağlamlıq müəssisələri iştirak edirlər. Beynəlxalq sərgilərdə Naftalanda fəaliyyət göstərən yüksək kateqoriyalı sağlamlıq müəssisələri, "Qalaalti Hotel & Spa", "Lankaran Springs Wellness Resort", "Qafqaz Thermal & Spa Hotel", "Duzdağ hotel" daha fəal iştirak edir. Ölkədə aşağı kateqoriyalı sağlamlıq müəssisələrinin, Kurort Səhmdar Cəmiyyəti-nin tabeliyində olan sanatoriyaların sərgilərdə (xüsusilə beynəlxalq sərgilərdə) iştirakçılığının artırılması müvafiq olaraq dəstəklənə bilər.

Sərgilərdə iştirak sağlamlıq müəssisələrinin ənənəvi və hədəf bazarlara yeni məhsullarını təqdim edir, partnyor əlaqələrin və satış kanallarını genişləndirmiş olur. DTA və ATB tərəfindən sərgilərdə ölkənin sağlamlıq turizmi imkanları və infrastrukturu üzrə reklam çarxları və informativ broşurlar hazırlanılaraq beynəlxalq sərgilərdə nümayiş olunur.

Azərbaycanda sağlamlıq turizmi müəssisəsi miqyasında marketinq tədbirlərinin öyrənilməsi Naftalanda "Garabag Resort & SPA" hotelinin Baş menecerinin verdiyi məlumatlar əsasında həyata keçirilmişdir. Hotelin marketinq satış şöbəsi səyahət agentlikləri, subagentliklər, beynəlxalq arbitorlar vasitəsilə reklam və satışı təşkil edirlər. Marketinq komandası sosial media ilə işləyərək izləyicisi çox olan portal və linklərdə xəbərlər, məlumatlar və məqalələr yerləşdirilir.

**QRAFİK 22. “Garabag Resort & SPA”da marketinq fəaliyyəti**




**MƏNBƏ:** *“Garabag Resort & SPA” hotelinin məlumatları*

Ümumilikdə, Naftalan sanatoriyalarına tələbin yüksək olması, təklifin isə tələbə nisbətən az olması sayəsində regionda fəaliyyət göstərən müalicə-sağlamlıq müəssisələri dərin marketinq tədqiqatlarına ehtiyac duymurlar. Regionda fəaliyyət göstərən müalicə-sağlamlıq müəssisələri sadə marketinq siyasəti yürüdərək nömrə fondunun 90%-dən çox dolmasına nail olurlar. Bu halda isə marketinq araşdırmalarına əlavə vəsait xərcləmirlər. Regionda turistlərə xidmət göstərən müalicə-sağlamlıq müəsisələrinin marketinq idarəetməsini bu müəssisələrdə fəaliyyət göstərən Satış departmenti həyata keçirir. Marketinq satış departamentinin fəaliyyəti isə əsasən 4 istiqamətdə həyata keçirilir:

1. **Korporativ əlaqələrin qurulması**

   Bu məqsədlə ilk öncə informativ məktubun mətni hazırlanır. Hazırlanmış mətn göndəriləcək şirkətin maraqları üzərində qurulur və əsasən individual mətnlərdən ibarət olur. Mətnin daha aydın və başa düşülən olması üçün əlavədə şəkillər və ya digər əyani vəsaitlər göndərilir. Müəssisənin fəaliyyəti haqqında informativ emailin göndərilməsindən sonra qarşılıqlı maraqlar çərçivəsində yazışmalara başlanılır. Hər iki tərəfin maraqları üst-üstə düşdükdə görüş təyin olunur. Görüş zamanı daha ətraflı təqdimat təşkil olunur və qarşı tərəfə dolğun məlumat verilir. Razılıq əsasında müqavilə imzalanır və əməkdaşlığa başlanılır.

1. **Həmkarlar İttifaqları ilə əlaqələrin qurulması**

Ölkədə 16135 həmkarlar ittifaqları təşkilatı və onların 1,2 mln yaxın üzvü var. Bu qədər istehlakçı kütləsinə sağlamlıq xidmətləri göstərmək hotellərin əsas məqsədlərindəndir. "Garabag Resort & SPA" "SOCAR", "Azercell", "Bakcell", "AZAL" və digər müəssisələrin əməkdaşlarına həmkarlar təşkilatının xətti ilə sağlamlıq xidmətləri göstərir. Hotelin ümumi müştəri kütləsində həmkarlar təşkilatının üzvülərinin sayı azdır və 8-10%-ə qədərdir. Gələcəkdə bu istiqamətdə fəaliyyətin aktivləşdirilməsi və həmkarlar təşkilatı üzvülərinə güzəştli paketlərin verilməsi planlaşdırılır.

3. **Səyahət agentlikləri ilə əməkdaşlıq**

"Garabag Resort & SPA" səyahət agentlikləri ilə korporativ əməkdaşlıq hesabına öz məhsullarını bazarda daha çox realizə edir. Səyahət agentlikləri hotelin sağlamlıq paketlərini öz daimi müştərilərinə, xarici partnyorlara, subagentliklər vasitəsilə digər turistlərə və s. təklif edirlər. Səyahət agentlikləri hotelin sağlamlıq paketlərini yerli və xarici turistlərə satmaqla yanaşı onların transeri, həftəsonu asudə vaxtının təşkili üçün Gəncə və Şəki, bəzi hallarda Tbilisi şəhərlərinə ekskursiyalarını təşkil edirlər. Səyahət agentlikləri xarici turistlərə iki və ya üç gün Bakı şəhərində gecələməklə onların əyləncə, ekskursiya imkanlarından yararlandıqdan sonra Qarabağ hotelinə transferini təklif edirlər.

4. **Sosial media marketinqi (SMM)**

"Garabag Resort & SPA" hotelinin marketinq komandasının əsas fəaliyyət istiqamətlərindəndir. "Garabag Resort & SPA" öz paketlərinin, məlumatların, paylaşımların, yeniliklərin, informativ xarakterli məqalələrin populyar sosial portallar vasitəsi ilə reklamını təşkil edir. Ölkələr üzrə hər bir sosial şəbəkə portallarının populyarlığı dəyişir. İlk öncə hədəf seçilmiş ölkəyə əsasən orada əhalinin aktiv istifadə etdiyi sosial şəbəkə portalı seçilir. Həmin şəbəkədə müəssisənin profili açılır və qonaqlara təqdim olunan xidmət barədə mətnlər, şəkillər və video roliklər yerləşdirilir.

SMM xidmətlər və məhsullar haqda məlumatların yenilənməsi davamlı olaraq təmin olunur. Hər bir müəssisə turistlərə təqdim etdiyi xidmət haqqında dolğun və real məlumatlar yerləşdirməlidir. Bu məlumatlar bəzən gündəlik, çox vaxt həftəlik və ya aylıq olaraq yenilənir. Yenilənmənin aparılması turistlərin hotel haqqında mütəmadi olaraq məlumat almasına imkan verir.

İzləyicisi çox olan sosial şəbəkə səhifələrində müəssisə haqqında paylaşım və informativ məqalələrin yerləşdirilməsi təcrübəsindən Qarabağ hoteli də yararlanır. Müasir dövrümüzdə sosial şəbəkə vasitəsi ilə müxtəlif reklam şirkətləri vardır ki, onların izləyiciləri yüz minlərlədir. "Garabag Resort & SPA" hoteli izləyiciləri çox olan səhifə və linklərdə öz profillərini və ya xidmətlərini reklam edərək müəyyən sayda müştəri toplayır.

Müalicə-sağlamlıq müəssisələrində marketinq xidmətlərinin təşkilində bazar imkanlarının öyrənilməsi, marketinq kommunikasiyaları, sosial-media marketinq, interaktiv marketinq üsullarından geniş istifadə olunur.

Müasir tipli müalicə-sağlamlıq müəssisələrində xidmət sahəsində marketinq – xarici, daxili, interaktiv marketinq üstünlük təşkil edir. Xarici marketinq – sanatoriyaların qiymətlərinin formalaşması, putyovkaların satışı, sanatoriya xidmətinin irəliləməsi işlərini müəyyən edir. Daxili marketinq sanatoriya-kurort müəssisələrinin rəhbərlərinin personalla qarşılıqlı əlaqəsini əhatə edir. Bu hər bir işçinin marketinq fəaliyyətinə qoşulması və istirahətə gələnlərə yüksək keyfiyyətli xidmətin təmin edilməsinə əsaslanır.

**QRAFİK 23. Müalicə-sağlamlıq müəssisələrində marketinq araşdırmalarının istiqamətləri**




**MƏNBƏ**: *Оборин, М. С. Социально-экономические условия и функции санаторно-курортной системы региона как фактор создания маркетинговой стратегии развития рынка санаторно-курортных услуг // Вестник Астраханского государственного технического университета. Серия «Экономика». - 2015. - № 2. -С. 49-56.*

İnteraktiv marketinq personalın müştəriyə xidmət etmək bacarığını müəyyən edir. Müalicə-sağlamlıq destinasiyasiyalarında xidmətlərin nəticəsi olaraq turistlərin məmnunluğu, bunun həm texnoloji, həm də funksional tərəfinin müəyyən edilməsinə üstünlük verilir. Birinciyə sanatoriya məhsulunun maddi hissəsi (müalicə bazasının səviyyəsi, nömrələrin komfortluğu, qidalanmanın təşkili və s.), ikinciyə – sanatoriya xidməti göstərilməsi prosesi aiddir.

Ölkədə müalicə-sağlamlıq müəssislərində davamlı marketinq tədbirləri daha çox beşulduzlu hotellərdə aparılır. Digər müalicə-sağlamlıq mərkəzləri və sanatoriyalar internet üzərindən ənənəvi reklam və PR təşkili ilə kifayətlənirlər. Naftalandakı beşulduzlu hotellər, “Qalaalti Hotel & Spa” və “Lankaran Springs Wellness Resort” müalicə-sağlamlıq mərkəzləri marketinqin təşkilində daha aktiv iştirak edirlər. Bu hotellərin marketinq konsepsiyası müştərilərin ehtiyaclarının öyrənilməsinə və rəylər əsasında nöqsanların həll olunmasına, mövsümlər üzrə endirimlərin tətbiqinə istiqamətlənir.

Müalicə-sağlamlıq müəssisələrində marketinq konsepsiyası QRAFİK 23-də qeyd olunan ardıcıllıq üzrə həyata keçirilir. Müalicə-sağlamlıq müəssisələrində marketinqə xas olan fəaliyyət məqsədlərinin, vəzifələrinin, funksiyalarının və növlərinin müxtəlifliyi xidmət sferasında biznesin vahid əsaslarla

aparılmasını tələb edir. Naftalan kurortları, "Qalaalti Hotel & Spa" və "Lankaran Springs Wellness Resort" müalicə-sağlamlıq mərkəzlərində marketinq konsepsiyalarını aşağıdakı kimi qruplaşdırmaq olar:

1. **Kurort müəssisəsinin fəaliyyətinin təkmilləşdirilməsi konsepsiyası**
   Bu konsepsiya əsasında turistlər üçün qiymətlərin əlçatanlığı durur. Həmçinin paket qiymətlərinin əlçatanlığının təmin olunması üçün xidmətlər daha münasib qiymətə turistlərə təqdim edilir. Naftalanda "Garabag Resort & SPA", "Çinar", "Qaşaltı" kurort mərkəzlərində, həmçinin "Qalaalti Hotel & Spa" müalicə-sağlamlıq mərkəzində mövsümlərarası dövrdə paketlər endirimlər təklif edir ki, bu da qış və yaz mövsümlərini daha çox əhatə edir. Eyni zamanda müştərilər üçün endirim kampaniyaları da təşkil olunur ki, bu da turistlərin davamlılığının təmin olunmasına imkan verir. "Qalaalti Hotel & Spa"da gecələmələrin sayına görə əlavə bir gün pulsuz xidmət də təklif olunur.

2. **Kurort xidmətlərin təkmilləşdirilməsi konsepsiyası**
   Ölkədəki əsas müalicə-sağlamlıq müəssisələrində xidmətlərin təkmilləşdirilməsi konsepsiyasından geniş istifadə olunur. Ölkənin əsas müalicə-sağlamlıq mərkəzlərində yeni xidmətlərin təqdimatı, təkliflərin dəyərləndirilməsi, çatışmazlıqların aradan qaldırılmasına önəm verilir. Naftalanın beşulduzlu kurortlarında ənənəvi olaraq turizm paketlərinə yeniliklər əlavə edilməklə müştərilərə təqdim olunur. Burada ənənəvi "Naftalan vannaları" ilə yanaşı, su prosedurları, müxtəlif bərpa tədbirləri təqdim edilir. "Qalaalti Hotel & Spa" müalicə-sağlamlıq mərkəzində isə turistlərə xüsusi SPA bərpa xidmətləri təklif olunur. "Qalaalti Hotel & Spa" və "Lankaran Springs Wellness Resort" kurort SPA mərkəzlərində müalicə-sağlamlıq xidmətlərindən əlavə turistlərə istirahət proqramları da təqdim olunur.

3. **Sosial media marketinqi (SMM)**
   Sosial media marketinqi sosial qrup və şirkətlə marketinq subyekti arasında dialoq vasitəsidir. Sosial media platformaları hədəf auditoriya ilə qarşılıqlı əlaqə qurmaq üçün müasir bir vasitədir. Bu gün sosial şəbəkələrin izləyiciləri televiziya kanallarının auditoriyası ilə müqayisə olunur, yalnız daha diqqətli və aktivdir. Araşdırmalar göstərir ki, ölkədə olan bütün kurort-müalicə mərkəzləri sosial şəbəkələrin aktiv iştirakçısı olmaqla, məhsullarının reklamı və PR təşkilində aktiv iştirak edirlər. Xüsusilə beşulduzlu kurort-müalicə mərkəzləri bu sahədə daha aktivlik göstərirlər ki, bu da onların çox çeşidli məhsul təqdim etməsi ilə bağlıdır.
   Naftalan şəhərinin beşulduzlu kurortlarında SMM aşağıdakı istiqamətdə qurulur:
   - PR fəaliyyəti – hotellərin məhsullarının SMM vasitəsilə təbliğatının aparılmasına yönəldilir. Əsasən yeni xidmətlərin PR üstünlük təşkil edir.
   - Məhsulun reklamının təşkili – Naftalanda olan müalicə-sağlamlıq müəssisələrinin məhsul reklamında üstünlüklərinin göstərilməsinə yönəldilir. Hotellərin paketlər üzrə qiymət endirimlərinin də SMM xətti ilə reklamına üstünlük verilir. "Qalaalti Hotel & Spa" və "Lankaran Springs Wellness Resort" müalicə-sağlamlıq mərkəzlərində paketlər və fərdi xidmət üzrə təkliflər, mövsüm dövrü, bayramlar, mövsümlər arası dövrdə endirimlər SMM imkanlarından istifadə etməklə reklam olunur.

4. **Kommersiya fəaliyyətinin intensivləşdirilməsi konsepsiyası**
   Naftalan kurort-sanatoriya müəssisələrində, "Qalaalti Hotel & Spa", "Lankaran Springs Wellness Resort" müalicə-sağlamlıq mərkəzlərində kommersiya fəaliyyətinin intensivləşdirilməsi daha çox turist qəbul etməyə, həmçinin oxşar məhsulların satışını intensivləşdirməyə xidmət edir. Hotellərin marketinq-satış şöbələri səyahət agentlikləri, beynəlxalq aqriqatorlar, kooperativ əlaqələr vasitəsilə məhsullarını realizə etməyə çalışırlar. Ənənəvi stimullaşdırma metodlarının köməyilə (şəxsi satış,

reklam) yanaşı, müalicə-sağlamlıq müəssisələri öz imicinə münasibətdə əlverişli ictimai rəylə şərtlənən üstünlüklərdən istifadə edirlər. Müalicə-sağlamlıq mərkəzlərininin məhsullarının realizasiyasının əsas hissəsi beynəlxalq aqriqatorlar və yerli səyahət agentlikləri vasitəsilə aparılır ki, bu da ümumi satışların 65% təşkil edir. Kooperativ əlaqələr vasitəsilə müalicə-sağlamlıq paketlərinin realizasiyası iri şirkətlərin əməkdaşlarına satılan paketlərdən ibarətdir.

5. **Müalicə-sağlamlıq müəssisələrində ənənəvi marketinq konsepsiyası**
Bu konsepsiya Naftalanın beşulduzlu müalicə mərkəzlərində sorğular əsasında tətbiq olunub. Belə sorğuların davamlı olaraq keçirilməsi turistlərin ehtiyaclarını öyrənməyə imkan verir. Naftalanda olan müalicə mərkəzləri, “Qalaalti Hotel & Spa” və “Lankaran Springs Wellness Resort” müalicə-sağlamlıq mərkəzlərində monitorinqlərin aparılması üçün sorğuların keçirilməsi vacibdir.

6. **Qarışılıqlı təsir marketinqi**
Müalicə-sağlamlıq müəssisələrində qarşılıqlı təsir marketinqi beynəlxalq aqriqatorlardan istifadə etməklə müştəri məmuniyyətinə və əks əlaqəyə əsaslanır. Naftalanda beşulduzlu müalicə-sağlamlıq mərkəzləri, “Qalaalti Hotel & Spa” və “Lankaran Springs Wellness Resort” SPA hotelləri üzrə qarşılıqlı təsir marketinqi beynəlxalq aqriqatorlardan (xüsusilə Bookinq.com) alınan məlumatlar əsasında təhlil edilmişdir.

Ölkədə mövcud sağlamlıq müəssisələri üzrə müştəri rəylərinin toplanması beynəlxalq aqriqatorlardan www.booking.com məlumatlarından istifadə olunmuşdur. Ölkədə 6 müalicə-sağlamlıq mərkəzi üzrə rəylərin araşdırılması aparılaraq onların müsbət və mənfi tərəfləri öyrənilmişdir. Qeyd olunan hotellərüzrə öyrənilən müştəri rəylərinin sayı 902 çatır ki, bu həmin müəssisələrin fəaliyyəti ilə bağlı fikir yürütməyə imkan verir.

Ölkəmizin müalicə-sağlamlıq müəssisələrində təbliğatın aparılmasında infoturların təşkilinin əhəmiyyəti vardır. Bundan başqa, həm xarici, həm də yerli turistləri cəlb etmək məqsədilə müəyyən marketinq tədbirləri aparılmaqla, eləcə də Naftalan neftinə əsaslanan kosmetoloji məhsulların bir neçə pulsuz nümunələri təqdim edilməklə masaj və spa müalicəsi ilə maraqlanan xarici turistlərə Bakıdan Naftalana kimi subsidiyalı səfərlər təklif etmək olar.

Ölkənin turizm məkanları barədə məlumatlılıq səviyyəsini yüksəltmək məqsədilə bu növ məhsulların üzərində Azərbaycan mədəniyyətinə və xüsusi cəlbedici turizm məkanlarına dair kiçik təsvirlərin də əlavə olunması daha çox səmərəli olardı. Məhsulların Azərbaycandakı digər sağlamlıq komplekslərində də satışına dəstək verilməsinə və Naftalanda qısamüddətli (üç gün və ya daha az) sağlamlıq turlarının, infoturların təşkilinə daha çox turist cəlb etməyə imkan vermiş olardı. Eyni zamanda, Naftalan kurortlarına aid investisiya, turizm tələbləri və kosmetika məhsulları ilə bağlı məlumatların onlayn platformalarda mütəmadi şəkildə təqdim olunması onun cəlbediciliyini artırardı.

Beynəlxalq aqriqatorlarda müştəri rəylərinin təhlilindən aydın olur ki, ölkədə beşulduzlu müalicə-sağlamlıq mərkəzlərinin təqdim etdikləri xidmətlər müasir standartlara cavab verməklə turistlərin rəğbətini qazanmışdır. Müştəri rəylərinin bütün komponetləri üzrə təhlil xidmət səviyyəsində baş verən qüsurların aradan qaldırılmasına yönəldilir. Xidmətin keyfiyyəti baxımından bütün beşulduzlu hotellər qüsursuz qeyd olunsa da, Qaşaltı və Çinar müalicə-sağlamlıq mərkəzlərində bəzi çatışmazlıqlar qeyd olunmuşdur ki, bu da otaq xidmətlərinə aid edilir. Bununla bərabər, aşağıdakı mənfi qeydləri də müşahidə etmək olar:

- Beşulduzlu müalicə-sağlamlıq mərkəzlərinin *restoran xidmətlərində müəyyən çatışmazlıqların olması* müştərilər tərfindən qeyd olunmuşdur. Bunlar da əsas yeməklərin çeşidinin az olması, mövsümü meyvələrin tez qurtarması, sifarişlərin gec gəlməsi və restoranlarda ekstra xidmətlərin müştərilərin büdcəsinə uyğun olmaması ilə bağlıdır. Bənzər rəylər "Qalaalti Hotel & Spa", Çinar hotelləri üçün qeyd olunmuşdur. Bəzi hotellərdə isə qidalanma ilə bağlı problemlər müxtəlif barlarda göstərilən xidmətlərin aşağı olması və sifarişləringec gətirilməsi ilə əlaqəlidir.
- *İnternetin sürətinin aşağı olması* Naftalan hotellərinin əkəriyyətində qeyd olunur. Həmçinin müalicə-sağlamlıq mərkəzinin internet üzərində olan reklamında qeyd olunan xidmətlərin göstərilməməsi, operativ əlaqələrinin saxlanılmasının mümkün olmaması da rəylərdə göstərilir.
- Araşdırılan bütün müalicə-sağlamlıq müəssisələrində *personalın xarici dil biliklərinin aşağı olması* və *verilən sifarişlərin başa düşülməməsi* problem olaraq qalır. Qeydiyyatçıdan başqa bütün digər şöbələrin işçilərinin dil biliklərinin artırılmasında zərurət vardır. Personalın qeyri-peşəkarlıq səviyyəsi də "Qalaalti Hotel & Spa" və Naftalanın müalicə mərkəzlərində qalmaqdadır. Bu da gələn turistlərə göstərilən xidmətlərə təsir göstərmişdir.
- Ölkədə olan müalicə-sağlamlıq mərkəzlərinin əsas problemlərindən biri – *asudə vaxtın (xüsusilə həftəsonu) təşkili* problem olaraq qalmaqdadır. Xüsusilə Naftalan hotellərində asudə vaxtın təşkilinə önəm verilmir və ya hotel daxilində bu problemi həll etməyə çalışırlar.
- Beşulduzlu müalicə mərkəzində digər nöqsanlar xidmətlərin yüksək səviyyədə təşkili üçün problem yaratmır. Bununla yanaşı, *ödənişli xidmətlərin çox, qiymətlərin baha olması* da turistlərin rəyləri arasındadır.

# 3. AZƏRBAYCANIN SAĞLAMLIQ TURİZMİNDƏ REGİONAL RƏQABƏT İMKANLARININ QİYMƏTLƏNDİRİLMƏSİ

## 3.1. Sağlamlıq turizmi üzrə rəqib bazarların təyin olunması

Azərbaycandan müalicə-sağlamlıq məqsədilə xarici ölkələrə gedənlərin əsas hissəsi Rusiyanın Şimali Qafqaz, Ukraynanın Truskavets, Morşin, Arkadi, Gürcüstanın Borjomi, Sxaltuba, Meseta mərkəzlərində olan müalicə-sağlamlıq mərkəzlərinə istiqamətlənir. Ölkəmizdə ənənəvi olaraq sanatoriya müalicəsindən istifadə etmək üçün Rusiya, Ukrayna və Çexiya kurortlarına gedənlər üstünlük təşkil edir. Qeyd olunan ölkələrin kurortlarına gedənlər ənənəvi sanatoriya müalicə üsullarına üstünlük verənlərdən ibarətdir. Ölkə vətəndaşlarının qeyd edilən kurortları seçməsinin səbəbləri:

| | |
|---|---|
| Ənənəvi sanatoriya xidmətlərinin mövcud olması və müxtəlif xəstəliklər üzrə ixtisaslaşması | Qeyd olunan ölkələrin sanatoriyalarında bir çox ixtisaslaşdırılmış daxili xəstəliklərin müalicəsi aparılır ki, bu da ölkə vətəndaşlarının müalicə məqsədilə qeyd olunan sanatoriyalara aktiv müraciət etməsini təmin edir. Digər tərəfdən müalicə-sağlamlıq xidmətlərinin ixtisaslaşdırılmış sanatoriyalarda aparılması və effektinin yüksək olması da turistləri cəlb edən amillərdəndir. |
| Səhiyyə Nazirliyinin, Kurort bərpası üzrə ixtisaslaşdırılmış təşkilatların birgə tətbiq etdiyi müalicə və dieta prosedurlarının tətbiq olunması | Sanatoriya müalicəsində hər bir şəxsə müayinəyə uyğun xidmətlər təklif edilsə də, ümumi metodikaya uyğun müalicə prosedurlarının aparılması turistləri cəlb edən amillərdəndir. |
| Sanatoriya-kurort xidmətlərinin paket olaraq satılması | Qeyd olunan regionda ənənəvi olaraq müalicə-sağlamlıq xidmətləri paket olaraq turistlərə təklif olunur ki, bu da onların əlavə xərclərinin azalmasına səbəb olur. Belə ki, iki həftəlik paket turların qiyməti fərdi olaraq müraciət olunandan daha aşağıdır və dietik qidalanma ilə birgə tətbiq edilməsi müalicənin keyfiyyətini artırmış olur. Digər tərəfdən həftəlik təqdim edilən müalicə prosedurlarının sayının çox olması da turistlərin paket turlar almasına üstünlük verir. |
| Sanatoriya xidmətlərinin fərdi müraciətlər üçün açıq olması | Sanatoriyaların əksəriyyətinin yalnız müalicə üçün müraciət edənlərə xidmətlər təqdim etməsi istənilən kateqoriyadan olan turistləri cəlb etməyə imkan verir. Fərdi müraciətlərin əsas hissəsinin əvvəlcədən təsdiq olunması turistlər üçün əlavə bürokratik problemlər yaratmır. Eyni zamanda sanatoriyaların təqdim etdiyi fərdi müalicə xidmətləri paket turlardan çox da baha olmur və müştəri sağlamlığına uyğun prosedurları seçmiş olur. |

| | |
|---|---|
| Sanatoriya-kurort mərkəzlərində müalicə-sağlamlıqla yanaşı, asudə vaxtın səmərəli təşkilinə yönəldilən tədbirlərə önəm verilməsi | Turistlərin sanatoriyada qaldığı müddətdə təklif olunan asudə vaxt xidmətləri müalicəyə qədər, intensiv müalicə və müalicədən sonrakı bərpa müddətində tətbiq olunur. Bu sanatoriyaların əksəriyyətində həftəsonu istirahətin təşkili üçün yerli turist şirkətləri və brokerlər tərəfindən turproqramlar turistlərə təqdim olunur. Eyni zamanda sanatoriya-kurort müəsissələrinin təqdim etdikləri animasiya xidmətlərindən turistlər asudə vaxtında yararlana bilir. |
| Sanatoriya-kurort müəssislərində peşəkar həkimlərin olması | Şimali Qafqaz sanatoriya-kurort müəssisələrini seçən turistlərin önəm verdikləri əsas amillərdən biri də professional həkim heyətinin olmasıdır. Bu baxımdan Mineralnıye Vodı bölgəsində olan bütün sanatoriyalarda həkimlərin profesionallığı müəssisənin reklamında əhəmiyyətli rol oynayır. Buna görə də ixtisaslaşmış sanatoriyalarda müalicə həkimi və diaqnostikaya üstünlük verilir. |

## 3.2. Rusiya Federasiyasında (Mineralnıye Vodı) sağlamlıqturizminin təhlili

Rusiyanın Şimali Qafqaz kurortlarının ixtisaslaşma sahələrinin müxtəlifliyi də turist axınlarını təmin etmiş olur. Belə ki, bölgəyə gələn turistlər mədə-bağırsaq (Yessentuki), uroloji (Jeleznavodsk, Kislovodsk), dəri xəstəlikləri və dayaq-hərəkət orqanları (Tambukan gölünün palçığı), ürək-damar (Pyatiqorsk) və s. kompleks müalicə xidmətlərindən yararlana bilir. Şimali Qafqaz kurortlarında turistlərin seçimi üçün bütün kateqoriyadan olan sanatoriya və müalicə mərkəzləri var ki, bu da turistlərin davamlı axınını təmin edir.

**ŞƏKİL 7. Rusiyada müalicə-sağlamlıq turizmi mərkəzləri**




Rusiyada müalicə-sağlamlıq turizminin inkişafı rəqabət baxımından özünün bir sıra üstünlükləri ilə səciyyələnir. Ölkədə sağlamlıq və istirahətin birgə təqdim olunması geniş yayılmışdır. Bu, ölkə ərazisindəki qoruqların təbii potensialından istifadənin qeyd olunan sahəyə cəlb olunması ilə bağlıdır. Belə bir potensialdan səmərəli istifadə olunması daxili bazarda yerli turizm məhsullarına tələbatın artmasına səbəb olur. Ölkə ərazisindəki resursların unikallığı və buna uyğun olaraq istifadə olunan müalicə-sağlamlaşdırıcı metodların da fərqli olması göstərilən xidmətlərin müxtəlifliyinə imkan verir.

Rusiyada ənənəvi olaraq dövlət sektorunda işləyən insanlar üçün sanatoriya-kurort xidmətlərinin təqdim olunması, "putyovka" sxeminin inkişaf etməsi səciyyəvi olmuşdur. Sanatoriya-kurort xidmətləri uzun müddət ərzində "poliklinika-xəstəxana-sanatoriya" sisteminin tərkib hissəsi idi. Müasir dövrdə ölkənin müalicə-sağlamlıq turizminin inkişafı xeyli dərəcədə bu ənənənin üzərində qurulmuşdur və ondan bəhrələnir. Mövcud infrastruktur rekonstruksiya olunmaqla müasir dövrün tələblərinə uyğunlaşdırılaraq potensial turistlərin ehtiyaclarının ödənilməsi üçün hazır vəziyyətə gətirilmişdir. Vaxtilə kurort mərkəzi kimi bütün postsovet məkanında ad qazanmış şəhərlər öz sanatoriya-kurort şəbəkələrini yenidən qurmaqla sonrakı nəsil üçün cəlbedici destinasiya olaraq qalmışdır. Rusiyada MST-nin inkişafı rəqabət baxımından özünün bir sıra üstünlükləri ilə səciyyələnir. Belə də demək olar: "əvvəlki ziyalı nəslin dincəldiyi rekreasiya müəssisələrində indi onların övladları dincəlir".

**QRAFİK 24. Rusiyada müalicə-sağlamlıq turizmi modeli**




Araşdırmalar göstərir ki, hazırda Rusiyanın bir çox sanatoriyalarının, turbazalarının, pansionatlarının və s. tibb müəssisələri ilə praktiki olaraq heç bir əlaqəsi yoxdur. Bu da əslində istirahət edənlərin həyatını risk altında qoyan amildir. Rusiyada hər il 4,5 milyon insan sanatoriyalarda dincəlir, bu, ölkə əhalisinin 3%-i qədərdir. Qeyd olunan göstəricinin aşağı olmasının səbəblərindən biri insanların kurortlar haqqında az məlumatlı olması, sanatoriya-kurort müalicəsinin faydalı olması barədə az bilməsi və ətraflı maariflənməyə ehtiyaclarının olmasıdır. Rusiyada 450-dən çox turist şirkətinin rəhbərləri arasında aparılmış rəy sorğusunun nəticələri göstərir ki, 30-45 yaşlarında olan, maddi vəziyyətinə görə kifayət qədər imkanlı sayılan şəxslərin 40%-dən çoxu hər il öz istirahətlərini xarici ölkələrdə keçirir. Onlar sağlamlığı bərpa edəcək istirahətə meyil etdikləri halda kurortlar və onlarda aparılan müalicə barəsində geniş informasiyaya malik deyillər. Müalicə-sağlamlıq turizmi barədə informasiya və reklam işi bir o qədər səmərəli aparılmır. Eyni zamanda kurort müalicəsi üzrə mütəxəssislər bu sahənin inkişaf səviyyəsi barədə yetərincə məlumatlı deyillər və onların sanatoriya şəbəkələri barəsində bilikləri aşağıdır.

Hazırda Rusiyada müalicə-sağlamlaşdırıcı turizmin inkişaf etdirilməsində Qərb ölkələrinin – Almaniyanın, İtaliyanın, Çexiyanın, Slovakiyanın, Polşanın, Sloveniyanın geniş tətbiq etdiyi “dövlət sektoru ilə özəl sektor müəssisələrinin birgə əməkdaşlığı” təcrübəsi aktiv araşdırılır və istifadə olunması

imkanları nəzərdən keçirilir. Tibbi sığorta hesabına maliyyələşdirilən kurort müalicəsi sxeminə keçilməsi təklif olunur. Rusiyada kurort-rekreasiya müəssisələrinin sadəcə dövlətin prioriteti kimi elan edilməsinin müasir bazar münasibətləri dövründə yetərli olmaması qənaətinə gəlirlər, bu nöqteyi-nəzərdən sağlamlaşdırıcı istirahətin təşkilində "qismən maliyyələşdirmə" sxeminin yaxın illərdə daha aktiv tətbiqi nəzərdə tutulur. Bununla belə praktika onu da göstərmişdir ki, dövlət ayırmalarının məbləği artırılmazsa, bu tip dövlət proqramlarının sürətli və effektiv həyata keçirilməsində ləngimələr baş verir.

Rusiyada bundan sonra tikiləcək yeni sanatoriyaların və turizm obyektlərinin çoxunun inşasında dövlət və özəl sektorların birgə iştirakı nəzərdə tutulmuşdur. Ölkədə turizmdə yollayışların reallaşmasında bir neçə üsuldan istifadə olunur: müəssisələrə, dövlət və bələdiyyə fondlarına, sosial müdafiə orqanlarına birbaşa satışı; yollayışların turizm firmaları vasitəsilə reallaşması; reklama xərc çəkmədən daimi müştərilərə xidmətin göstərilməsi və s. Sonuncu vasitədən daha iri və tanınmış kurort təşkilatları yararlana bilirlər. Müalicə turizmi bazarında turizm xidmətlərinin satışında ödənişləri avtomatik qeydə alan billinq sistemlərindən geniş istifadə edilir. Kurort təşkilatlarının bir çoxu praktikada yuxarıdakı vasitələrin hər birindən eyni zamanda istifadə edir.

Mineralnıye Vodı "Rusiya Federasiyasının xüsusi qorunan ekoloji-kurort regionu" statusuna malikdir. "Mineralnıye Vodının 2020-ci ilədək strateji sosial-iqtisadi inkişafı Strategiyası"nın hazırlanmasından sonra bu region "Rusiyanın cənubunda sağlamlıq, təhsil, mədəniyyət və biznes-kommunikasiya mərkəzi, unikal təbii ehtiyatlar bazasında hərtərəfli sağlamlıq ərazisi" kimi identifikasiya edilmişdir.

Şimali Qafqaz sanatoriya-kurort müəsissələri Stavrapol vilayətinə inzibati baxımdan tabedirlər. Vilayətdə turizm sənayesi ilə bağlı olan 32 turoperator, 300-dən çox səyahət agentliyi və brokerlər, 454 kollektiv yaşayış obyekti, o cümlədən ümumi tutumu 34,6 min çarpayılıq olan 138 sanatoriya, pansionat və klinikalar, 12 min yerdən çox nömrə fondu olan 316 hotel fəaliyyət göstərir. Regionda turistlərə təqdim edilən müalicə prosedurları hər gün üçün 3-4 olmaqla həftəlik 21-28 olmaqla tamamlanır. Müalicə prosedurlarının sayına görə Şimali Qafqaz kurortları Ukraynanın Truskavets sanatoriya-kurort müəssisləri ilə oxşar olsa da, Çexiya və Avropanın digər müalicə-sağlamlıq mərkəzlərindən azdır. Bununla yanaşı, ənənəvi müalicə və müayinə üsulları qalsa da müştərilərin asudə vaxtının təşkilində problemlərin olmasını qeyd etmək olar. Belə ki, Stavrapol vilayətində fəaliyyət göstərən müalicə müəsissələrinin 60%-i sovet dövründən qalan infrastrukturda yerləşir. Onların əksəriyyətində turistlərin asudə vaxtının təşkili üçün özəl proqramları yoxdur. Belə müəssisələrin əksəriyyəti ancaq müalicə xidmətləri göstərir ki, bu da gələn turistlərin asudə vaxtının təşkilinə mane olur.

Son illər tikilən və ya restovrasiya olunan müalicə-sağlamlıq müəssislərinin əksəriyyətində ənənəvi sağlamlıq xidmətləri ilə yanaşı, turların və digər xidmətlərin göstərilməsi turist axınlarının təmin olunmasına imkan verir. Belə sanatoriya-kurort müəssisələrində tur proqram olaraq dərketmə və təbiətlə bağlı xidmətlər təklif olunur. Həmçinin bu kurortların yerləşdiyi şəhərlərin əksəriyyətinin tarixi və təbiəti gələn turistlərin asudə vaxtının təşkilində əhəmiyyətli rol oynayır.

Mineralnıye Vodı müalicə-sağlamlıq destinasiyalarının inkişaf istiqamətlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

| | |
|---|---|
| “Dövlət sektoru ilə özəl sektor müəssisələrinin birgə əməkdaşlığı” modeli | Qeyd olunan model dövlətin özəl sektora dəstəyi, bu sahənin stimullaşdırılması, uzun müddətli güzəştli kreditlərin verilməsi, bu sahə üzrə mövcud layihələrin dəstəklənməsindən ibarətdir. |
| Ənənəvi sosial turizmin inkişafının dəstəklənməsi | Bu məqsədlə həmkarlar təşkilatının xətti ilə “putyovka” üzrə güzəştli xidmətlər öz əhəmiyyətini saxlayır ki, bu da Rusiyanın bir çox regionlarından davamlı turist axınlarının təmin olunmasına imkan verir. |
| Mineralnıye Vodı şəhərlərinin kurort destinasiyasının mərkəzi, hərtərəfli sağlamlıq ərazisi kimi təyin edilməsi | Rusiyanın cənub bölgəsinin Mineralnıye Vodı destinasiyası kimi identifikasiya edilməsi bölgənin əhəmiyyətinin artırılmasına, strateji inkişafına təkan vermişdir. |
| Mineralnıye Vodı destinasiyalarına gələn turistlərin asudə vaxtının təşkilinə istiqamətlənən tədbirlərin təşkili | Hər 2-3 turistdən biri ekskursiya gəzintilərinə üstünlük verir. Mineralnıye Vodıya gələn turistlərin əlavə xidmətlərə nisbi tələbatının müqayisəli təhlili istirahət edənlər tərəfindən daha çox əyləncə xidmətinə, həmçinin ekskursiya gəzintisinə üstünlüyün verildiyini göstərir. Həmçinin təbiət, mədəni dəyərlərin, alış-verişin edilməsinə tələbatın artması müşahidə edilir. Bunu nəzərə alaraq, turistlərin asudə vaxtının təşkili üçün parklar, tarixi abidələr bərpa edilmiş, ənənəvi istehsalın stimullaşdırılması üçün güzəştlər təqdim edilmiş, yeni ticarət və iaşə mərkəzləri yaradılmışdır. |

Mineralnıye Vodı müalicə-sağlamlıq mərkəzlərinin inkişafı ənənəvi sanatoriya xidmətləri ilə yanaşı, yeni müasir tipli müalicə-SPA mərkəzlərinin inkişafına təkan verməkdən ibarətdir. Bu destinasiyalardakı sanatoriya-kurort müəssisələrini seçən turistlər əsas seqmentləri keçmiş SSRİ respublikalarından olanlardan ibarətdir. Ümumi turist axınlarının 80%-dən çoxu MDB məkanından gələnlərdir. Bunun da əsas hissəsi Qazaxıstan, Ukrayna, Belarus, Özbəkistan və Azərbaycanın payına düşür.

Region üzrə gələn turistlərin 160 min nəfəri Azərbaycan vətəndaşlarından ibarətdir. Ölkəmizdə Şimali Qafqaz bölgəsinə gedən Azərbaycan turistlərinin əsas hissəsi tam paketlərdən istifadə edirlər. Həmçinin fərdi bronlaşdırma və sanatoriyalar ətrafında evlər kirayələməklə müalicə alanlar da üstünlük təşkil edir. Son illər Şimali Qafqaz sanatoriyalarında qiymətlərin nisbətən yüksək olması səbəbilə fərdi evlərin kirayə tutulmasına meyil artmışdır.

Qiymətləri müqayisə etdikdə aydın olur ki, dördulduzlu sanatoriyalarda bir gün gecələmə və müalicə birlikdə 50-70 dollara təqdim olunduğu halda fərdi evlərin kirayəsi 30-50, müalicə isə 20 dollar təşkil edir. Qiymətlər arasındakı fərqin olması, Azərbaycanlı turistlərin bəzilərinin fərdi evləri kirayələməsini artırır.

**QRAFİK 25. Rusiyanın Şimali Qafqaz kurortlarına gələn turistlərin dinamikası (min nəfər)**




**MƏNBƏ:** *Государственной статистики по Северо-Кавказскому федеральному округ 2019 году*

Stavrapol vilayətinə gələn turistlərin əsas hissəsi Şimali Qafqaz kurortlarına gələnlərdən ibarətdir ki, bunun da əsas hissəsi sanatoriya-kurort xidmətlərindən istifadə edənlərdən ibarətdir. Stavrapol diyarına gələn turistlərin 70%-dən çoxu Mineralnıye Vodı ərazisinə gələn turistlərdən ibarətdir. Qeyd olunan dinamika hər il artmaqdadır.

Eyni zamanda, Stavrapol diyarına Rusiyanın digər regionlarından gələn turistlər də üstünlük təşkil edir. Mineralnıye Vodı ərazisinin bazasında yaradılan sanatoriya və pansionatların bəziləri keçmiş sovet dövründən Həmkarlar Təşkilatının tabeliyində olan müəyyən müəssisələrə məxsusdur. Bu müəssisələrin tabeliyində olan sanatoriyaların yenidən qurulması gələn pasiyentlərin sayının artmasına imkan vermişdir. Bölgədə fəaliyyət göstərən sanatoriyaların bir çoxu özəlləşdirilsə də, Rusiyanın iri şəhərində olan müəssisələrə məxsus müalicə-sağlamlıq mərkəzləri vardır. Bu mərkəzlərin turistlə təmin olunmasında həmkarlar təşkilatının verdiyi yollayışlar üstünlük təşkil edir.

Ümumilikdə, Azərbaycandan Mineralnıye Vodı ərazisindəki sanatoriya-kurort mərkəzlərinə gedənlərin üstünlük verdikləri amillərə ixtisaslaşdırılmış müalicə xidmətlərindən istifadə olunması imkanları, professional tibb heyətinin olması, qiymətlərin büdcəyə uyğunluğu, gecələmə, qidalanma və s. amillər daxildir. Mineralnıye Vodı ərazisindəki sanatoriyalardan istifadə edənlərin təhlili göstərir ki, sanatoriyaların ekzotik landşaftla əhatə olunması, səyahətin rahatlığı, ölkəmizlə məsafəsinin az olması, viza prosedurlarının olmaması da cəlbedici amillərdən sayılır.

Mineralnıye Vodı ərazisindən istifadə edənlərin dinamikasının təhlili göstərir ki, bütün növ nəqliyyat əlaqələri və qiymətlərin münasib olması da cəlbedici amillərdən sayılır. Belə ki, Mineralnı Vodıya Bakıdan birbaşa aviareyslərin fəaliyyət göstərməsi və onun ucuz hava yolları xidməti olaraq təqdim olunması turist axınlarının intensivliyini artırır. Oktyabrdan may ayının sonuna qədər "Buta" aviaşirkəti həftədə 3 dəfə olmaqla Bakı-Mineralnıye Vodı istiqamətində A320 təyyarələri (160 yerlik) ilə sərnişin daşıyır. İyun ayından sentyabrın əvvəllərinə qədər isə Bakı-Mineralnıye Vodı istiqamətində hər gün aviareyslər fəaliyyət göstərir ki, bu da Mineralnıye Vodı ərazisindəki kurortlara gedənlərin sayının artmasına səbəb olur.

Avia daşımalarla yanaşı, Bakı-Rostov qatarı sentyabrın 15-dən başlayaraq may ayının ortalarına qədər dörd gündə bir, yay mövsümündə isə bir gündən bir (günaşırı) sərnişin daşıyır. Yay mövsümündə Bakı-Rostov qatarına əlavə vaqonlar da qoşulur ki, bu da Mineralnıye Vodı ərazisinə gedən sərnişinlərin artması ilə bağlıdır. Bu istiqamətdə gedən qatarları qiymətinin nisbətən ucuz olması səbəbilə ailə büdcəsinə uyğun olan vətəndaşlar seçə bilir.

Bakı Beynəlxalq Avtovağzalından may ayından başlayaraq həftədə iki gündən bir avtobus fəaliyyət göstərir. Eyni zamanda tələbat artdıqda bu istiqamətdə sifarişli avtobus və ortatutumlu minibuslar da fəaliyyət göstərir. Bununla yanaşı, Yalama qəsəbəsindən və Rusiya ilə Xaçmaz sərhəd keçid məntəqəsindən Mineralnıye Vodıya avtobuslar sərnişin daşıyırlar. Mineralnıye Vodı ərazisinin əsas müalicə mənbəyi balneoloji resuslar olması və onların analoqlarının Azərbaycanda mövcudluğu bu təcrübədən istifadə etməyi zəruri edir.

**CƏDVƏL 28. Mineralnıye Vodı təcrübəsindən istifadə**

| | Mineralnıye Vodı | Azərbaycanda müalicə sağlamlıq turizmində mövcud təcrübədən istifadə |
|---|---|---|
| 1. | "Dövlət sektoru ilə özəl sektor müəssisələrinin birgə əməkdaşlığı" modeli | Dövlət sektoru ilə sahibkarlıq subyektlərinin mövcud potensialdan istifadəsi üçün birgə layihələrin dəstəklənməsi |
| 2. | Mineralnıye Vodı ərazisinə dövlətin maliyyə dəstəyinin artırılması | Balneoloji ehtiyatların rentabelliyinin öyrənilməsi ilə dövlətin güzəştli kreditləri hesabına yeni müalicə-sağlamlıq destinasiyalarının təşkili |
| 3. | Yerli idarəetmə orqanlarının və bələdiyyələrin müalicə-sağlamlıq turizminə dəstəyinin artırılması | Bələdiyyələrin tabeliyində olan müalicə-sağlamlıq mərkəzlərinin təşkili |
| 4. | Ənənəvi sosial turizmin inkişafının dəstəklənməsi | AHİK tabeliyində olan müəssisələrlə yanaşı, yeni müalicə sağlamlıq mərkəzlərinə güzəştli yollayışların tətbiqi |
| 5. | Mineralnıye Vodı ərazisinin kurort destinasiyasının sağlamlıq, təhsil, mədəniyyət və biznes-kommunikasiya mərkəzi, unikal təbii ehtiyatlar bazasında hərtərəfli sağlamlıq ərazisi kimi identifikasiya edilməsi | Naftalanın müalicə-sağlamlıq destinasiya mərkəzi kimi formalaşdırılması və xüsusi statusun verilməsi |
| 6. | Mineralnıye Vodı destinasiyalarına gələn turistlərin asudə vaxtının təşkilinə istiqamətlənən tədbirlərin təşkili | Naftalanda müalicə-sağlamlıq kompleksində həftəsonu asudə vaxtın təşkili üçün yaxın təbiət-mədəni irs imkanlarından istifadə, şəhərdə müvafiq infrastrukturun təşkili |

## 3.3. Gürcüstan Respublikasında sağlamlıq turizminin təhlili

Azərbaycandan Gürcüstan istiqamətində müalicə-sağlamlıq məqsədilə gedən turistlər nisbətən azdır. Ümumilikdə ölkəmizdən Gürcüstana gedənlərin sayı 1,6 mln nəfər təşkil edir ki, bu da ölkənin gəlmə turizmində birinci yerdədir. Gürcüstana gedən turistlərin əsas hissəsi Tbilisi şəhəri, Qara dəniz sahili kurort-istirahət mərkəzləri və dağ-iqlim kurortları olan Bakuriani, Qudauri, az miqdarda Borjomi, Ureki, Sxaltubanı seçirlər.

**ŞƏKİL 8. Gürcüstanda müalicə-sağlamlıq turizmi mərkəzləri**




Müalicə-sağlamlıq turizmi baxımından Gürcüstanda kliniki və balneoloji sağlamlıq xidmətləri üstünlük təşkil edir. Gürcüstandan müalicə sağlamlıq mərkəzləri ənənəvi olaraq Borjomi, Sxaltuba, Sairme (uroloji xəstəliklər), Nunisi, Uçera, Nabeqlavi, Surami ərazilərində cəmlənmişdir.

Gürcüstanda müalicə-sağlamlıq turizmi göstərilən xidmətlərin nisbətən ucuz olması ilə səciyyələnir. Gürcüstan özünü ucuz klinik müalicə ölkəsi kimi də tanıtdıra bildiyindən, bu amil də yaxın ölkələr arasında onun sağlamlıq-bərpaedici turizminin imicini bir qədər yüksəltmişdir. Lakin bununla bərabər alt və üst infrastrukturda olan, həmçinin avadanlıqla təmin olunma baxımından mövcud çatışmazlıqlar kifayət qədərdir. Ona görə də turizmin bu sahəsində göstərilən xidmətlərin keyfiyyətini çox yüksək adlandırmaq çətindir. Avropa standartlarının tətbiqində ləngimələr var və bu, ölkənin əksər sanatoriyalarında özünü göstərir. Son illərdə yalnız kurortların bir qismində müalicə xidməti göstərən müasir tipli yerləşmə müəssisələri istifadəyə verilmişdir.

2018-ci ilin məlumatına görə Gürcüstanda müalicə və reabilitasiya potensialına malik olan 103 kurort və 182 kurort ərazisi mövcuddur. İqlim (dağ, dənizsahili, meşə, çöl kurortları) kurortlarına Borjomi, Sxaltuba, Kobuleti, Abastumani, Bakuriani, Batumi, Baxmaro, Mtsvane Kontsxi, Nabeqlavi, Sairme, Tsemi, Surami, balneoloji kurortlara (hidroterapiya, vanna terapiyası və s.) Tbilisi, Borjomi, Sairme,

Sxaltuba, Nunisi, Ureki, Qriqoleti, Utsera, Tsixisdziri, Tsemi, Tsqveri, Şovi, Cava aiddir. Gürcüstana gələn xarici turistlərin 2,7%-i məhz sağlamlıq və müalicə məqsədi ilə ölkəyə gəlir. Daxili turist axınlarında sağlamlıq-müalicə turizminin və bu sahədə fəaliyyət göstərən rekreasiya müəssisələrinin payı həmin göstəricidən bir neçə dəfə yüksəkdir. Gürcüstanda sağlamlıq turizmi mineral-termal sular, müalicəvi palçıqlar, mikroiqlim resursları, maqnit-qumlu çimərliklərdən istifadəyə əsaslanır.

Gürcüstünda 2015-2025-ci illəri əhatə edən turizm strategiyasında sağlamlıq turizminin üç modeli hədəf olaraq müəyyən edilmişdir:

1. Müalicə-sağlamlıq resurslarından səmərəli istifadənin təmin olunması üçün beynəlxalq maliyyə qurumlarının və dövlətin dəstəyi ilə əsas infrastrukturun bərpası və yenidən qurulması. Həmçinin sovet dövründən qalan sanatoriya-kurort komplekslərinin bərpasının xarici investorlar və donor təşkilatlarının köməyi ilə bərpasına nail olmaq.
2. Müalicə-sağlamlıq resurslarından səmərəli istifadə etmək üçün sahibkarlıq subyektlərinə iqtisadi stimullaşdırıcı tədbirlərin görülməsi, investisiya mühitinin yaxşılaşdırılması üçün qanunvericilik bazasının təkmilləşdirilməsi. Bu istiqamətdə vergi güzəştləri, müalicəvi sulardan istifadə olunması üçün müvafiq qanunların qəbul edilməsi, torpaqların güzəştli qiymətə sahibkarlara və xarici investorlara satılması və icarəyə verilməsi təmin olunmuşdur.
3. Gürcüstanın müalicə-sağlamlıq turizm destinasiyası kimi imicinin formalaşdırılması üçün marketinq işinin təşkili. Bu məqsədlə tibbi və müalicə-sağlamlıq turizminin qarşılıqlı olaraq inkişafının təmin olunması, hədəf bazarlar üçün müalicəvi-turizm paketlərinin təqdim olunması istiqamətində marketinq tədbirləri aparılır.

Hazırda Gürcüstanın müalicə-sağlamlıq turizm bazarında ənənəvi sanatoriya xidmətləri ilə yanaşı, yeni tikilən müasir hotellər də mövcuddur. Sxaltubada sovet dövründə 22 sanatoriya, 14 su içmək üçün qalereya olsa da, hazırda 4 mənbə və turistlərə xidmət göstərə bilən 7 sanatoriya fəaliyyət göstərir. Bununla yanaşı, bir beş, iki dörd və iki üçulduzlu müalicə-sağlamlıq mərkəzi də turistlərə xidmət göstərir.

20-ci əsrin əvvəllərindən müalicə-sağlamlıq mərkəzi kimi məşhur olan Sxaltuba hazırda tənəzzül dövrünü yaşayır. Sovet dövrünün məşhur sanatoriyalarından olan Şaxtyor, Metallurq və Stalinin istirahət mərkəzi kimi tanınan və arxitektur üslubda, xüsusi interyerə malik sanatoriyalar hazırda fəaliyyət göstərmir və ya çox az müştəri qəbul etmək imkanı vardır. Avropa İttifaqının dəstəyi ilə Sxaltubanın məşhur parkı bərpa olunsa da sanatoriyaların bərpası üçün vəsait tapılmır. Sxaltubada sovet dövründən qalan sanatoriyalarda hazırda Abxaziya və Osetiyadan qovulan gürcülər məskunlaşmışdır. Buna görə də gələn turistlərin sayı kəskin azalmışdır. Sxaltuba müalicə-sağlamlıq mərkəzi 20-ci əsrin 80-cı illərində il ərzində 350-400 min turist qəbul edirdisə, hazırda bu rəqəm 6-8 min nəfər təşkil edir. Bunun da çox hissəsi müasir hotellərdən istifadə edənlərdən ibarətdir. Eyni zamanda Sxaltubaya gələn yerli və xarici turistlərin bəziləri fərdi evlərdə qalmağa üstünlük verirlər ki, bu da onların nisbətən ucuz olması ilə bağlıdır.

Sxaltubada fəaliyyət göstərən yüksək kateqoriyalı müalicə-sağlamlıq mərkəzlərində müalicə prosedurlarının sayı çox olsa da, əsasən pullu xidmət kimi təklif edirlər. Belə ki, paketlər üzrə təqdim olunan müalicə xidmətləri həftəlik 12-14 prosedur təklif edir ki, bu da Mineralnıye Vodı və Truskavets kurortlarından azdır. Müalicə üçün təqdim edilən digər prosedurların əlavə ödənişli xidmət kimi təqdim olunması da turistlərin xərcini artırmış olur. Belə ki, gecələmə və üç dəfə yeməklə bir günün qiyməti dördulduzlu hotellərdə 45-60 dollara təklif edilir. Fərdi evlərin kirayəsi isə 20-30 dollar təşkil edir. Müalicə xidmətlərini ucuz qiymətə ala bilirlər.

Sxaltubaya gələn xarici turistlərin əsas hissəsi Azərbaycan və Qazaxıstandan gələnlərdən ibarətdir.

Azərbaycanlı turistlərin, demək olar ki, əksəriyyəti fərdi qaydada ev kirayələyir və ya hotelləri bronlaşdırırlar. Müalicə-sağlamlıq üçün turpaket alaraq gələnlər azlıq təşkil edir. Azərbaycanlılar əsasən kirayə evlərdə qalaraq müalicə üçün termal sulardan və içmə qalereyasından istifadə edirlər..

Azərbaycandan gələn turistlərin dəqiq statistikası yoxdur ki, bu da hotel və sanatoriyaların verdiyi məlumatların az olması ilə bağlıdır. Azərbaycan vətəndaşları fərdi qaydada bronlaşdırmaya üstünlük verdiyinə görə statistikasını aparmaq mümkün olmur. Ümumilikdə, Azərbaycandan Sxaltubaya gedən turistlərin çoxu istirahət məqsədilə gələrək sağlamlıq xidmətlərindən istifadə edirlər. Bu da deməyə əsas verir ki, Sxaltubaya gələn Azərbaycanlılar sağlamlıq xidmətlərindən az istifadə edirlər.

Borjomi kurort mərkəzi müalicə-sağlamlıq turizminin ənənəvi inkişaf etdiyi destinasiyalardan biridir. Borjomi Gürcüstanın ən çox turist qəbul edən ilk beşlik destinasiya mərkəzinə daxildir. Borjomi balneoloji dağ-iqlim kurortuna gələnlərin dinamikasının təhlili göstərir ki, 2013-cü ildə bu rəqəm 353 min nəfər olduğu halda 2018-ci ildə 564,2 min nəfər təşkil etmişdi (yerli və xarici turistlər birlikdə ). Bölgəyə gələn xarici turistlərin əsas hissəsi Almaniya, İsrail, Polşa, Qazaxıstan, Azərbaycan və Ermənistan turistlərindən ibarətdir. Kurort mərkəzinə gələn turistlərin əsas hissəsi hotellərdə və qonaq evlərində qalsa da, daha ucuz qiymət təklif edən kənd evlərinin, hostellərin seçilməsi də əhəmiyyətli dərəcədə artıb. Ümumilikdə, bölgədə yerləşmə xidmətlərinin dörd növü təklif olunur ki, bunlara da yüksək səviyyəli beş və dördulduzlu hotellər, qonaq evləri (hostellər), fərdi kənd evləri və kirayə mənzillər daxildir.

Destinasiya mərkəzində beş və dördulduzlu olmaqla 4, üçulduzlu 3 hotel fəaliyyət göstərir. Eyni zamanda Borjomi bələdiyyəsinə məxsus kənd və qəsəbələrdə 70 kiçik tutumlu qonaq evləri və ya hostellər, 250-dən çox kənd evi (fərdi evlər), Borjomi şəhərində 257 kirayə mənzillər turistlərə gecələmə yeri kimi təklif olunur. Hotellərdə gecələmələrin qiyməti kateqoriyalarından asılı olaraq 50-200 dollar, hostel və kənd evlərində isə 15-20 dollar təşkil edir. Kurort mərkəzinə gələn Azərbaycan vətəndaşlarının statistikası tam məlum olmasa da, il ərzində 50-60 min nəfər turistin müalicə-sağlamlıq və istirahət məqsədilə gəldiyi qeyd edilir. Borjominin təbiətinin zəngin olması, ekzotik landşaftı, müalicə-sağlamlıq imkanlarının mövcudluğu azərbaycanlı turistləri daha çox cəlb edir. Borjomiyə gələn turistlərin əsas hissəsi fərdi bronlaşdırma aparmaqla hotellərdə gecələmə, müalicəyə üstünlük verirlər. Onlar arasında hotelləri seçənlər üstünlük təşkil etsə də, son illər fərdi evlərdə qalanların sayı artmışdır. Fərdi evlərin ucuz olması və meşəlik ərazilərlə əhatələnməsi, meyvə bağlarının olması Azərbaycanlıları daha çox cəlb edir. Borjomidə fəaliyyət göstərən hotellərdə tibbi xidmətlərin çoxunun ödənişli olması turistlərin paket turları almasına meyl etməsini azaldır. Belə ki, hotellərin əksəriyyətində paketlər üzrə təqdim olunan müalicə xidmətlərinin sayı az olmaqla, həftəlik 12-15 prosedur təşkil edir. Bu da Şimali Qafqaz kurortlarının təqdim etdiyi müalicə xidmətlərindən az olmaqla Borjomi hotellərinin rəqabət imkanlarını azaldır.

Gürcüstanın digər müalicə sağlamlıq bölgələrindən olan Sairme (uroloji xəstəliklər), Nunisi, Ureki, Nabeqlavi, Surami, Abastumani destinasiya mərkəzlərinə gələn Azərbaycanlılar azlıq təşkil edir. Qeyd olunan kurort sağlamlıq mərkəzlərindən Ureki, Surami, Nunisidə rekonstruksiya işləri aparılmış, eyni zamanda müasir kurort kompleksləri tikilmişdir. Azərbaycan vətəndaşları qeyd olunan kurort-sağlamlıq mərkəzlərindən Ureki və Suramiyə daha çox səfər edirlər. Amma ümumi gələnlər arasında Azərbaycan vətəndaşları nisbətən azlıq təşkil edir və fərdi evlərdə qalmağa daha çox üstünlük verirlər.

**CƏDVƏL 29. Gürcüstanın müalicə-sağlamlıq turizmi təcrübəsindən istifadə imkanları**

| | Gürcüstanda müalicəvi sağlamlıq turizmi | Azərbaycanda mövcud təcrübədən istifadə |
|---|---|---|
| 1. | Müalicəvi-sağlamlıq turizminə investisyaların cəlb olunması üçün qanunvericilik bazasının təkmilləşdirlməsi | Müalicə-sağlamlıq turizminə investisiyaların cəlb olunması üçün lahiyələrin təqdim olunması |
| 2. | Gürcüstanın müalicə-sağlamlıq turizm destinasiyası kimi imicinin formalaşdırılması | Müalicə-sağlamlıq mərkəzlərinin imicinin formalaşdırılması üçün marketinq tədbirlərinin genişləndirilməsi |
| 3. | Müalicə-sağlamlıq resurslarından səmərəli istifadə olunması üçün yerli və xarici sahibkarlıq subyektlərinə stimullaşdırıcı paketlərin təqdim olunması | Mineral suların yerləşdiyi ərazilərdə sahibkarların müalicəvi-sağlamlıq müəssisələrinin tikintisinə iqtisadi stimulların yaradılması |
| 4. | Müalicə-sağlamlıq turizmində daha ucuz xidmətlər təklif etməklə rəqabət imkanlarının artırılması | Müalicə-sağlamlıq turizmində yüksək kateqoriyalı hotellərlə yanaşı turist tipli üçulduzlu yerləşmə müəssisələrinin təşkilinə təkan verilməsi |
| 5. | Hədəf bazarlara yönəldilən müalicəvi-sağlamlıq turizmi paketlərinin təqdim olunması | Müalicə-sağlamlıq mərkəzlərinin Rusiya, Qazaxıstan, Ukrayna, Belarus və İran, Türkiyə bazarlarına istiqamətlənən paketlərinin təqdim olunması |
| 6. | Bələdiyyələrin və icmaların müalicə-sağlamlıq turizmində iştirakının təmin olunması | Bələdiyyələrin ərazisində olan mineral bulaqların ətrafının abadlaşdırılması, onlara məxsus kiçik müalicə mərkəzlərinin təşkili |

## 3.4. Türkiyədə sağlamlıq turizminin təhlili

Türkiyə müalicə-sağlamlıq turizminin inkişafı üçün əlverişli mikroiqlim göstəricilərinə, zəngin termal mənbələrə malikdir. Ölkədə müalicə-sağlamlıq turizmi əsasən üç istiqamətdə təsnifləndirilir.

- **Tibbi-kliniki turizm**

Ölkəyə müalicə məqsədilə gələn, müxtəlif əməliyyatlar və orqan köçürülməsindən istifadə edən turistlərdir. Bu məqsədlə gələnlər ölkənin əsas müalicə məqsədilə ixtisaslaşan klinikalarının xidmətlərindən istifadə edirlər. Belə turistlər üçün mövsüm xarakterik deyil, həmçinin orta gecələmə müddəti 3 gündən çox olur. Ölkədə beynəlxalq səviyyəli tibbi turizm 331 klinika, 64 kliniki-şəbəkə ilə təmsil olunur.

Türkiyədə tibbi turizm mərkəz-şəhərlərə İstanbul, Antalya, İzmir, Qaziantep, Muğla, Afyonkarahisar, Bursa, Aydın, Trabzon və Ankara aiddir. Ən çox xəstə qəbul edən və tibbi turizmdən daha çox gəlir əldə edən mərkəzlərə İstanbul, Antalya, Qaziantep, İzmir və Bursa aiddir. Türkiyəyə səhiyyə xidməti almaq üçün gələn pasiyentlərin seçim etdiyi ilk on şəhərə isə Antalya, İstanbul, Ankara, Kocaeli, İzmir, Muğla, Aydın, Karaman, Adana, Sakarya aiddir.

**ŞƏKİL 9. Türkiyədə müalicə-sağlamlıq turizmi mərkəzləri**




Türkiyəyə tibbi turizm məqsədilə gələnlər 2014-cü ildə 414,7 min 2017-ci ildə 433,6 min 2018-ci ildə 487,3 min, 2019-cu ilin ilin nəticələrinə görə 500 mindən çox olmuşdur. Tibbi turizm məqsədilə gələnlər arasında ilk onluğa Rusiya (2018-ci ildə 47683 nəfər), Almaniya, Livan, İraq, Böyük Britaniya, Azərbaycan (2018-ci ildə 12460 nəfər), Bolqarıstan, Rumıniya, Niderland, Ukrayna, Suriya və s. daxildir. Türkiyənin tibbi turizmdən əldə etdiyi gəlirlər 2010-cu ildə 430 min dollar, ən yüksək gəlir 2014-cü ildə 840 min dollar, 2016-cı ildə 720 min dollar, 2018-ci ildə 832 min dollar təşkil etmişdir.

 **Qüsurlu insanlar və yaşlılara istiqamətlənən müalicə-sağlamlıq xidmətləri (sosial turizm)**

Türkiyədə Səhiyyə nazirliyinə tabe olan müalicə pansionatları əsasən ölkə vətəndaşlarına xidmət edir. Belə xidmətlər sosial turizmin tərkib hissəsi kimi turistlərə təqdim olunur. Eyni zamanda səhiyyə nazirliyinin sosial turizm məqsədilə elan etdiyi tenderlərdə qalib olan müalicə-sağlamlıq müəssisələri də qeyd olunan xidmətləri təklif edir. Xarici ölkə vətəndaşlarının qeyd olunan turizm növündən istifadəsi azdır. Yalnız dövlət səviyyəsində Əfqanıstan, Sudan, Somali, Yəmən, Kosovo, Şimali Makedoniya, Şimali Kipr, Azərbaycandan güzəştli şərtlərlə gələn insanlardan ibarətdir. Onların ümumi sayı il ərzində 1000 nəfərə yaxın olur.

 **Termal turizm (balneoloji turizmi)**

Türkiyə torpaqları çox sayda termal mənbəyə sahibdir. Türkiyədə dəniz-günəş-qum turizminin kölgəsində qalan termal turizm son illərdə alternativ turizm istiqaməti kimi hədəf olaraq seçilmişdir. Türkiyə termal mənbələr baxımından dünyada 7-ci, Avropa regionunda isə birinci yerdədir. Türkiyədə 1500-dən çox termal qaynaq vardır. Termal mənbələrin bazasında 200-ə qədər müalicə-sağlamlıq mərkəzi fəaliyyət göstərir. Tədqiqatlara görə mənbələrin çox hissəsi Egey bölgəsindədir, sonrakı yerlərə Orta Anadolu və Mərmərə regionu aid edilir. Digər mənbələrin əsas hissəsi Cənubi və Şərqi Anadolu, həmçinin Aralıq və Qara dəniz sahillərində cəmlənib. Egey bölgəsinin əsas termal turizm SPA mərkəzləri Doğanbey, Balçova, Çeşmelər, İzmir, Denizlidə-Pamukkale, Gazlıgöl, Sandıklı, Ömer, Gecek, Afyonda-Heybeli, Kütahyadakı Harlek, Yoncalı, Murat Dağı, Eynal və Manisada yerləşir. Orta Anadolunun əsas isti bulaqlarına Haymana, Nevşehir-Kozaklı, Niğde-Çiftehan, Yalova, İnegöl, Gönen aiddir. Ölkədə qeyd

olunan resurslardan istifadə etməklə müalicə-sağlamlıq turizm məqsədləri ilə termal hotellər, müalicə pansionatları, termal hotel və müalicə, müxtəlif SPA növləri, su içmə obyektləri, talassoterapiya, iqlim və fizioterapiya mərkəzləri təşkil olunmuşdur.

Türkiyəyə müalicə-sağlamlıq məqsədilə gələn turistlər müalicə-istirahət, sağlamlıq üzrə xidmətlərdən istifadə edənlərə bölünür. Eyni zamanda passiv istirahətə gələn turistlərə göstərilən sağlamlığın bərpası xidmətləri də qeyd olunan kateqoriyaya aid edilir. Həmçinin baxım və reabilitasiya üçün gələn turistlər də termal hotellər, SPA və velnes xidmətlərindən istifadə edirlər.

Türkiyədə olan balneoloji mərkəzləri xarici və yerli investisiyalar hesabına tikilən hotellərdən və hotel sahibkarlarının tikdirdiyi müalicə-sağlamlıq müəssisələrindən, həmçinin bələdiyyələrə məxsus termal pansionatlardan ibarətdir. Müxtəlif investisiyalar hesabına tikilən balneoloji mərkəzlər ölkədə sayının çoxluğu ilə fərqlənir və idarə etməyə verilmişdir. Bu mərkəzlər əsasən yüksək kateqoriyalı hotellərdən ibarətdir. Hotel sahibkarları tərəfindən tikilən müalicə-sağlamlıq mərkəzlərinin sayı nisbətən az olsa da, onların qiymətlərinin aşağı olması turistlərin cəlb olunmasına imkan verir. Həmçinin belə təsislərin bəziləri Türkiyənin hotel şəbəkələrinə məxsusdur. Bələdiyyələrə məxsus müalicəvi pansionatlar ölkənin əksəriyyət termal təsislərində tikilib. Əsasən, yerli balneoloji mərkəzlərdən ibarətdir. Belə təsislərdə qiymətlərin aşağı olması, əsasən müalicə-sağlamlıq xidmətləri təklif etməsi ilə fərqlənir.

**CƏDVƏL 30. Türkiyədə balneoloji müalicə mərkəzləri**

| | Kateqoriyası | Mərkəzlərin sayı | Nömrə fondu | Tutumu |
|---|---|---|---|---|
| Termal hotellər | 5 ulduz | 52 | 15753 | 33906 |
| | 4 ulduz | 38 | 3978 | 8330 |
| | 3 ulduz | 24 | 1637 | 2311 |
| Termal tətil mərkəzi | 4 ulduz | 1 | 99 | 198 |
| Termal apart hotellər | --- | 2 | 81 | 171 |
| Termal bələdiyyə pansionatları | --- | 98 | 1250 | 2519 |
| | Cəmi | 215 | 22798 | 47433 |

**MƏNBƏ:** *Türkiyə Mədəniyyət və Turizm Nazirliyi, 2018*

Türkiyədə bütün mənbələr üzrə yerləşmə müəssisələrinin sayı 4822-ə çatır ki, bunun da 215-i termal mərkəzlərdən ibarətdir. Termal təsislər yerləşmə müəssisələrinin 4,5%, nömrə fondunun isə 4%-ə qədərini təşkil edir ki, bu da ölkə miqyasında çox aşağı göstərici sayılır. Müalicə-sağlamlıq müəssisələrinin əsas hissəsini beş və dördulduzlu təsislər təşkil edir. Həmçinin bələdiyyələrə məxsus termal təsislər də mövcuddur ki, bu da yerli əhalinin müalicəsinin təşkilində əhəmiyyətli rola malikdir.

**CƏDVƏL 31. Türkiyədə termal hotellərin əsas göstəriciləri**

| | Hotellərə gələnlər, Min nəfər | | | Gecələmələrin sayı, Min gün | | | Ortalama gecələmə müddəti, gün | | | Doluluq səviyyəsi, %-lə | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Xarici | Yerli | Cəmi | Xarici | Yerli | Cəmi | Xarici | Yerli | Cəmi | Xarici | Yerli | Cəmi |
| 2010 | 302,7 | 458 | 760,7 | 399,9 | 956 | 1355,9 | 1,3 | 2,1 | 1,8 | 10,9 | 25,9 | 36,8 |
| 2011 | 450,9 | 636,4 | 1087,3 | 582,3 | 1315,7 | 1897,0 | 1,3 | 2,1 | 1,7 | 13,4 | 30,4 | 43,8 |
| 2012 | 451,4 | 789,5 | 1240,9 | 662,3 | 1665,9 | 2318,2 | 1,5 | 2,1 | 1,9 | 12,3 | 30,9 | 43,2 |
| 2013 | 477,3 | 901,8 | 1379,1 | 680,8 | 1814,4 | 2495,2 | 1,4 | 2,0 | 1,8 | 11,6 | 31,0 | 42,6 |
| 2014 | 552,1 | 1006,2 | 1558,3 | 814,1 | 1988,2 | 2802,3 | 1,5 | 2,0 | 1,8 | 12,3 | 30,2 | 42,5 |
| 2015 | 534,6 | 1132,5 | 1667,1 | 739,7 | 2198,5 | 2992,2 | 1,5 | 1,9 | 1,8 | 11,1 | 30,7 | 41,8 |
| 2016 | 203,6 | 1134,8 | 1338,4 | 360,6 | 2242,6 | 2603,2 | 1,8 | 2,0 | 1,9 | 4,6 | 29,1 | 33,7 |
| 2017 | 346,2 | 1136,2 | 1482,4 | 406,3 | 2362,9 | 2769,2 | 1,8 | 2,0 | 1,9 | 10,5 | 31,2 | 41,7 |
| 2018 | 389,5 | 1268,3 | 1657,8 | 427,4 | 2475,8 | 2903,2 | t1,7 | 2,0 | 1,8 | t11,2 | 32,3 | 43,5 |

**MƏNBƏ:** *Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin hesabatı, 2018*

Termal hotellərin əsas statistik göstəricilərinin təhlili göstərir ki, son illər bu sahəyə maraq artmış və turistlərin cəlb olunmasında irəliləyişə nail olunmuşdur. 2010-cu illə müqayisədə 2018-ci ildə termal təsislərdən istifadə edənlərin sayı iki dəfədən çox artmışdır. Eyni zamanda termal hotellərdən istifadə edənlər arasında ölkə vətəndaşlarının üstünlük təşkil etməsi və 2015-ci ildən başlayaraq xarici turistlərin sayının azalması bu sahədə xidmətlərin təkmilləşdirilməsinə ehtiyac olduğunu göstərir. Orta gecələmə müddəti istirahət təyinatlı hotellərdən azdır. Belə ki, istirahət təyinatlı dəniz sahili hotellərdə bu göstərici 2-3 gün təşkil etdiyi halda termal təsislərdə 1,5-1,8 gün təşkil edir. Termal hotellərin doluluq səviyyəsinin 40%-dən çox olması nisbətən yaxşı göstərici sayılır.

Türkiyənin termal təsislərinə gələn xarici turistlərin əsas hissəsi Avropa ölkələri və Rusiyadan gələn turistlərdən ibarətdir. Türkiyənin bu sahədəki əsas hədəflərindən biri Avropadan üçüncü yaş qrupuna aid olan insanların sağlamlığının təşkilinə yönəldilən strategiyanın həyata keçirilməsindən ibarətdir. Bu məqsədlə müalicə-sağlamlıq müəssisələrinin xidmətlərinin artırılması, paket turların satışının yüksəldilməsi və marketinqinin təşkilinə önəm verilir. Türkiyənin müalicə-sağlamlıq turizmində təqdim etdiyi xidmətlərini sağlamlığın bərpası və turizm xidmətləri ilə əlaqələndirilməsi onun strateji hədəflərindən sayılır.

Türkiyədə müalicəvi-sağlamlıq turizm idarəetmə modelində termal təsislərə xüsusi önəm verilir. Ölkədəki termal təsislər müalicə-sağlamlıq, sağlamlıq-bərpa, həmçinin, sağlamlıq-istirahətinin birgə təşkilindən ibarətdir. Türkiyə modelinin əsas özəllikləri termal təsisləri müalicə xidmətləri ilə yanaşı, turistlərin istirahətinin təşkili üçün imkanların yaradılmasıdır. Bu baxımdan termal təsislərin bir çoxunda müalicə-sağlamlıq prosedurları ilə yanaşı istirahət turizminə aid olan xidmətlərin verilməsi turistlərin cəlb olunması baxımından avantajlı sayılır. Eyni zamanda Türkiyədə müalicəvi-sağlamlıq turizmində istirahət və asudə vaxtın təşkilinə xüsusi önəm verilir ki, bu təcrübədən ölkəmizdə istifadə etmək mümkündür.

**QRAFİK 26. Türkiyənin müalicə-sağlamlıq turizmi modeli**




**MƏNBƏ:** *Tayfun Taner DORUK Bir sağlq turizm ornegi olarak termal turizm: Türk sağlık turizmi içindeki yerinin çeşitli boyutlarıyla incelenmesi, tez danışmanı Prof. Dr. Haluk TANRIVERDİ İstambul Universitesi 2019, 134 s.*

Türkiyədə sağlamlıq turizminin inkişafı üçün müəyyən edilmiş hədəfləri aşağıdakı kimi qruplaşdırmaq olar:

-  **Termal turizm standartlarının müəyyən edilməsi**

Bu balneoterapiya ilə yanaşı SPA-Velnes turizmi üçün infrastruktur, texnologiya və təhsil səviyyəsini inkişaf etdirməkdən ibarətdir.

-  **Balneoloji, iqlim və talassoterapiya sahəsində akkreditə edilmiş obyektlərin sayını artırmaq** Bu məqsədlə Səhiyyə Nazirliyi tərəfindən "Termal Turizm Şəhərləri Layihəsi" həyata keçirilmişdir. Layihə ilə müalicəvi termal qaynaqları olan yeni ərazilər müəyyən edilməklə balneoloji turizmdən faydalanmaq hədəflənmişdir. "Termal Turizm Şəhərləri Layihəsi"nə daxil şəhərlər:

-  Cənubi Marmara Termal Turizm Şəhərləri (Çanakkale, Balıkesir, Yalova)

- Frigya Termal Turizm Şəhərləri (Afyonkarahisar, Kütahya, Eskişehir, Ankara, Uşak)
- Cənubi Egey Termal Turizm Şəhərləri (İzmir, Manisa, Aydın, Dənizli)
- Mərkəzi Anadolu Termal Turizm Şəhərləri (Yozgat, Kırşehir, Nevşehir)
- Şimali Anadolu Termal Turizm Şəhərləri (Amasya, Sivas, Tokat, Erzincan)
- Şərqi Marmara Termal Turizm Şəhərləri (Bilecik, Kocaeli)
- Qərbi Qara dəniz Termal Turizm Şəhərləri (Bolu, Düzce, Sakarya)

Mədəniyyət və Turizm Nazirliyi tərəfindən Türkiyənin 2018-2023-cü il turizm strategiyasında qeyd olunan termal şəhərlər hədəf olaraq seçilmiş və onlara investisiyaların cəlb edilməsi üçün stimullaşdırıcı amillərə üstünlük verilmişdir:

- Termal və mədəni turizm imkanlarını bölgələrə uyğun olaraq alternativ turizm növləri ilə birləşdirmək;
- Geotermal ehtiyatların yerləşdiyi bölgələrdəki mənbələri qiymətləndirmə ilə bağlı işləri davam etdirmək;
- Mədəniyyət və Turizm Nazirliyi tərəfindən elan olunan termal turizm bölgələri ilə bağlı abadlıq və quruculuq işlərini ümumi iqtisadi dəstək proqramları ilə əlaqələndirmək;
- Türkiyənin Avropada termal turizm baxımından ən çox seçilən ölkə mövqeyinə gəlməsini təmin etmək;
- Geotermal su ehtiyatlarının səmərəli paylanması üçün pilot bölgələrdə paylayıcı şirkətlər və yerli adminstrasiyaların koordinə edilməsini təmin etmək;
- Termal suların zəngin olduğu bölgələrdə sahibkarlıq layihələrinin, innovasiyaların dəstəklənməsi, ərazilərin landşaft planlaşdırılmasının aparılması və investorların cəlb olunması üçün layihələrin hazırlanması.

Türkiyədə müalicə-sağlamlıq turizminin inkişaf etdirilməsi məqsədilə Avropa ölkələrinin təcrübələrindən istifadə etməklə nümunəvi mərkəzlərin yaradılması istiqamətində aşağıdakı tədbirlər görülür:

- Termal mənbələrin müalicəvi xüsusiyyətlərinin öyrənilməsi və beynəlxalq sertifikasiyasının alınmasının təmin edilməsi;
- Termal ehtiyatın istifadəsi, paylanması, saxlanması və təmiri işləri bələdiyyənin rəhbərliyi altında təşkil olunan qurum tərəfindən təmin edilməsi.
- Termal ehtiyatların əsas istifadəsinin xəstəliklərin müalicəsi olduğunu nəzərə almaqla yanaşı istirahət və sağlamlıq məqsədləri üçün istifadə edilməsi;
- Termal şəhərlərdə nəqliyyatın məhdudlaşdırılması, elektromobillər və digər ekoloji cəhətdən təmiz nəqliyyata, piyada gəzinti, velosiped yollarına önəm verilməsi. Ətraf mühitin saflığı nəzərə alınmaqla sağlam yaşayış yerlərinin yaradılması və müalicə mərkəzi, müalicə parkı, termal hotel inteqrasiyasının təmin edilməsi;
- Termal şəhərlərdə alternativ turizm növlərinin dəstəklənməsi, gələn turistlərin asudə vaxtının təşkili üçün təbii və mədəni-dərketmə potensialından istifadə olunmasının təmin edilməsi.

Türkiyədə balneoloji turizmin inkişafında Avropa təcrübəsindən yararlanmağa üstünlük verilir ki, bu da digər turizm növlərinin birgə istifadə olunmasına imkan yaradır. Ölkədə termal hotellərin yerləşdiyi bölgələrdə digər turizm növləri ilə birgə istifadə olunması üçün xüsusi planlar hazırlanmışdır ki, bunlar da termal təsislərdə turizm xidmətlərinin yerinə yetirilməsinə əsaslanır.

**CƏDVƏL 32. Azərbaycanda Türkiyə təcrübəsindən istifadə**

| | Türkiyədə müalicə-sağlamlıq turizmin istiqamətləri | Azərbaycanda mövcud təcrübədən yararlanmaq imkanları |
|---|---|---|
| **1.** | Termal su mənbələrinin rentabelliyini müəyyən etmək və istifadə olunacaq bulaqların kimyəvi və tibbi analizinin aparılması | Mineral su mənbələrindən istifadə olunması-na fərdi yanaşma əsasında debiti, kimyəvi tərkibi, müalicəvi xüsusiyyətlərinin qiymətləndirilməsi və təsdiq olunması |
| **2.** | Təbii və mədəni irsin müalicəvi-sağlamlıq turizmi ilə birgə istifadəsinin təmin olunması | "Təbiət-sağlamlıq" və "istirahət-sağlamlıq" paketlərinin təqdim olunması |
| **3.** | Termal mənbələrədən istifadə olunmasında valilik və bələdiyyələrin rolunun artırılması | Bələdiyyələrə məxsus kiçik müalicə-sağlamlıq mərkəzlərinin təşkili |
| **4.** | Termal təsislərdə dövlət və bələdiyyələr tərəfindən alt infrastrukturun təşkili | Yerli icra orqanları və bələdiyyələrin ərazisində olan mineral bulaqların ətrafında abadlıq işlərinin aparılması, ilkin infrastruk-turun qurulması, yolların bərpasına dəstək olması, turist cığırlarının çəkilməsi |
| **5.** | Müalicə-sağlamlıq turizmində beynəlxalq standartların tətbiq edilməsi və termal mərkəzlərin akkreditasiya olunması | Yeni tikilən müalicə-sağlamlıq mərkəzlərinin beynəlxalq akkreditasiyasının təmin olunması |
| **6.** | Ölkəyə gələn turistlər üçün qısamüddətli təbiət-mədəni irs-sağlamlıq paketlərinin təqdim olunması | Azərbaycana işgüzar, mədəni, ekoloji və digər məqsədlərlə gələn turistlərə qısa-müddətli mədəni irs-sağlamlıq paketlərinin təqdim olunması |
| **7.** | Hədəf ölkələrinin səyahət agentliklərinə istiqamətlənən infoturların hər il mövsümlərarası dövrdə təşkil olunması | Naftalan, Qalaaltı və Lənkəranda yerləşən SPA-velnes hotellərə, Abşeron sanatoriya-larına hər il davamlı olaraq\infoturların təşkili |
| **8.** | Termal təsislərdə asudə vaxtın təşkilində tarixi-mədəni irs paketlərinin turistlərə təqdim olunması | Müalicə-sağlamlıq turizmindən istifadə edən turistlərin həftə sonu istirahətinin təşkili üçün təsislərə yaxın ərazilərdə təbii-tarixi-mədəni irsi əhatə edən paketlərin təqdim olunması |

**NÜMUNƏ 1. Afyonkarahisar "Budan Thermal Spa Hotel & Convention Center"**

Hər il minlərlə insanın müalicə-sağlamlıq məqsədilə gəldiyi Afyonkarahisar Türkiyənin termal turizm mərkəzi kimi tanınır. Türkiyədəki termal hotellərin yarıdan çoxu bu bölgədə cəmlənmişdir. Bölgədə beşulduzlu termal hotellərin sayı 14-ə çatır ki, bunlardan xidmətlərinin sayına və coğrafi mövqeyinə görə "Budan Thermal Spa Hotel & Convention Center" müalicə-sağlamlıq mərkəzi xüsusilə seçilir. Bu termal hotelin 28100 $m^2$ xidmət sahəsi, 17500 $m^2$ açıq sahəsi olaraq Afyonkarahisarın ən böyük termal hoteli sayılır. 2013-cü ildən fəaliyyətə başlayan hotel müalicə-sağlamlıq, həmçinin istirahət təyinatlı xidmətlər də göstərir. Termal hotel 134 standart, 3 connect, 8 deluxe, 8 corner deluxe suit, 2 king suit, 2 qüsurlu insanlar üçün otaqlardan ibarət olmaqla 157 nömrə və 450 nəfərlik birdəfəlik tutuma malikdir.

Termal hotel İzmir-Afyon avtomobil magistralının 5 km, "Zafer bölgəsi" hava limanından 55 km, Afyonkarahisar şəhər mərkəzindən 5 km, şəhərlərarası avtomobil vağzalından 4 km məsafədə yerləşir. Hotel əsas ticarət və əyləncə mərkəzləri, Kocatepe Universitetinin reabilitasiya və təbii üsullarla bərpa mərkəzinin 5-8 kilometrliyində yerləşir. Eyni zamanda Arxeloji muzey, İdman mərkəzi, Afyonkarahisar qədim evlərinə piyada gediləcək qədər yaxındır.

**ŞƏKİL 10. "Budan Thermal Spa Hotel & Convention Center" kurortunun coğrafi mövqeyi**




Termal hotel müalicə-sağlamlıq, istirahət və əyləncəni bir məkanda təqdim etməklə daha çox turistləri cəlb etmiş olur. Hotelin digər özəlliyi termal sulardan alınan çöküntüləri müalicəvi kosmetika kimi SPA mərkəzində istifadə etməsidir. "Budan Thermal SPA Hotel Convention Center" aşağıdakı xidmətləri turistlər üçün ilboyu təqdim edir:

- Termal və palçıq hovuzlarının olması;
- Termal su çöküntülərindən ibarət vanna müalicəsi;
- Qruplar və ailələr üçün palçıq və termal vannalarda müalicə;
- Müalicəvi kəhraba vannalar;
- "Doktor balıqların" olduğu hovuzlardan istifadə;
- Duz, palçıq mağaralarında müalicə və istirahət imkanları;
- Ozon terapiya, zərərli toksinləri atmaq üçün xüsusi proqramların tətbiqindən istifadə olunması;

Xüsusi təcrübəyə əsaslanan proqramlara uyğun olaraq sağlamlıq xidmətləri;

- Çoxçeşidli SPA prosedurları və fizioterapiya xidmətləri;
- Uşaq əyləncə mərkəzi;
- Açıq və qapalı termal hovuzlar;
- Türk, Avropa, Asiya, ənənəvi mətbəx nümunələrini təqdim edən restoranların olması;
- Milli park və bölgənin tarixini özündə əks etdirən zəngin irs nümunələrinə ekskursiyaların təşkili

Termal hotelin fəliyyətində SMM geniş istifadə olunur ki, bu da onun beynəlxalq aqriqatorlarda daha yaxşı təmsil olunması və sosial şəbəkələrdə geniş təbliğat xarakterli reklam xidmətləri ilə bağlıdır. Termal hotel SMM fəaliyyətində tanıtım fəaliyyətinə, reklamın yayımlanmasına, ticarət marketinqi – sosial ictimaiyyət arasında təşviq tədbirlərinin keçirilməsinə, oflayn marketinq tədbirlərinə sosial və onlayn dəstəyə, şirkətin marketinq mövzusunun tərəfdarlarının fəal istehlakçı qrupu ilə dialoquna üstünlük verir. Qeyd olunan SMM fəaliyyəti və pandemiya dövründə təhlükəsizlik sertifikatı ilə təmin olunması hotelin dolma səviyyəsini 55%-dən yuxarı saxlamasına imkan vermişdir.

Termal hotelin əsas satış kanallarını səyahət agentlikləri (53%) təşkil edir ki, bu da müalicə-sağlamlıq mərkəzinin vasitəçilərlə yaxşı əlaqəyə malik olmasını göstərir. Eyni zamanda beynəlxalq arbitorlar vasitəsilə satışın həyata keçirilməsi yeni müştərilərin cəlb olunmasına şərait yaratmışdır.

Termal hotelin qiymət siyasəti bütün Türkiyənin digər istirahət sağlamlıq mərkəzlərində olduğu kimi mövsümlər üzrə tənzimlənir. Erkən rezervasiyada daha ekonom qiymətlər təklif edir ki, bunun da əsas hissəsi səyahət agentlikləri tərəfindən realizə olunur. Termal hotelin yanvar, fevral ayları üzrə daha aşağı, mart ayı orta, aprel, may ayları üçün satışlarda isə qiymətlər nibətən yüksək olur.

Termal hotelin doluluq səviyyəsi əsasən 50%-dən çoxdur ki, bu da Türkiyə hotelləri üzrə orta göstəriciyə yaxındır (Türkiyədə hotellərin orta dolma səviyyəsi 53,4% təşkil edir). Mövsüm dövründə doluluq səviyyəsi yüksək olsa da, qış aylarında bölgədə iqlim amillərinin təsirindən gələn müştərilərin sayı kəskin azalır. Termal hotel kompleks müalicə-sağlamlıq, sosial turizm (əngəlli insanların müalicəsi və reabilitasiyası) xidmətləri, həmçinin kütləvi və yerli tədbirlərin təşkili üçün əlverişli mövqeyi, infrastruktura malik olması onun il boyu fəaliyyət göstərməsinə imkan verir.

Termal hoteldə müalicə xidmətləri dayaq-hərəkət orqanları, reabilitasiya, fizioterapiya, dəri və qida orqanlarının xəstəlikləri və bərpa, kosmetologiya üzrə ixtisaslaşıb. Kompleks müalicə-sağlamlıq xidmətləri təşkil olunduğuna görə turistlər bu hoteli təkcə müalicə məqsədilə seçmirlər. Hoteldə müalicə xidmətləri kompleks terapiyaya əsaslanmır. Yəni ənənəvi sanatoriya xidmətləri kifayət qədər deyildir. Buna görə də tibbi personal heyəti azlıq təşkil edir.

Termal hotelin müştəri dəyərləndirilməsində “booking.com”, “tripadvisor.com”, “sanatoriums.com” və digər beynəlxalq arbitorlarda 8,3 bal, Google 1435 müştəri rəyi əsasında 4,3 bal verilmişdir. Termal hotel üzrə mənfi rəylərin əsas hissəsini müalicə prosedurlarının az olması, həkim personalının yetərsizliyi, gigiyenik vəziyyətin bəzən aşağı olması, otaq xidmətlərinin zəifliyi təşkil edir.

**CƏDVƏL 33. "Budan Thermal SPA Hotel & Convention Center"in fəaliyyət istiqamətləri**

| SMM | Paketlərin reklamı | Onlaynə marketinq | Sosial şəbəkələrdə fəal marketinq | PR və reklam tədbirlərinə sosial şəbəkələrdə dəstək | Satışın dəstəklənməsi üzrə SMM |
|---|---|---|---|---|---|
| Satış kanalları %-lə | Beynəlxalq arbitrlar 21% | Yerli səyahət agentlikləri 53% | Xarici səyahət agentlikləri 8% | Onlayn satış 14% | Ofisdən satış 4% |
| Qiymət siyasəti | Gecələmələrə görə | Rezervasiyanın müddətinə görə | Mövsümə görə | Paket turlara görə | Fərdi |
| Rezervasiyanın alınma müddəti | 6 aydan 1 ilə qədər | 3-6 ay | 1-3 ay | 1 ay | Həmin gün |
| Nəqliyyat imkanları | Ən yaxın hava limanı 55 km | Magistral yol (İzmir-Afyon magistralı) 5 km | Şəhərlərarası avtovağzal 4 km | Şəhər mərkəzi 5 km | Ticarət mərkəzi 2 km |
| Hoteldə tuzim tələbatına görə mövsümlər | 23.12-28.02 | 01.03-15.05 | 16.05-30.06 | 1.07-15.09 | 16.09.-22.12. |
| Mövsümlərə görə ortalama doluluq göstəricisi %-lə | 32-36% | 35-45% | 56-60% | 90-100% | 3-25% |
| Müalicə-sağlamlıq xidmətləri | Termal hovuzlar | Palçıq və gil vannaları | Duz mağarası | Fizioterapiya və "doktor" balıqla müalicə | Bərpa, SPA mərkəzi |
| Həkim personalı | Orta | Orta | Yüksək | Yüksək | Yüksək |
| Asudə vaxtın təşkili | Animasiya və hotel daxili əyləncələr | Tarixi yerlərə eksursiya | Milli Park və təbiət gəzintiləri | Şopinq | Uşaq əyləncə mərkəzi |
| Müştəri rəyləri əsasında xidmətlərin qiymətləndirilməsi (Google 1435 rəy) | Çox yüksək (5 bal) 56% | Yaxşı (4 bal) 23% | Orta (3 bal) 9% | Aşağı (2 bal) 4% | Çox pis (1 bal) 8% |

**MƏNBƏ:** *1. www.budantermal.com.tr/ 2. Mustafa Sandıkçı, Ünal Özgen Afyonkarahisar İlinin Termal Turizm Açısından SWOT Analizi ile Değerlendirilmesi//Uşak Üniversitesi Sosyal Bilimler Dergisi, 2013, 6/3, s.51-79*

**NÜMUNƏ 2. Türkiyənin Kırşehir bölgəsində termal bulaqlardan istifadə modeli**

Azərbaycanın fiziki coğrafi və geoloji şəraiti mineral-termal suların əsasən dağlıq, dağ ətəyi bölgələrdə cəmlənməsinə səbəb olmuşdur. Relyef şəraitinin mürəkkəb olması müalicəvi sulardan istifadəni çətinləşdirmiş olur. Türkiyədəki dağlıq ərazilərdə yerləşən müalicəvi sulardan istifadə olunması təcrübəsi Azərbaycanda tətbiq oluna bilər.

Bu sahə üzrə təcrübə olaraq Türkiyənin Kırşehir bölgəsində rast gəlinən termal mənbələrdən istifadəni qeyd etmək olar. Qeyd olunan bölgədə 12 termal mənbə vardır ki, onun ikisində müalicə mərkəzləri yaradılmış, bir mənbədə tibbi bərpa təsisi, iki bələdiyyə mülkiyyətində olan sağlamlıq mərkəzi fəaliyyət göstərir. İstifadə olunmayan və tanınmayan termal mənbələrin istifadəsi üçün valilik və yerli bələdiyyə orqanları ilə birlikdə bulaqlara gedən yollar bərpa olunmuş, elektrik xəttləri çəkilmiş, insanların istirahəti üçün yerlər təşkil olunmuşdur. Eyni zamanda bölgəyə gələn turistlər arasında sorğu aparmaqla mövcud sağlamlıq mərkəzlərinin problemlərini öyrənməyə çalışmışlar. Sorğunun nəticələrinin təhlilindən aydın olur ki, mövcud termal təsislərin göstərdiyi xidmətlər yetərli olsa da, bir çox bulaqlarda müalicə-sağlamlıq mərkəzlərinin olmaması, fəaliyyət göstərən bəzi təsislərin təminatının zəif olması, termal hamamların azlığı və olanların yetərli xidmətlər verə bilməməsi, sanitar normalara uyğun olmaması insanlar arasında əsas narahatlıq yaradan səbəblərdəndir.

**ŞƏKİL 11. Kırşehir bölgəsinin coğrafi mövqeyi**




Kırşehirdə fəaliyyət göstərən səyahət agentliklərinin bu sahəyə marağını cəlb etmək üçün "təbiət-sağlamlıq" və "mədəni-irs və sağlamlıq" turizm paketlərinin təqdim olunmasının vacibliyi qeyd edilmişdir. Kırşehir bölgəsinə gələn turistlərin sayı il ərzində dinamik olaraq artır və 2019-cu ildə turistlərin ümumi sayı 113 min nəfəri keçmişdir. Gələn turistlərin əsas hissəsi mədəni-dərketmə turizm istiqamətində olmaqla, əsasən ölkə vətəndaşlarından ibarət olmuşdur. Turistlərin ən çox səyahət etdiyi mərkəzlərə Dulkadirli yeraltı yaşayış yeri, Çağırkan qəsəbəsində olan Kale Höyük və Yapon Bahçəsi tarixi-mədəni mərkəzi,

beynəlxalq əhəmiyyətli Seyfə Gölü quş gözləmçiliyi, ekzotik landşaftla əhatə olunmuş Kızıl İrmak çayı üzərindəki Hirfanlı su anbarının ətrafındakı meşəlik ərazilər aiddir.

Bölgədə təbii və mədəni dəyərlərin termal mənbələrlə birlikdə istifadə olunmasında aşağıdakı strategiyanı həyata keçirirlər:

- **Bölgənin Antalya və Kapadokiya arasında yerləşməsi üstünlüyündən istifadə olunması**
  Bu məqsədlə Antalyaya gələn turistlərə Kırşehir bölgəsinin tarixi-mədəni məkanlarının, təbii ekzotikliyi ilə seçilən ərazilərinin və termal mənbələrinin də qatıldığı qısamüddətli (1-3 gün) paketlər təqdim olunur. Antalya hotellərində təqdim olunan bu paketlər turistlərin həftəsonu asudə vaxtının səmərəli təşkilinə və yeni destinasiyalarla tanış olmasına imkan verir.
- **Kırşehir bölgəsinə məsafə baxımından yaxın olan və istehlakçıların çox olduğu regionlara yönələn "tarix-təbiət-sağlamlıq" paketlərinin təqdim olunması**
  Bölgənin ölkənin mərkəzində yerləşməsi və qərbi ilə şərqini birləşdirən avtomobil yollarının üzərində olması daxili turizmin inkişafı baxımından əlverişli mövqeyə malik olmasına səbəb olur. Bunu nəzərə alaraq bölgənin turizm strategiyasında Ankara, Adana, İzmir və digər iri yaşayış məntəqələrinin əhalisinə istiqamətlənən turizm məhsulları təqdim olunur. Qeyd edilən turizm fəaliyyətlərində bölgənin milli irs nümunələri, tarixi, mədəniyyəti, adət-ənənələri, təbiəti və termal mənbələri təbliğ olunur.
- **Bölgəyə gələn turistlərə "tarix-təbiət-sağlamlıq" paketlərinin təqdim olunması**
  Bu məqsədlə regionun əsas hotelləri, istirahət mərkəzləri və termal təsislərində turistlərə qeyd olunan turizm məhsulu təqdim olunur ki, bu da qonaqların asudə vaxtının səmərəli təşkilinə imkan verir.
- **Bölgənin termal təsislərinə yol infrastrukturunun və digər nəqliyyat imkanlarının təmin olunması**
  Termal təsislərin olduğu mənbələrin yol və kommunal təminatla bağlı problemlərinin valilik bələdiyyələr tərəfindən həll olunması investorların cəlb olunmasına şərait yaradır, həmçinin turistlərin istirahəti və sağlamlığının bərpası üçün əlverişli şərait yaratmış olur.

**QRAFİK 27. Kırşehirdə termal mənbələrin digər turizm növləri ilə birgə istifadəsinin modeli**




**MƏNBƏ:** *Burcu Gülsevil BELBER, Ayşegül TURAN Termal turizm işletmelerinde, turistik tüketicilerin tatmin düzeylerine etki eden faktörlerin belirlenmesi: Kırşehir İli üzerine bir uyğulama// Journal Of Business Research Turk// 7\3 2015, 457-481*

Türkiyənin Kırşehir bölgəsindəki təcrübəyə uyğun olaraq ölkəmizin dağlıq və dağ ətəyi bölgələrində təbiət, istirahət və mədəni turizmin müalicəvi bulaqlarla birgə istifadə olunması üçün müvafiq paketlərin hazırlanması vacibdir. Bu baxımdan yerli idarəetmə orqanları və Turizm Destinasiya Menecment Mərkəzləri birgə gələn turistlərə sağlamlıq turizmi xidmətləri məhsulu təqdim edilə bilər. Mövcud təcrübəni nəzərə alaraq bölgələrin əsas turizm tələbi regionlarının araşdırılması və mövcud potensialdan birgə istifadə olunmasından ibarət olmalıdır.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

Azərbaycanda sağlamlıq müəssisələrində sağlamlığın bərpasının intensivliyi aşağıdır və bu, xeyli dərəcədə müalicə-turizm xidmətinin istifadəçilərinin öz sağlamlıqlarını ölkədən xaricdə bərpa etməyə üstünlük verməsi ilə əlaqədardır. Bu baxımdan Azərbaycanda sağlamlıq-turizmi müəssisələrinin əsas məqsədi sağlamlıqlarını təbii-müalicəvi vasitələrlə bərpa etmək istəyən turistləri özlərinə cəlb etməkdən ibarət olmalıdır. Məqsəd onların müalicə üçün xarici ölkələrə deyil, ölkə daxilində müalicəyə üstünlük verməsinə nail olmaqdır. Ölkədə sağlamlıq turizminin davamlı inkişafı üçün aşağıdakıları qeyd etmək olar:

| | | |
|---|---|---|
| 1 | N | Azərbaycanda mövcud olan faydalı, zəngin mineraloji və digər müxtəlif müalicəvi keyfiyyətlərə malik olan bulaqlar, balneoloji-iqlim şəraiti kifayət qədər əlverişlidir. |
| | T | Müalicə-sağlamlıq müəssisələri bu təbii ehtiyatların əsasında mövcud bazar konyunkturasını nəzərə almaqla geniş mənada xidmətlərin səviyyəsini, çeşidini artırmaq, məhsulların məzmununu genişləndirmək yolu ilə həmin məqsədə çatmaq iqtidarındadır. |
| 2 | N | Azərbaycanda müalicə-sağlamlıq turizmində canlanmanın baş verməsində sanatoriya-kurort müəssisələri dövlət proqramları hesabına bərpa olunsa da, xidmətlərin səviyyəsi müasir tələblərə cavab verir. Sanatoriya-kurort sahəsində xidmətin keyfiyyətinin artırılması baxımından müalicə turizmində özəl kapitalın iştirakının təmin olunması və bu istiqamətdə dövlətin dəstəyi zəruridir. |
| | T | Müalicə turizminin inkişafında qonşu ölkələrin təcrübəsindən rasional istifadə edilməsi məqsədəuyğundur. Məsələn, müalicə turizmində dövlətlə özəl sektorun əməkdaşlığını genişləndirən Rusiyanın təcrübəsini qeyd etmək olar. Rusiya özü bu təcrübəni Avropa ölkələrindən öyrənib tətbiq etmişdir. |
| 3 | N | Ənənəvi olaraq, sağlamlıq müəssisələrindən istifadə edənlər 50-60 yaşdan yuxarıdır ki, həmin şəxslər də qeyd olunan müəssisələrdə yalnız müalicəvi tibbi proseduralardan yararlanırlar. Azərbaycanda sağlamlıq-müalicə turizminin istifadəçiləri əsasən yaşlı insanlardır. Halbuki xaricdə sağlamlıq turizmindən istifadə edənlərin orta yaşı 49-dur. |
| | T | Müştərilər arasında həm kişilər, həm də qadınlar olmaqla digər yaş qruplarından da insanların olması, ailəvi dincələnlərin sayının artmasına nail olmaq zəruridir. Qeyd olunan stereotiplərin qırılması üçün müalicə-turizmi bazarında təklif olunan xidmətlərin çeşidi və keyfiyyəti artırılmalıdır. |
| 4 | N | Azərbaycanda sağlamlıq-rekreasiya müəssisələrində fərdi turist ehtiyaclarının ödənilməsinə yönəlmiş marketinq fəaliyyəti zəif inkişaf edib. |
| | T | Sağlamlıq turizm xidmətlərinin bir qisminin individual (fərdi) xarakter daşımalı olduğunu, xidmətlərin diversifikasiyasını nəzərdən qaçırmamalı, yerli sağlamlıq-rekreasiya müəssisələri fəaliyyətlərində həmin amillərə diqqət yetirməlidirlər. Sağlamlıq müəssisələrinin öz xidmətlərini diversifikasiya etməsi və təkmilləşdirməsi onların həm mövsümdən az asılı olmalarını təmin edər, həm də bu onlara mövsümlər üzrə geniş sayda fərqli turist seqmentlərini cəlb edə bilmələrinə yardımçı olar. |

| | | |
|---|---|---|
| 5 | N | Yüksək kateqoriyalı sağlamlıq-turizm müəssisələri üçün bahalı tibbi avadanlıqların alınması rentabellik nöqteyi-nəzərindən təhlükəlidir. |
| | T | Yüksək kateqoriyalı sağlamlıq-turizm müəssisələri rentabellik nöqteyi-nəzərindən bahalı tibbi avadanlıqların alınması məsələsində tələsməməli, bazarı araşdırmalı, müştərilərin alıcılıq qabiliyyətini və həmin xidmətlərə meyilliliyini, kadr təminatını, yeni avadanlığın həqiqətən rentabelli olub-olmayacağını və gözlənilən səmərəni düzgün qiymətləndirməlidir. Xidmət haqqının artırılmasının "müştərini özündən kənarlaşdıran" qüvvəyə çevrilməməsi üçün bazardakı vəziyyət və rəqabət imkanları düzgün təhlil olunmalıdır. Sağlamlıq müəssisələri öz xərclərini və xidmət qiymətlərini müəyyənləşdirərkən korporativ məqsədləri nəzərə almalıdırlar. |
| 6 | N | Sağlamlıq turizmi bazarında destinasiyanın onlayn seçilməsində turistlər tərəfindən üstünlük reputasiyası daha yüksək olan sağlamlıq müəssisələrinə verilir. Yaxşı reputasiya isə uzun müddət ərzində sağlamlıq müəssisəsində göstərilən xidmətlərin keyfiyyətinin və müalicə prosesinin özünün turistlərin tələblərinə uyğun olduğu təqdirdə qazanılır. Nəzərə almaq lazımdır ki, kurort müəssisələrinə üz tutanların yarıdan çoxu məkan olaraq öz seçimlərini bu sahədə turist (pasiyent) qismində müəyyən təcrübəsi olmuş dostlarının və qohum-tanışlarının tövsiyələri əsasında edirlər. |
| | T | Sağlamlıq turizmi müəssisələri müştəri rəylərinin onlayn platformalarda nəzarətini, idarə edilməsini həyata keçirməlidir. Qonaqların müxtəlif platformalarda rəy verməyə həvəsləndirmək üçün "check out" zamanı bu barədə qonaqlara məlumat verilməlidir. |
| 7 | N | Sağlamlıq müəssisələri təklif olunan prosedurlar barədə məlumat verirlər, lakin spesifik ehtiyacları olan ayrıca turist seqmenti üçün xüsusi proqramlar hazırlayıb təklif etmirlər. Məsələn, sağlamlıq müəssisələrində diyetik qidalanmadan ibarət olan ayrıca paketlərin tətbiqini qeyd etmək olar. Rekreantlar arasında artıq çəkidən əziyyət çəkən və ya belə bir riski olan insanlar olur ki, onlar gündəlik olaraq diyetik qidalara üstünlük verirlər və eyni qida tərzini istirahət edəcəkləri yerdə də davam etdirməkdə maraqlıdırlar. |
| | T | Xüsusi turist maraqları və seçimləri diqqətdə saxlanmalı, məhsul çeşidi genişləndirilməli, bütün kommunikasiya kanalları vasitəsilə potensial və mövcud müştərilərə bu barədə məlumat verilməlidir. |
| 8 | N | Müştərilərin əksəriyyəti sağlamlıq turizmi bazarında böyük reputasiya qazanmış, daha keyfiyyətli xidmətlər təklif edən müəssisələri tanısalar belə, son nəticədə münasib qiymət amilini nəzərə almaqla seçim edir və güzəştli paketlərə müraciət edir. Azərbaycanda sağlamlıq müəssisələrinin təklif etdiyi paketlərdə qiymətlər ən azı region ölkələri ilə rəqabət aparmağa imkan vermir. Həmçinin ölkədə hava nəqliyyatın qiymətlərinin də yüksək olması, müalicə-sağlamlıq paketlərinin qiymətinin artmasına səbəb olur. |
| | T | Yerli sağlamlıq müəssisələri müxtəlif kateqoriyalar üzrə güzəştli qiymət siyasəti həyata keçirməlidir. Bura "putyovka" ilə bərabər, sosialyönümlü marketinq tədbirləri və satış fəaliyyəti daxildir. AZAL-ın sağlamlıq məqsədli turistlər üçün xüsusi paketlər təqdim edilə bilər. |
| 9 | N | Müalicə-sağlamlıq xidmətlərinin (güzəştli) putyovka əsasında verilməsi ənənəsi istənilən halda saxlanılmalıdır, çünki bu amil xeyli sayda nisbətən aşağı gəlirli turistin sanatoriyalara, kurort müəssisələrinə davamlı olaraq gəlişini təmin edir. Sağlamlıq turizmi iştirakçılarının ardıcıl olaraq hər il eyni sektorun, təşkilatların işçi heyətindən ibarət olması da məqsədəuyğun deyil. |
| | T | Sağlamlıq müəssisələrinin korporativ əlaqələrinin genişləndirilməsi üçün putyovka sistemindən istifadə etməsi daha çox turistin cəlb olunmasına şərait yarada bilər. Sağlamlıq müəssisələrinin AHİK xətti ilə öz paketlərini geniş istehlakçı kütləsinə təqdim etməsi mümkündür. |

| | | |
|---|---|---|
| 10 | N | Ölkədə sağlamlıq müəssisələrindən istifadə edənlər iki böyük qrupa – (güzəştli) yollayış əsasında müalicə-sağlamlıq xidmətlərindən istifadə edən və cəmiyyətin orta təbəqəsini təmsil edən rekreantlara və öz hesabına eyni növ xidmətlərdən yararlanan, nisbətən yüksək gəlirli turistlərə bölünür. |
| | T | Bu iki seqmentə müvafiq şəkildə, “iki paralel bazarın” mövcud olduğu nəzərə alınaraq turizm bazarında daha yüksək tələbatı ilə seçilən sağlamlıq müəssisələrinin öz fəaliyyətlərini mövsümə uyğunlaşdırmaları mümkün görünür: sosial yönümlü turist axınlarının qış mövsümündə daha geniş qəbul edilməsi və buna müvafiq olaraq marketinqin aparılması; turistlərin ikinci qrupunun qəbuluna tələbin daha yüksək olduğu yay mövsümündə üstünlüyün verilməsi. Belə bir praktikadan bir sıra ölkələrin sağlamlıq müəssisələrində istifadə edilir. |
| 11 | N | Sağlamlıq müəssisələrinin uğurlu fəaliyyətinə, bazarda rəqabətin və xidmət keyfiyyətinin artmasına təkan verərək ölkə vətəndaşlarının müalicə-sağlamlıq məqsədilə xarici ölkələrə yönəlməsinin zəiflədilməsi və xarici turistlərin cəlb olunması əhəmiyyətlidir. |
| | T | Azərbaycandan xaricə turist axınını nəzərə alaraq, təbii-müalicəvi sular, palçıqlardan istifadəyə əsaslanan sanatoriyalar da daxil olmaqla, sağlamlıq müəssisələrinə öz fəaliyyətlərinə beynəlxalq sertifikatlaşmış xidmətləri daxil etmək, həmçinin alternativ terapiya növlərindən geniş istifadə etmək tövsiyə olunur. |
| 12 | N | Sağlamlıq müəssisələri öz fəaliyyətlərində indiyədək lazımi qədər diqqət ayırmadıqları asudə vaxtın səmərəli təşkilinə çalışmalıdırlar. |
| | T | Asudə vaxtın təşkilində qısa müddətli və həftəsonu tədbirlər planlaşdırılmalıdır. Eyni zamanda ayrı-ayrı tur məhsulları təxminən eyni yaş qruplarına hesablanmalı, turistlərin birlikdə vaxt keçirməkdə həvəsli olmasını reallaşdırmalıdır. Asudə vaxtın təşkilində ənənəvi xidmətlərdən – ekskursiyalardan, yerli ərazinin təbii landşaftları, tarixi, mədəni irsi ilə tanış edilməsi ilə yanaşı, məzmunca qismən əyləncəli xarakter daşımalıdır. Həmçinin sağlamlıq destinasiyasının yaxınlığındakı mədəni və təbii irs asudə vaxtın təşkilində istifadə olunmalıdır. |
| 13 | N | Sağlamlıq kurortları marketinq fəaliyyətini yeniləməli, daimi və yeni müştərilərin cəlb edilməsi və saxlanması məqsədilə müxtəlif tanıtım tədbirləri görməlidir. |
| | T | Kurortların “ucuz və keyfiyyətli istirahət”, “istirahət haqqınızın 20%-i bizdən” və s. adlı kampaniya altında turist axınının ən aşağı olduğu dövrdə xüsusi qiymətlərlə bir neçə dəfə “ucuz xidmət həftələri” təşkil etmələri, bununla da özlərini kurort istirahətində maraqlı olan potensial müştəri seqmenti arasında tanıtmaları da marketinq strategiyasının komponentlərindən biri ola bilər. Sağlamlıq müəssisələrinin “daimi müştərilərimiz” adlı məlumatlar bazası yaratması, o cümlədən, onlar üçün bir il ərzində keçərli olan, əsas və ya əlavə xidmətlərə güzəştli əlçatanlığı təmin edən xüsusi bonus kuponu verməsi də həvəsləndirmə strategiyasının bir hissəsi kimi tətbiq edilə bilər. |
| 14 | N | Ölkədə son on ildə istifadəyə verilən diaqnostika mərkəzləri, özəl və xarici birgə müəssisələrdən ibarət olan klinikaların sayının artması tibbi turizmin inkişafına təkan verə bilər. |
| | T | Burada qiymət siyasətinə yenidən baxılması, yüksək tibbi xidmətlərin əlçatan olması, həmçinin müalicə paketlərinə yerləşmə, nəqliyyat, transfer xidmətlərinin əlavə edilməsi ilə tibbi məqsədlə səyahət edən turistləri cəlb etmək olar. |

| | | |
|---|---|---|
| 15 | N | Sağlamlıq destinasiyalarının ətrafında iaşə, əyləncə müəssisələrinin təşkili, suvenirlərin istehsalı və satışının təşkili əhəmiyyətli daşıyır. İaşə müəssisələri gələn turistlərə qidalanma ilə yanaşı, milli mətbəxt nümunələrinin təqdim olunmasına, təbliğinə imkan verəcək. |
| | T | Suvenir istehsalında yerli sahibkarlıq subyektlərinə güzəştlərin tətbiqi, hotellərdə həmin məhsulların satışının təşkili, ABAD üzvlərinin əl işlərinin sağlamlıq mərkəzlərində satışına şəraitin yaradılması məqsədəuyğundur. |
| 16 | N | Sağlamlıq xidmətlərinin keyfiyyətinin artırılması, beynəlxalq səviyyədə rəqabətliliyinin təmin olunmasında məhsullarının standartlaşdırma və sertifikatlaşdırılması üçün DTA və digər dövlət orqanlarının dəstəyi ilə təşkili daha səmərəli hesab olunur. Son illər DTA sağlamlıq turizmində beynəlxalq və yerli sertifikatların alınması üçün fəaliyyət proqramı işləyib hazırlayıb. Naftalan neftinin müalicəvi xüsusiyyətləri 2020-ci ildə Azərbaycan Standartlaşma İnstitutu tərəfindən təsdiq olunub. Bu sənədlə yaxın perspektivdə Naftalan neftinin beynəlxalq sertifikat alması əsas olacaq. |
| | T | Naftalan neftindən alınan məhsulların keyfiyyətinin artırılması üçün müasir texnologiyalardan istifadə etməklə istehsalı və beynəlxalq sertifikatlaşdırılması vacibdir. DTA-nın istər müvafiq dövlət qurumları, elmi araşdırma müəssisələri, istərsə də sanator-kurort mərkəzləri ilə daha da sıx əməkdaşlığı tövsiyə olunur. |

## ƏLAVƏLƏR

**Əlavə 1. “Lankaran Springs Wellness Resort Hotel”in ümumi görünüşü və təqdim olunantibbi xidmətlərin fotoları**











**Əlavə 2. Naftalan kurortunda təqdim olunan tibbi-müalicəvi xidmətlərin fotoları**












**Əlavə 3. “Qalaalti Hotel & Spa”nın ümumi görüntüsü və təqdim olunan tibbi-müalicəvi xidmətlərin fotoları**











**Əlavə 4. İlisu bulaqlarına gedən yol, İlisu bulaqlarından “Uludağ” istirahət mərkəzinə çəkilmiş su kəməri, İlisu bulağının mənbəyində suyun temperaturunu əks etdirən fotolar**











**Əlavə 5. Xaltan termal bulağında hamamlar və yaşayış yerləri əks etdirən fotolar**














## Əlavə 6. Putyovka sənədi

(Sifarişçinin adı, VÖEN-i və digər lazımi göstəricilər)

PUTYOVKA
(seriya və nömrələr mətbəə tərəfindən həkk edilir)
(turist müəssisəsinin adı)

Ailəvi ____________________ nəfər

Müddəti ________dən ________ dək.

Qiyməti ________ man.

M.Y.

Putyovka verən təşkilata mütləq qaytarmaq üçün istirahətdə olan şəxsə

GERİ QAYTARILAN TALON
(seriya və nömrə mətbəə tərəfindən həkk edilir)

______________________________________________
(turist müəssisənin adı)

______________________________________________

Müddəti

______________________________________________ dən

______________________________________________

Turist müəssisəsində oldu(lar)

____________________ dən ____________________ dək.

Məsul şəxsin imzası

M.Y.

TALON
(seriya və nömrə mətbəə tərəfindən həkk edilir)

Müddəti dən dək.

Qiyməti ________ man.

## Əlavə 7. Sorğu nümunəsi

**Azərbaycan vətəndaşlarının xaricdə sağlamlıq turizmi məqsədilə səyahətlərinin əsas səbəblərinin araşdırılması sorğusu**

## FİLTER SUALLARI

F1. Siz getdiyiniz destinasiyada hər hansı yerli şirkət tərəfindən işə cəlb edilirsiz? (bir seçim edin)

| | | |
|---|---|---|
| Bəli | ☐ | Sorğunu saxlayın |
| Xeyr | ☐ | Sorğunu davam edin |

F2. Neçə yaşınız var? (bir seçim edin)

| | | |
|---|---|---|
| 18 yaşdan az | ☐ | Sorğunu saxlayın |
| 18 və yuxarı | ☐ | Sorğunu davam edin |

## ƏSAS SUALLAR

Q1. Sağlamlıq turizminə qatılmaq məqsədilə seçdiyiniz ölkələri qeyd edin (bir neçəsini seçə bilərsiz)

| | |
|---|---|
| Mineralnıye Vodı | ☐ |
| Gürcüstan kurortları | ☐ |
| Türkiyə kurortları | ☐ |
| Ukrayna kurortları | ☐ |
| Avropa kurortları | ☐ |
| İsrail kurortları | ☐ |
| Digər (________________) | ☐ |

Q2. Hansı növ müalicə-sağlamlıq turizmi növlərindən daha çox istifadə edirsiz? (bir neçəsini seçə bilərsiz)

| | |
|---|---|
| Ürək-damar və tənəfüs yolları | ☐ |
| Uroloji xəstəliklər | ☐ |
| Dayaq-hərəkət orqanları | ☐ |
| Dəri xəstəlikləri | ☐ |
| Ümumi bərpa | ☐ |
| Digər (________________) | ☐ |

Q3. Getdiyiniz ölkəni hansı səbəblərdən seçirsiniz?
(bir neçəsini seçə bilərsiz)

- [ ] Münasib Qiymət
- [ ] Səyahətin rahatlığı (Azərbaycana məsafənin yaxınlığı və birbaşa reyslərin mövcudluğu)
- [ ] Xidmətlərin keyfiyyəti
- [ ] Viza rejiminin rahatlığı
- [ ] Ölkədə seçdiyiniz xidmətlərin olmaması
- [ ] Getdiyiniz ölkədə tanışlarınızın/qohumlarınızın olması
- [ ] Digər (______________________)

Q4. Getdiyiniz ölkədə aldığınız sağlamlıq xidmətlərinin analoqu Azərbaycanda olsa, onlardan istifadə edərsizmi?

- [ ] Bəli
- [ ] Xeyr

Q5. Getdiyiniz kurortlar haqqında məlumatları haradan əldə etmisiz? (bir neçəsini seçə bilərsiz)

- [ ] Google
- [ ] Dostlar və/ya qohumlar
- [ ] Səyahət Agentliyi
- [ ] Sərgi və yarmarkalar
- [ ] Booking.com
- [ ] Tripadvisor.com
- [ ] Digər (______________________)

Q6. Səyahətinizi hansı tərkibdə planlamışdınız?

| | |
|---|---|
| İndividual səyahət | ☐ |
| Partnyorla | ☐ |
| Ailə ilə | ☐ |

Q7. Səyahətinizi necə planlamışdınız?

| | | |
|---|---|---|
| İndividual bronlama | ☐ | Q10 sualına keçin |
| Turpaket alaraq | ☐ | Q8 sualdan davam edin |

Q8. Turpaketinizə nələr daxildirlər? (bir neçəsini seçə bilərsiz)

| | |
|---|---|
| Nəqliyyat | ☐ |
| Gecələmə | ☐ |
| Müalicə | ☐ |
| Qida | ☐ |
| All-inclusive (nəqliyyat + müalicə + gecələmə + qida, digər fəaliyyətlər və s.) | ☐ |

Q9. Xahiş edirik, turpaketin adambaşına düşən cəmi xərcini qeyd edin.

| |
|---|
| |

Q10. Səyahətiniz nə qədər davam edib? (bir seçim edin)

| | | | |
|---|---|---|---|
| 1-3 gün | ☐ | 4-7 gün | ☐ |
| 7-10 gün | ☐ | 10-14 gün | ☐ |
| Digər (____________________) | | | |

Q11. Hansı növ yerləşdirmə xidmətləri seçmişdiniz? (cavabları oxuyun) (bir seçim edin)

| | |
|---|---|
| Yalnız otaq | ☐ |
| Gecələmə və səhər yeməyi | ☐ |
| Yarım pansion (gecələmə və gündə 2 dəfə qida) | ☐ |
| Tam pansion (Gecələmə və gündə 3 dəfə qida) | ☐ |
| Digər (______________________) | ☐ |

Q12. Xahiş edirik, qaldığınız müddət ərzində xərclərinizi (və ya ehtimal olunan xərclərinizi) qeyd edəsiniz.

| | |
|---|---|
| Turpaket üçün | ☐ |
| Digər xərclər | ☐ |

Q13. Xahiş edirik, xərclərinizi faizlə göstərəsiniz

| | |
|---|---|
| Bank kartı | ____________% |
| Nağd | ____________% |

Q14. Qeyd etdiyiniz ölkəyə müalicə turizmi məqsədilə neçənci səfərinizdir?

| | |
|---|---|
| İlk dəfə | ☐ |
| 2-ci dəfə | ☐ |
| 3-cü dəfə | ☐ |
| 4 və daha çox | ☐ |

## DEMOQRAFİYA

D1. Ailə vəziyyətinizi qeyd edin (bir seçim edin).

| | |
|---|---|
| Subay | ☐ |
| Evli | ☐ |
| Dul / Boşanmış | ☐ |

D2. Cinsinizi qeyd edin:

| | |
|---|---|
| Kişi | ☐ |
| Qadın | ☐ |

D3. Təhsil səviyyənizi qeyd edin. Sonuncu bitirdiyiniz təhsil hansıdır? (bir seçim edin).

| | |
|---|---|
| İlk təhsil | ☐ |
| Orta təhsil | ☐ |
| Universitet | ☐ |
| Digər (____________________) | ☐ |

D4. Cari məşğulluq vəziyyətinizi qeyd edin (bir seçim edin).

| | |
|---|---|
| İşləyirəm | ☐ |
| Şəxsi biznes | ☐ |
| Tələbə | ☐ |
| Təqaüdçi | ☐ |
| Hazırda işləmirəm | ☐ |

D5. Xahiş edirik, sizin və ailənizin ortalama aylıq gəlirini qeyd edin. Bütün ailə üzvlərinin gəlirinin ortalama aylıq məbləği qeyd edilir (bir seçim edin).

| | Sorğuda iştirak edənin gəliri | Ailənin ümumi ortalama gəliri |
|---|---|---|
| 1000 ABŞ dollardan az | ☐ | ☐ |
| 1001 – 1500 ABŞ dolları | ☐ | ☐ |
| 1501 – 2000 ABŞ dolları | ☐ | ☐ |
| 2001 – 2500 ABŞ dolları | ☐ | ☐ |
| 2500 ABŞ dollarından çox | ☐ | ☐ |
| Gəlir yoxdur | ☐ | ☐ |
| Cavab verilmir | ☐ | ☐ |

# QRAFİK, CƏDVƏL VƏ ŞƏKİLLƏRİN SİYAHISI

**CƏDVƏLLƏR** **Səh.**

CƏDVƏL 1. Sağlamlıq turizminin inkişaf mərhələləri 11
CƏDVƏL 2. Müalicə-sağlamlıq turizmində turist göndərən əsas ölkələr 16
CƏDVƏL 3. Sağlamlıq turizmində turistlərin kliniki müalicə xərcləri (ABŞ dolları ilə) 17
CƏDVƏL 4. Mədə kiçiltmə əməliyyatı məqsədi ilə Hindistana səfər edən bir turistin ortalama xərci 18
CƏDVƏL 5. Dünya sağlamlıq turizmində rol oynayan əsas destinasiyalar (2017-ci il) 33
CƏDVƏL 6. 2017-ci ilin ən yaxşı 10 xəstəxanası 34
CƏDVƏL 7. Azərbaycanda mineral müalicəvi suların təsnifatı 39
CƏDVƏL 8. Azərbaycanda debiti yüksək olan mineral sular və dünyada analoqlarının müqayisəsi 41
CƏDVƏL 9. Qarabağdada debiti yüksək olan mineral sular və dünyada analoqlarının müqayisəsi 45
CƏDVƏL 10. Ölkəmizdə mineral sulardan az istifadə olunmasının səbəbləri 51
CƏDVƏL 11. Palçıq vulkanlarının yayılması 54
CƏDVƏL 12. Azərbaycanda iqlim-landşaft rayonlaşmasının kurort-müalicə əhəmiyyətinə 58
görə qruplaşdırılması 59
CƏDVƏL 13. Azərbaycanın istirahət mərkəzlərinin bəzi mikroiqlim göstəriciləri 64
CƏDVƏL 14. Azərbaycanın kurort-iqlim zonalarının əsas göstəriciləri 69
CƏDVƏL 15. Azərbaycanda fəaliyyət göstərən sağlamlıq turizmi müəssisələrinin ixtisaslaşması 79
CƏDVƏL 16. Müalicə-sağlamlıq müəssisələrinin təşkili üçün nəzərə alınan hüquqi qaydalar 88
CƏDVƏL 17. Azərbaycana sağlamlıq turizmi məqsədilə gələnlərin müqayisəli dinamikası 89
CƏDVƏL 18. Kurort Səhmdar Cəmiyyətinin tabeliyində olan sanatoriyalardan istifadə edənlərin dinamikası (nəfərlə) 96
CƏDVƏL 19. Dördulduzlu müalicə-sağlamlıq müəssisələrinin təqdim etdiyi xidmətlər 97
CƏDVƏL 20. KSC-nin tabeliyində olan sanatoriyaların təqdim etdiyi xidmətlər 100
CƏDVƏL 21. Abşeron sanatoriyalarında xidmətlərin təkmilləşdirilməsi istiqamətləri 103
CƏDVƏL 22. Naftalan şəhərindəki beşulduzlu müalicə-sağlamlıq mərkəzlərində xidmətlərin təkmilləşdirilməsi istiqamətləri 105
CƏDVƏL 23. "Qalaaltı Hotel & Spa" mərkəzində xidmətlərin təkmilləşdirilməsi istiqamətləri 106
CƏDVƏL 24. Ölkələr üzrə müxtəlif kateqoriyalı kurort-SPA mərkəzlərində xidmətlərin 121
təşkili və qiymətlər 122
CƏDVƏL 25. "Qalaalti Hotel & Spa"da həftəsonu asudə vaxtın təşkili istiqamətləri 125
CƏDVƏL 26. "Lankaran Springs Wellness Resort"da həftəsonu asudə vaxtın təşkili modeli 134
CƏDVƏL 27. Naftalan müalicəvi neftinin brendləşdirilməsi istiqamətləri
CƏDVƏL 28. Mineralnıye Vodı təcrübəsindən istifadə 143
CƏDVƏL 29. Gürcüstanın müalicə-sağlamlıq turizmi təcrübəsindən istifadə imkanları 147

CƏDVƏL 30. Türkiyədə balneoloji müalicə mərkəzləri 149
CƏDVƏL 31. Türkiyədə termal hotellərin əsas göstəriciləri 150
CƏDVƏL 32. Azərbaycanda Türkiyə təcrübəsindən istifadə 153
CƏDVƏL 33. "Budan Thermal SPA Hotel & Convention Center"in fəaliyyət istiqamətləri 156

**QRAFİKLƏR** **Səh.**

QRAFİK 1. Sağlamlıq turizminin növləri 8
QRAFİK 2. 2015-ci ildə sağlamlıq ilə əlaqəli beynəlxalq səyahətlərdən əldə edilən gəlirlər (milyon ABŞ dolları) 12
QRAFİK 3. 2015-ci il sağlamlıq ilə əlaqəli beynəlxalq səyahət xərcləri (milyon ABŞ dolları) 13
QRAFİK 4. Sağlamlıq turizmi sənayesinin multiplikator effekti 14
QRAFİK 5. 2018-ci ildə sağlamlıq turizmində turist qəbul edən ölkələrin gəlirlərinin dinamikası 15
QRAFİK 6. Sağlamlıq turizmində iştirak edən turistləri cəlb edən amillər 24
QRAFİK 7. SPA mərkəzlərində təklif olunan xidmətlər 28
QRAFİK 8. Destinasiya brendinin işləmə prosesi 32
QRAFİK 9. 2010-2018-ci illər ərzində DSMF-dən alınan yollayışlar və onlara çəkilən ümumi xərclər 74
QRAFİK 10. Azərbaycanda sosial turizmin inkişafı modeli 75
QRAFİK 11. Güzəştli yollayışların təklif edilməsi üzrə əməkdaşlıq 76
QRAFİK 12. Azərbaycanda müalicə-sağlamlıq turizmində maraqlı tərəflərin (stakeholders) analizi 83
QRAFİK 13. Hava yolları ilə Azərbaycana gələn xarici vətəndaşların ümumi sayı 84
QRAFİK 14. Azərbaycanda müalicə-sağlamlıq müəssisələrinin paketlər üzrə təqdim etdiyi müalicə xidmətləri 94
QRAFİK 15. Azərbaycanda yüksək kateqoriyalı müalicə-sağlamlıq müəssisələrində SPA-velnes xidmətləri 95
QRAFİK 16. Naftalanda beşulduzlu müalicə-sağlamlıq müəssisələri haqqında turistlərin rəyləri 101
QRAFİK 17. "Qalaaltı Hotel & Spa" mərkəzinin booking.com-dan turistlərin rəyi əsasında qiymətləndirmə göstəriciləri 104
QRAFİK 18. Müalicə-sağlamlıq müəssisələrində asudə vaxtın təşkili istiqamətləri 114
QRAFİK 19. Azərbaycanın müalicə-sağlamlıq müəssisələrində həftəsonu istirahətin təşkili modeli 116
QRAFİK 20. Naftalan müalicə-sağlamlıq mərkəzlərində həftəsonu asudə vaxtın təşkili modeli 118
QRAFİK 21. Azərbaycanda sağlamlıq turizmində marketinq siyasəti 127
QRAFİK 22. "Garabag Resort & SPA"da marketinq fəaliyyəti 129
QRAFİK 23. Müalicə-sağlamlıq müəssisələrində marketinq araşdırmalarının istiqamətləri 131
QRAFİK 24. Rusiyada müalicə-sağlamlıq turizmi modeli 139
QRAFİK 25. Rusiyanın Şimali Qafqaz kurortlarına gələn turistlərin dinamikası (min nəfər) 142
QRAFİK 26. Türkiyənin müalicə-sağlamlıq turizmi modeli 151
QRAFİK 27. Kırşehirdə termal mənbələrin digər turizm növləri ilə birgə istifadəsinin modeli 159

**ŞƏKİLLƏR** **Səh.**


ŞƏKİL 1. Azərbaycan Respublikasının balneoloji-iqlim xəritəsi 51
ŞƏKİL 2. Müalicəvi palçıqların yayılması 53
ŞƏKİL 3. Duzdağ mağarasında turistlər üçün yaradılmış şərait 92
ŞƏKİL 4. Naftalan kurortunda yerləşən beşulduzlu hotellərdə qidalanma xidmətləri 110
ŞƏKİL 5. "Lankaran Springs Wellness Resort"da hoteldaxili əyləncə imkanları 115
ŞƏKİL 6. "Qalaalti Hotel & Spa" və "Garabag Resort & SPA"da hoteldaxili əyləncə imkanları 115
ŞƏKİL 7. Rusiyada müalicə-sağlamlıq turizmi mərkəzləri 138
ŞƏKİL 8. Gürcüstanda müalicə-sağlamlıq turizmi mərkəzləri 144
ŞƏKİL 9. Türkiyədə müalicə-sağlamlıq turizmi mərkəzləri 148
ŞƏKİL 10. "Budan Thermal Spa Hotel & Convention Center" kurortunun coğrafi mövqeyi 154
ŞƏKİL 11. Kırşehir bölgəsinin coğrafi mövqeyi 157

## ƏDƏBİYYAT


**Azərbaycan dilində**

1. “Azərbaycan Respublikası Strateji Yol Xəritəsi ixtisaslaşmış turizm sənayesinin inkişafına dair”. Azərbaycan Respublikasnın Qanunvericiliyi toplusu. XI cild, Bakı: “Avrasiya press”, 2016.
2. Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramı. “Respublika” qəzeti, 7 fevral 2009-cu il.
3. Azərbaycan Respublikası regionlarının 2019-2033-cü illərdə sosial –iqtisadi inkişafı Dövlət Proqramı. Azərbaycan Respublikasının Qanunvericiliyi toplusu. II cild, Bakı: “Avrasiya press”, 2019.
4. Azərbaycan Respublikası torpaqlardan istifadəyə və onların mühafizəsinə Dövlət Nəzarəti haqqında Əsasnamə, Bakı şəhəri, 28 noyabr 2000-ci il № 421
5. Azərbaycan Respublikasının Qanunu “Təbii müalicə ehtiyatları, müalicə-sağlamlaşdırma yerləri və kurortlar haqqında” 1 aprel 2008-ci ildə (№ 557-IIIQ)
6. Azərbaycan Respublikası Nazirlər Kabineti "Kurortlar haqqında Nümunəvi Əsasnamə" Bakı şəhəri, 8 yanvar 2009-cu il
7. Azərbaycan Respublikasının turizm və rekreasiya zonaları haqqında nümunəvi əsasnamə. Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı 2008., Azərbaycan Respublikasnın Qanunvericiliyi toplusu. II cild, Bakı: “Avrasiya press”, 2011.
8. Azərbaycanda turizm, DSK, Bakı 2020 (elektron resurs)
9. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, Sahibkarlara Kömək Milli Fondu, 2010-2017 İllik hesabat, 167 s.
10. AMEA Geologiya və geofizika İnstitutunun illik hesabatı, 26 dekabr 2018.
11. Azərbaycan Respublikasında turizm sektorunun rəqabət qabiliyyətinin yüksəldiləsi problemləri, BMT inkişaf proqramı, Bakı, 2009, 58 s.
12. Dərgahov V.S. Rekreasiya-turizm ehtiyatları. Bakı: “MBM”, 2008, 214 s.
13. Dərgahov V.S., Kərimov R.N., Azərbaycanda kurort-müalicə turizmi:inkişaf tarixi, müasir vəziyyət, problemlər və rerspektivlər, BDU. AMEA, Coğrafiya İnstitutu. Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri. XVII cild. Bakı 2011, Səh. 182-191.
14. Əliyev F.Ş. Azərbaycan Respublikasının yeraltı su ehtiyatlarından istifadə və geoloji problemləri, Bakı: 2000, 326 s.
15. Əliyev Ad.A., Quluyev İ.S., Feyzulayev Ə.Ə. Palçıq vulkanları haqqında nə bilirik? Bakı, 2012, 206 c.
16. Əyyubov Ə.C. Azərbaycan SSR-nin kurort və istirahət yerlərinin iqlimi. Bakı: Azərbaycan Dövlət nəşriyyatı, 1987, 93 s.
17. Kurort Səhmdar Cəmiyyətinin məlumatları-2020, 32 s.
18. Mahmudov R.N. Müasir iqlim dəyişmələri və təhlükəli hidrometeoroloji hadisələr, Bakı 2018, 232 s.
19. Mehdiyev E., Babayev N.., Tağıyev İ. Azərbaycan Respublikasında mineral suların istifadəsində və mühafizəsində mövcud olan problemlər // Azərbaycan Ali Texniki məktəblərinin Xəbərləri, 2016, №2(102), cild 18, s.7-11
20. “Sağlamlıq turizmi üzrə 2017–2020-ci illəri əhatə edən tədbirlər planı” DTA, 2020, 12 s. Soltanova H.B., Qasımov M.S., Ağasiyev Ə.R. Azərbaycanın kurort təsərrüfatı. Bakı 2017, 215 s.
21. Tağıyev İ.İ., Babayev N.İ. Azərbaycanın mineral su ehtiyatlarının müasir vəziyyəti və onlardan səmərəli istifadənin perspektivliyi, Bakı-2018, ADNSU-nun nəşriyyatı, 239 s

**Türk dilində**

22. Türkiye Cumhuriyeti kültür ve turizm bakanlığı istatistik kurumu merkez bankası, 2019.
23. Burcu Gülsevil BELBER, Ayşegül TURAN Termal turizm işletmelerinde, turistik tüketicilerin tatmin düzeylerine etki eden faktörlerin belirlenmesi: Kırşehir İli üzerine bir uyğulama// Journal Of Business Research Turk// 7\3 2015, 457-481
24. Tayfun Taner DORUK Bir sağlq turizm ornegi olarak termal turizm: Türk sağlık turizmi içindeki yerinin çeşitli boyutlarıyla incelenmesi, tez danışmanı Prof. Dr. Haluk TANRIVERDİ İstanbul Universitesi 2019, 134 s.
25. Türkiyede termal ve sağlıq turizmi. TCTB. 2016, 74 s. (www.saturk.gov.tr/images/pdf)
26. Mustafa Sandıkçı, Ünal Özgen. Afyonkarahisar ilinin termal turizm açısından SWOT analizi ilə degerlendirilmesi//Uşaq Üniversiteti Sosial Bilimlər dərgisi, 2013, s-51-79
27. Gülpınar Akbulut. Türkiye'de Kaplıca Turizmi ve Sorunları. Gaziantep Üniversitesi Sosyal Bilimler Dergisi. 2014, 39 s.
28. Türkiyede termal ve sağlıq turizmi. TCTB.2020,84 s. (www.saturk.gov.tr/images/pdf)

**Rus dilində**

29. Асланов Д.И. Развитие теоретико-методологических основ трансформации санаторно-курортного комплекса региона. Дисс. … д-ра экон. наук. Екатеринбург: Уральский гос. эконом. ун-т, 2013. 311 с.
30. Бондарева Г.Л. Условия формирования месторождений минеральных вод региона Кавказских Минеральных Вод // Геология, география и глобальная энергия. 2016. № 1. С. 115–119.
31. Ветитнев А.М., Оргина Е.В. О современном состоянии и тенденциях развития санаторно-курортного комплекса // Вестник Национальной академии туризма. 2011. № 2. С. 51–53.
32. Ветитнев А. М., Войнова Я. А. Организация санаторно-курортной деятельности : учебное пособие / А. М. Ветитнев, Я.А. Войнова. — М. : Федеральное агентство по туризму, 2014. — 272 с.
33. Ветитнев А. М., Кусков А. С. Лечебный туризм, Москва: «Форум», 2010. 356 с.
34. Государственной статистики по Северо-Кавказскому федеральному округ 2019 году [Электронный ресурс].
35. Гайдук С.В., Загоруйченко А.А., Козаченко О.А. Отдельные аспекты совершенствования системы санаторно-курортных учреждений. Бюл. Национального научно-исследовательского института общественного здоровья имени Н.А. Семашко. 2015; 1: 41–45.
36. Горбунов А. П., Киселева Н. Н., Браткова В. В. Развитие курортно-туристской дестинации Кавказские Минеральные Воды в контексте общемировых и национальных тенденций. М, 2016, 264 с.
37. Даргахов В.С. Развитие и маркетинговая стратегия курорта «Галаалты» как субъекта лечебного туризма Азербайджана //Материалы международной начно-практической конференции «Модернизация естественнонаучного образования в условиях обновленного содержания», Алматы, 2017, с.316-319
38. Дурович А.П. Маретинг в туризме. М.: ИНФРА-М, 2012, 316 с.
39. Ефименко Н.В. От русского бальнеологического общества до инновационных технологий курортного лечения. Пятигорскому государственному научно-исследовательскому институту курортологии ФМБА России 95 лет. Вопр. курортологии, физиотерапии и лечеб. физ. культуры. 2015; 92(2): 62–66.

40. Епифанов В.А. Восстановителъная медицина. М.:ГЭОТАР-Медиа, 2012, 304 с.
41. Ефименко Н.В., Слатвинская Е.А., Гайдамака И.И., Демченко А.П., Кайсинова А.С., Репс В.Ф. Факторы, влияющие на востребованность рекреационных услуг в регионе Кавказских Минеральных Вод. Физиотерапия, Бальнеология и Реабилитация. 2017, 16 с.
42. Жильцова В.И. Управление развитием регионального туристско-рекреационного комплекса кмв в условиях социально-экономической трансформации. Вестник экспертного совета. - 2017. - № 3. - С. 69-74.
43. Киселева Н.Н., Касаева Т.В., Рудь Н.Ю., Колядин А.П., Дикинов А.Х. Развитие курортно-туристской дестинации кавказские минеральные воды в контексте общемировых и национальных тенденций. Journal of Economic Regulation (Вопросы регулирования экономики). Vol. 7, no. 3. 2016, 55-64.
44. Курортные ресурсы Украины под редакцией д.мед. наук проф. Лободы М.В., ЗАО «Укрпрофздравница», Киев, издательство «Тамед».- 2011.- 344 с.
45. Кязимов Г.А. Летопись Нафталана. Ваку: 2009, «ЭЛМ» 584 с.
46. Лапекина Н.Н. Проблемы развития социального туризма на Кавказских Минеральных Водах // Современное общество, образование и наука. Сб. науч. трудов по мат. Междунар. науч.- практ. конф. 2014. С. 91–92.
47. Маньшина Н.В. Лечебно-оздоровительный и медицинский туризм: статистика и тренды мирового и российского рынка // Материалы 10-й международной конференции по медицинскому и лечебно-оздоровительному туризму “Medical Tourism, Spa & Health” М, 2016, 39 с.
48. Мар’ян Головатий. Бальнеологічні ресурси малих курортів львівської області. Вісник Львівського університету. Серія географічна. 2019. Випуск 53. С. 104–112.
49. Навасардова Э.С. К вопросу об управлении курортом «Кавказские Минеральные Воды» (историко-правовой анализ) // Общество и право. 2015. № 4(41). С. 107–111.
50. Оборин М.С. Формирование стратегического механизма долгосрочного устойчивого развития территориального рынка санаторно-курортных услуг // Экономика и предпринимательство. 2015. № 12–1(65–1). С. 346–353.
51. Оборин М.С. Методологические аспекты проведения системного анализа и кластеризации рынка санаторно-курортных услуг // Научные ведомости Белгородского гос. ун-та. Серия: Экономика. Информатика. 2015. Т.36. № 19–1(216). С. 43–51.
52. Оборин, М. С. Социально-экономические условия и функции санаторно-курортной системы региона как фактор создания маркетинговой стратегии развития рынка санаторно-курортных услуг // Вестник Астраханского государственного технического университета. Серия «Экономика». - 2015. - № 2. -С. 49-56.
53. Пьянов А.С. Особенности организации и управления экономическими структурами по производству минеральной воды в регионе кавказских минеральных вод // Управление экономическими системами. 2014. № 5(65). 31 с.
54. Поляков Б.А., Кизеев М.В. Эффективность медицинской и хозяйственной деятельности учреждения здравоохранения санаторного типа в период активной фазы реформирования отрасли и макроэкономической нестабильности. Вопр. курортологии, физиотерапии и лечеб. физ. культуры. 2010; 2: 59–61.
55. Поляков Б.А., Кизеев М.В. Эффективность медицинской и хозяйственной деятельности учреждения здравоохранения санаторного типа в период активной фазы реформирования

отрасли и макроэкономической нестабильности. Вопр. курортологии, физиотерапии и лечеб. физ. культуры. 2010; 2: 59–65.

56. Севрюков Иван Юрьевич, Размахнина Анастасия Дмитриевна, Иванова Мария Игоревна. Организация культурно-досуговой деятельности в санаторно-курортных учреждениях// Международный научный журнал «символ науки» № 04-1/2017 ISSN 2410-700X, с.147-149
57. Тагиев И.И., Ибрагимова И.Ш., Бабаев А.М. Ресурсы минеральных и термальных вод Азербайджана. Баку: «Чашыоглу», 2011, 214 с.
58. Тагиев И., Бабаев Н. Современное состояние минеральных и термальных вод Азербайджана и концепция развития бальнеологии и энергетики.// Евразийское Научное Обьединение, Геолого-минералогические науки, 2015, №12, с.81-83
59. Тенденции развития лечебно-оздоровительного туризма в миру. Сост. Ланковская Е.К, Даскалеску А.А. Вестник рмат// 4, 2016, с-121-130
60. Туристична діяльність та колективні засоби розміщування у Львівській області. 2017, 231с.
61. Шигина Я. И., Зорина К. А. Маркетинг в социалъных медиа: современные инструменты продвижения для малого визнеса. // Вестник технологического университета. 2015. Т.18, №23, с.96-102
62. Ярошенко Е.А. Развитие предпринимательской деятельности на Кавказских Минеральных Водах // Правовое регулирование отдельных сфер жизнедеятельности общества: теория и практика (опыт Кавказа). Сб. мат. Междунар. науч.-практ. конф. 2015. С. 268–275.

**İngilis dilində**

63. Adabi K, Stern C, Weichman K, Garfein ES, Pothula A, Draper L, et al. Population health implications of medical tourism. Plast Reconstr Surg. 2017 Jul;140(1):66–74.
64. Dargaxov V.S, Kerimov R.N. Invtstment opportunities of tourism industry in Azerbaiyan and its regions// European International journal of science and Technology Birmingham, 2014, p.165-172
65. Exploring Health Tourism. World Tourism Organization (UNWTO) and the European Travel Commission (ETC). First printing: 2018, 184 p.
66. Oresta Bordun, Mariya Kozolup. SWOT Analysis of Lviv Tourist Destination and Key Indicators of its Sustainability. Studia Periegetica No. 4(24)/2018, 37-58.
67. Viktoriia Riashchenko*, Marga Zivitere, Liubov Kutyrieva. The problems of development of the Ukrainian tourist market and ways of their solutions. Information Technologies, Management and Society. 2015, 8(1) 21-26.
68. Borjomi Local Development Strategy. 2016-2019.
69. G. Erkomaishvili, E. Kharaishvili, M. Chavleishvili, N. Sagareishvili. Economic Policy of Tourism and the Development Tendencies of Medical Wellness Resorts in Georgia. International Science Index, Hospitality and Tourism Sciences Vol:10, No:11, 2016.
70. Technical proposal for the tskaltubo spa resort development (2014). A report submitted by Kohl & Partner. 280 p.
71. HOPE - European Hospital and Healthcare Federation, 2015, Medical Tourism, https://www.bmgf.gv.at/cms/home/attachments/3/9/5/CH1161/CMS1182951248070/hope_medical_tourism_september_2015.pdf(accessed December 26th 2018)
72. Pocock, Nicola et all, 2011, Medical tourism and policy implications for health systems: a conceptual framework from a comparative study of Thailand, Singapore and Malaysia, http://www.globalizationandhealth.com/content/7/1/12(accessed January 2nd 2019)

73. Connell, J. (2012), ‘Contemporary medical tourism: Conceptualisation, culture and commodification’, Tourism Management, volume 34, pp. 1–13.
74. Connell, John. 2013. Contemporary medical tourism: Conceptualization, culture and comodification. Tourism Management 34 (February): 1–13
75. Freeman R. Strategic management: A stakeholder approach. Cambridge Univ Pr, America; 2014., 134 p.
76. Alireza Jabbari, Masoud Ferdosi, Mahmoud Keyvanara, Zahra Agharahimi. Stakeholders’ analysis of the medical tourism industry: development strategies in Isfahan//Journal of Education and Health Promotion | Vol. 2 | August 2013, p.5-13
77. OECD Health Statistics 2020
78. Global Health Observatory (GHO) data. -World Health Statistics.- 2015. [Электронный ресурс]. — Режим доступа:: http://www.who.int/gho/publications/world_health_statistics/2015/en/
79. Medical Tourism Market -Global İndustry Analysis, Size, Share, Growth, Trends and Forecast 2017-2025. TMRGL 900. December.
80. Voigt, C. and Pforr, C. (2013), Wellness Tourism: A destination perspective, Routledge, London.
81. Voigt, C.; Brown, G. and Howat, G. (2011), ‘Wellness tourists: in search of transformation’, Tourism Review, volume 66 (1/2), pp. 16–30.
82. International Medical Travel Journal (2018), Medical Travel Agencies Active in the EU Must Comply from 1 July (online), available at: www.imtj.com/news/medical-travel-agencies-active-eu-must-comply-1-july
83. International Medical Travel Journal (2017b), The Decline of Singapore Medical Tourism (online), available at: www.imtj.com/news/decline-singapore-medical-tourism
84. International Social Tourism Association (2016), The Right to Holidays: Reclaiming lost grounds (online), available at: www.oits-isto.org/oits/files/resources/379.pdf

**İnternet resursları:**

85. https://www.booking.com/hotel/az/qalaalti-amp-spa.ru.html#tab-reviews
86. https://www.galaalti.az/en
87. https://www.booking.com/hotel/az/qalaalti-amp-spa.ru.html#tab-reviews
88. https://www.lankaransprings.az/en
89. https://www.booking.com/hotel/az/chinar-amp-spa-naftalan.ru html#tab-reviews
90. http://gozelnaftalan.az/
91. https://www.booking.com/hotel/az/garabag-resort-amp-spa.ru.html#tab-reviews
92. https://www.booking.com/hotel/az/naftalan-hotel-qashalti.ru.html#tab-reviews
93. https://www.booking.com/hotel/ge/borjomi-palace-amp-spa.ru.html
94. https://www.booking.com/hotel/ge/rixos-borjomi.ru.html
95. https://www.booking.com/hotel/ua/svityaz.ru.html
96. https://www.booking.com/hotel/ua/rixos-prykarpattya.ru.html
97. https://www.booking.com/hotel/ru/resort-istochnik.ru.html
98. https://www.booking.com/hotel/ru/glavnyie-narzannyie-vanny.ru.html
99. https://www.statista.com/statistics/1013813/leading-medical-tourism-countries-value/
100. https://www.oecd.org/els/health-systems/48723982.pdf
101. http://medicaltourism.com/Forms/price-comparison.aspx
102. https://www.oecd.org/els/health-systems/48723982.pdf
103. https://www.igeme.com.tr/dunyada-saglik-turizmi-ulke-ornekleri

104. https://worldsbesthospitals.net
105. https://www.statista.com/statistics/1013813/leading-medical-tourism-countries-value/
106. https://www.oecd.org/els/health-systems/48723982pdf
107. https://report.az/turizm/qobustanda-palciq-vulkanlari-ile-bagli-turizm-kompleksi-yaradilacaq/
108. www.budantermal.com.tr/

Azərbaycanda Sağlamlıq Turizmi - Cari vəziyyət və inkişaf perspektivləri hesabatı

Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin sifarişi və dəstəyi ilə hazırlanmışdır.

Nəşr 2021

Azərbaycan Respublikasının
Dövlət Turizm Agentliyi